**FÜZULİ QURBANOV**

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI YENİLƏŞMƏ VƏ İSLAHATLAR YOLLARINDA

***Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunur***

**Bakı – "Elm" – 2025**

***Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 15 may 2024-cü il tarixli 14/1 nömrəli qərarı ilə çap olunur.***

**Elmi redaktoru:** **Sərxan Xavəri**
*filologiya elmləri doktoru*

**Azərbaycan Milli Elmlər Akademiyası yeniləşmə və islahatlar yollarında.** Bakı: Elm, 2025, – 228 s.

**ISBN**

AMEA-nın 80 illik yubileyinə həsr olunmuş kitabda Akademiyada 2022-ci ilin oktyabr ayından başlayaraq həyata keçirilən yeniləşmə kursu fonunda çoxşaxəli islahatlardan, onun müxtəlif istiqamətləri üzrə reallaşdırılan elmi və elmi-təşkilati tədbirlərdən - təşkilatda struktur-funksional islahatlar, elektron elm hərəkatı, kadr potensialının optimallaşdırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elmi prioritetlərin müəyyənləşdirilməsi və s. məsələlərdən bəhs edilir.

Kitabda Akademiyada həyata keçirilən yeniləşmə proseslərinə və islahatlara müasir dünyanın çağırışları və ölkənin strateji inkişaf kursu kontekstində baxılır.

*© "Elm" nəşriyyatı, 2025*

**Azərbaycan Milli Elmlər Akademiyasının**

**80 illiyinin qeyd edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2025-ci ildə ölkənin ali elmi təşkilatının – Azərbaycan Milli Elmlər Akademiyasının təsis edilməsinin 80 ili tamam olur.

Azərbaycan Milli Elmlər Akademiyası yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin bir yol keçmiş, respublikanın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınmışdır. Akademiyanın ötən müddət ərzindəki səmərəli fəaliyyətinin əsasında elmin zamanın tələblərinə uyğun prioritet problemlərinin araşdırılması, ən müxtəlif elmi istiqamətlər üzrə yüksək hazırlıqlı kadrların yetişdirilməsi, elmi məktəblərin formalaşdırılması vənüfuzlu beynəlxalq elm qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi prinsipləri dayanmışdır. Bu gün də Akademiya elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyəsinin yüksəldilməsi işinə töhfələr verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının ölkədə elmin inkişafı, bu sahədə fəaliyyətin təşkili və yüksək ixtisaslı kadrlar hazırlanmasında rolunu nəzərəalaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 mart 2025-ci il

# GİRİŞ

1945-ci ildə yaradılmış Azərbaycan Milli Elmlər Akademiyası (ilk adı "Azərbaycan Elmlər Akademiyası" idi) şərəfli və məsuliyyətli fəaliyyət yolu keçmişdir. O yolun fəlsəfi anlamına varmaq üçün Azərbaycanda, ümumiyyətlə, "akademik tədqiqat ənənəsi", "akademik tədqiqat təcrübəsi" və "akademik araşdırma kültürü" kimi anlayışların işığında məsələyə yanaşmaq lazım gəlir. Bu məqam bütövlükdə "Azərbaycan intellektual-elmi təfəkkürü, elmi yaddaşı və sosial-mədəni gerçəkliyi üçün Elmlər Akademiyası nəyi ifadə edir?" sualına cavab axtarışları baxımından aktualdır. Çünki hazırda AMEA-nın tarixi, elmi, intellektual və bütövlükdə sosial-mədəni, mənəvi yaddaş olaraq adekvat dərkinə böyük ehtiyac yaranmışdır. Bu suallara obyektiv izah verilsə, 1945-ci ildə yaradılmış Azərbaycan Elmlər Akademiyasının zəruriliyi, əhəmiyyəti və aktuallığı aydın görünəcəkdir.

Burada "akademik tədqiqat ənənəsi", "akademik tədqiqat təcrübəsi" və "akademik araşdırma kültürü" kimi anlayışlar ümumfəlsəfi və ümumelmi aspektdə deyil, birbaşa Azərbaycanda akademik tədqiqatların dinamikası kontekstində nəzərdən keçirilir. Bu yanaşma yalnız Azərbaycanda qədimdən hansı mənada akademik tədqiqatların aparılması və onun institutlaşması formalarının olduğunu aydınlaşdırmağın fonunda elmi məzmun ala bilər.

Mənbələr göstərir ki, Azərbaycanın indiki coğrafi-mədəni məkanında Bizansda akademiyalar ləğv ediləndən sonra (V əsrdə Odessa, VI əsrdə Afina akademiyaları ləğv edilmişdir) çoxlu sayda elm ocaqları yaranmışdır. Ulu Öndər Heydər Əliyevin bu bağlılıqda bir kəlamı çox mətləblərdən xəbər verir. Heydər Əliyev öyrədirdi ki, "çoxəsrlik tariximiz özünün böyük elmi və görkəmli alimləri ilə məşhurdur".

Doğrudan da qədimdən Azərbaycanın coğrafi-mədəni məkanında folklor, ədəbiyyat, fəlsəfə, riyaziyyat, etika, coğrafiya, fizika, kimya, tibb və s. elm sahələri mövcud olmuş və onlar hətta bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Ancaq tədqi-

qatlarda qeyd olunur ki, “Azərbaycanın tarixi ərazisində ilk yazılı elmi əsərlərə isə İslam dininin qəbulundan sonrakı dövrlərdə rast gəlinir. IX əsrdə məşhur “Hikmət evi” (“Beytül-hikmət”) adlı Bağdad Akademiyasının meydana gəlməsi müsəlman sivilizasiyasında, o cümlədən Azərbaycanda elmin inkişafına ciddi təkan vermişdir. Bu, öz dövrü üçün güclü elmi kadrları olan, müxtəlif elm sahələrini - riyaziyyat, tibb, biologiya, astronomiya, həndəsəni öyrənən elm ocağı idi”[1].

Orta əsrlərdə Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiya və digər şəhərlərdə çoxsaylı elmi mərkəzlər fəaliyyət göstərmişdir. Nəsirəddin Tusinin Marağa rəsədxanası dünyada məşhur idi. Orada müxtəlif ölkələrdən gəlmiş insanlar elm öyrənir və vətənlərində Nəsirəddin Tusi rəsədxanasının elmi-tədqiqat ənənəsini davam etdirirdilər. Onu vurğulayaq ki, N.Tusinin elmi mərkəzi akademik tədqiqatın şərtləri daxilində fəaliyyət göstərirdi. Orada indi akademik fəaliyyət üçün lazım olan elmi-metodoloji və maddi-texniki struktur mövcud idi. “Nəsirəddin Tusinin təşkil etdiyi alimlər yığıncağı, müasir dildə desək, Akademiyanın Rəyasət Heyəti Təbriz şəhərində yerləşirdi”[2]. Orada ayrıca şəhərcikdə tələbələr və tədqiqatçılar üçün şərait yaradılmışdı.

Dünyaya məlumdur ki, öz dövrlərində Xaqani Şirvani, Nizami Gəncəvi, Fələki Şirvani, Fazil Şirvani, Əminəddin Müzəffər Təbrizi, Müxdəsəddin Səlmasi və başqaları dəyərli elmi və bədii-fəlsəfi əsərlər yaratmışlar.

Bir sıra mənbələrdə XII əsrdə fəaliyyət göstərən Şamaxı Akademiyası müasir Azərbaycan Respublikasının coğrafi-mədəni məkanında ilk Akademiya kimi göstərilir. Onu Ömər Osman oğlu yaratmışdı. O, Azərbaycan alimi və həkimi kimi tanınmış-

---

[1]Əlizadə, A. Azərbaycan akademik elmi son 70 ildə: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 13.11.2015. URL: https://science.gov.az/az/news/open/2728.Müraciət tarixi 19.02.38.

[2]Orta Əsrlər şərqində elm akademiyaları: [Elektron resurs] // URL: https://islam.az/51145/orta-esrler-serqinde-elm-akademiyalari/ Müraciət tarixi 19.02.2025.

dı. Şamaxı Akademiyasının tərkibində ciddi araşdırmalar aparılan tibbi məktəb mövcud idi. Orada xarici tədqiqatçıların da çalışdığı haqqında informasiyalar vardır.

İndi Şamaxı şəhərinin yaxınlığında olan Məlhəm kəndi həmin Akademiyanın dərmanlarını hazırlayan məkan kimi Şamaxı Akademiyasının bu günümüzə gəlib çatan "mədəni yaddaşı", əlaməti, "tarixi yadigarı"dır. Şamaxı Akademiyasında "Ömər Osman oğlu xarici mühitin faktorlarının insan fiziologiya və patologiyasında təsirinin öyrənilməsinə çox geniş yer verirdi. Bunların içərisində Günəşin təsirindən o qədər danışmışdır ki, onun doğulduğu yer indi də "Dədə Günəş" adı ilə məşhurdur. Ömər Osman oğlunun təşkil etdiyi Akademiyanın nəzdində kimyaçılar da fəaliyyət göstərirdilər. Ömər Osman oğlu və onun davamçılarının elmdə əsas nailiyyətlərindən biri yalnız faktlara və müşahidələrə əsaslanmaları və onların dərin təhlilini vermələri idi. Demək olar ki, onun təşkil etdiyi Akademiyanın tibbi şöbəsi birinci növbədə Azərbaycanda klinika tədqiqat metodlarını yaymağa başlayır. Əfsuslar olsun ki, zəlzələlər və yadellilərin hücumu nəticəsində Şamaxı Akademiyasından bizə gəlib çatan əsərlər və abidələr məhduddur və əldə olan məlumatlar da lazımi dərəcədə tədqiq olunmamışdır"[3].

XIII əsrdə Azərbaycan tarixçisi və məşhur həkimi Rəşidəddin Təbrizdə Elmlər Akademiyası yaradır. Burada Çindən, Misirdən, Hindistandan və Qərb ölkələrindən gəlmiş mütəxəssislər işləyirdi – "Bu Akademiyanın idarələrinin hamısı Təbrizin yaxınlığındakı "Rübe-Rəşidi" ("Rəşidi kvadratı") adlanan ərazidə yerləşirdi. Bu Akademiyanın xarabalıqları indi də həmin yerdə durur. Burada o zaman alimlər küçəsi, alimlər evi, alimlərin işləməsi üçün geniş laboratoriyalar və s. mövcud idi. Bu Akademiyada əsas yeri tibb, əczaçılıq, botanika tutmuşdur. Maraqlıdır ki, həmin Akademiyanın yaxınlığında "Fəxrabad" adlı yerdə böyük

---

[3]Orta Əsrlər şərqində elm akademiyaları: [Elektron resurs] // URL: https://islam.az/51145/orta-esrler-serqinde-elm-akademiyalari/ Müraciət tarixi 19.02.2025.

botanika bağı varmış. Orada Akademiyanın klinikalarında müalicə olunan xəstələr üçün indiki dildə desək, ekoloji cəhətdən təmiz, yüksək keyfiyyətli göy-göyərti və meyvələr becərilirmiş”...”Rəşidəddin Azərbaycan alimlərinə böyük qiymət verirdi. O, yazırdı ki, Aristotel və Platonun öz dövrləri var idi. İndi isə başqa dövrdür. Azərbaycanın dahi həkimlərindən Mahmud İbn İlyas və Mahzabəddin Təbrizi haqqında çox danışırdı”[4].

XV-XVIII əsrlərdə Azərbaycandakı elmi mərkəzlər fəaliyyətlərini davam etdirmişdir. Həmin dövrdə Əbdürrəşid Bakuvinin elmi fəaliyyəti çox səmərəli olmuşdur; ölkənin coğrafiyası və təbiəti ilə bağlı qiymətli məlumatlar vermişdir.

XIX əsrdə Azərbaycanın şimal hissəsinin Rusiya və Avropa elmi-mədəni mühitinə inteqrasiyaya başlaması ilə akademik tədqiqatlarda yeni dönəmə qədəm qoyulmuşdur. Geosiyasi aspektlə yanaşı, akademik elmi fəaliyyət istiqamətində də Azərbaycan Qərblə Şərqin körpüsü rolunu oynamışdır. XX əsrdə bu tendensiya xüsusi intensivliklə davam etmişdir. 1919-cu ildə Bakı Dövlət Universitetinin yaradılması ilə Avropa ali məktəblərinə azərbaycanlı tələbələrin göndərilməsi üçün yeni imkanlar meydana gəlmişdir. Bu da sonrakı mərhələdə Azərbaycanda akademik tədqiqatlarda Qərb, Rusiya və Şərq elmi araşdırma ənənələrinin sintezini yaratmaq üçün ciddi təkan rolunu oynamışdır. Həmin kontekstdə 1922-1923-cü illərdə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu ayrıca qeyd edilməlidir. “Onun əsasında Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu yaradıldı (1923). Artıq burada humanitar, təbiət elmlərini və Şərqi öyrənən bölmələr vardı.

Bu cəmiyyəti və institutu Azərbaycanda XX əsrdə akademik tədqiqatların təşkilinin ilk formaları hesab etmək olar. SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi də məhz bu cəmiyyətin bazasında təşkil olundu. Burada rus

---

[4]Orta Əsrlər şərqində elm akademiyaları: [Elektron resurs] // URL: https://islam.az/51145/orta-esrler-serqinde-elm-akademiyalari/ Müraciət tarixi 19.02.2025.

alimləri ilə yanaşı, Ə.Haqverdiyev, B.Çobanzadə, M.Əfəndiyev, A.Tağızadə və başqa alimlər çalışırdılar. 1935-ci ildə həmin şöbə SSRİ EA-nın Azərbaycan Filialına çevrildi. Burada Azərbaycanın təbii sərvətlərinin tədqiqinə də xüsusi diqqət yetirilirdi. O səbəbdən də Elmi-Tədqiqat Neft İnstitutu və Azərbaycan Elmi Tədqiqat Neft Maşınqayırma İnstitutu təsis edildi”[5].

Bu proses nəticəsində artıq 1940-cı ildə Azərbaycanda 60 elmi müəssisə yaradılmışdı və orada 3 minə yaxın elmi işçi fəaliyyət göstərirdi. Yuxarıda qeyd etdiyimiz kimi, 1945-ci ildə isə Azərbaycan Elmlər Akademiyası təsis edildi.

Qədim dövrlərdən başlayaraq Azərbaycanda akademik tədqiqatların aparılmasında “akademik tədqiqat ənənəsi”, “akademik tədqiqat təcrübəsi” və “akademik araşdırma kültürü” kimi anlayışların özünəməxsus yeri və rolu olduğunu görürük. Bu anlayışların hər biri Azərbaycan mədəniyyətinin, ölkənin coğrafi yerləşiminin, tarixin müxtəlif dönəmlərində daxil olduğu kültür və geosiyasi mühitin qarışlıqlı təsiri altında məzmunca təkamül etmişdir. Nəticədə Azərbaycanın özünəxas akademik tədqiqat ənənəsi formalaşmışdır. Bu ənənə kəsilməz və dayanıqlı olduğu üçün Azərbaycan akademik araşdırma kültürü formalaşmışdır. Akademik ənənə ilə akademik tədqiqat kültürünün sintezi isə Azərbaycan akademik təcrübəsini şüuri fenomen kimi formalaşdırmışdır.

Bu cür yanaşma Azərbaycanda akademik tədqiqat ənənəsinin formalaşmasında iki sosial-mədəni və elmi faktorun əsas rol oynadığını göstərir. Elmi dərketmə faktoru kimi yunan fəlsəfi-elmi rasionalizmi qədimdən Azərbaycan akademiyalarında tədqiqatların metodologiyasını müəyyən etmişdir. Yuxarıda vurğuladığımız kimi, Azərbaycanın coğrafi-mədəni məkanında yaranan akademiyalarda (məsələn, Şamaxı Akademiyasında) elmi-tədqiqat müşahidə, təcrübə və sübut əsasında məntiqi nəticə for-

---

[5]Əlizadə, A. Azərbaycan akademik elmi son 70 ildə: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 13.11.2015. URL: https://science.gov.az/az/news/open/2728.Müraciət tarixi 19.02.38.

masında aparılmışdır. N.Tusinin rəsədxanasında da eyni metodologiyadan istifadə edilmişdir. Deməli, Azərbaycan akademiyaları elmi tədqiqatı yunan akademiyalarında istifadə edilən üsullarla aparmışlar. Ancaq Azərbaycan akademiyalarında tədqiqat ənənəsində başqa bir faktor – Azərbaycanın mədəni məkan kimi İslam dünyasına aid olması ilə də şərtlənir. Azərbaycanda elmi araşdırmalar müsəlman mədəniyyətinin (İslamın) özəllikləri fonunda aparılırdı. Hətta bir sıra fəlsəfi və elmi mətnlərdə obrazlı formada ilk cümlə "Allahdan sonra" ifadəsi ilə başlayırdı. Məsələn, M.Füzulinin "Mətləül-Etiqadı" belə başlayır: "Sonra".

Müsəlman mədəniyyətinin Azərbaycanda akademik tədqiqata təsiri yalnız müəyyən dini atributlarla məhdudlaşmırdı. Bütövlükdə Azərbaycan alimlərinin idraki fəaliyyətində İslamın təsiri dünyaduyumu, dünyagörüşü və dünyaya elmi baxış kontekstində hiss olunurdu. Bu təsir faktiki olaraq XIX əsrdə Azərbaycanın parçalanmasına qədər dominantlıq təşkil etmişdir. Öncə Rusiya imperiyası, sonra isə sovetlər tədricən elmi tədqiqatlarda dünyəviliyi üstün səviyyəyə yüksəltmişlər.

Bu cür gedişat Azərbaycanda akademik tədqiqatların özünəməxsus ənənəsini formalaşdırmışdır. Bu ənənə elmi fəaliyyətin institutlaşması ilə tədqiqat təcrübəsini əmələ gətirmişdir. Və hər iki faktorun sintezi bütövlükdə Azərbaycan aliminin təfəkkür səviyyəsində akademik tədqiqatçı kültürünü formalaşdırmışdır. Akademik araşdırma kültürü tarixən transformasiya olmuş və müasir mərhələdə məntiq, texnologiya, nəzəri araşdırma ilə praktiki tətbiqin qarşılıqlı əlaqəsi aspektlərində yeni məzmun kəsb etmişdir. Lakin bütün hallarda müasir Azərbaycan aliminin akademik tədqiqatçı kültürü əsrlərlə özünü göstərmiş əlamətlərin zamanca transformasiya prosesinin birbaşa nəticəsidir. Bununla Azərbaycanda akademik tədqiqatlar ənənə, təcrübə və təfəkkür kültürünün qarşılıqlı əlaqəsində formalaşmış, bütöv, tam və dinamik proses halına gəlmişdir. Onu, ümumiyyətlə, Azərbaycan elmi tədqiqatının yaradıcılıq və institutlaşma aspektlərində məhv etmək deyil, zəiflətmək belə faciə ola bilər. Həm də ona görə ki, müasir mərhələdə Azərbaycan akademik tədqiqat təcrübəsinin

institutlaşması birbaşa dövlətçiliklə sıx bağlıdır. Tarixdə heç zaman Akademiya yaradıcılıqla institutlaşmanın münasibətlərində bu dərəcədə dövlətçiliyə xidmətlə bağlı olmamışdır. Onun əsasını Ulu Öndər Heydər Əliyev keçən əsrin 70-80-ci illərində qoymuşdur, indi isə inkişaf etməkdədir. Bu o deməkdir ki, AMEA-nın müasir Azərbaycan elmində yeri və rolu fundamentaldır.

Bu qənaət kitabın elmi məqsədi baxımında çox əhəmiyyətlidir. Çünki biz məsələyə Azərbaycanda əsrlərdir ki, özünəxas olan akademik tədqiqat ənənəsi və akademik araşdırma kültürünün mövcud olduğu tezisini aksiom kimi qəbul edərək yanaşırıq. Bu əsasda Azərbaycan akademik təfəkkürü haqqında danışa bilirik. Bu da məxsusi Azərbaycan akademik təcrübəsinin fəlsəfi və elmi dərkini aktuallaşdırmış olur.

Bu tezislərdən belə bir qənaət əldə edirik: Azərbaycanda akademik elmi tədqiqatların, elmi fəaliyyətin təşkilinin və elmi araşdırmaların institutlaşmasının özəllikləri mövcuddur. Deməli, "Azərbaycanda AMEA nəyi ifadə edir" sualının cavabı vurğulanan xüsusiyyətlər işığında özlüyündə aydın olur. Yəni Azərbaycan elminin keçmişi kimi, gələcəyi də birbaşa akademik tədqiqatlar və akademik institutlaşma ilə sıx bağlıdır! Bu gerçəklik Azərbaycanda elm sahəsinin mentalitetinə, canına, ruhuna və fəaliyyət mexanizmlərinə o dərəcədə hopmuşdur ki, alternativi yoxdur. Əlbəttə, elmi fəaliyyətin təşkili və institutlaşması zamanın dəyişməsi ilə yeniləşə bilər, lakin AMEA-nın timsalında onun ruhunu kənara qoymaq olmaz! Həm də AMEA özü yeniləşir və bu barədə kitabda faktlar gətirilir, təhlillər verilir. AMEA özünün 80 illik yubileyini elmi yeniləşmə "baqajı" ilə qarşılayır.

Problemin təhlilinə yanaşmamız kontekstində onu vurğulayaq ki, ölkənin baş elmi təşkilatının dövlət üçün xidmətləri danılmazdır. Ulu Öndər Heydər Əliyev sovet dönəmində dövlət-elm münasibətlərinin məzmun, forma və məqsədlərini müəyyən etmiş və həmin istiqamətdə əhəmiyyətli addımlar atmışdır. Azərbaycan müstəqillik əldə edəndən sonra Azərbaycan Elmlər Akademiyası Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) kimi fəaliyyətini davam etdirmişdir.

AMEA-nın əhəmiyyəti müstəqillik mərhələsində daha da artmışdır. Həm elmi araşdırmaların aparılması, həm də onların müstəqil dövlətçiliyin inkişafı istiqamətində praktiki tətbiqi yeni səviyyədə aktuallaşmışdır. Heydər Əliyevin "elm dövlətə xidmət etməlidir" kəlamı işığında AMEA-nın fəaliyyətinin anatomiyası aydın görünür. Ulu Öndər demişdir: "Azərbaycanın Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır"[6]. Bu müdrik fikirdə iki aspekt üzvi surətdə əksini tapmışdır. Birinci, AMEA elmin inkişafında aparıcı rol oynamalıdır. İkinci, bu rol dövlət müstəqilliyinə xidmət etməlidir. Müstəqillik mərhələsində AMEA-nın fəaliyyəti Ulu Öndərin vurğuladığı istiqamət üzrə aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev siyasi varislik prinsipinə bütün istiqamətlərdə tam əməl edir. Bu, elm siyasətində də özünü göstərir. AMEA-nın 70 illik yubileyinə həsr edilmiş yığıncaqda söylədiyi nitqi zamanı Prezident İlham Əliyev vurğulamışdır: "...mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Yəni, elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir"[7].

Beləliklə, XXI əsrdə AMEA-nın fəaliyyət kursu dövlət rəhbərliyi tərəfindən konkret və dəqiq müəyyən edilmişdir. Həmin kursun daxilində ölkənin ali elmi təşkilatının qarşısında duran vəzifələr tam aydındır. Bu bağlılıqda AMEA-nın 80 illik yubileyi ərəfəsində elmi təşkilatın son iki ildə fəaliyyətinin bir sıra mühüm məqamlarının təhlilinə ehtiyac vardır. Çünki həmin müddətdə AMEA-nın fəaliyyəti kifayət qədər zəngin olmuşdur

---

[6]Əliyeva-Kəngərli, A. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici. – Bakı, "Şərq-Qərb, - 2010, s. 24.

[7]İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak edib // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 09 noyabr 2015-ci il. URL: https://president.az/az/articles/view/16703. Müraciət tarixi 25.08.2024.

və bir çox yeni məqamlarla yeniləşmişdir. Yeniləşən Akademiyanın elmin və dövlətçiliyin inkişafına verdiyi töhfələrin elmi refleksiyası çox vacibdir.

Əslində, AMEA-nın yeniləşməsi ölkə miqyasında əhəmiyyətli hadisədir. Müasir cəmiyyətlərin faktiki olaraq elm əsasında formalaşdığı ilə bağlı fikrin işığında bu, təbii və zəruri görünür. Bundan başqa, AMEA rəhbərliyi təşkilatın yeniləşməsini dövlətçiliyə xidmət kontekstində ölkənin strateji inkişaf kursundan irəli gələn vəzifələrə uyğun həyata keçirir. Azərbaycanın strateji inkişaf kursunda AMEA əsas icraçı strukturlardan biri kimi qiymətləndirilmişdir. Ayrıca, AMEA-nın əsas rol oynamalı olduğu istiqamətlər dəqiq müəyyən edilmişdir. AMEA rəhbərliyi bu reallığı ciddi surətdə nəzərə alaraq sistemli yeniləşmə kursu müəyyən etmişdir. Həmin kursun konkret müddəalar üzrə həyata keçirilməsi prosesinin özünün fəlsəfi və elmi dərki olduqca vacibdir. Çünki bununla həm görülən işlərə təkrar elmi qiymət vermək imkanı yaranır, həm də gələcək fəaliyyətin ümumi cizgilərini bir daha dəqiqləşdirmək şansı meydana gəlir.

Məsələ onunla bağlıdır ki, AMEA-nın yeniləşməsi geniş, əhatəli və müxtəlif aspektli prosesdir. Təşkilatın rəhbərliyi dinamik fəaliyyəti və kəsintisiz həyata keçirdiyi çoxaspektli tədbirləri ilə yeniləşməni daim dövlətçilik və strateji inkişaf kursuna xidmət müstəvisində saxlayır. Əminliklə demək olar ki, bu, AMEA tarixində xüsusi yeri olan prosesdir. Burada müasir tələblər səviyyəsində elmi kriteriyalarla, innovasiyalılıq və elm siyasəti orijinal şəkildə harmoniya təşkil edir.

Bu kitabın həm strukturu, həm də idraki funksiyası vurğulanan məqamlar üzərində qurulmuşdur. Qarşıya qoyulan elmi məqsədə çatmaq üçün kitabın 5 fəsildən təşkil olunması qərarlaşdırılmışdır.

Birinci fəsildə Prezident İlham Əliyevin hazırladığı strateji inkişaf kursunun müxtəlif aspektləri elmi olaraq araşdırılır. Burada dövlət başçısının müəyyən  etdiyi kurs üzrə AMEA-nın ali elmi təşkilat kimi verməli olduğu töhfələrin təhlili aparılır. Birinci fəslin başlıca məqsədi AMEA-nın elmi fəaliyyətinin tama-

milə ölkənin strateji inkişaf kursu və elm siyasətinin kriteriyalarına uyğun təşkili zərurətini vurğulamaqdan ibarətdir. Bunun əsasında I fəsildə AMEA-nın fəaliyyətinin "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 kontekstində araşdırılması problemin təhlil edilməsi və proqnozlaşdırma aspektlərində vacib məqamlardan hesab olunmalıdır. Bu fəsil həmin mənada AMEA rəhbərliyinin yeniləşmə kursunun əsas mahiyyəti, məzmunu və məqsədlərini fəlsəfi-nəzəri dərk etməyə əsas yaradır.

İkinci fəsildə AMEA rəhbərliyinin həyata keçirdiyi əhatəli yeniləşmə kursunun özəllikləri təhlil edilir. Burada elmi yaradıcılıq, elmi fəaliyyətin təşkili, təşkilatın struktur yeniləşmələri və beynəlxalq əməkdaşlığın yeni çalarları tədqiq edilir. Araşdırma ölkənin strateji inkişaf konsepsiyasının müəyyən etdiyi tələblər əsasında aparılır.

Burada elmi fəaliyyətin təşkili, yeni struktur vahidlərinin yaradılması, yaradıcılıq istiqamətlərinin yeniləşməsi, yeni tədqiqat mövzularının müəyyən olunması və AMEA-nın yeniləşmə rəmzinin təsdiqi yer almışdır. İkinci fəsildə AMEA-nın yeniləşməsinin bu səviyyədə sistemli təqdimatında əsas məqsəd, həmin prosesin daxili məntiqi özəlliyini açmaqla yanaşı, onun elm aləmi və dövlət üçün əhəmiyyətini göstərməklə əlaqəlidir. Çünki AMEA müstəqil dövlət üçün strateji əhəmiyyəti olan qurumdur və onun fəaliyyətinin mahiyyəti tam aydınlaşmalıdır. Bunun əsasında AMEA-da aparılan yeniləşmənin dövlətçilik aspektində vacibliyi, düzgünlüyü və strateji hədəfləri haqqında dolğun təsəvvür əldə etmək olar.

Kitabın III və IV fəsilləri sonuncu tezisin nəzəri və praktiki aspektdə təsdiqinə xidmət edir. Buna zərurət yaranmasının səbəbləri vardır.

Birincisi, III və IV fəsillərdə AMEA-nın yeniləşməsinin struktur-funksional, yaradıcılıq, elmi-təşkilati, beynəlxalq əməkdaşlıq istiqamətlərinin özəllikləri, onların qarşılıqlı əlaqəsi fonunda aydın görünür. Bu mənzərə gətirilən çox sayda faktlar əsasında yaranır.

İkincisi, AMEA Rəyasət Heyəti Aparatının "Elektron Akademiya" şöbəsinin yaradılması təşkilatın yeniləşməsi kontekstində önəmli hadisədir. Aparılan araşdırma göstərmişdir ki, həmin yeni struktur vahidi çərçivəsində rəqəmsal inkişafla elm arasında əlaqələrin dərkini və aktuallığını yeni səviyyəyə yüksəltmək imkanı yaranmışdır. Rəqəmsal elmi istinad sisteminin yaradılması isə Azərbaycan elminin dünya miqyasında tanıdılması prosesində əhəmiyyətli rol oynayacaqdır. Bununla yanaşı, elmi-tədqiqat institutlarında elektron xidmətin təşkili daxili kommunikativ mühitin müasirləşdirilməsi istiqamətində vacib addımdır.

Nəhayət, elektron kitabxananın formalaşdırılması biliklərin saxlanması, ötürülməsi və dünyanın yeni elmi bilikləri ilə çevik tanışlıq baxımından son dərəcə əhəmiyyətli hadisədir.

Bütün bunların işığında yeniləşən AMEA-nın beynəlxalq əlaqələrin qurulmasında yeni mərhələyə keçməsi tamamilə məntiqli görünür. Kitabın IV fəsli bu məsələyə həsr edilmişdir. Həmin istiqamətdə ikitərəfli əməkdaşlıqdan çox sayda beynəlxalq elmi təşkilatlarla əməkdaşlıq mərhələsinə keçid yeniləşmə prosesinin mühüm əlamətlərindən biri kimi tədqiq olunmuşdur. AMEA bu aspektdə son iki ildə ciddi uğurlar əldə etmişdir. Kitabda bunu təsdiq edən faktlar təqdim olunur və qarşılıqlı əlaqədə təhlil edilir.

Türk dövlətlərinin elmi təşkilatları ilə əlaqələrin inkişaf dinamikası ayrıca araşdırılır. Bunun səbəbi onunla bağlıdır ki, yeni tarixi mərhələdə Türk Dövlətləri Təşkilatının (TDT) gücləndirilməsi məsələsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Türk dünyasının elmi, tarixi, mədəni, ədəbi-bədii dəyərlərinin daha geniş və dərindən öyrənilməsi strateji xarakterli vəzifələrdən biridir.

Bunlarla yanaşı, IV fəsildə tanınmış elm xadimləri ilə görüşlərin təşkili üzərində dayanılmışdır. Bu istiqamətdə elmi təcrübə mübadiləsinin mahiyyəti və əhəmiyyəti açılmışdır. Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri ilə bağlı tədbirlərin təşkili, elm, mədəniyyət, təhsil üzrə böyük xidməti olmuş korifeylərin yubileylərinin keçirilməsi, əsərlərinin yeniləşmə kur-

sunun ruhuna uyğun yenidən təhlil edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bu fəsildə AMEA-nın elmi jurnallarının yüksək indeksli elmi jurnallar sırasına yüksəldilməsi xətti təşkilatın yeniləşmə kursu kontekstində aktual addım kimi araşdırılmışdır. Həmin istiqamət elmi jurnallarda dərc edilən məqalələrlə dünya miqyasında alimlərin tanış olmaları üçün yeni fürsətlər yaradır. Bu üsulla bilik mübadiləsi prosesi yaradıcılıq imkanlarını genişləndirməklə bağlı elmi fəaliyyətin və kollektiv yaradıcı komandaların təşkili üçün də geniş imkanlar açır.

Nəhayət, V fəsildə konkret olaraq AMEA-nın fəaliyyətinin strateji aspekti təhlil edilir. Bu, sistemli yanaşma prizmasında həyata keçirilir. Təşkilat tərəfindən hazırlanmış Strateji İnkişaf Konsepsiyası ilə “Yol Xəritəsi”nin qarşılıqlı nəzəri əlaqəsi çərçivəsində araşdırma aparılır. Yəni AMEA-nın dövlətin strateji qurumlarından biri kimi həm ümumi səviyyədə fəaliyyətinin başlıca istiqamətlərinin özəllikləri kompleks halda təqdim olunur, həm də bu prosesin daxili məntiqi işığında həyata keçirilməsi xüsusiyyətləri tədqiq edilir.

Vurğulanan məqamlar kitabın struktur və funksional özəlliklərinin daxili məntiqi parametrlərini ifadə edir, AMEA-nın inkişafının və yeniləşmə xəttinin əsas əlamətlərinin sistemli dərkinə əsas yaradır. Bununla yanaşı, bu istiqamətdə araşdırmaların davam etdirilməsi zərurəti də şübhə doğurmur!

# I FƏSİL

# PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCANIN STRATEJİ İNKİŞAF KURSU VƏ ELM

## 1.1. *Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasının əsas prinsipləri*

Henri Kissincerin "strategiya" anlayışını izahı maraqlıdır. XX əsrin böyük diplomatlarından biri yazırdı ki, strategiya informasiya və zaman  çatışmazlığı şəraitində liderin ciddi rəqabət və proseslərin axıcılığı fonunda çıxardığı nəticəni, gəldiyi qənaəti, formalaşdırdığı baxışlar sistemini ifadə edir[8].

H.Kissincerə görə, liderin uğurlu strategiyası həm informasiya, həm fəaliyyət, həm də mühit baxımından qeyri-müəyyənliklər şəraitində etdiyi seçimlə bağlıdır. Bu məqam bir tərəfdən strategiyanı çoxməchullu bir formula bənzədir, digər tərəfdən isə son halda liderin zəkasından, məharətindən, fəaliyyət anatomiyasından, gələcəyi görə bilmək qabiliyyətindən asılı olduğunu ifadə edir.

Onu nəzərə almaq lazımdır ki, strategiya elmi (belə demək mümkündürsə) tədqiqatçıların fikrinə görə, hələ tam formalaşmamışdır. Baxmayaraq ki, onun tarixi iki min il öncəyə gedib çıxır. Akademik V.L.Kvint bununla bağlı yazır ki, "strategiya elm kimi bu günə qədər...formalaşma prosesindədir"[9]. V.L.Kvint strategiyanı uzunmüddətli uğur əldə etməyə imkan verən müəyyən konsepsiyanın axtarışı, formalaşdırılması və inkişaf etdirilməsi prosesi kimi tərif edir. Şübhəsiz, burada mütləq şərt konsepsiyanın (və ya doktrinanın) ardıcıl və tam reallaşması

---

[8]Kissinger, H. Leadership: Six Studies in World Strategy. New York: Penguin Press, - 2022, - pp. 4-11.

[9]Квинт, В.Л. Концепция стратегирования: монография. Т. II. СПб.: ИПЦ СЗИУ РАНХиГС, – 2020,  – с.9.

nəticəsində qarşıya qoyulan məqsədə çatmaqdan ibarətdir[10]. Siyasi aspektdə bu, strategiyanın substantiv və funksional cəhətlərinin vəhdətinin təmini edilməsini zəruri edir.

Strategiya haqqında bu kimi fəlsəfi və elmi təsəvvürlər beynəlxalq təşkilatların proqramlarında öz ifadəsini tapır. Məsələn, BMT-nin dayanıqlı inkişafın Milli strategiyası konsepsiyasında ölkələrə “milli səviyyədə iqtisadi, sosial və ekoloji vəzifələri vahid strateji istiqamətli fəaliyyət planında birləşdirmək” çağırışı edilir[11]. Bundan başqa, arzuolunandır ki, Milli strategiya BMT-nin 2030-cu ilə müəyyən etdiyi 17 əsas istiqamətlə ziddiyyət təşkil etməsin. Yəni həmin 17 istiqamət milli kontekstə daxil edilsin[12].

Bütün bunların fonunda Azərbaycanın 2021-ci ildə hazırlanmış 2030-cu ilə qədər sosial-iqtisadi inkişafın Milli Prioritetlərinə aid strateji sənəddə aşağıdakı fikrin yer alması tamamilə təbiidir. Orada yazılmışdır: “Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir”[13]. Deməli, Azərbaycan faktiki olaraq özünün strateji inkişaf konsepsiyasını BMT-nin müəyyən etdiyi meyarlara uyğun formalaşdırmışdır. Sənəddə sosial-iqtisadi inkişafın 2030-cu ilə qədər müddətdə Milli Prioritetləri aşağıdakı kimi müəyyən edilmişdir: “Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

---

[10]Bax: Квинт В. Л. Концепция стратегирования. Т. I. – СПб.: СЗИУ РАНХиГС, – 2019. – 132 с.

[11]National strategies and SDG integration: [Electronic resource] // UNİTED NATİONS. Department of Economic and Social Affairs Sustainable Development. – 2012.04.06. URL: https://sdgs.un.org/topics/national-sustainable-development-strategies. Müraciət tarixi 10.07.2024.

[12]Yenə orada

[13]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər: [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. – Bakı. – 2021.02.02. URL: https://president.az/az/articles/view/50474. Müraciət tarixi 11.07.2024.

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi"[14].

Milli prioritetlərin həyata keçməsi (2030-cu ildə) "qüdrətli dövlət, yüksək rifah cəmiyyəti"nin bərqərar olmasını təmin etməlidir. Azərbaycan iqtisadiyyatı 2030-cu ilə dayanıqlı və rəqabətqabiliyyətli olmalıdır. Bu məqsədə nail olmağın başlıca mexanizmləri isə ölkənin innovasiyalar məkanına çevrilməsi ilə sıx bağlıdır. Burada başlıca prinsip yüksək ekoloji təmizliyə nail olmaqdan ibarətdir. Azərbaycan real olaraq "yaşıl artım" ölkəsinə çevrilməlidir. Bunlarla yanaşı, Azərbaycanın strateji inkişaf konsepsiyasında dövlət suverenliyinin təmin edilməsi prinsipial yer tutur.

Bütün bu prinsiplərin fəlsəfi aspektdə sintezi Azərbaycanın strateji inkişaf konsepsiyasının daxili substantiv mahiyyətini və funksional özəlliklərini aydınlaşdırmağa imkan verir. Onu dörd müddəada birləşdirmək olar. Həmin müddəalar aşağıdakılardır:

1) dinamik, 2) dayanıqlı inkişaf edən, 3) yaradıcı, 4) innovativ dövlət.

Vurğulanan dörd faktor-müddəa rəqəmsal cəmiyyətin formalaşması çərçivəsində reallaşmalıdır.

Rəqəmsallıq strateji inkişaf kursu kontekstində mühüm fundamental şərtlərdən biridir. Rəqəmsal cəmiyyət sənəddə faktiki olaraq yaradıcı və innovativ xarakterli toplum kimi verilir. Sənədin 3.2.-ci bəndində yazılır: "Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli

---

[14]Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər: [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. – Bakı. – 2021.02.02. URL: https://president.az/az/articles/view/50474. Müraciət tarixi 11.07.2024.

aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır”[15].

Bundan başqa, elmtutumlu və yüksək gəlir yaradan orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır[16].

Bu fikirləri ümumiləşdirsək, Azərbaycanın strateji inkişaf konsepsiyası yeni texnologiyalı, elmtutumlu ekosistem yaratmağa hədəflənmişdir. Burada insan mərkəzli güclü vətəndaş cəmiyyəti yüksək texnologiyaların tətbiqi əsasında formalaşmalıdır.

Rəsmi sənədlərdə Azərbaycanın strateji inkişaf konsepsiyası ilə elmin strateji inkişaf konsepsiyası arasındakı bağlantıların yüksək dərəcədə vurğulanması onu göstərir ki, ölkənin tərəqqisi kursu birbaşa elmi əsasa malikdir. Nümunə üçün göstərə bilərik ki, 2016-cı ildə hazırlanmış “Azərbaycan elminin inkişaf doktrinası”nda vurğulanmışdır: “Azərbaycan Respublikasında elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır. Ölkənin davamlı inkişaf strategiyası, habelə müasir dünyada baş verən qlobal iqtisadi problemlər Azərbaycanın elmi əsaslar üzərində inkişafını zərurətə çevirir”[17].

“Elm haqqında” Qanunda da yazılır ki, “bu Qanun ölkənin siyasi, iqtisadi, sosial və mədəni inkişafının təmin edilməsi, hər bir Azərbaycan Respublikası vətəndaşının rifahının və elmi səviyyəsinin yüksəldilməsi, yeni biliklərə yiyələnməsi və dünyanı

---

[15] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər: [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. – Bakı. – 2021.02.02. URL: https://president.az/az/articles/view/50474. Müraciət tarixi 11.07.2024.

[16]Yenə orada.

[17]Azərbaycan elminin inkişaf doktrinası. Bakı¸2016, 7 s.

dərk etmək kimi təbii və mənəvi ehtiyaclarının ödənilməsində elmin aparıcı rolunu və vəzifələrini müəyyənləşdirir”.[18]

Bu özəllik II Qarabağ savaşından sonra daha əhəmiyyətli olmuşdur və yeni məzmun çalarları almışdır. Belə bir dinamika bizi yeni tarixi mərhələdə Azərbaycanın strateji inkişaf kursunun həyata keçirilməsində elmin yeri və rolu məsələsini fəlsəfi təhlil etməyə sıx surətdə yaxınlaşdırır. Bunun üçün öncə Prezident İlham Əliyevin Azərbaycan üçün müəyyən etdiyi yeni tarixi mərhələnin fəlsəfi-elmi anlamı üzərində ölkənin strateji inkişaf konsepsiyası kontekstində geniş dayanaq.

## 1.2. *Dövlət başçısının Azərbaycan üçün müəyyən etdiyi yeni tarixi mərhələnin fəlsəfi-elmi anlamı: strateji inkişaf konsepsiyası işığında*

Prezident İlham Əliyev Azərbaycan üçün yeni tarixi dövrün başladığını bəyan etmiş və onun əsas xarakteristikalarını vermişdir. İlk dəfə bu barədə İlham Əliyev 2024-cü il yanvar ayının 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə bəhs etmişdir. Jurnalistin “yeni tarixi reallıq, yeni tarixi mərhələ” ifadələrinin yer aldığı sualına cavab olaraq Azərbaycan dövlət başçısı demişdir: “Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni...bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi,

---

[18]Elm haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, - 2016. 08. URL: https://president.az/az/articles/view/20785. Müraciət tarixi 12.07.2024.

xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən (Cənab Prezident 2023-cü ilin sentyabrın 20-də 23 saat 41 dəqiqə davam edən antiterror tədbirlərini nəzərdə tutur – F.Q.) sonra başlayır... sualınıza cavab verərək deməliyəm ki, bəli, yeni dövr başlayır və əminəm, bu dövr də ölkəmiz üçün uğurlu olacaq”[19].

Yeni tarixi mərhələ ilə bağlı hər şey aydın və dəqiqdir. Azərbaycan üçün yeni tarixi dövr ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra başlayır. Yəni Azərbaycan dövlət, ölkə və cəmiyyət kimi faktiki olaraq qarşısına yeni vəzifələr qoymalıdır və onların uğurla həll edilməsi üçün var gücü ilə çalışmalıdır.

Prezident İlham Əliyev ayrıca vurğulamışdır ki, bu möhtəşəm uğur siyasi varisliyin tam gözlənilməsi sayəsində əldə edilmişdir. Belə ki, “1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi”[20].

Deməli, yeni tarixi dövrün bazasını Ulu Öndər Heydər Əliyevin 1993-2003-cü illərdə həyata keçirdiyi müstəqil dövlət quruculuğu prosesi təşkil edir. Həmin təməl əsasında Azərbaycan Prezidenti uğurlara imza atdı. Nəticədə Azərbaycan üçün yeni tarixi dövr başlayır ki, bu zaman “...yeni konseptual inkişaf strategiyamız, milli ideologiyamızın yeni istiqamətləri və əldə edilmiş uğurlarla sakitləşmək sanki müəyyən durğunluğa gətirib çıxara bilər”.[21]

2024-cü il fevral ayının 24-də isə İlham Əliyev yenidən Prezident seçilməsinə həsr edilmiş Andiçmə mərasimində yeni tarixi dövrün başlıca xüsusiyyətlərini lakonik fikirlərlə xarakterizə

---

[19]İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib: [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 10 yanvar 2024. URL: https://president.az/az/articles/view/63017. Müraciət tarixi 13.07.2024.
[20]Yenə orada.
[21]Yenə orada.

etmişdir. Azərbaycan Prezidenti çox maraqlı və aktual ümumiləşdirmələr aparmışdır. Onlardan aydın olur ki, yeni tarixi mərhələdə toplumsal həmrəylik və birlik əsas yer tutmalıdır. Onun təminində isə gənclərin tərbiyəsi, ümumilikdə milli-mənəvi dəyərlərin qorunması və yüksək intellektə, müasir biliklərə sahib cəmiyyətin formalaşdırılması həlledici rol oynamalıdır. Bu məqam Azərbaycanda yeni tarixi dövrdə elmin aparıcı faktor kimi funksionallaşmasının zəruri tələbat olduğunu ifadə edir. Eyni zamanda, fundamental, təbiət və sosio-humanitar elmlərin vəhdəti prinsipial faktora çevrilir. Elmin bu tələblər üzrə təşkili, Azərbaycanın baş elmi müəssisəsinin strukturlaşması və funksionallaşması strateji vacibliyi olan vəzifələrdən biri kimi qarşıya çıxır.

Həmin prizmada Prezidentin Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılmasının çox aktual olduğu üzərində ayrıca dayanması əsaslıdır. Bu özəllik avtomatik olaraq milli ideya və milli ideologiya məsələsini yeni tarixi mərhələ kontekstində daha da aktuallaşdırır. Həmin aspektdə Azərbaycançılıq ideya, konsept, konsepsiya, ideologiya və məfkurə kimi yeni tarixi mərhələdə cəmiyyətin birliyi bağlılığında olduqca ciddi strateji faktora çevrilir.

Nəhayət, yeni tarixi dövrdə Azərbaycanın xarici siyasəti keyfiyyətcə yeni substantiv və funksional məzmun almalıdır. Bu barədə dövlət başçısı açıq və konkret fikir bildirmişdir. İlham Əliyev demişdir ki, "biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq"[22]. Həmin prizmada Türk Dövlətləri Təşkilatının (TDT) gücləndirilməsi, Qoşulmama Hərəkatı və İslam Konfransı Təşkilatı daxilində fəaliyyətin elmi təhlili çox əhəmiyyətli faktor təsiri bağışlayır.

Yeni tarixi dövrlə bağlı vurğuladığımız bütün məqamları fəlsəfi ümumiləşdirəndə Henri Kissincerin bir kəlamının doğru-

[22]İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib: [Elektron resurs] // Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 10 yanvar 2024. URL: https://president.az/az/articles/view/63017. Müraciət tarixi 13.07.2024.

luğuna əmin oluruq. H.Kissincer yazırdı ki, "böyük liderlər milli məqsədləri yenidən müəyyən edirlər!"

İlham Əliyev böyük lider kimi yeni tarixi dövr üçün Azərbaycanın milli ideyasını, milli məqsədlərini və onlara nail olmaq mexanizmlərini yaradıcı surətdə, tam elmi əsaslı və yenidən müəyyən etmişdir. Onlardan aydın olur ki, yeni tarixi mərhələdə Azərbaycan elmə və yeni texnologiyalara əsaslanan inkişaf paradiqması üzrə inkişaf edəcəkdir. Burada ən yeni elmi nəticələr, texnoloji nailiyyətlər, sosial-fəlsəfi konsepsiyalar və strategiyalar, süni intellektlə bağlı araşdırmalar və onların tətbiqi imkanları mərkəzi yer tutur. Siyasi-diplomatik fəaliyyətdə də yeni elmi, sosial, kulturoloji, siyasi, diplomatik texnologiyalardan geniş istifadə nəzərdə tutulur.

Bütövlükdə Azərbaycanın dövlət və cəmiyyət kimi yeni mərhələdə inkişafı tam olaraq "elmiləşir". Bütün istiqamətlərdə elmi yanaşmalar və araşdırmalar ön plana çıxarılır. Bu kurs digər aktual məsələlərlə yanaşı, ölkənin ali elmi strukturu olan Azərbaycan Milli Elmlər Akademiyası qarşısında həm yeni vəzifələr qoyur, həm daha böyük məsuliyyətə dəvət edir, həm də onun özünü yeniləşdirməsi prosesini dövlətçilik baxımından bütün ölkə üçün çox aktual edir. Bu kitabda məsələnin həmin tərəfinin araşdırılması başlıca yer tutur.

### 1.3. *Yeni tarixi mərhələdə strateji inkişaf konsepsiyasının həyata keçirilməsində AMEA-nın yeri və rolu: fəlsəfi-elmi təhlil*

AMEA ən yüksək qiymətini Ulu Öndər Heydər Əliyevin öncə Azərbaycan SSR-ə, 1993-cü ilin iyunundan isə müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə almışdır. O cümlədən, Azərbaycanda elm-dövlət münasibətlərinin fəlsəfəsi və onun hər mərhələdə konkret məzmun alması özəllikləri Ulu Öndər Heydər Əliyev yanaşması zəminində olmuşdur. Qətiyyətlə deyə bilərik ki, elm, elmi fəaliyyətin müasir Azərbaycan

cəmiyyətində rolu, elmin dövlətçiliyə münasibəti kimi vacib məsələlər Ümummilli Lider tərəfindən əsaslandırılmış və sistemli konsept səviyyəsinə yüksəldilmişdir. Akademik İsa Həbibbəylinin "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası" adlı məqaləsində əksini tapmış elmi araşdırmada bu tezis əsaslandırılmışdır[23].

Ulu Öndərin elmə konseptual yanaşması Azərbaycanda XX əsrin ikinci yarısından başlayaraq bu günə qədər elm-dövlət, elm-cəmiyyət, elm-hakimiyyət münasibətlərinin formalaşmasının strategiyasını müəyyən etmişdir. Bu strategiyanın mərkəzində cəmiyyətin elmi əsaslarla formalaşması və inkişaf etdirilməsi durur. Onun həyata keçirilməsini isə sosium-zaman qarşılıqlı əlaqəsi baxımından iki mərhələyə (və ya pilləyə) bölmək olar.

Birincisi, sovet dönəmində Heydər Əliyevin elmin cəmiyyətdə rolunu müəyyən etməsidir.

İkincisi, cəmiyyətin strateji inkişafının bütün sferalarının elmi əsaslara gətirilməsidir.

Bununla bağlı akademik İsa Həbibbəyli yazır ki, Heydər Əliyev "Azərbaycan Sovet Respublikasında rəhbərlik edərkən bu qənaətə gəlmişdir ki, ölkədə uzun illər ərzində dözümlü münasibət bəslənilmiş iqtisadi-mədəni geriliyin aradan qaldırılmasının, bu sahədə əsaslı dönüşə və dirçəlişə nail olmağın əsas yolları və vasitələrindən biri də elmin bütün sahələr üzrə gedən proseslərə daha fəal və məqsədyönlü şəkildə müdaxilə etməsinin və təsir göstərməsinin təmin edilməsi ilə üzvü surətdə əlaqədardır. Ona görə də respublikanı mövcud gerilikdən xilas etmək və ölkəni yeni inkişaf mərhələsinə çatdırmaq məqsədilə elm sahəsində kök salmış ətaləti aradan qaldırmaq istiqamətində kompleks tədbirlər həyata keçirmişdir"[24].

Həmin bağlılıqda 1970-1973-illərdə ən böyük uğur EA-nın Azərbaycan Respublikası və cəmiyyətinin inkişafının elmi məc-

---

[23]Həbibbəyli, İ. Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, - 2023, 01 may. URL: https://science.gov.az/az/news/open/24893. Müraciət tarixi 16.07.2024.
[24]Yenə orada.

rada aparılmasına nail olmaqdan ibarət idi. Onun fonunda EA struktur və funksional olaraq daha da təkmilləşdi, araşdırmalar daha fokuslanmış və məqsədyönlü xarakter aldı. Burada Heydər Əliyevin dövlət-elm münasibətlərinin müasir tələblərə uyğun formalaşdırılmasında özünü göstərən iki mühüm məqamı vurğulamaq lazımdır.

Onlardan biri Ulu Öndərin həmin dövrdə ictimai və humanitar elmlərin inkişafına Azərbaycana xidmət istiqamətində böyük diqqət yetirməsidir. Digəri isə Elmlər Akademiyasının sovetlərin verdiyi imkanlar daxilində beynəlxalq elmi dairələrlə əlaqəsini genişləndirmək, gücləndirmək və faktiki olaraq Azərbaycanın maraqlarına uyğun yenidən təşkilatlandırmaq idi[25].

Sovet dönəmində respublikaların elm sahəsində Moskvadan asılı olmayaraq beynəlxalq əlaqələr qurması olduqca çətin məsələ idi. Buna görə də Bakıda 1973-cü il sentyabrın 25-də "Xarici ölkələrlə elmi-texniki nailiyyətlərin mübadiləsinin genişləndirilməsi haqqında" qərar çıxarılması tarixi hadisə idi.

Həmin sənəd əsasında 1974-cü ildə EA-da xarici əlaqələr şöbəsi yaradılmışdır. Bununla iki imkan meydana gəlmişdir. Birincisi, Azərbaycan EA-nın Moskva vasitəsi ilə xaricə çıxış etmək asılılığına son qoyulmuşdur. İkincisi, Azərbaycan ən yeni elmi nailiyyətlərlə tanış olmaq üçün birbaşa mexanizmə sahib olmuşdur.

Bu bağlılıqda 1974-cü il avqustun 1-də Heydər Əliyevin Azərbaycan KP MK və Nazirlər Sovetinin iclasında "Molekulyar biologiya və molekulyar genetikanın inkişafının sürətləndirilməsi və nailiyyətlərindən xalq təsərrüfatında istifadə edilməsi tədbirləri haqqında" qərarının qəbul edilməsinə nail olması mühüm faktdır. Bununla Azərbaycan EA Qərbdə çox aktual sayılan yeni elmi araşdırmalara çıxış əldə etmişdir. Eyni zamanda, Elmlər Akademiyasının Fizika İnstitutundakı Biofizika laboratoriya-

[25]Bax: Həbibbəyli, İ. Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, - 2023, 01 may. URL: https://science.gov.az/az/news/open/24893. Müraciət tarixi 16.07.2024.

sının nəzdində Molekulyar biologiya və molekulyar genetika sektoru yaradılmışdır. Bu işlərin davamı olaraq 1978-ci il martın 25-də "Azərbaycan SSR Elmlər Akademiyasında təbii resursların, kosmik tədqiqatlar sahəsində işlərin daha da inkişaf etdirilməsi haqqında" qərar qəbul edilməsi ilə radiofizika, radiotexnika istiqamətləri üzrə elmi araşdırmaların yolu açılmışdır[26].

Vurğulanan məqamlar onu göstərir ki, Heydər Əliyev 1970-1980-ci illərdə Azərbaycan Elmlər Akademiyasını yenidən strukturlaşdıraraq onun funksional imkanlarını daha da genişləndirmişdir. Yeni yaradılan tədqiqat şöbələri faktiki olaraq Azərbaycan Elmlər Akademiyasının dünyanın aparıcı elmi araşdırmalara birbaşa çıxışını təmin etmişdir. Bu proseslərin başlıca məqsədi isə elmi Azərbaycan dövlətçiliyi və cəmiyyətinin inkişafına xidmət etməyə istiqamətləndirməkdən ibarət olmuşdur. Ulu Öndər ona yüksək səviyyədə nail olmuşdur. Bu tezisi Azərbaycan Respublikasının müstəqillik dövründə AMEA-nın fəaliyyətinə verdiyi qiymət və onun əldə etdiyi elmi nailiyyətlərin dövlətçiliyə xidmət etməsinin təmini təsdiq edir. O cümlədən, indiki mərhələdə AMEA-nın Azərbaycanın strateji inkişaf kursunda mühüm rol oynamasının ciddi ənənəyə malik olduğunu görmək olar.

AMEA-nın 70 illik yubileyinə həsr edilmiş tədbirdə söylədiyi nitqində Prezident İlham Əliyev müstəqil Azərbaycan Respublikası dövlətinin elmə və elm adamlarına verdiyi qiyməti dəqiq ifadə etmişdir. Dövlət başçısı demişdir: "Bu 70 ildə Akademiya böyük və uğurlu yol keçmişdir. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Kadr hazırlığı işinə də dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır,

---

[26]Bax: Həbibbəyli, İ. Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, - 2023, 01 may. URL: https://science.gov.az/az/news/open/24893. Müraciət tarixi 16.07.2024.

alimlər öz elmi araşdırmalarını apararaq ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər”[27].

Azərbaycan Prezidentinin bu fikirlərində bir neçə maraqlı tezis öz ifadəsini tapmışdır. Birincisi, İlham Əliyev elmə münasibətdə də Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirir. Konkret olaraq elm-dövlət münasibətlərində elmin dövlətçiliyə xidmət etməli olduğu xəttini inkişaf etdirir.

İkincisi, İlham Əliyev bu kontekstdə AMEA-nın fəaliyyətinin mühüm olduğunu bir daha vurğulayır.

Üçüncüsü, Azərbaycan Prezidenti müasir mərhələdə AMEA-nın dövlətçiliyə öz elmi yaradıcılığı ilə töhfə verməkdə davam edəcəyinə tam inanır.

Bunlarla yanaşı, Prezident İlham Əliyev AMEA-nın indiyə qədər olduğu kimi, gələcəkdə də ölkənin hərtərəfli inkişafında fəal rol oynamasını zəruri sayır. Bununla bağlı Azərbaycanın dövlət başçısı demişdir: “Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər”[28].

2015-ci ildə deyilmiş bu fikirlərdən aydın görünür ki, müstəqil Azərbaycan Respublikasının Prezidenti ölkənin strateji inkişafında elmin ciddi rol oynamasını vəzifə kimi alimlərin qarşısında qoymuşdur. Öncəki paraqrafdakı təhlillərin fonunda bu kontekstdə AMEA-nın xüsusi roluna diqqət çəkilməlidir. Çünki AMEA müasir mərhələdə Azərbaycan dövləti üçün elmi strukturlaşmanın rəmzidir. Ulu Öndər Heydər Əliyev sovet dönəmin-

---

[27]İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak edib: [Elektron resurs] // Azərbaycan Prezidenti İlham Əliyev, 09 noyabr 2015. URL: https://president.az/az/articles/view/16703. Müraciət tarixi 18.07.2024.

[28]Yenə orada.

də elmi fəaliyyətin EA daxilində təşkili məsələsini məhz dövlətə xidmətçilik aspektində qoymuşdur. Burada Heydər Əliyev həm EA daxilində elmi araşdırmaların təşkilinə, həm də bu strukturun Qərbin aparıcı elmi dairələri ilə əlaqələrinin yaranmasına böyük önəm vermişdir.

Beləliklə, Ulu Öndər faktiki olaraq müstəqillik mərhələsi üçün AMEA-nın fəaliyyət istiqamətlərini və onların yerinə yetirilməsinin ana xəttini müəyyən etmişdir. Bunlarla yanaşı, yeni tarixi mərhələdə strateji inkişaf konsepsiyasının həyata keçirilməsində AMEA-nın yeri və rolunun təməlində məhz vurğulanan məqamlar dayanır.

Konkret olaraq, yeni tarixi mərhələdə AMEA-nın baş elmi struktur kimi proseslərdə iştirakı fundamental xarakter daşımalıdır. AMEA-nın yeni rəhbərliyinin də həmin istiqamətdə fəaliyyəti tamamilə bu tələbə uyğundur. Biz növbəti fəsildə məsələnin bu aspekti üzərində geniş dayanacağıq. Burada ümumi xarakterli, lakin prinsipial əhəmiyyəti olan bir sıra məqamları vurğulayaq.

İlham Əliyevin həm Azərbaycan üçün yeni tarixi dövr anlayışını məzmunlaşdırmasında, həm də bu çərçivədə ölkənin strateji inkişafının başlıca prinsiplərini müəyyən etməsində elmin çox ciddi rol oynadığını görmək olar. Azərbaycan Prezidenti əsaslı elmi yanaşma prizmasında Azərbaycanın strateji inkişaf kursunu müəyyən etmişdir. Burada dövlət başçısı dəfələrlə elmin, alimlərin bu prosesdə roluna xüsusi önəm vermişdir. AMEA ölkənin baş elmi strukturu kimi, sözsüz ki, bu prosesin önündə getməlidir. Bu baxımdan 2024-cü ildəki fəaliyyətinə "yaşıl dünya" naminə həmrəylik və COP29 kontekstində fəaliyyətinin təhlili çox maraqlıdır.

### 1.4. *"Yaşıl dünya naminə həmrəylik ili" və COP29: AMEA-nın fəaliyyəti*

"Yaşıl dünya" anlayışının AMEA üçün əhəmiyyətli olması təşkilatın yeniləşmə kursunun mahiyyəti ilə bağlıdır. Çünki Azərbaycanın baş elmi təşkilatının rəhbərliyi yeniləşmə fəlsəfəsinin əsas şərti kimi Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursuna xidmət göstərməyi müəyyənləşdirmişdir.

Azərbaycan Prezidentinin ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirdiyi beş Milli Prioritetin məzmunu və reallaşma məqsədlərində əsas məqamlardan biri ekoloji təmiz, yüksək rifaha malik, qüdrətli dövlətçiliyi özündə ehtiva edən "yaşıl ölkə" anlayışından ibarətdir. 2030-cu ilə qədər müddəti nəzərdə tutan strateji sənəddə bu anlayış iqtisadiyyatın dayanıqlılığı, rəqabətqabiliyyətliliyi, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşması, müasir innovasiyaların məkanı, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmağı özündə daşıyan tərəqqini nəzərdə tutur. Aydın görünür ki, bütün bu keyfiyyətlər özlüyündə "yaşıl ölkə" və "yüksək rifah cəmiyyəti" anlayışlarında ümumi mənaya çevrilirlər.

Bundan başqa, Azərbaycan Prezidenti ölkənin strateji inkişafında elmin fəal və fundamental rol oynamalı olduğunu da ayrıca vurğulamışdır. Deməli, məntiqi olaraq, AMEA ölkənin baş elmi təşkilatı kimi Azərbaycanın strateji inkişaf kursu çərçivəsində "yaşıl ölkə" anlayışının nəzəri tədqiqinə və eyni zamanda, praktiki olaraq ona nail olunmasının müxtəlif aspektlərinin araşdırılmasına xüsusi önəm verməlidir.

Buna görədir ki, AMEA-nın qarşıdakı 5 il müddətində yeniləşmə kursunun 7 əsas istiqamətləri fonunda "yaşıl ölkə" anlamı əhəmiyyətli yer tutur. Məsələnin bu cür qoyuluşu prizmasında AMEA-nın "Yaşıl dünya naminə həmrəylik" və həm də COP29 kontekstində fəallığı tamamilə məntiqidir. Vurğulanan kontekstdə 7 prioritet istiqamətin ortaq fəlsəfi mənası üzərində qısa dayanaq.

2024-cü il fevralın 29-da Rəyasət Heyətinin Ümumi Yığıncağında AMEA prezidentinin elan etdiyi 7 prioritet istiqamət aşağıdakıları əhatə edir: 1) azərbaycançılıq; 2) türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsi; 3) rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik; 4) geniş mənada dünya elminə inteqrasiya; 5) "Gənc Akademiya" layihəsinin həyata keçirilməsi; 6) Azərbaycan elmində, o cümlədən Akademiyada doktorantura təhsili; 7) AMEA-da mövcud idarəetmə strukturlarının yeniləşdirilməsi.

Bu istiqamətlər yeni tarixi mərhələnin əsas özəlliklərini nəzərə almaqla 4 fəaliyyət aspektini ehtiva edir.

Birincisi, tədqiqat istiqamətləri. Bu, konkret prioritet istiqamət olaraq tədqiqata üç aspektin vəhdətində yeniləşmə ruhunda yanaşmağa imkan verir. Onlar elmi yaradıcılıq və vətəndaş mövqeyinin qarşılıqlı münasibətlərini (azərbaycançılıq), yaradıcılıqda kollektiv yaradıcı komandanın yaradılması əsasında ən yeni aktual elmi mövzuların tədqiqini (rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik) və elmi fəaliyyətin təşkilatda struktur-funksional islahatların aparılması fonunda yeniləşməsini (AMEA-da mövcud idarəetmə strukturlarının yeniləşdirilməsi) əhatə edirlər.

İkincisi, son məqsədi bütövlükdə dünya elminə inteqrasiyaya nail olmaqla, ayrıca türk dünyasının elmi mühiti ilə əlaqələri maksimum inkişaf etdirmək. Bu yolun seçilməsi ciddi tarixi, mənəvi, mədəni, elmi və dövlət quruculuğu kontekstinə malikdir. Onun tədqiqi ayrıca aparılmalıdır.

Üçüncüsü, elmi fəaliyyət enerjisini yeniləşmək və onu daha potensiallı və müasir mahiyyətli müstəviyə dinamik gətirmək üçün gənclərin elmə cəlb edilməsinə yeni stimul vermək. Bunun üçün AMEA rəhbərliyi "Gənc Akademiya" layihəsini müəyyən etmişdir.

Dördüncüsü, elmlə təhsilin inteqrasiyasına müasir uğurlu doktorantura modellərinin Azərbaycan şəraitinə uyğunlaşdırılması əsasında nail olmaq. Yeri gəlmişkən, bu strateji xarakterli mühüm istiqamətlə bağlı artıq AMEA Rəyasət Heyəti Aparatı-

nın Elm və təhsil şöbəsi çox ciddi təşəbbüslər göstərir, maraqlı araşdırmalar aparır, dünya üzrə nümunələrə baxır və diqqətə layiq təkliflər verir[29].

İndi vurğuladığımız məqamlara AMEA-nın ictimai bölməsinin illik hesabatında yer almış faktların işığında "yaşıl dünya" anlamı kontekstində baxaq. Bunun üçün AMEA-nın bu istiqamətdə fəaliyyətini ümumi xarakterizə edən və fəlsəfi məna yükü olan "yaşıl strategiya" anlayışını daxil edək. Əlbəttə, bu, metaforadır (məcazdır). Son illər müxtəlif siyasi və elmi dairələrdə "yaşıl enerji", "yaşıl ölkə", "yaşıl dünya", "yaşıl strategiya" və s. kimi obrazlı ifadələrdən istifadə olunur. Onların hər birində insan və cəmiyyət miqyasında həyatın sağlam, təmiz ekologiya və humanitarlıq mühitində təşkil edilməsinin müxtəlif aspektləri ifadə olunur. Bu prosesdə isə aparıcı rolu elm oynamalıdır.

Bununla avtomatik olaraq elm üçün ən yeni texnologiyaların tətbiqi ilə cəmiyyətdə onun mümkün nəticələrinin qarşılıqlı əlaqədə tədqiq edilməsi məsələsi çox aktuallaşır. AMEA-nın yeniləşmə kursunda vurğulanan istiqamət ciddi yer tutur. Onun həyata keçirilməsi isə Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf kursunun Milli Prioritetlərindən birinə uyğun aparılır. Həmin prioritet istiqamət belədir: "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi". Onun çərçivəsində iki məqsədə çatılmalıdır:

1) yüksək keyfiyyətli ekoloji mühit;
2) yaşıl enerji məkanı.

Yeri gəlmişkən, onu vurğulayaq ki, AMEA-nın 2025-2030-cu illər üçün hazırlanmış fəaliyyət strategiyasında "təmiz ətraf mühit" və "yaşıl artım" ölkəsi" prioritet kimi ciddi surətdə yer almışdır. Bu o deməkdir ki, AMEA qarşıdakı 5 illik fəaliyyətinin strategiyasında, obrazlı ifadə etsək, "yaşıl strategiya"ya böyük önəm verməyi planlaşdırmışdır.

---

[29]Qurbanov, F.M. Azərbaycanda sosial və humanitar elmlərin perspektivləri. AMEA-nın 2024-cü il fəaliyyəti kontekstində // "Elm" qəzeti, - 2025, № 05 (1445), s. 5.

Hesabat iclasında edilən məruzədən göründü ki, İctimai Bölmə bununla əlaqədar xeyli tədbirlər həyata keçirmişdir. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində dövlət başçısının Sərəncamının icrasına uyğun olaraq, ictimai bölmənin elmi-tədqiqat müəssisələrində 1 beynəlxalq, 2 respublika səviyyəli elmi konfrans, 3 elmi seminar, 6 dəyirmi masa keçirilmiş, 2 kitab işıq üzü görmüşdür.

Həmin çərçivədə "Yaşıl dünya naminə həmrəylik – COP29-un çağırışları və humanitar elmin vəzifələri", "Yaşıl enerji və ekoloji problemlərin fəlsəfəsi", "Azərbaycan gəncliyinin "Yaşıl dünya naminə həmrəylik ili"nə dəstəyi", "Prezident İlham Əliyevin Dövlət idarəçiliyi: COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq nüfuzumuzu göstərən vacib amildir", "Yaşıl enerji və ekoloji problemlərin fəlsəfəsi", "COP29 – Yaşıl strategiya, iqlim dəyişikliyi və sosial elmlər: çağırışlar, vəzifələr", "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Heydər Əliyevin rolu" və s. mövzularda konfranslar, dəyirmi masalar, həmçinin kitab təqdimatları keçirilmişdir.

Bir il müddətində, ümumiyyətlə, Azərbaycan elmi üçün yeni olan bu mövzular üzrə bir neçə tədbir keçirmək az zəhmət tələb etmir. AMEA-nın yuxarıda vurğulanan tədbirlərinin mövzuları göstərir ki, üç aspekt elmi baxımdan sintez halında araşdırılmışdır: yaşıl enerji, ekoloji problemlərin ümumi səviyyədə həlli və ən yeni texnologiyaların tətbiqinin mümkün nəticələri. Onları ümumiləşdirib obrazlı "yaşıl strategiya" adlandıra bilərik[30].

Bütün bunların AMEA-nın 80 illik yubileyi ərəfəsində əhəmiyyəti də kifayət qədər aydın görünməkdədir. Burada yubiley fonunda "yaşıl dünya" və COP29 anlamlarının AMEA-nın Azərbaycan və bütövlükdə müasir dünya üçün aktual olan problemlərə baxışının rəmzi təsiri bağışladığı qənaətinə gəlmək olar.

---

[30]Qurbanov, F.M. Azərbaycanda sosial və humanitar elmlərin perspektivləri. AMEA-nın 2024-cü il fəaliyyəti kontekstində // "Elm" qəzeti, - 2025, № 05 (1445), s. 5.

Vurğulanan nəzəri məqamların işığında indi “yaşıl dünya” və COP29 kontekstində AMEA-nın fəaliyyətinə bir qədər detallı baxaq.

Öncə onu vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan etmişdir. 20 fevral 2024-cü il tarixində “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilmişdir. Bununla çox qısa müddətdə Azərbaycan Prezidentinin “yaşıl dünya ili” ideyası hüquqi, siyasi, mənəvi, mədəni anlamları ilə yanaşı, praktiki-tətbiqi məna çaları da almışdır. “Tədbirlər planının müvafiq bəndlərinin icrasında AMEA icraçı qismində iştirak etmişdir. AMEA-da “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, yaşıl enerji zonası elan olunan işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasında alimlərimiz tərəfindən müxtəlif tədqiqatlar aparılmış, dövlətimizin quruculuq işlərinə öz töhfələrini vermişlər”[31].

“Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi” Tədbirlər Planında AMEA qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

– Azərbaycan Respublikasının şəhər və rayonlarında “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarların keçirilməsi;

– “Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu” adlı elmi-praktiki konfransın təşkil edilməsi;

– Dünya ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvinin və digər dahi Azərbaycan şair və mütəfəkkirlərinin

[31]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 86.

əsərlərində ətraf mühitin qorunması ilə bağlı fikirlərin təbliğ edilməsi;

– İstifadə olunmuş kağızların təkrar emal müəssisələrinə təhvil verilməsi və elektrik enerjisindən qənaətlə istifadənin təbliğ edilməsi[32].

Buradan göründüyü kimi, AMEA Azərbaycanın dövlətçilik və intellektual yaradıcılıq ənənələri kontekstində vacib bir funksiyanı yerinə yetirməli idi. Azərbaycanın dövlətçilik ənənəsində ölkənin ekoloji təmizliyinə cild yer verilməsini təhlil etməlidir. O cümlədən, Ulu Öndərin bu istiqamətdəki fəaliyyəti haqqında elmi təsəvvürləri genişləndirməlidir. Heydər Əliyevin məşhur bir kəlamının "bir ağac kəsiləndə elə bilirəm qolumu kəsirlər" məna çalarları fonunda aparılan siyasətin və həyata keçirilən idarəetmənin müxtəlif elmi aspektləri araşdırılmalıdır.

Bununla yanaşı, Azərbaycan intellektual yaradıcı insanlarının əsərlərində təbiət, ətraf mühit, ekoloji təmizliyin təmini ilə bağlı nümunələrin həm təhlili, həm də təşviqi aparılmalıdır.

AMEA 2024-cü ildə həmin mövzuda həyata keçirdiyi tədbirlərlə bu vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Ümumilikdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində AMEA-nın elmi bölmələri, elmi müəssisələri və təşkilatları tərəfindən 71 tədbir keçirilmiş, 30 kitab, 32 məqalə hazırlanmışdır.

AMEA Rəyasət Heyətinin 21 may 2024-cü il tarixli 15/3 nömrəli qərarı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə 23-24 may 2024-cü il tarixlərində "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda respublika səviyyəsində elmi-praktiki konfrans keçirilmişdir. Konfransda vurğulanmışdır ki, Ulu Ön-

---

[32]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 87.

dər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə ekoloji vəziyyətin sağlamlaşdırılmasına, ətraf mühitin, bioloji müxtəlifliyin mühafizəsinə, təbiətdən səmərəli istifadə olunmasına, bütün müvafiq məsələlərdə elmin iştirakına hər zaman böyük diqqət yetirmişdir. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevin "ekoloji siyasətinin formalaşdırılmasında Azərbaycan alimlərinin əsərlərində qaldırılmış problemlər, onların həlli üçün irəli sürülmüş təkliflər önəmli rol oynamışdır. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən ekologiya sahəsində tutduğu mövqe, apardığı yaşıl örtüyün genişləndirilməsi və zənginləşdirilməsi siyasəti sonralar ölkədə ictimai dünyagörüşünün və şüurun formalaşdırılmasında mühüm rol oynamışdır"[33].

AMEA-nın elmi-tədqiqat institutları da 2024-cü ildə "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə çoxlu sayda tədbirlər həyata keçirmişlər.

Fəlsəfə və Sosiologiya İnstitutunda "Yaşıl enerji və ekoloji problemlərin fəlsəfəsi", "Nəsirəddin Tusi və fəlsəfənin ekoloji problemləri" mövzularında beynəlxalq konfranslar təşkil olunmuşdur. Həmin İnstitutda "Prezident İlham Əliyevin Dövlət idarəçiliyi: COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq nüfuzumuzu göstərən vacib amildir" və "Prezident İlham Əliyevin COP29 siyasətinin sosial psixoloji, etik prioritet istiqamətləri" mövzularında elmi seminarlar, "Fəlsəfə və yaşıl sivilizasiya" mövzusunda dəyirmi masa keçirilmişdir.

Fəlsəfə və Sosiologiya İnstitutunun kollektivi tərəfindən "Süni intellekt: yaşıl dünya və sosial ədalət" (Bakı, 2024, 342 s.) toplusu, "Azərbaycan gəncliyi və yaşıl dünya naminə həmrəylik ili: ekoloji problemlər, süni intellekt və fəlsəfə" (Bakı, 2024, 208 s.) kitabı çap olunmuşdur.

[33]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 88.

Əlyazmalar İnstitutunda akademik Zərifə Əliyevanın anadan olmasının 101 illiyi və "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə "Əlyazmalarda təbiət motivləri və nəbati elementlər" adlı sərgi hazırlanıb təqdim edilmiş, "Klassik Divan ədəbiyyatında bitki obrazı" mövzusunda elmi konfrans keçirilmiş və materialları nəşr edilmişdir.

Folklor İnstitutunda "Azərbaycan folklorunda təbiət kultu" adlı tədbir keçirilmişdir.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda keçirilmiş "Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar" mövzusunda beynəlxalq elmi konfransın iştirakçıları AMEA-nın Nadir ağaclar parkında ağacəkmə aksiyasında iştirak etmişdir.

Memarlıq və İncəsənət İnstitutunda "Memarlıq və incəsənətdə yaşıl dünya" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Nəsimi adına Dilçilik İnstitutunda "Ekolinqvistika: Oğuz qrupu türk dillərində flora və fauna leksikası" (Bakı, 2024, 220 s.) və "Ekolinqvistika: Oğuz qrupu türk dillərində relyef və iqlim leksikası" (Bakı, 2024, 208 s.) kitabları çap olunmuşdur.

Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda "Etnoekologiya – xalqın təbiətə münasibət mədəniyyəti", "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Heydər Əliyevin rolu" mövzularında dəyirmi masalar keçirilmişdir.

Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Ulu Öndər Heydər Əliyevin ekoloji siyasəti" adlı tədbir keçirilmişdir.

AMEA-nın regional bölmələrində də mövzu ilə bağlı müxtəlif tədbirlər təşkil edilmişdir[34].

2024-cü ildə AMEA COP29 tədbirində fəal iştirak etmişdir. Akademiyanın "prezidenti, Rəyasət Heyətinin üzvləri, elmi

---

[34]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 88-91.

müəssisə və təşkilatların rəhbərləri, mütəxəssisləri həm yerli, həm də beynəlxalq səviyyəli iclaslarda məruzələrlə çıxışlar etmiş, müvafiq məqalələr dərc etdirmiş, respublikanın kütləvi informasiya vasitələrində müzakirələrdə, dəyirmi masalarda, dövlət tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmişlər".

COP29 tədbirləri çərçivəsində ölkəmizə gəlmiş Beynəlxalq Elmi Şuranın (ISC) baş icraçı direktoru professor Salvatore Ariko ilə AMEA prezidenti, akademik İsa Həbibbəyli görüşmüş və COP29-da dünyamızın gələcəyi üçün vacib qərarlar qəbul ediləcəyi, o cümlədən elm sahəsində bir sıra müzakirələr aparılacağı üzərində geniş dayanmışdır. Bu kontekstdə akademik İsa Həbibbəyli "humanitar və ictimai elmlərin imkanlarından iqlim dəyişiklikləri kimi qlobal problemlərin həllində istifadə edilə biləcəyini söyləmiş, bu və digər istiqamətlərdə AMEA-nın ISC ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulamış, təklif və mülahizələrini səsləndirmişdir"[35].

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində AMEA-nın üzvü olduğu və 150-dən çox elmlər akademiyasını özündə birləşdirən Akademiyalararası Tərəfdaşlıq Təşkilatının (IAP) ölkəmizdə səfərdə olan nümayəndəsi Dr. Robin Fears ilə görüşündə bir sıra aktual məsələlərə toxunmuşdur. Akademik İsa Həbibbəyli Azərbaycanın COP29 kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etməsinin tarixi hadisə olduğunu və Bakı İqlim Fəaliyyəti Həftəsinin COP29-a hazırlıq üçün mühüm mərhələlərdən biri olduğunu vurğulayaraq bu konfrans vasitəsilə Akademiyanın ölkəmizə gələn dünyanın tanınmış alimləri ilə geniş əlaqələr qurmaq imkanı əldə etdiyini ifadə etmişdir. Bunlarla bərabər tərəflər birgə layihələrdə iştirak imkanları müzakirə etmiş, əməkdaşlıq üçün elmi istiqamətləri müəyyənləşdirmişlər.

---

[35]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 92.

Bunlardan başqa, “12 noyabr 2024-cü ildə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində iştirak etmişdir.

COP29 çərçivəsində dünyanın nüfuzlu elmi mərkəzlərindən biri olan Beynəlxalq Elmi Şura və Almaniyanın Karlsruhe Texnologiya İnstitutunun birgə təşkilatçılığı ilə Bakı Olimpiya Mərkəzində “İqlim elmi: 2024-cü il üçün əsas nəticələr” mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tədbirdə çıxış edərək COP29-un elmi əhəmiyyətindən, əsas gözləntilərdən biri kimi müasir reallıqları özündə əks etdirəcək yeni çağırışların meydana çıxacağına əminliyini ifadə edərək bu beynəlxalq tədbirin ölkəmizdə keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır. AMEA rəhbəri bildirmişdir ki, “Yaşıl dünya naminə həmrəylik ili” və COP29 beynəlxalq tədbirləri cəmiyyətin bütün sahələrində, o cümlədən elmdə də yeni təfəkkür və yeni sivilizasiya yaradır. Azərbaycanda keçirilən COP29 yeni sənaye inqilabının anonsu təsiri bağışlayır”[36].

Noyabrın 4-də AMEA-nın Rəyasət Heyəti, Humanitar Elmlər Bölməsi və İctimai Elmlər Bölməsinin birgə təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik – COP-29-un çağırışları və humanitar elmin vəzifələri” mövzusunda elmi konfrans keçirilmişdir. 16 noyabr 2024-cü ildə AMEA Rəyasət Heyətinin binasında “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-a həsr olunmuş kitab sərgisi açılmışdır.

30 noyabr 2024-cü ildə AMEA Rəyasət Heyətinin iclasında COP29-un yekunlarının müzakirəsinə həsr olunmuş “BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konf-

---

[36]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 92-93.

ransının 29-cu sessiyası – COP29: çağırışlar və AMEA-nın qarşısında duran vəzifələr” mövzusunda müzakirə aparılmışdır[37].

AMEA-nın 2024-cü ildə “yaşıl dünya” mövzusu və ayrıca COP29-da aktiv iştirakı təşkilatın ölkənin strateji inkişaf kursu çərçivəsində yeniləşmə kursunun mahiyyəti və ruhuna uyğun olaraq fəaliyyət göstərdiyini sübut edir. Bununla ölkənin baş elmi təşkilatı öz fəaliyyəti ilə qarşısına qoyduğu elmi məqsədlərə doğru inamla addımladığını bir daha təsdiq etmişdir. AMEA-nın bütün sferalar üzrə fəaliyyəti bu tezisi təsdiq edir.

[37] Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 93-94.

# II FƏSİL

# AMEA-NIN YENİLƏŞMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. *AMEA rəhbərliyinin yeniləşmə kursunun başlıca özəllikləri: müstəqil dövlətçiliyə xidmət nümunəsi kimi*

Azərbaycan Prezidenti tərəfindən yeni tarixi mərhələdə ölkənin strateji inkişaf kursunu müəyyən etmək məsələsinin qoyuluşu şərtləri elmin aparıcı rol oynamasını zəruri edir. AMEA-nın da ölkənin ali elmi təşkilatı kimi bu prosesdə fundamental və aparıcı rol oynaması tamamilə məntiqi gözləntidir. Buna görədir ki, AMEA rəhbərliyi məhz Azərbaycanın strateji inkişaf kursu kontekstində təşkilatın fəaliyyətini yeniləşdirir. Bu zaman rəhbər prinsip kimi Prezident İlham Əliyevin yeni tarixi mərhələdə müstəqil dövlətçiliyin inkişaf etdirilməsi kursu götürülür. Bununla AMEA birbaşa müstəqil dövlətçiliyə xidmət etmək istiqamətini seçmiş olur ki, Ulu Öndər Heydər Əliyevin müasir mərhələdə elm-dövlət münasibətlərini müəyyən etdiyi xəttə tam uyğundur.

Əlbəttə, bu ümumi yanaşma prizmasında AMEA-nın konkret olaraq strateji inkişaf konsepsiyasının həyata keçirilməsində iştirak etməli olduğunu dəqiq müəyyən etmək olduqca vacibdir. Burada biz AMEA-nın üç aspektdə fəaliyyətini xüsusi vurğulamaq istərdik.

Birincisi, Azərbaycanın baş elmi təşkilatı Prezident İlham Əliyevin müəyyən etdiyi yeni tarixi dövrün sosio-humanitar aspektdə geniş və dərin tədqiqini aparır. AMEA rəhbərliyi bu tədqiqlərin fəlsəfi, tarixi, sosioloji, kulturoloji, filoloji və ideoloji aspektləri əhatə etməsini ciddi vəzifə kimi alimlər qarşısında qoymuşdur.

İkincisi, AMEA ölkənin strateji inkişaf strategiyasının bütün istiqamətlər üzrə mütəmadi sosio-humanitar araşdırılmasını həyata keçirir. Bu, geniş və çoxşaxəli bir tədqiqat prosesidir. Özündə faktiki olaraq elmi fəaliyyətin təşkilini, AMEA daxilində tədqiqat institutlarının araşdırma istiqamətlərinin yeniləşdirilməsini və müxtəlif elmi təşkilatlarla AMEA-nın elmi əlaqələrini təkmiləşdirməklə müasir tələblərə uyğun səviyyəyə çatdırılmasını birləşdirir.

Üçüncüsü, AMEA strateji inkişaf konsepsiyası ilə bağlı əldə etdiyi elmi nailiyyətləri daim təkliflər paketi formasında rəsmi orqanlara təqdim edir.

Bu aspektlərin ümumi ruhundan belə alınır ki, AMEA faktiki olaraq yeniləşmiş formada elmi fəaliyyətin təşkili, tədqiqatların aparılması metodologiyası ilə alınan nəticələrin praktiki-tətbiqi istiqamətlərini sintez etməlidir. Burada başlıca məqsəd elmi-nəzəri aspektlə praktiki-tətbiqi aspektin optimal əlaqəsini təmin etməklə bağlıdır.

Əlbəttə, bunlar böyük zəhmət, təşkilatçılıq məharəti və yaradıcılıq tələb edən məsuliyyətli vəzifələrdir. AMEA rəhbərliyi onun öhdəsindən gəlmək üçün çox ciddi addımlar atır və onların uğurlu olduğuna şübhə yoxdur. Həmin amal naminə AMEA davamlı yeniləşmə prosesini aparır və bu əsasda özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Burada iki səviyyədə, lakin bir-biri ilə sıx əlaqədə iki istiqamət reallaşdırılır.

Birinci istiqamət AMEA rəhbərliyinin Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasına uyğun olaraq təşkilatın yeniləşməsinin ümumi prinsiplərini müəyyən etməsi ilə bağlıdır.

İkinci istiqamət isə müəyyən edilən yeniləşmə prinsiplərinin praktiki-tətbiqi aspektdə həyata keçirilməsidir.

Birinci istiqamətin əsasında Azərbaycanın strateji inkişaf konsepsiyasında müəyyən edilmiş Milli Prioritetlər dayanır. Həmin prioritetlərin ruhuna və qarşıya qoyulan hədəflərinə uyğun olaraq AMEA rəhbərliyi aşağıdakı istiqamətlər üzrə 2022-ci ilin

payızından başlayaraq yeniləşmə prosesini ardıcıl olaraq həyata keçirir:

– Ölkənin strateji inkişaf konsepsiyası çərçivəsində qarşıya qoyulan məqsədlərə çevik və keyfiyyətli nail olmaq üçün AMEA-nın struktur-funksional quruluşunda islahatların aparılması;

– Birinci bənddə müəyyən edilən məqsəd kontekstində AMEA-da elmi fəaliyyətin təşkilinin yeniləşməsi;

– İkinci bəndin daha konkret səviyyəsi kimi qəbul edilə bilən elmi-tədqiqat institutlarında Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasına uyğun mövzuların tədqiqinə üstünlüyün verilməsi;

– Bütövlükdə ən müasir yanaşmalardan faydalanmaq üçün AMEA-da rəqəmsallaşdırma və elektronlaşdırma prosesinin keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi;

– Nəhayət, qarşıya qoyulan vəzifələri tam yerinə yetirmək üçün AMEA üçün uyğun beynəlxalq əməkdaşlıq mühitinin yaradılması. Vurğulanan aspektdə ölkənin ali elmi təşkilatının beynəlxalq elmi əlaqələrinin daha da genişləndirilməsi, dərinləşdirilməsi və inkişaf etdirilməsi.

Bu istiqamətlər üzrə səmərəli fəaliyyət göstərmək üçün AMEA rəhbərliyi 7 prioritet müəyyən etmişdir. Onları 2024-cü il fevralın 29-da AMEA Rəyasət Heyətinin Ümumi yığıncağında akademik İsa Həbibbəyli elan etmişdir. Həmin prioritetlər aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir.

2. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində türk dünyası ilə əlaqələri ölkəmizin ən mühüm prioritetlərindən biri kimi müəyyən etməsi Akademi-

yada da türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini tələb edir.

3. Rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizliklə bağlı məsələlərin Akademiyanın Humanitar və İctimai Elmlər bölmələrinin əhatə etdiyi elmi-tədqiqat institutlarının elmi dövriyyəsinə daxil edilməsi yaxın dövrün əsas prioritetlərindəndir.

4. Geniş mənada dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək məqsədilə beynəlxalq elmi təşkilatların işində yaxından iştirak etmək, ölkəmizi yüksək səviyyədə təmsil etmək, dünya elminin ən yeni təcrübələrini Akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirmək lazımdır.

5. Akademiyanın gəncləşdirilməsinin genişləndirilməsi üçün "Gənc Akademiya" layihəsinin həyata keçirilməsinə ehtiyac vardır.

6. Azərbaycan elmində, o cümlədən də Akademiyada doktorantura təhsilinin Qərb modelinə uyğunlaşdırılmasına ehtiyac vardır. Doktorantura özünəməxsus tədris planı, fənn proqramları, kredit vahidləri, dərs sistemi olan bir təhsil səviyyəsinə çevrilməlidir.

7. AMEA-da struktur islahatlarının davam etdirilməsi yolu ilə mövcud idarəetmə strukturlarının yeniləşdirilməsinə nail olmaq yeni tarixi dövrün irəli sürdüyü tələblərdəndir[38].

Prioritetlərin məzmunu göstərir ki, onlar AMEA-nın yeniləşməsində dövlətçiliyə xidməti, strateji inkişaf kursunun başlıca prinsiplərini sistemli nəzərə almaq aspektində müəyyən edilmişdir. AMEA prezidentinin müəyyən etdiyi prioritetlər bütövlükdə müstəqil dövlətçiliyin inkişaf etdirilməsinin başlıca prinsiplərinə və BMT-nin dayanıqlı inkişafla bağlı müəyyənləşdirdiyi əsas şərtlərə uyğundur. Bu bağlılıqda azərbaycançılığın elmi-nəzəri

---

[38]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair məruzə və çıxışlar toplusu Bakı. "Elm". – 2024, – s.10-11.

və tarixi-fəlsəfi əsaslarının araşdırılmasının xüsusi əhəmiyyətli məsələ kimi vurğulanması çox vacibdir.

Eyni zamanda, prioritetlər AMEA daxilində elmi yaradıcılığı və elmi fəaliyyətin təşkilinin yeni səviyyəyə yüksəldilməsi, ayrıca rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizliklə əlaqədar tədqiqatların önə çəkilməsi, AMEA-nın dünyanın müxtəlif elmi mərkəzləri ilə əlaqələrin, xüsusilə Türk dövlətlərinin elmi qurumları ilə əməkdaşlığın inkişaf etdirilməsi zərurətinin vurğulanması bağlılığında düzgün seçimdir.

Dünya elminə inteqrasiya prioritetlərdə ayrıca yer tutur. Bu kontekstdə Akademiyanın gəncləşdirilməsi, doktorantura təhsilinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi və təşkilatda struktur islahatlarının davam etdirilməsi əhəmiyyətli faktorlardır.

Bütün bunlar AMEA rəhbərliyinin yeniləşmə prosesi çərçivəsində prioritet istiqamətləri müasir tələblərə və ölkənin strateji inkişaf kursuna tam uyğun müəyyən etdiyini təsdiqləyir. Biz kitabın müxtəlif hissələrində konkret mövzular üzrə prioritetlərə istinad edəcəyik. İndi onu vurğulayaq ki, öz növbəsində bu istiqamətlərin hər birinin bir neçə tərkib elementləri vardır. Onlara altistiqamətlər və ya tərkib hissələri demək olar. Əhəmiyyətlidir ki, vurğulanan istiqamətlərin hər biri üzrə son 3 ildə konkret və praktiki addımlar atılmaqdadır. Faktlar bu tezisi təsdiqləyir.

Öncə onu vurğulayaq ki, AMEA-da dövlətçiliyə xidmət və konkret olaraq ölkənin strateji inkişaf kursunun tələblərinə uyğun daha sistemli, ardıcıl və fokuslanmış məqsədyönlü fəaliyyət 2022-ci ilin oktyabr ayından özünün yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Bu, əlbəttə şərti bölgüdür, lakin özündə konkret faktları da ehtiva edir. Məsələ ondan ibarətdir ki, AMEA-da strateji inkişaf kursuna uyğun fəaliyyətə istiqamətlənmiş proses təşkilatın rəhbərliyindən idarəetmədə iki məqamı yeniləşdirməyi tələb edirdi.

Birincisi, ölkənin ali elmi təşkilatının nəzəri-konseptual əsasda fəaliyyət strategiyası hazırlanmalı idi.

İkincisi, həmin konsepsiya üzrə geniş miqyaslı, əhatəli, elmi-təşkilati fəaliyyətin bütün aspektlərini özündə birləşdirən praktiki fəaliyyət proqramları hazırlanmalı idi.

Bu iki aspektin sintezi o zaman uğurlu ola bilərdi ki, hər şeydən öncə, ən incə detallarına qədər dövlətçiliyin Heydər Əliyev xəttinə tam uyğun olsun. Eyni zamanda, İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf konsepsiyasının əsas prinsiplərinə və tələblərinə xidmət etsin.

Nəhayət, bu kimi məsuliyyətli konseptual-nəzəri vəzifənin öhdəsindən gəlmək üçün real proqramlara söykənmək zəruri idi.

Daha geniş prizmada bu, faktiki olaraq, AMEA kimi böyük bir təşkilatda sistemli, ardıcıl, dövlətçi yeniləşməni həyata keçirmək işinə başlamaq demək idi. Həm də AMEA-nın yeniləşməsi fəlsəfəsi şəffaf islahatlar prosesi kimi aparılmalı idi. Bütün bunların tam və real ifadəsi məhz AMEA-nın yeni prezidenti, akademik İsa Həbibbəylinin işə başlaması ilə, yəni 2022-ci il oktyabrın 25-dən görünməyə başladı.

Bu prosesin gedişində ölkənin strateji inkişaf konsepsiyası kontekstində AMEA-nın əhatəli yeniləşməsi kursunun çox maraqlı özəlliklərinin formalaşdığını təhlil etmək gərəkdir.

Xüsusilə, “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” adlı sənədin məzmunu, hədəfləri və icra mexanizmləri ilə bağlı AMEA rəhbərliyinin atdığı addımlar işığında bu təşkilatın yeniləşməsi fəlsəfəsinin əhəmiyyətli cəhətlərini aydınlaşdırmaq mümkündür. Həmin xüsusiyyətlərin dərki fonunda AMEA-nın yeniləşməsi və inkişafının dövlətçiliyə, ölkənin strateji inkişaf kursuna xidmət etdiyi aydınlaşır. Faktlara söykənərək vurğulanan məqamların üzərində geniş dayanmağa ehtiyac vardır.

AMEA-nın yeni rəhbərliyi fəaliyyətində Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına aid olan konkret sənədlərə əsaslanır. Məlumdur ki, 2022-ci il iyulun 22-də Azərbaycanın dövlət başçısı “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nı təsdiq etmişdir. Onu qeyd etmək vacibdir ki, “Azərbaycan Respublikası-

nın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən olunmuş prioritetlərə söykənir. Yəni burada söhbət Prezident İlham Əliyevin müəyyən etdiyi kurs üzrə strateji inkişafın həyata keçməsinin mərhələlərindən gedir. Bu sənədin təsdiqi ilə bağlı Prezidentin verdiyi Sərəncamda isə deyilir: "3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.2. icrası davam etməkdə olan konsepsiya, strategiya, dövlət proqramı, milli fəaliyyət planları və bu kimi digər sənədlərin Strategiya ilə əlaqələndirilməsi istiqamətində zəruri tədbirlər görsün"[39]. Bu o deməkdir ki, faktiki olaraq "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçməsi "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin qarşıya qoyduğu vəzifələrin həll edilməsi aspektində mühüm rola malikdir. Buna görə də, AMEA-nın həmin sənəddə əsas icraçı qurumlardan biri kimi müəyyən edilməsi tamamilə məntiqidir.

Bütün bunlara görə, AMEA rəhbərliyinin Strategiyanın Tədbirlər Planının icrasını müzakirə edib, konkret fəaliyyət proqramını və İşçi Qrupunu müəyyən etməsinin çox müxtəlif aspektlərdə əhəmiyyətini aydın anlamaq üçün "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məzmunu, hədəfləri, məqsədi və konkret müddəaları üzərində geniş dayanmaq zəruridir. Məsələnin bu tərəfinə 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf strategiyasının 5 Milli Prioritetinin fəlsəfi məzmununu açmalıyıq. Onların başlıca strateji məqsədi qüdrətli dövlət və yüksək rifah cəmiyyəti yaratmaqdan ibarətdir. Burada dövlətlə cəmiyyətin müasir nəzəri konsepsiyalarda çox ciddi yer tutan harmonik və bir-biri ilə vəhdətdə inkişafını təmin edən yanaşma diqqətə alınır. Dövlətin qüdrəti ilə cəmiyyətin rifahını (və ya fəzilətliliyini) birləşdirən məqam ölkə-

[39]"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] // URL:https://e-qanun.az/framework/50013. Müraciət tarixi 23.07.2024.

nin özünəxas "Umwelt-dünya" olmasıdır. "Umwelt-dünya" müasir fəlsəfədə bütün sferalarda maksimum inkişaf potensialını saxlayan və onu kreativ inkişaf etdirən, təmiz ekoloji mühitə malik məkanı ifadə edir. Baxılan halda Azərbaycanın strateji inkişaf modeli çərçivəsində "Umwelt-dünya"mız güclü dövlətin qüdrəti ilə güclü cəmiyyətin fəzilətinin vəhdətinin ifadəsi kimi "qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"dir!

Strateji sənədə görə, bu nümunəvi dövlət 5 əsas xarakteristik əlamətə malik olmalıdır. Onlar insan (insan kapitalı mərkəzli müasir innovasiyalar məkanı), cəmiyyət (dinamik, inklüziv və sosial ədalətli), iqtisadiyyat (dayanıqlı artan rəqabətqabiliyyətli), dayanıqlı və ölkə üzrə tam paylanmış demoqrafik mühit (işğaldan azad olunmuş ərazilərə böyük qayıdış) və "yaşıl" ölkədir (təmiz ətraf mühitli və "yaşıl artım" məkanı). Qüdrətli dövlət və yüksək rifahlı cəmiyyət "yaşıl artım" məkanı olmalıdır.

5 əsas əlamət həm də həyata keçirilməli prioritetlərdir, yəni onlar stabil vəziyyəti deyil, dinamik prosessuallığı ifadə edirlər. Həmin keyfiyyətdə prioritetlərin 4-ü müəyyənedici (1-ci, 2-ci, 4-cü və 5-ci prioritetlər) biri isə təminedicidir (3-cü - rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı).

İnsan kapitalının mərkəzində dayandığı müasir innovasiyalar məkanı olmaq prioritetinin təminedici faktor olması, bütövlükdə strateji inkişaf konsepsiyasının tam elmi əsasa malik olduğunu təsdiq edir. Bu tezisin işığında AMEA-nın məhz 3-cü prioritet istiqamət üzrə əsas icraçı təşkilatlardan biri və bir sıra altistiqamətlərdə icraçı kimi müəyyən olunması yalnız rəmzi məna daşımır. Bu həm də vurğulanan konsepsiyanın elmtutumlu olmasının məsuliyyətini daşıdığını və icra prosesini ehtiva etdiyini göstərir. Məsələnin bu aspekti üzərində konkret faktlar əsasında geniş dayanaq.

Beləliklə, AMEA "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təminedici istiqaməti olan "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" Milli Prioritetinin həyata keçirilməsində əsas rol oynamalıdır. AMEA konkret olaraq həmin istiqamətin iki məqsədi-

nə – 1) XXI əsrin tələblərinə uyğun təhsil; 2) yaradıcı və innovativ cəmiyyətin formalaşması, məqsədlərinə çatması üçün fəaliyyət göstərməlidir.

Bu məqsədlərin hər birinin konkret nəticələri olmalıdır. Məsələn, "XXI əsrin tələblərinə uyğun təhsil" məqsədinin nəticələrindən biri 2026-cı ilə "elmi tədqiqatların artması və qlobal elmi məkana inteqrasiya" olmalıdır (bu nəticə "elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi" adlı fəaliyyət istiqaməti çərçivəsində alınmalıdır).

Yaradıcı və innovativ cəmiyyətin formalaşması məqsədinin isə nəticələrindən biri "yüksək və orta-yüksək texnoloji sənayenin əlavə dəyərinin ümumi əlavə dəyərdə xüsusi çəkisi" 2020-ci ilin 10,1%-dən 2026-cı ildə 15%-ə yüksəlməlidir" (bu nəticə "innovasiya ekosisteminin inkişafı" adlı fəaliyyət istiqaməti çərçivəsində alınmalıdır) və s.

Onu nəzərə alaq ki, sənəddə 2023, 2024 və 2025-ci illər icra baxımından aralıq mərhələ kimi müəyyən edilmişdir.[40] Yəni 2022-ci il ilk mərhələ kimi strategiyanın reallaşması üçün prinsipial əhəmiyyət kəsb edirdi. AMEA-nın yeni rəhbərliyinin bu baxımdan çevik və səmərəli fəaliyyət göstərdiyi aydın olur.

Bu fikirlərin fonunda "XXI əsrin tələblərinə uyğun təhsil" məqsədi çərçivəsində AMEA-nın məsuliyyət məkanına "elm və təhsilin inteqrasiyasının təmini", "qlobal elmi məkana inteqrasiya", "elmi tədqiqatların və innovasiyaların inkişafı", "elmi tədqiqatların artması" kimi çox əhəmiyyətli fəaliyyət istiqamətlərinin daxil olması ölkənin ali elmi təşkilatına olan etibarın və həm də strategiyanın reallaşmasında onun fundamental rol oynamasının ifadəsidir.

Eyni qənaət "yaradıcı və innovativ cəmiyyətin formalaşması" məqsədinə nail olmaqda AMEA-nın yeri və rolunun

---

[40]"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] // URL:https://e-qanun.az/framework/50013. Müraciət tarixi 23.07.2024.

məzmunundan alınır. Belə ki, həmin məqsəd çərçivəsində "yüksək və orta-yüksək texnoloji sənaye", "innovasiya ekosisteminin inkişafı" kimi mühüm fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

AMEA-nın fəaliyyəti kontekstində bu iki məqsəd daxilində görülməli işləri ümumiləşdirsək, belə nəticə alarıq ki, 2026-cı ilə qədər Azərbaycanda "innovasiya ekosistemi" yaradılmalıdır ki, onun başlıca əlamətləri sırasında elm və təhsilin inteqrasiyası, yüksək texnologiyalar, qlobal elmi məkana inteqrasiya kimi strateji xarakterli faktorlar xüsusi yer tuturlar. Bu baxımdan AMEA həmin nəticələrə nail olmağın əsas icraedici strukturu kimi qəbul edilmişdir! Bizcə, yüksək etimaddır!

Sonra "XXI əsrin tələblərinə uyğun təhsil" məqsədi çərçivəsində AMEA "elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılması" istiqaməti üzrə əsas icraçıdır. Onunla bərabər bu istiqamətdə 4 mühüm dövlət orqanı və təhsil ocaqları da çalışmalıdırlar. Bu, faktiki olaraq geniş yaradıcı və praktiki-tətbiqi fəaliyyət komandasının yaradılması və ona AMEA-nın rəhbərlik etməsi anlamına gəlir. Əlbəttə, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-ya verdiyi yüksək qiymət, etimad və etibarın göstəricisidir.

AMEA-nın "Azərbaycan elminin daha da inkişafı və dünya səviyyəsində mövqeyinin yüksəlməsi" fəaliyyət istiqaməti üzrə də vacib bir funksiya yerinə yetirməli olduğu sənəddən görünür. Məsələn, "beynəlxalq impakt faktorlu jurnallarda çap olunan məqalə sayının artırılması istiqamətində təşəbbüslərin dəstəklənməsi" vəzifəsini yerinə yetirmək üçün AMEA Elm və Təhsil Nazirliyi ilə bərabər aparıcı rol oynamalıdır. Bunun nəticəsi isə 2026-cı ildə "beynəlxalq impakt faktorlu jurnallarda məqalə çapında müsbət dinamikanın formalaşması" olmalıdır.

"Yaradıcı və innovativ cəmiyyət" məqsədi üzrə "əqli mülkiyyət hüquqlarının beynəlxalq səviyyədə qeydiyyatının stimullaşdırılması" və "patent məlumatlarının beynəlxalq göstəriciləri əsasında ölkənin texnoloji profilinin (patent landşaftının)

və tədqiqat istiqamətlərinin müəyyən edilməsi və texnologiya inkişaf səviyyəsinin qiymətləndirilməsi" fəaliyyət istiqamətləri üzrə AMEA icraçılar sırasındadır. Bunlarda nəticələr "yaradıcı sənayenin, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də xüsusi çəkisinin davamlı artması" və "dünyanın aparıcı ölkələri ilə texnoloji inkişaf məsafəsinin azalması" olmalıdır (2026-cı ilə).

Vurğulanan bütün bu məqamları strateji sənədin terminoloji müstəvisində bir qədər ümumi formada ifadə edək. AMEA strateji inkişaf kursunun həyata keçirilməsi prosesində elmi-tədqiqat potensialının müasirləşdirilməsi və tətbiq yönlü tədqiqatların genişləndirilməsi istiqamətləri üzrə fəal iştirak etməlidir. Müasir texnologiyaların tətbiqi imkanlarının daha da genişləndirilməsi və həmin prosesdə əqli mülkiyyətin rolunun artırılmasında əhəmiyyətli yer tutmalıdır.

Rəqəmsal texnologiyaların tətbiqi perspektivləri yüksək bilik və bacarıqları olan insan resurslarına tələbi artırması fonunda iki strateji xəttin həyata keçirilməsində AMEA həlledici rol oynamalıdır. Onlardan biri təhsilin yeni məzmununun formalaşdırılması, digəri isə mövcud insan resurslarının yenidən təkmilləşdirilməsi üçün ömür boyu təhsil imkanlarının yaradılması ilə əlaqəlidir.

AMEA bütün sferalar üzrə əqli fəaliyyətin nəticələrinin, innovasiya və yaradıcılığın təşviqi üzrə ön sırada olmalıdır. O cümlədən, yaradıcı və müasir rəqəmsal texnologiya biliciləri arasında əməkdaşlıq yaranmasında aparıcı rol oynamalıdır.

Elmtutumlu cəmiyyətin müasir texnologiya və innovasiyaların həm yaradıcısı, həm də istifadəçisinə çevrilməsi üçün AMEA fundamental tədqiqatlar aparmalıdır. Bunun üçün:

- rəqəmsal texnologiyaların tətbiqi imkanları genişləndirilməlidir;
- elmin müxtəlif sahələri üzrə tədqiqatlar genişləndirilməlidir;
- təhsilin bütün səviyyələrində təhsil alanlara rəqəmsal biliklər aşılanmalıdır;

- rəqəmsal akademiya yaradılmalıdır.[41]

Sənəddə o da vurğulanmışdır ki, 2022-2026-cı illərdə 2030-cu ildə nail olunmalı məqsədlərə çatmağın “təməl şərtləri işə salınmalıdır”[42].

Bütün bunlar faktiki olaraq 2022-ci ildən başlayaraq AMEA-nın yeniləşməsi istiqamətlərini, onun məzmununu, məqsədlərini və konkret fəaliyyət sərhədlərini müəyyən edir. Təbii ki, ən ümumi səviyyədə AMEA-nın bir elmi təşkilat kimi dövlətçiliyə xidmət etməsi əsas yer tutur. Bu xidmət konkret olaraq Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu çərçivəsində predmetləşməli, praktiki funksionallaşmalıdır. Onun da tərkibində “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın müddəaları, tələbləri və şərtləri çərçivəsində AMEA-nın üzərinə düşən vəzifələr, fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Beləliklə, “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” sənədinin qısa təhlili belə AMEA-nın yeniləşməsinin ümumi mənzərəsini təsəvvür etməyə imkan verir. Bu mənzərənin bir qədər də konkret səviyyədə dəqiq özəlliklərini müəyyən etmək olar. Həmin məqsədlə strateji inkişaf konsepsiyası fonunda AMEA-nın struktur-funksional yeniləşməsinin özəlliklərinə həyata keçirilən tədbirlər kontekstində baxaq. Bu, həm də AMEA Rəyasət Heyətinin 2022-ci il dekabrın 29-da Strategiyanın Tədbirlər Planının AMEA-nın əsas icraçı olduğu bəndlərin icrası üçün İşçi qrupunun yaradılması ilə bağlı verdiyi qərarın strateji əhəmiyyətini aydın təsəvvür etməyə imkan verəcəkdir. Həmin aspektdə AMEA rəhbərliyinin çevik dövlətçi fəaliyyətinin incəlikləri daha dəqiq təsəvvür edilə biləcəkdir.

---

[41]“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] // URL:https://e-qanun.az/framework/50013. Müraciət tarixi 23.07.2024.

[42]Yenə orada

## 2.2. *Strateji inkişaf konsepsiyası fonunda AMEA-nın struktur-funksional yeniləşməsinin xüsusiyyətləri*

Öncəki paraqrafda aparılan təhlil göstərir ki, AMEA rəhbərliyi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" istiqamətində ardıcıl və sistemli addımlar atır. AMEA Rəyasət Heyətinin 29 dekabr 2022-ci il tarixli qərarında yazılır ki, Strategiyanın Tədbirlər planının AMEA-ya aid olan fəaliyyət istiqamətləri üzrə İşçi qrupu yaradılmışdır. Həmin fəaliyyət istiqaməti "elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi"dir və ona bağlı "elmi potensialın gücləndirilməsi sahəsində təşviq mexanizmlərinin formalaşdırılması"dır[43].

Bu qərar strateji inkişaf konsepsiyası fonunda AMEA-nın struktur-funksional yeniləşməsinin başlıca özəlliklərinin əsasını qoymuşdur. AMEA rəhbərliyinin fəaliyyəti o dərəcədə əhatəli, əsaslı, dərin və məqsədyönlü olmuşdur ki, ali elmi təşkilatın dövlətçiliyə xidmətinin yeni mərhələsindən danışmaq mümkündür. Bu fəaliyyətin fəlsəfəsi və elmi-nəzəri xüsusiyyətləri araşdırılmalı və AMEA tarixində tutduğu yer və oynadığı rol təhlil olunmalıdır. Gəldiyimiz qənaətin doğruluğuna 2022-ci il oktyabrın 25-dən başlayaraq ardıcıl reallaşan struktur-funksional, elmi-təşkilati, elmi yaradıcı və beynəlxalq elmi əlaqələr üzrə yeniləşmələr əminlik yaradır.

Biz məsələyə məhz bu dərəcədə ciddi elmi əsaslar üzərində baxmağın görülən işlərin və hələ davam edən yeniləşmə proseslərinin adekvat dərkinə imkan yaratdığına tam inanırıq. Konkret faktların təsvirinə və təhlilinə keçməzdən öncə ümumfəlsəfi xarakterli bir sıra tezisə nəzər salaq.

Ümumi səviyyədə, 2022, 2023 və 2024-cü illərdə AMEA-nın indiki rəhbərliyinin fəaliyyətinin islahatlar və yeniləşmələr

---

[43]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 205.

kontekstində əsaslandırılmış fəlsəfəsi mövcud olmuşdur. Bu fəlsəfə müxtəlif yeniləşmə istiqamətlərinin qarşılıqlı əlaqəsi üzərində qurulmuşdur. Əsas ümumi prinsip dövlətçiliyə xidmətdir. Onun reallaşma çərçivəsi strateji inkişaf kursudur. Strateji inkişaf kursu daxilində hazırda gündəmdə olan sənəd "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" adlı sənəddir. Bu sənəd strategiyanın reallaşmasının "aralıq illəri" kateqoriyasına aid olan 2022-ci ildən başlayır. Deməli, əslində AMEA-nın yeniləşmə fəlsəfəsi aralıq illərində elə islahatların aparılmasını nəzərdə tutur ki, "final ili" olan 2026-cı ildə qarşıya qoyulan məqsədə çatılsın. Həyata keçirilən tədbirlər göstərir ki, AMEA rəhbərliyi bu gerçəkliyi çox gözəl və dolğun nəzərə alaraq yeniləşmə istiqamətlərini məzmunlaşdırır.

Deməli, yeniləşmə kursunun fəlsəfəsi dinamikdir və konkret hədəfə fokuslanmışdır. Proseslərin dinamizmi son nəticədə əsas məqsədə çatmağa imkan verməlidir. Bu baxımdan 2022-ci ildən başlayaraq həyata keçirilən hər bir yeniləşmə faktoru statik deyil, dinamik yeni mühit yaratmağa xidmət edir. Bu aspektdə AMEA-nın yeniləşməsini təşkilatın mürəkkəb sistem olaraq özünütəşkilinin yeni mərhələsi kimi təsəvvür edə bilərik. Bu təsəvvür AMEA rəhbərliyinin müasir sinergetik qanunauyğunluq çərçivəsində geştalt inkişaf keçidlərinə (hər mərhələsində və istiqamətində fraqmentar deyil, tam, sistemli keçidlər) nail olmaq planının olduğunu göstərir. Əlbəttə, bu, çox çətin vəzifədir, lakin müasir mərhələdə dövlətçiliyə xidmətin asan tərəfi mövcud deyildir.

Bu kontekstdə AMEA-da yeniləşmə kursunun fəlsəfəsinin başqa bir özəlliyini vurğulamaq yerinə düşərdi. Təşkilatın struktur-funksional yeniləşməsi ilə sosio-humanitar elmlərin hər bir sferası üzrə aparılan elmi tədqiqatlar və beynəlxalq əlaqələrin inkişaf etdirilməsi xətti arasında sıx bağlılıq təmin edilir. Bu mühüm nəticəyə nail olmaq üçün AMEA rəhbərliyi elmi kommunikasiyanın ən müasir üsullarından – rəqəmsallaşdırma və elektronlaşdırmadan geniş istifadə edir. Başqa sözlə, AMEA-da struktur-funksional yeniləşmə öncədən müəyyən edilmiş dəqiq

məntiq  və məqsəd üzrə aparılır. Burada başlıca məqsəd yeni struktur vahidlərinin təşkilatın elmi fəaliyyətində strateji inkişaf kursuna daha uyğun yeni imkanlar yaratmasından ibarətdir.

Həmin kontekstdə də yeniləşmənin başqa bir mühüm cəhəti özünü göstərir. Bu cəhət nəzəri tədqiqatların tətbiqi yönlü olması ilə bağlıdır. Yəni AMEA elmi araşdırmalarının kreativliyini innovativ aspektdə təsdiq etmək xəttini seçmişdir. Məlumdur ki, müasir fəlsəfədə "kreativlik" başqa mənaları ilə yanaşı, yaradıcılığın cəmiyyətə praktiki tətbiqi nəticəsində innovasiya kimi qiymətləndirilməsinin özünü ehtiva edir. Yəni nəzəri yaradıcılıq o zaman kreativ hesab olunur ki, onun praktiki tətbiqinin verdiyi nəticələri uyğun monitorinq və qiymətləndirmə qrupları innovasiya kimi qəbul edirlər. Bu cür praktiki yönlü fəaliyyət AMEA-nın strateji inkişaf kursuna real xidmətinin əsas göstəricilərindən biridir.

AMEA-nın yeniləşməsinin məntiqində elmin təşviqinə xidmət edən məşhur alimlərlə, məsələn, Nobel mükafatı laureatları ilə müntəzəm görüşlərin və təcrübə mübadiləsinin təşkil edilməsi xüsusi yer tutur.

Başqa bir cəhət gənc alimlərin strateji inkişaf konsepsiyasının reallaşmasına daha intensiv və əsaslı cəlb edilməsi ilə bağlıdır.

Nəhayət, indiki mərhələdə AMEA-nın yeniləşməsində azərbaycançılığın tədqiqi və Türk Dövlətləri Təşkilatına (TDT) üzv olan ölkələrin elmi qurumları ilə daha geniş və dərindən əlaqələrin təşkili ayrıca yer tutmaqdadır. Lakin bu istiqamətdə fəaliyyət yalnız TDT çərçivəsi ilə məhdudlaşmır, bura Çin, Pakistan, Gürcüstan, Avropa və ABŞ-ın aparıcı elmi qurumları da daxildir.

Bütün bu ümumi istiqamətlərin fonunda konkret faktlara baxaq. 2022-ci il dekabr ayının 17-21 tarixlərində AMEA-nın prezidenti İsa Həbibbəyli Pakistan İslam Respublikasında işgüzar elmi səfərdə olmuşdur. Səfərdə bir qrup Azərbaycan alimi də iştirak etmişdir. AMEA Rəyasət Heyəti səfərin nəticələrini müzakirə edərək Lahor Dövlət Kollec Universiteti ilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu arasında əlaqələrin ya-

radılması qərarına gəlmişdir. Konkret olaraq, Lahor Dövlət Kollec Universitetində yeni açılmış "Azərbaycan-Urdu Elmi Mərkəzi" ilə Ədəbiyyat İnstitutunda yaradılmış "Pakistan Mərkəzi" arasında əməkdaşlıq razılaşdırılmışdır. Bu əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı, Nəsimi adına Dilçilik İnstitutuna Azərbaycan-Urdu dillərində lüğətin hazırlanması istiqamətində işlərin sürətləndirilməsi tapşırılmışdır. Bütövlükdə belə qərara gəlinmişdir ki, AMEA ilə Pakistanın elmi qurumları ilə əlaqələrin inkişafı istiqamətində kompleks şəkildə tədbirlər planlaşdırılsın.

Akademik İsa Həbibbəyli 2023-cü il 25-29 yanvar tarixlərində Türkiyəyə səfəri zamanı elmi əməkdaşlığa dair əhəmiyyətli razılaşmalar əldə etmişdir. Belə ki, AMEA prezidenti "səfər çərçivəsində Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti, professor Müzəffər Şəkərlə, Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının (AASSA) prezidenti, professor Əhməd Nuri Yurdusevlə, dünya şöhrətli türkoloq alim, professor Əhməd Bican Ərcilasunla, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun rəhbəri professor Yüksel Özgenlə, Türkiyə Elmi və Texnoloji Araşdırma Qurumunun (TÜBİTAK) rəhbəri Hasan Mandalla və Hesabat Avrasiya Yazarlar Birliyinin başqanı Yaqub Öməroğlu ilə görüşlər keçirmişdir"[44].

Həmin səfərin nəticələri AMEA Rəyasət Heyətinin 30 yanvar 2023-cü il tarixində keçirilmiş iclasında müzakirə olunmuş və AMEA-nın elmi əlaqələrinin inkişaf perspektivləri baxımından əhəmiyyətli olduğu vurğulanmışdır. Alınan qərarla Azərbaycanla Türkiyə arasında "elmi əməkdaşlığın genişləndirilməsi, xüsusən, ictimai və humanitar elmi istiqamətlər üzrə birgə tədqiqatların, elmi və elmi-təşkilati tədbirlərin həyata keçirilməsi" gərəkliliyi vurğulanmışdır[45]. Bu sırada  Ümummilli Lider Heydər Əliyevin və Türkiyənin 100 illik yubileyləri ilə bağlı AMEA-nın

[44]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 208-207.
[45]Yenə orada, s. 207.

təşkilatçılığı ilə keçiriləcək beynəlxalq konfranslarda qardaş ölkənin tanınmış alimlərinin iştirakının təmin edilməsi lazımlığı qeyd edilmişdir.

AMEA rəhbərliyi gənc alim və mütəxəssislərin beynəlxalq elmi əlaqələrinin genişləndirilməsi, onların dünyanın nüfuzlu elmi mərkəzlərində təcrübə keçmələri məsələlərinin həlli istiqamətində tədbirlərin həyata keçirilməsini də diqqətdə saxlamışdır. Azərbaycanın gənc alimlərinin elmi nəticələrinin Springer, Elsevier, Scopus, o cümlədən Thomson Reuters kimi nüfuzlu beynəlxalq elmi bazalara daxil olan jurnallarda nəşri fəaliyyətinin gücləndirilməsi, gənclərin innovativ yönümlü tədqiqat işlərinin aparılmasına cəlb olunması və s. istiqamətlərdə konkret tədbirlər həyata keçirilməsini gündəmə gətirmişdir. Bu istiqamətdə hüquqi addım atılaraq AMEA Rəyasət Heyətinin 3 iyun 2022-ci il tarixli 11/2 nömrəli qərarı ilə AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının 2022-ci il üçün illik Fəaliyyət Planı təsdiq edilmişdir[46].

Bu prosesi davam etdirərək təşkilatın rəhbərliyi AMEA Rəyasət Heyətinin 3 fevral 2023-cü il tarixli iclasında ölkənin ali elmi qurumunun elmi müəssisə və təşkilatlarının rəhbərlərinə gənc alimlərin inkişafına bu istiqamətdə qəbul edilmiş müvafiq dövlət sənədlərinin tələblərinə uyğun dəstək verilməsini qərara almışdır. Gənclərin elmi fəaliyyətini təşviq etmək üçün “İlin gənc alimi” mükafatı təsis edilmişdir. Gənclərin elmi fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün AMEA rəhbərliyi konkret tədbirlər planı hazırlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında 6 dekabr 2022-ci il tarixli 3632 nömrəli Sərəncamının icrasına AMEA çox məsuliyyətlə və ciddi yanaşmışdır. AMEA Rəyasət Heyəti 3 dəfə - 6 dekabr 2022-ci il, 14 dekabr 2022-ci il və 16 yanvar 2023-cü il

---

[46]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 207.

tarixlərində Sərəncamdan irəli gələn icra məsələləri içərisində AMEA-nın üzərinə düşən vəzifələri müzakirə etmiş və dəqiq fəaliyyət planı hazırlayıb, onu təsdiq etmişdir[47].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə söylədiyi dərin məzmunlu nitqindən irəli gələn vəzifələrlə bağlı AMEA Rəyasət Heyətinin 29 dekabr 2022-ci il tarixli iclasında akademik İsa Həbibbəyli "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşdəki nitqi və AMEA-nın vəzifələri haqqında" məruzə ilə çıxış etmişdir. Bu məruzədə irəli sürülən fikirlər əsasında qəbul edilən qərarda deyilir: "AMEA-nın elmi müəssisə və təşkilatlarına Qərbi Azərbaycanla bağlı müxtəlif elmi istiqamətlər üzrə tədqiqatların genişləndirilməsi, bu tədqiqatların Qərbi Azərbaycan İcması ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilməsi, Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərin beynəlxalq miqyasda təbliği, xarici mütəxəssislərin iştirakı ilə beynəlxalq və respublika səviyyəli konfrans, simpozium və seminarların keçirilməsinin təmin edilməsi tapşırılmışdır. Qərbi Azərbaycanla bağlı tədqiqatların daha sistemli həyata keçirilməsi üçün müvafiq struktur vahidlərin yaradılması məqsədəuyğun hesab edilmişdir"[48].

Bu vəzifənin öhdəsindən gəlmək üçün AMEA rəhbərliyi uyğun struktur yeniləşməsini həyata keçirməyə başlamışdır. Konkret olaraq, müvafiq struktur vahidləri yaradılmışdır. Tarix, Folklor və Dilçilik institutlarının strukturunda Qərbi Azərbaycanla bağlı "Qərbi Azərbaycan tarixi", "Qərbi Azərbaycan folkloru" və "Toponimika" şöbələri formalaşdırılmışdır.

AMEA-da Qərbi Azərbaycanla bağlı tədbirlər, yeni struktur vahidlərinin yaradılması ilə məhdudlaşmır. 16 yanvar 2023-cü ildə AMEA Rəyasət Heyətinin qərarı ilə Qərbi Azərbaycan təd-

---

[47]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 208-209.
[48]Yenə orada, s.209.

qiqatları üzrə Əlaqələndirmə şurası yaradılmışdır. Şura AMEA-da və bütövlükdə Azərbaycanda Qərbi Azərbaycanla bağlı aparılan tədqiqatların əlaqələndirilməsi və sistemli koordinasiyasını həyata keçirməlidir. Şuranın sədri akademik İsa Həbibbəyli seçilmişdir. 2023-cü ilin fevral ayında Əlaqələndirmə şurası ilk iclasının keçirmişdir[49].

Ümumiyyətlə, AMEA-nın yeniləşməsində yeni struktur vahidlərinin yaradılması sistemli və düşünülmüş şəkildə aparılır. Bu prosesin dinamikasını təşkilatın Rəyasət Heyətinin 2022-ci ildə keçirilmiş 23 iclasında müzakirə olunan məsələlər və alınan qərarlardan görmək mümkündür. Belə ki, həmin iclaslarda AMEA-nın elmi və elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi, elmi-təşkilati, struktur və kadr məsələləri, normativ-hüquqi sənədlərin təkmilləşdirilməsi ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilməsi[50] ilə yanaşı, AMEA-da struktur islahatlarının aparılması da geniş müzakirə olunmuşdur. Həmin bağlılıqda bir sıra şöbə və laboratoriyalar ləğv edilmişdir. Yaxın profilli şöbələr birləşdirilmişdir. Eyni zamanda, yeni strukturlar yaradılmışdır. Bununla əlaqədar çox maraqlı faktlar vardır. Onların bir neçəsinə nəzər salaq.

2022-ci ilin oktyabrında Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Şərq ölkələrinin tarixşünaslığı şöbəsi yaradılmışdır. Bu struktur vahidi Şərq ölkələrinin müxtəlif elm sahələrini əhatə edən tarixi inkişaf prosesini arxiv materialları və tarixi mənbələr əsasında tədqiq etməlidir. Ümumiyyətlə, tarixşünaslığın inkişaf etdirilməsi dövlətçilik baxımından çox vacibdir. Müqayisə üçün deyək ki, Qərb tarixşünaslığı qərb cəmiyyətlərinin sosial-tarixi, mədəni, fəlsəfi və s. özəlliklərini dərk etməkdə ciddi rol oynamışdır. Bu kontekstdə Fransada Pyer Noranın xüsusi "Fransa yaddaşdır" mövzusu üzrə tədqiqatlar silsiləsi təşkil etməsini (bir neçə tarixçini vahid komandada birləşdirmişdir)

---

[49]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 210.

[50]Yenə orada.

bütövlükdə Qərb tarixşünaslığına böyük töhfə kimi qəbul edilir. AMEA-nın həyata keçirdiyi struktur və funksional yeniləşmələri bu kimi tədqiqatların Azərbaycanda da vüsət almasına lazımi imkanlar yaradır.

AMEA Rəyasət Heyəti 2022-ci ilin oktyabr ayında Mərkəzi Nəbatat Bağının ləğv edilməsi ilə bağlı qərar vermişdir. Bu qərarın icrası ilə əlaqədar həmin ilin noyabr ayında Komissiya yaradılmışdır. Nəticədə Mərkəzi Nəbatat Bağının əməkdaşlarının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika və Mikrobiologiya institutlarında yerləşdirilməsi təmin edilmişdir.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun strukturunda da dəyişikliklər edilmişdir. 16 yanvar 2023-cü ildə həmin İnstitutun Ədəbi cərəyanlar sektoru ləğv edilmiş, Ədəbi cərəyanlar sektorunun əməkdaşlarının öz ştat vahidləri ilə İnstitutun strukturuna daxil olan Ədəbiyyat nəzəriyyəsi şöbəsinə keçirilməsi qərara alınmışdır[51].

Eyni məntiqlə Folklor İnstitutunun Musiqi folkloru şöbəsi ləğv edilmişdir. Əməkdaşlar öz ştat vahidləri ilə Memarlıq və İncəsənət İnstitutunun Xalq musiqisinin tarixi və nəzəriyyəsi şöbəsi əsasında yeni yaradılmış Musiqi folkloru şöbəsinə və digər şöbələrə keçirilmişdir. Təşkilatın Memarlıq və İncəsənət İnstitutunun Qafqaz Albaniyasının memarlığı və incəsənəti şöbəsi ləğv edilərək onun əməkdaşları öz ştat vahidləri ilə Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzinə keçirilmişlər[52].

AMEA-da struktur yeniləşmələri ardıcıllıqla aparılır. AMEA Rəyasət Heyətinin 14 fevral 2023-cü il tarixində keçirilmiş iclasında elmi-tədqiqat institutlarında bir sıra dəyişikliklər haqqında qərar qəbul edilmişdir. Ədəbiyyat İnstitutunun Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsi ləğv edilmiş və

---

[51]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 211.

[52]Yenə orada.

əvəzində Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin bazasında Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsi yaradılmışdır.

Əlyazmalar İnstitutunda iki şöbənin bazasında – Kitabxana və elmi informasiya və Biblioqrafiyaşünaslıq şöbələrinin, elmi fəaliyyət istiqamətlərinin yaxınlığını nəzərə alaraq yeni Kitabxana və biblioqrafiyaşünaslıq şöbəsi yaradılmışdır. Bundan başqa, həmin İnstitutun Şərq ölkələri türkdilli əlyazmaların tədqiqi şöbəsi Türkdilli əlyazmaların tədqiqi şöbəsi kimi adlandırılmışdır.

Tarix İnstitutunda fəaliyyət göstərən "Atropatena-Albaniya Azərbaycan Milli Elmlər Akademiyası (Qafqaz) tarixi" şöbəsinin də adı dəyişdirilmişdir. Yeni adı "Azərbaycanın e.ə. IV – e. VII əsrinin ortaları tarixi" şöbəsi kimi müəyyənləşdirilmişdir.

Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Son Neolit və Xalkolit (Eneolit) dövrü arxeologiyası" şöbəsinin adı dəyişdirilərək "Neolit-Eneolit dövrü arxeologiyası" şöbəsi kimi adlandırılmışdır[53].

AMEA rəhbərliyi AMEA Rəyasət Heyəti Aparatında da struktur dəyişikliyi etmişdir. 16 yanvar 2023-cü il tarixli iclasda bu barədə qərar qəbul olunmuş və yeni struktur təsdiq edilmişdir. Qərarda AMEA Rəyasət Heyəti aparatının Elmi, texniki və innovativ fəaliyyətin təşkili şöbəsi Elm və təhsil şöbəsi, Beynəlxalq əlaqələr və xaricdə elmi tədqiqatların (təhsilin) təşkili şöbəsi Beynəlxalq əlaqələr şöbəsi, Media və informasiya şöbəsi İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi, Kadr potensialı və təhsil şöbəsi İnsan resursları şöbəsi, Hüquqi təminat şöbəsi Hüquq şöbəsi, Ümumi şöbəsi Sənədlərlə iş şöbəsi, Elmi irsin və sənədlərin arxivləşdirilməsi şöbəsi Elmi irs şöbəsi adlandırılmış, AMEA Rəyasət Heyəti aparatının Maliyyə şöbəsi ləğv edilərək bazasında Maliyyə və mühasibat şöbəsinin yaradılması vurğulanmışdır[54].

---

[53]Azərbaycan Milli Elmlər Akademiyasının 2022-ci ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2023, s. 211-212.
[54]Yenə orada, s. 211.

26 may 2023-cü il tarixli iclasında AMEA Rəyasət Heyəti Aparatının strukturunda bir sıra dəyişiklik edilməsi haqqında qərar qəbul edilmişdir. Həmin qərarda AMEA Rəyasət Heyəti Aparatının Beynəlxalq əlaqələr şöbəsi Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsi, İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsi və Sənədlərlə iş şöbəsi Sənədlərlə iş və protokol şöbəsi adlandırılmışdır.

10 oktyabr 2023-cü il tarixli iclasının qərarı ilə AMEA Rəyasət Heyəti Aparatında daxili imkanlar hesabına Sosial xidmətlər şöbəsi yaradılmışdır.

Göründüyü kimi, AMEA rəhbərliyi Rəyasət Heyətində sistemli və kompleks struktur islahatı aparmışdır. Bununla təşkilatın baş idarəetmə orqanı olan Rəyasət Heyəti bütövlükdə qurumda yeniləşmələri səmərəli həyata keçirmək üçün daha təkmil, yığcam və işlək mexanizmə malik olmuşdur. Həyata keçirilən işlərin sürəti, çevikliyi və məzmunu göstərir ki, AMEA rəhbərliyi struktur yeniləşmələrində səmərəli yoldadır. Təşkilatın prezidenti akademik İsa Həbibbəylinin şəxsi fəallığı və tamamilə dövlətçiliyə xidmət edən addımları Rəyasət Heyətini də səfərbər etmiş və yüksək iş aktivliyi nümunəsi göstərməkdədir.

Bu dövlətçi işgüzar mühit AMEA-nın elmi-tədqiqat institutlarının fəaliyyətinə öz müsbət təsirini göstərməkdədir. İnstitutlarda elmi araşdırmaların istiqamətləri daha çox dövlətçiliyə xidmətə yönəldilir, tədbirlərin sayı artır, müxtəlif profilli institutlar arasında əməkdaşlıq genişlənir. Məsələn, Fəlsəfə və Sosiologiya, Tarix, Ədəbiyyat, Şərqşünaslıq, Folklor institutları və Mərkəzi Elmi Kitabxana ilə birgə çoxlu sayda tədbirlər təşkil edir. Bura elmi konfranslar, yubileylər, seminarlar, dəyirmi masalarla yanaşı, tanınmış alimlərlə görüşlər də daxildir.

Bunlardan başqa, AMEA Rəyasət Heyəti Aparatının strukturunda vacib bir yenilik olmuşdur. 18 yanvar 2023-cü ildə daxili imkanlar hesabına "Elektron Akademiya" şöbəsi yaradılmışdır. Bu struktur strateji əhəmiyyəti olan vahiddir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf

Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında ayrıca bənd kimi Rəqəmsal Akademiya yaratmaq vəzifəsi yer almışdır. Bu, müasir mərhələdə Azərbaycanda elmi fəaliyyətin təşkili, tədqiqatların aparılması və beynəlxalq əməkdaşlıq prosesində rəqəmsallığın, elektronlaşdırmanın xüsusi rol oynamalı olduğu anlamına gəlir. Bu baxımdan Elektron Akademiya AMEA-da idarəetmə və yaradıcı proseslərin təşkili, həyata keçirilməsi və kommunikativ əlaqələrin qurulması üzrə olduqca vacib strukturdur.

Bütün bu yeniliklər AMEA rəhbərliyi tərəfindən ümumiləşdirilərək təhlil edilir və sonrakı addımların daha səmərəli olması üçün lazımi nəticələr çıxarılır. AMEA rəhbərliyi struktur yenilikləri məsələsini ən yüksək tədbirlərdə müzakirə edir və onun nəticəsi olaraq qərarlar qəbul edir. Bu baxımdan AMEA-nın 2022-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabatına həsr olunmuş və 16 mart 2023-cü il tarixində keçirilmiş Ümumi yığıncaqda maraqlı müzakirələr aparılmışdır. İclasda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın 2022-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabata həsr olunmuş geniş nitq söyləmişdir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli nitqində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmimizin, o cümlədən Akademiyanın inkişaf etdirilməsi üçün mühüm qərarlar qəbul etdiyini, əhəmiyyətli addımlar atdığını qeyd etmişdir. AMEA-nın tabeliyində olan institutlarda və AMEA-nın Rəyasət Heyətində struktur islahatlarının davam etdirildiyini, eyni zamanda beynəlxalq elmi təşkilatlarla əlaqələr yaratmaq istiqamətində təşəbbüslərin göstərildiyini, yeni elmi nəslin formalaşdırılması üçün tədbirlərin həyata keçirildiyini vurğulamışdır[55].

---

[55]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2024.

AMEA prezidentinin yekunlaşdırıcı nitqinin bu ruhu AMEA-nın 2023-cü ildəki fəaliyyətində daha da inkişaf etdirilmişdir. Akademiyada struktur islahatları burada ayrıca yer tutmuşdur. Bu barədə AMEA prezidenti, akademik İsa Həbibbəyli 2024-cü il fevralın 29-da keçirilən Ümumi yığıncaqda söylədiyi geniş məzmunlu “AMEA-da yeniləşmə prosesləri: ilkin nəticələr və perspektivlər“ adlı məruzəsində bəhs etmişdir.

Həmin məruzə bir çox baxımdan AMEA-nın yeniləşməsinin xüsusiyyətləri prizmasında maraqlıdır. Biz burada AMEA prezidentinin təşkilatda aparılan struktur islahatları kontekstində ifadə etdiyi fikri vurğulamaq istərdik. Akademik İsa Həbibbəyli məruzəsində struktur islahatlarının təhlili və ilkin nəticələri barədə təhlili xarakterli tezislər irəli sürmüşdür. Həmin bağlılıqda nitqində xüsusi vurğulamışdır ki, “Akademiyada yeniləşmə prosesində struktur islahatlarının xüsusi yeri vardır”[56].

Bu tezis çox əhəmiyyətlidir. Çünki burada AMEA-da struktur islahatları ilə elmi tədqiqatların strateji inkişaf konsepsiyasına xidmət etməsi arasında sıx bağlılıq ifadə edilmişdir. Konkret ifadə etsək, AMEA prezidenti vurğulamışdır: hər bir yeni struktur vahidinin dövlətə xidmətdə ayrıca yeri və rolu vardır ki, onların funksiyası bu əsasda müəyyən edilir.

Akademik İsa Həbibbəyli nitqində struktur yenilikləri faktlarını da qeyd etmişdir: “Elmi-tədqiqat işlərini müasir dövrün tələblərinə uyğunlaşdırmaq, paralellikləri və təkrarçılığı aradan qaldırmaq məqsədilə AMEA-nın Rəyasət Heyəti Aparatında və elmi-tədqiqat institutlarında aparılan ixtisarlar və birləşdirmələr vasitəsilə yaradılmış Qarabağ müharibəsi və Böyük Qayıdış hərəkatı, Qərbi Azərbaycan tarixi, Qərbi Azərbaycan folkloru, Toponimika, İdrak nəzəriyyəsi və məntiq, Xəzərin arxeologiyası, Çöl tədqiqatlarının təşkili və monitorinqi, Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı şöbələri elmi-tədqiqat işlərini ölkə

---

[56]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair məruzə və çıxışlar toplusu Bakı. “Elm”. – 2024, s.9.

maraqları və bəşəri prinsiplər əsasında qurmağa imkan yaradır. Apardığımız struktur islahatları nəticəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 yanvar 2024-cü il tarixli qərarı ilə Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, eyni zamanda Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Arxeologiya və Antropologiya İnstitutu adlandırılmışdır. AMEA Rəyasət Heyətinin təsdiq etdiyi elmi müəssisələrin nümunəvi strukturu əsasında həmin elmi müəssisələrin şöbələrində edilmiş yeniləşmələr son nəticədə adları qeyd edilən institutların fəaliyyətinin yenidən qurulmasını təmin etmişdir"[57].

Bütövlükdə 2024-cü il ərzində AMEA-da struktur islahatları tədqiqatları daha mükəmməl və yeniləşmə kursuna uyğun davam etdirilmişdir[58]. AMEA Rəyasət Heyətinin 5 mart 2024-cü il tarixli 11/3 nömrəli qərarı ilə Tarix və Etnologiya İnstitutunda "Türk xalqlarının etnologiyası" şöbəsinin bazasında "Türk xalqlarının tarixi və etnologiyası" şöbəsi yaradılmışdır. 2024-cü il aprelin 23-də isə Arxeologiya və Antropologiya İnstitutunun Albanşünaslıq Elmi Mərkəzi ləğv edilmişdir. Onun bazasında "Antik dövr və Alban arxeologiyası" şöbəsi və "İlk orta əsrlər dövrü arxeologiyası" şöbəsi yaradılmışdır. Bununla yanaşı, həmin institutun tərkibində  İslam dövrü arxeologiyası, Məhkəmə arxeologiyası və  Elmi informasiya şöbələri yaradılmışdır[59].

Tarix və Etnologiya İnstitutunda da struktur islahatları davam etdirilmişdir. Belə ki,  AMEA Rəyasət Heyətinin 15 may 2024-cü il tarixli iclasında AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun təkmilləşdirilməsi məsələləri müzakirə olunmuşdur. İclasda qəbul edilən qərar əsasında Qədim dövr tarixi şöbəsinin adı dəyişdirilərək Azərbayca-

---

[57]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair məruzə və çıxışlar toplusu Bakı. "Elm". – 2024, s.9.

[58]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 162-168.

[59]Yenə orada, s. 163-164.

nın qədim dövr tarixi şöbəsi, Müasir dövr etnoqrafiyası şöbəsinin adı dəyişdirilərək Müasir dövr etnologiyası şöbəsi, Tarixi etnoqrafiya şöbəsinin adı dəyişdirilərək Tarixi etnologiya şöbəsi, Azərbaycanın e.ə. IV- e.VII əsrinin ortaları tarixi şöbəsinin adı dəyişdirilərək Atropatena-Albaniya (Qafqaz) tarixi şöbəsi adlandırılmış, eyni zamanda, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun yeni strukturu təsdiq edilmişdir. Həmin iclasın 14/6 nömrəli qərarı ilə AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Nizamnaməsi təsdiq edilmiş və bir ay müddətində Nizamnamənin dövlət qeydiyyatına alınmasının təmin edilməsi tapşırılmışdır”[60].

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda isə Rəyasət Heyətinin 9 iyul 2024-cü il № 17/10 saylı qərarı əsasında “Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi” şöbəsi yaradılmışdır. Memarlıq və İncəsənət İnstitutunda “Türk sənət tarixi və mədəni irsi” şöbəsi yaradılmışdır.

AMEA-nın yeniləşmə kursunda ölkənin tarixi, siyasi, sosial, hüquqi və mənəvi-mədəni sahələrini əhatə edən elmi tədqiqatların aparılması çox vacib yer tutur. Təşkilatda aparılan struktur-funksional islahatlarda bu məqam xüsusi nəzərə alınır. AMEA rəhbərliyi elmi əsaslandırılmış prinsiplərə uyğun struktur dəyişikliklərini həyata keçirir.

Nümunə kimi yuxarıda türk xalqlarının tarixi, etnologiyası, etnoqrafiyası, arxeologiyası, filologiyası, folkloru və fəlsəfəsi ilə bağlı araşdırmaların sistemli aparılmasına imkan verəcək şöbələrin yaradılmasını göstərə bilərik. AMEA-da yeniləşmə kursunun strateji elmi məqsədləri baxımından struktur islahatlarının məhz vurğulanan məzmun və formada həyata keçirilməsinin sırf elmi anlamı da mövcuddur. Burada istənilən aktual mövzunun fənlərarası tədqiqi ön sıraya çəkilir. Belə görünür ki, AMEA türk

[60]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s.165.

dünyasının elmi araşdırılması prosesini AMEA-nın yeniləşməsi kursunun ümumi ruhu kontekstində müxtəlif elmlərin ortaq tədqiqat sahəsində aparmağı hədəflənmişdir. Bu da özlüyündə AMEA-nın Türk Dünyası faktoruna strateji önəm verdiyini ifadə edir ki, həmin özəllik Azərbaycanın strateji inkişaf kursuna tamamilə uyğundur.

Bütün bunlarla yanaşı, AMEA-da 2022-ci ilin oktyabr ayından başlayaraq həyata keçirilən islahatların mühüm tərəflərindən birini elektron elmin inkişafı, sənədlərin rəqəmsallaşdırılması, arxiv sənədlərinin elektron bazasının yaradılması istiqamətində atılan addımlar təşkil etməkdədir. Bununla əlaqədar, AMEA-nın 2024-cü il hesabatında vurğulanmışdır: "AMEA-nın Mərkəzi Elmi Kitabxanasının strukturunun təkmilləşdirilməsi və optimallaşdırılması məqsədilə AMEA Rəyasət Heyətinin 21 oktyabr tarixli 20/9 nömrəli qərarı ilə Biblioqrafik nəşrlər şöbəsi və Biblioqrafik və elektron informasiya xidməti şöbəsinin bazasında daxili imkanlar hesabına müstəqil struktur vahidi kimi Biblioqrafiya şöbəsi, Biblioqrafiya şöbəsinin tərkibində daxili imkanlar hesabına Elmi biblioqrafiya sektoru və Biblioqrafik informasiya xidməti sektoru, kitabxananın Azərbaycan dilində ədəbiyyat və mübadilə fondu və Xarici dillərdə ədəbiyyat fondunun bazasında daxili imkanlar hesabına müstəqil struktur vahidi kimi Kitabxana fondlarının təşkili, mühafizəsi və istifadəsi şöbəsi yaradılmışdır[61].

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda da əhəmiyyətli struktur yeniliyi olmuşdur. Bu elmi-tədqiqat İnstitutunda Qərbi Azərbaycanın azərbaycanlı əhalisinin və Qarabağın qeyri-maddi mədəni irsinin – əlyazmalarının transliterasiya və tərcümə edilməsi, sistemləşdirilməsi, nəşri, tədqiqi və təbliği istiqamətində fəaliyyətin gücləndirilməsi məqsədi qarşıya qoyulmuşdur. Bu məqsədlə həmin institutda 2024-cü ilin iyun

[61] Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 165-166.

ayında Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsi yaradılmışdır[62].

AMEA 2024-cü ildəki fəaliyyətində Azərbaycan elminin keçdiyi inkişaf yolunun tədqiqi və təbliğinə, elmin populyarlaşdırılmasına, gənc nəsildə elmə marağın artırılmasına ciddi önəm vermişdir. Bu bağlılıqda "Akademiyada gedən yeniləşmə proseslərinin davamı olaraq Azərbaycanda elmin populyarlaşdırılması, elmi nailiyyətlərin təbliği, gənc nəsildə elmə marağın artırılması, xüsusən Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi tarixi yolu özündə əks etdirən eksponatların, əlyazmaların və tarixi nəşrlərin toplanılması və qorunub saxlanılması, daima zənginləşdirilərək təkmilləşdirilməsi, ekspozisiyaların qurulması və nümayişi məqsədilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın "Akademiya Muzeyi"nin yaradılması ilə bağlı təşəbbüs irəli sürmüşdür. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi ilə əlaqədar Tədbirlər planında da "Akademiya Muzeyi"nin yaradılması nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq, AMEA Rəyasət Heyətinin 15 may 2024-cü il tarixli 14/3 nömrəli qərarı ilə AMEA Rəyasət Heyətinin nəzdində daxili imkanlar hesabına AMEA-nın "Akademiya Muzeyi" yaradılmışdır"[63].

Bundan başqa, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli başqa bir əhəmiyyətli təşəbbüs irəli sürmüşdür. Akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Rəyasət Heyəti Aparatının Elmi irs şöbəsində daxili imkanlar hesabına Elm TV və multimedia fondu yaradılmışdır. Bu hadisə AMEA-nın 80 illik yubileyinə hazırlıq prosesi kontekstində də əhəmiyyətli və aktualdır. Çünki tarixi əhəmiyyətli audio və video materialların toplanılması, qorunub saxlanılması, daima zənginləşdirilərək təkmilləşdirilməsi

[62] Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 166.
[63]Yenə orada, s. 166-167.

istiqamətlərində daha səmərəli fəaliyyət üçün geniş imkanlar yaranacaqdır.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda 29 noyabr 2024-cü il tarixində "Monitorinq və linqvistik təhlil" şöbəsi yaradılmışdır. Bu, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə həyata keçirilmişdir. Həmin Sərəncam Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqındadır. Bu Sərəncamın yerinə yetirilməsinin təmini üçün Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov 26 noyabr 2024-cü il tarixli 593s nömrəli Sərəncam imzalamışdır.

AMEA-nın 2024-cü il hesabatında bütün bunlarla bağlı vurğulanır: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın müddəalarına uyğun olaraq Azərbaycan dilinin dövlət dili kimi inkişafında və dilin təmizliyinin qorunmasında, eləcə də ədəbi dilin normalarına əməl olunmamasının, reklamlarda, ictimai iaşə obyektlərində Azərbaycan dilinin leksik və qrammatik qaydalarının pozulmasının qarşısının alınmasında ictimaiyyətin iştirakının təmin edilməsi və operativ tədbirlər görülməsi üçün qaynar xəttin yaradılması məqsədilə" AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda Monitorinq və linqvistik təhlil şöbəsi yaradılmışdır[64].

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunda və Fəlsəfə və Sosiologiya İnstitutunda struktur islahatları 2025-ci ildə də davam etmişdir. Bu elmi-tədqiqat institutunda yeni bir

---

[64]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 167-168.

neçə şöbə yaradılmış və bəzi şöbələrin adında qismən dəyişiklik edilmişdir[65].

Aparılan təhlil və göstərilən faktlar, AMEA-da 2022-2024-cü illərdə aparılan struktur-funksional islahatların strateji inkişaf konsepsiyasının reallaşdırılması kontekstində xüsusi əhəmiyyət kəsb etdiyini təsdiqləyir. Struktur islahatları öncədən düşünülmüş məzmun və formada strateji inkişaf konsepsiyasının ruhuna və tələblərinə tam uyğun olaraq həyata keçirilir. Burada əsas prinsip AMEA-nın struktur və funksional olaraq üzərinə düşən vəzifələri maksimum çevik və səmərəli qaydada tam dövlətçiliyə xidmət aspektində yeniləşdirməyə nail olmaqdır.

AMEA rəhbərliyi bu məqsədə nail olmaqdadır (çünki proses hələ davam edir). Bizim üçün tarixi əhəmiyyət kəsb edən məqam müasir mərhələdə ilk dəfə olaraq AMEA rəhbərliyinin təşkilatın elmi, təşkili, tədqiqi, ideoloji, mənəvi-mədəni fəaliyyətini bütövlükdə ölkənin strateji inkişaf kursuna kökləyə bilməsi ilə bağlıdır. Bu olduqca vacib yeniliyin mahiyyətini tam olaraq bəziləri gələcəkdə dərk edəcəklər. Lakin bizlər üçün aydındır ki, AMEA rəhbərliyi elmin dövlətçiliyə xidməti kontekstində Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi mənada ciddi irəliləyiş əldə etmişdir. AMEA indi, sözün həqiqi mənasında, Heydər Əliyevin mənalandırdığı "AMEA milli sərvətdir" tezisini tamamilə doğruldur! Və Akademiya bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyası daxilində, azərbaycançılıq, multikulturalizm, davamlı tərəqqi, elmi əsasda sürətli və dayanıqlı inkişaf, Türk Dövlətləri Təşkilatının sürətli inkişafı və "Azərbaycan Türk ailəsinin üzvüdür" möhtəşəm tarixi tezisinin ruhu və rasional məntiqi çərçivəsində həyata keçirir.

Bütün bunlar AMEA-nın 2025-ci il fevralın 20-də keçirilən Ümumi yığıncağında müzakirə edilən məsələlərin fonunda çox

---

[65] AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

əhəmiyyətli faktlar təsiri bağışlayır. Ümumi yığıncaqda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Akademiyada təməl islahatlardan – İnkişaf Konsepsiyasına və Yol Xəritəsinə" mövzusunda məruzə ilə çıxış etmişdir. Məruzədə akademik İsa Həbibbəyli ilk dəfə olaraq cəmiyyətin ictimai inkişafı kontekstində konseptual olaraq AMEA-nın keçdiyi mərhələlərin elmi təsnifatını vermişdir.

Alim Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yarandığı 1923-cü ildən SSRİ Elmlər Akademiyasının Zaqafqaziya Filialının Azərbaycan şöbəsinin təsis edildiyi 1932-ci ilədək olan dövrü Azərbaycanda Akademik qurumun yaradılmasının **başlanğıc mərhələsi kimi** xarakterizə etmişdir.

Məruzədə 1932-1945-ci illər isə Akademiya quruculuğu üçün **hazırlıq dövrü** adlandırılmışdır. Akademiyanın prezidenti Elmlər Akademiyasının təsis edildiyi 1945-ci ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi 1969-cu ili əhatə edən mərhələni **Akademiyanın təşkilatlanması və elmi əsaslarının formalaşdırılması dövrü** kimi xarakterizə etmişdir.

Akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin sovet dövründə respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illəri Elmlər Akademiyasında intibah dövrü adlandırmışdır.

Elmi təsnifatda ümumən ölkəmizin sosial-iqtisadi və mədəni-mənəvi həyatında qabarma və çəkilmələrlə xarakterizə olunan 1983-1993-cü illər tənəzzülə meyl və böhran dövrü kimi göstərilir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldiyi və ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər isə milli dövlət quruculuğu kontekstində **Milli Elmlər Akademiyası quruculuğu** mərhələsi kimi təsnif edilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət başçısı seçildiyi 2003-cü ildən başlayaraq 2022-ci ilədək olan mərhələ **AMEA-nın modernləşdirilməsi** dövrü kimi xarakterizə olunur.

Təsnifatda hazırda davam edən mərhələnin 2022-ci ildən başlandığı ifadə edilir. Bu mərhələyə Azərbaycan Respublikası-

nın Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı ilə start verilmişdir. Alim bu mərhələni **yeniləşmə və islahatlar dövrü** adlandırmışdır.

AMEA prezidenti akademik İsa Həbibbəylinin təsnifatı təşkilatın fəaliyyətinə tarixi, siyasi və sosial-mədəni kontekstdə yeni elmi yanaşmadır. Belə ki, burada XX əsr boyu və XXI əsrin ilk üç onilliyinə qədər olan müddətdə Azərbaycanda elmi fəaliyyətin institutlaşmasının sosial-mədəni və intellektual inkişaf aspekti dəqiq ifadə edilir. Eyni zamanda, təsnifatda Akademiyanın struktur və funksional olaraq tarixi rakursda yeniləşməsi dinamikası aydın görünür. Çox əhəmiyyətlidir ki, AMEA-nın prezidenti Akademiyanın inkişaf yoluna dair təsnifatını azərbaycançılıq və dövlətçilik kontekstində aparmışdır. Bu yanaşma alimə AMEA-nın yeniləşməsi və inkişafı ilə ölkənin strateji inkişaf kursu arasında daxili məntiqi bağlılıq yaratmağa imkanı verir.

Hazırda AMEA-da bir çox əsas istiqamətlərdə yeniləşmə və islahatlar həyata keçirilməkdədir. Həmin bağlılıqda elmdə məzmunca müstəqil dövlətimizin ön mövqeyə çıxardığı reallıqlara dair tədqiqatlar daha da genişləndirilir. Bu prosesdə sivilizasiyaların inkişafı və ölkəmizin siyasi-tarixi reallıqlarına əsaslanan, azərbaycançılıq üstündə köklənmiş dövrləşdirmə konsepsiyasının işlənməsi xüsusi yer tutur. Həmin konsepsiyanın da müəllifi akademik İsa Həbibbəylidir. Konsepsiyada "Azərbaycan ədəbiyyatının, tarixin, milli-mədəniyyətimizin, Azərbaycan dilinin çoxəsrlik ortaq inkişaf mərhələləri müəyyənləşdirilib. Sovet cəmiyyətindən qalma siyasi-tarixi şəxsiyyətlərin unutdurulması metodologiyasının tam əksinə olaraq, elmimizə tarixi şəxsiyyətlərin, hökmdarların, sərkərdələrin, bu vaxta qədər qaçaq-quldur adlandırılan xalq qəhrəmanlarının həyatı, dövrü, mühiti, mübari-

zələri və ideyalarının əsaslı şəkildə öyrənilməsi əsas vəzifələrdən biri kimi bəyan olunub”[66].

AMEA prezidenti Azərbaycan elmi tarixində ilk dəfə olaraq milli fəlsəfə anlayışının elmi dövriyyəyə gətirildiyini, sahə ensiklopediyaları yaradıcılığına start verildiyini, “Heydər Əliyev Ensiklopediyası” və “Qərbi Azərbaycan Ensiklopediya”sının hazırlanması istiqamətində əməli addımlar atıldığını xüsusi qeyd etmişdir.

AMEA-nın beynəlxalq əlaqələrinə toxunan akademik İsa Həbibbəyli təşkilatın bir neçə akademik qurumların üzvü olduğunu və onların “Baş Assambleyalarının rəhbər heyətlərinin seçkilərində səsvermə hüququna malik olan elmi təşkilat statusunda təmsil olunduğunu, elm sahəsində dünyada gedən prosesləri, yeni çağırışları yaxından öyrənmək imkanı qazandığını” bildirmişdir.

Bunlarla yanaşı, AMEA 2024-cü ildə Türk dövlətlərinin elmi təşkilatları ilə əməkdaşlıq dairəsini genişləndirmişdir. Türk toplumlarının müxtəlif sahələr üzrə tədqiqi yeni səviyyəyə yüksəldilmişdir.

Akademik İsa Həbibbəyli AMEA-da yeniləşmə və islahatlar dövründə elektron hərəkata start verildiyini qeyd etmişdir. Vurğulamışdır ki, “AMEA Rəyasət Heyəti aparatında yaradılan “Elektron Akademiya” şöbəsi vasitəsilə Akademiyanın elmi bölmələrinə və elmi-tədqiqat institutlarına aid 31 elmi jurnaldan 21-nin elektron bazası istifadəyə” verilmişdir. “Akademiyanın tarixində ilk dəfə olaraq İnsan Resursları Elmmetrik Məlumatlar Bazası, Rəqəmsal Elmi İnformasiya Resursları Sistemi yaradılaraq hər bir əməkdaşın elmi fəaliyyətinin elmmetrik reallığı və istinad göstəricilərinin müəyyən edilməsi mexanizmi” formalaşdırılmışdır. “Azərbaycan dilinin dil korpusunun işlənməsi sahəsində addımlar” atılmışdır və “sözlərin Universal Funskionallıqla

[66]AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

İşlənməsi sistemi əsasında SUFİ işlək robot modeli işə" salınmışdır.

Akademik İsa Həbibbəyli xüsusi vurğulamışdır ki, "ölkə başçısının təsdiq etdiyi Rəqəmsal İnkişaf Konsepsiyasının qarşıya qoyduğu tələblər əsasında Humanitar və İctimai Elmlər sferasında süni intellektdən və rəqəmsal texnologiyalardan istifadə edilməsi üçün əlavə tədbirlər hazırlanaraq həyata keçirilməkdədir".

AMEA prezidenti bundan sonra da təşkilatın dövlət başçısının apardığı siyasəti ürəkdən dəstəkləyəcəyini, "qarşıya qoyulan vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini və bacarıqlarını sərf" edəcəyini diqqətə çatdırmışdır[67].

AMEA prezidentinin vurğulanan geniş məruzəsi və Ümumi Yığıncaqda müzakirə olunan məsələlərin çeşidi və aktuallığı göstərir ki, ölkənin baş elmi təşkilatı inamla yeniləşmə kursunu davam etdirir. Bu əsasda Akademiyanın struktur-funksional özəlliklərini də nəzərə alaraq onun yeniləşməsi və inkişafının digər mühüm məqamları üzərində dayana bilərik.

### 2.3. *Elmi fəaliyyətin təşkilinin yeni məqamları: interdisiplinarlıq, yaradıcılıqda müstəqillik və alim məsuliyyəti kontekstində*

AMEA-nın yeniləşməsi kontekstində struktur-funksional dəyişikliklər üzvi surətdə təşkilatda elmi fəaliyyətin təşkili fəlsəfəsi ilə ahəngdarlıq təşkil edir. Aparılan təhlil göstərir ki, Akademiyanın rəhbərliyinin bu istiqamətdə fəaliyyətinin təməlində aşağıdakı tezis dayanır. AMEA prezidenti yazır: "Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev özünün çoxillik dövlətçilik fəaliyyətində elm amilinə böyük önəm vermiş, rəhbərlik etdiyi ölkəni və xalqı irəliyə doğru inki-

[67]AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

şaf etdirmək üçün elmi ideyalardan istifadə olunmasına xüsusi diqqət yetirmişdir”[68].

Burada iki aspektin sintezinə diqqət edək. Onlardan birincisi akademik İsa Həbibbəylinin məsələni Heydər Əliyevin çoxillik dövlətçilik fəaliyyəti kontekstində qoymasıdır. Digəri isə Ulu Öndərin “rəhbərlik etdiyi ölkəni və xalqı irəliyə doğru inkişaf etdirmək üçün elmi ideyalardan istifadə olunmasına xüsusi diqqət” yetirməsidir.

Yəni Heydər Əliyevin dövlətçilik fəaliyyətində ölkəni və xalqı inkişaf etdirməyin başlıca yolunu elmdən maksimum faydalanmaqda görürdü. I fəsildə vurğuladığımız kimi, bu, reallıqda Heydər Əliyevin müasir mərhələdə dövlət-elm münasibətlərinin mahiyyətini, məzmununu, formasını və məqsədini müəyyənləşdirərək, onu konkret struktur-funksional qaydalara malik konsept səviyyəsinə yüksəltməsi anlamına gəlir. Məhz bu səbəbdən akademik İsa Həbibbəylinin AMEA-da elmi fəaliyyətin təşkili prinsipinin bazasında Ulu Öndərin həmin fikrini görməsi dövlətçilik baxımından çox doğru addımdır.

Eyni zamanda, burada dövlət-elm münasibətlərinin müasir mərhələdə başlıca özəlliklərini anlamaq üçün səmərəli keçid mexanizmi vardır. Həmin mexanizm, ümumiyyətlə, dövlət quruculuğu kursunu əhatə edən siyasi varislik prinsipindən qaynaqlanır.

Prezident İlham Əliyev elm sahəsində də varisliyi yüksək səviyyədə təmin etməkdədir. Bunun təməlində Ulu Öndərin müəyyən etdiyi dövlət-elm münasibətləri dayanır. Sonrakı addım ölkənin strateji inkişaf konsepsiyasında elmin yeri və rolunun konkret vəzifələr kontekstində müəyyən edilməsidir. Həmin vəzifənin yerinə yetirilməsi üçün başlıca icra mexanizmi funksiyasını isə AMEA yerinə yetirməlidir. Azərbaycan Prezidenti İlham Əliyevin dəqiq müəyyən etdiyi 2022-2030-cu illər və onun bi-

---

[68]Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası: [Elektron resurs] // - Bakı. Bakı. Azərbaycan Milli Elmlər Akademiyasının veb-saytı, 01.05.2023. URL: https://science.gov.az/az/news/open/24893. Müraciət tarixi 30.07.2024.

rinci mərhələsi 2022-2026-cı illər sosial-iqtisadi inkişaf strategiyasının müddəalarında AMEA-nın həmin prosesdə yeri, rolu, nəzəri və praktiki-tətbiqi aspektlərin sintezi kimi, aydın və dəqiq müəyyən edilmişdir.

Deməli, akademik İsa Həbibbəylinin yuxarıda vurğuladığımız ümumi yanaşması və onda yer almış başlıca fəaliyyət prinsipi faktiki olaraq təşkilata yeni mərhələdə Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf yoluna keçmək üçün çevik və məntiqi cəhətdən tam əsaslı imkan yaradır. Biz, Heydər Əliyev-İlham Əliyev xətti üzrə AMEA-nın yeniləşməsində elmi fəaliyyətin təşkilinin mühüm məqamlarına məhz həmin keçidin mərhələləri kimi baxmağa çalışacağıq.

Öncə, yeniləşmə prosesində elmi fəaliyyətin təşkilinin ümumi prinsiplərinə baxaq. Nə üçün bu məsələ aktualdır? Dünya miqyasında elmi fəaliyyətin fəlsəfəsi və təşkilinə aid araşdırmaların sayı intensiv surətdə artır. Bunun ən azından iki səbəbi vardır.

Birincisi, müasir mərhələdə fənlərarası tədqiqat dominant rol oynayır.

İkincisi, elmi biliyin tətbiqi o dərəcədə aktual qəbul edilir ki, hər ölkə (və ya region) üçün elmi nəticələrin səmərəli tətbiqi modeli axtarılır.

Bu iki istiqamətdə müxtəlif ölkələrin alimlərinin apardıqları araşdırmalar göstərmişdir ki, həm fənlərarası tədqiqatın əsas şərti olan vahid komanda fəaliyyətində yaradıcılığı təmin etmək, həm də tətbiqi aspektdə ölkənin özünəxas tarixi, mədəni, siyasi, elmi və s. özəlliklərini diqqətə almaq lazımdır[69]. Ayrıca, filosoflar vahid komanda daxilində kreativ (innovativ) yaradıcılığın ya-

[69]Bax: məs. Fox, S., Griffy-Brown, Ch. Sustainable technology in society: Technology in Society Briefing // S.Fox, Ch. Griffy-Brown, - Elsevier. Journal “Technology in Society”. – 2024, vol. 77, 102486. DOİ: https://doi.org/10.1016/j.techsoc.2024.102486.

ranmasının müxtəlif nəzəri-konseptual və metodoloji aspektləri-ni təhlil edirlər[70].

Aydın olur ki, müasir mərhələdə elmlərarası əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə elmi fəaliyyətin təşkili həm substantiv, həm də funksional əhəmiyyət daşıyır. Düzgün müəyyən edilmiş fəaliyyət bu aspektdə elmi yenilikləri əldə etməyə geniş əsas yaradır. Eyni zamanda, bütövlükdə elmin inkişafını perspektivli istiqamətə yönəldir.

Təhlillər AMEA-da elmi fəaliyyətin təşkilinin fəlsəfi və nəzəri əsaslarının düzgün müəyyən olunduğunu təsdiq edir. Burada son 3 ildə interdisiplinarlıq, yaradıcılıqda müstəqillik və alim məsuliyyəti aspektlərinin vəhdət halında inkişaf etdirildiyini görürük. Fənlərarası tədqiqatlara üstünlük verilməsi həm müasir elmi yanaşma baxımından aktualdır (yuxarıda onun bir sıra məqamlarını vurğuladıq), həm də yeni tarixi mərhələdə AMEA-nın səmərəli fəaliyyətinin strateji inkişaf kursuna daha uyğun olmasının nəzəri təminatıdır. Çünki strateji sənəddə AMEA-ya aid bəndlərdən görünür ki, burada müxtəlif tədqiqat istiqamətlərinin interdisiplinar müstəvidə araşdırılması ciddi ehtiyaca çevrilmişdir. Məsələn, elm, təhsil və texnologiyaların sintezi yalnız vahid yaradıcı komandaların fənlərarası yanaşma prizmasında fəaliyyəti zamanı real təmin oluna bilər. Bu səbəbdəndir ki, AMEA yeniləşmə prosesində fənlərarası araşdırma metoduna önəm verir. Bu, özünü üç istiqamətdə göstərir.

Birincisi, ayrı-ayrı elmi-tədqiqat institutlarında mövzular fənlərarası araşdırma kontekstində müəyyənləşdirilir. Araşdırma bu və ya digər dərəcədə müxtəlif tədqiqat metodologiyalarını interdisiplinar kontekstdə birləşdirir. Nümunə kimi, "Heydər Əliyev Ensiklopediyası" layihəsini, "Şəxsiyyətin miqyası və missiyası" kollektiv monoqrafiyasını, "Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən İl-

---

[70]Moiranoa, R. Sáncheza, M.A., Štěpánek, L. Creative interdisciplinary collaboration: A systematic literature review // R.Moiranoa, M.A.Sáncheza, L.Štěpánek. - Elsevier: Yournal "Thinking Skills and Creativity", – 2020, v. 35, – pp. 1-14. DOİ: https://doi.org/10.1016/j.tsc.2019.100626.

ham Əliyevə" (akademik İsa Həbibbəyli, Tehran Mustafayev, Elnarə Akimova, Əlizadə Əsgərli, Aygün Bağırlı, Lalə Həsənova), "Kitabi-Dədə Qorqud eposu: Heydər Əliyevdən – İlham Əliyevə" (layihənin rəhbəri və elmi mətnin müəllifi akademik İsa Həbibbəyli, toplama materiallarını tərtib edən İsmixan Osmanlı), "Heydər Əliyev-İlham Əliyev. Müasir Azərbaycanın liderlik fəlsəfəsi və dövlətçilik təcrübəsi" (İlham Məmmədzadə, Eynulla Mədətli, Füzuli Qurbanov, Sənan Həsənov, Hüseyn Hüseynov, Vüsal Zülfüqarov), "Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan-Türkiyə birliyinin fəlsəfəsi" (Eynulla Mədətli), "Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil" (Füzuli Qurbanov) və digər onlarla araşdırmanı göstərə bilərik. Bunların hər birində fənlərarası yanaşma müxtəlif aspektlərdə tətbiq edilmişdir.

İkincisi, AMEA Rəyasət Heyəti və elmi-tədqiqat institutları arasında (bura elmi- tədqiqat institutlarının öz aralarında əməkdaşlıq formaları da daxildir) elmi əməkdaşlıqda fənlərarası yanaşma üstünlük təşkil edir. Bu, həm ortaq elmi layihələrə, həm institutlararası elmi tədbirlərə (məsələn, konfranslara, seminarlara və s.), həm də elmin təşviqinə aiddir. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycanın görkəmli elm xadimləri ilə bağlı təşkil etdiyi müxtəlif elmi tədbirlərdə bir qayda olaraq bir neçə elmi-tədqiqat institutunun müzakirələrdə iştirakına xüsusi diqqət yetirmişdir. Bu bağlılıqda Ədəbiyyat, Folklor, Tarix və Etnologiya, Şərqşünaslıq, Fəlsəfə və Sosiologiya institutlarının əməkdaşlığı maraqlı nəticələr vermişdir. Fakt kimi Azərbaycanda milli fəlsəfənin necə olması ilə bağlı Ədəbiyyat, Tarix və Etnologiya, Fəlsəfə və Sosiologiya, Şərqşünaslıq institutlarının elmi seminarını göstərə bilərik. Orada aparılan çox maraqlı müzakirələr problemə müxtəlif elm sahələrindən olan baxışların aydınlaşdırılmasına xeyli yardım etmişdir.

AMEA-nın Ədəbiyyat İnstitutu, Dilçilik İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları və İdarəetmə Sistemləri institutlarının birgə təşkilatçılığı ilə də elmi təbdirlər təşkil edilmişdir. 2023-cü il fevral

ayının 21-22-də İnformasiya Texnologiyaları İnstitutunda vurğulanan elmi-tədqiqat institutları Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Azərbaycan dilinin İKT problemləri, İKT-nin Azərbaycan dili problemləri" adlı respublika elmi-praktiki konfransı" keçirmişlər. Tədbirin açılış mərasimində AMEA-nın müvafiq elmi müəssisələri və bir sıra dövlət qurumlarından olan nümayəndələr, dilçi alimlər, yazıçılar və KİV nümayəndələri iştirak etmişlər[71].

2023-cü ilin mart ayında "AMEA Rəyasət Heyətinin, Fəlsəfə və Sosiologiya İnstitutunun və Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycançılıq konsepsiyası" mövzusunda elmi konfrans keçirilmişdir. Həmin konfransda AMEA prezidenti "2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar olaraq Akademiya tərəfindən hazırlanan Tədbirlər Planı haqqında məlumat vermişdir. Çıxışında akademik İsa Həbibbəyli xüsusi vurğulamışdır ki, "azərbaycançılıq yalnız Azərbaycanda yaşayan azərbaycanlılar üçün deyil, eyni zamanda harada yaşamasından asılı olmayaraq, bütün dünya azərbaycanlılarının milli-mənəvi dəyərlərini ifadə edən bir ideologiyadır". Bu ideologiyanı müxtəlif elmlərin qarşılıqlı əlaqədə araşdırması dövrün tələbidir.

2023-cü il 18 mayda Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutu və AMEA-nın Folklor İnstitutunun təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və 17 may – Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş elmi seminar keçirilmişdir[72].

---

[71]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2024, s.215.

[72]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrinin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. II CİLD Bakı – 2024, s.10.

Maraqlıdır ki, elmi-tədqiqat institutları arasında əlaqələrdə fənlərarası aspektin önə çıxarılması çox müxtəlif mövzular üzrə özünü göstərmişdir. Məsələn, 2023-cü ilin aprelində Tarix və Etnologiya İnstitutu ilə Arxeologiya və Antropologiya İnstitutunun birgə təşkilatçılığıyla “Türk dünyasının mədəniyyət paytaxtı Şuşa”nın maddi-mədəniyyət abidələri erməni vandallarının hədəfində” adlı dəyirmi masa keçirilmişdir[73]. Oktyabrın 11-də isə Fəlsəfə və Sosiologiya İnstitutu və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə Xalq şairi Məmməd Arazın 90 illik yubileyinə həsr olunmuş “Milli təfəkkür və tarixi yaddaş şairi Məmməd Araz” mövzusunda elmi konfrans keçirilmişdir[74].

2023-cü il iyunun 9-da “Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türk dünyası əlyazmalarının tədqiqi və Türkdilli əlyazmaların tədqiqi şöbələrinin birgə təşkilatçılığı ilə “Zəriflikdən hikmətə: Orta əsrlər ədəbiyyatında “Çiçək” mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Tədbir çərçivəsində akademik Zərifə Əliyevanın 100 illik yubileyi münasibətilə hazırlanmış Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşlarının əl işlərindən ibarət çiçək konsepsiyalı tətbiqi sənət sərgisi nümayiş olunmuşdur”[75].

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə 2023-cü il may ayının 17-də Mir Cəlal Paşayevin anadan olmasının 115 illiyinə həsr olunmuş “Mir Cəlal və ədəbi-tarixi proses” mövzusunda elmi sessiya keçirilmişdir[76].

Vurğulanan faktlar AMEA-nın 2023-cü ildə AMEA-nın Rəyasət Heyəti, elmi- tədqiqat institutları və onların öz aralarında təşkil etdikləri tədbirlərin yalnız bir qismidir. Onlar göstərirlər

---

[73]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrinin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. II CİLD Bakı – 2024, s.78.

[74]Yenə orada, s.28-29.

[75]Yenə orada, s.13.

[76]Yenə orada, s.27.

ki, AMEA rəhbərliyi yeniləşmə istiqamətində fənlərarası tədqiqatlara çox üstünlük verirlər və həmin kontekstdə təşkilatın müxtəlif elmi-tədqiqat institutları arasında əməkdaşlıq daha da güclənir.

Üçüncüsü, fənlərarası yanaşma AMEA-nın müxtəlif xarici elmi təşkilatlarla əməkdaşlığında özünü göstərir. Bura bir neçə ölkənin fərqli elmi qurumları ilə əlaqələr daxildir. 2023-cü ildə AMEA Türkiyə, İtaliya, Özbəkistan, Qazaxıstan, Rusiya, Pakistan İslam Respublikası, Gürcüstan, Bolqarıstanın elmi qurumları ilə əməkdaşlığa xüsusi diqqət yetirmişdir. Bu əməkdaşlıq əlaqələri çoxşaxəli olmuşdur. Yalnız Türkiyə istiqamətində AMEA 6 elmi qurumla əməkdaşlıq haqqında razılığa gəlmişdir. AMEA prezidenti akademik İsa Həbibbəyli 2023-cü ildə "Türkiyə Respublikasına səfərləri çərçivəsində Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK), Türkiyə Elmlər Akademiyası (TÜBA), Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu (AKDTYQ) və Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının (AASSA) rəhbərləri ilə görüşlər keçirmişdir. Səfər zamanı TÜBA və AKDTYQ ilə Anlaşma memorandumları imzalanmışdır"[77].

Eyni zamanda, "AASSA, TÜBA və AKDTYQ-nın rəhbərləri AMEA-nın Ümumi yığıncağının "Görkəmli dövlət xadimi Heydər Əliyev: lider, zaman və müasirlik" mövzusunda Xüsusi iclasında məruzə ilə çıxış etmişlər. TÜBİTAK-ın prezidenti Hasan Mandal AMEA tərəfindən keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Seysmologiya və mühəndis seysmologiyası" mövzusunda VII beynəlxalq konfransda məruzə etmişdir"[78].

Bu prosesdə AMEA-nın TÜBİTAK-ın Milli Akademik Şəbəkə və İnformasiya Mərkəzi (ULAKBİM) ilə əlaqələri genişləndirməsi və inkişaf etdirməsi çox vacib məqamdır. Çünki bu

---

[77]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2024, s.277.

[78] Yenə orada, s. 278.

əməkdaşlıq AMEA-da nəşr edilən elmi jurnalların və Azərbaycan alimlərinin əsərlərinin beynəlxalq miqyasa çıxışında yeni mərhələni başladacaqdır.

Bunlarla yanaşı, AMEA və AKDTYQ birgə Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş bir neçə ortaq emi tədbirlər keçirmişlər. AMEA rəhbərliyi Türkiyə ilə elmi əməkdaşlığı daha da genişləndirir və dərinləşdirir. Bununla bərabər, AMEA digər türk dövlətləri ilə də əlaqələri sürətlə inkişaf etdirir. Bu sırada Özbəkistan və Qazaxıstanla əməkdaşlıq çoxşaxəlidir və müxtəlif mövzuları əhatə edir.

AMEA rəhbərliyi Bolqarıstanın elmi təşkilatları ilə də çoxşaxəli əlaqələr qurmuşdur. Bolqarıstan Elmlər Akademiyası (BEA) ilə Anlaşma Memorandumu imzalanmış və hər iki qurumun elmi-tədqiqat institutları arasında müxtəlif elm sahələri üzrə əməkdaşlıq haqqında sənədlər imzalanmışdır[79].

Vurğulanan kontekstdə AMEA-nın Beynəlxalq Elmi Şuranın (International Council for Science - İSC) tamhüquqlu üzvü seçilməsi əlamətdar hadisədir. Çünki bu təşkilat Qərbdə xüsusi nüfuza malikdir və elmi yaradıcılığın koqnitiv aspekti, elmi fəaliyyətin sərbəstliyi məsələsi ilə yanaşı, alimin məsuliyyəti məsələsini də aktual hesab edir. “AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli İSC-nin Avropa üzvlərinin Monteneqroda keçirilən İllik Toplantısında olmuş və mühüm qərarların qəbul edilməsi üçün səsvermədə iştirak etmişdir”[80].

Bunlarla yanaşı, AMEA Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının tamhüquqlu üzvüdür. Təşkilatın rəhbərliyi Asiya Sosial Elmi Tədqiqat Şuraları Assosiasiyasına (AASSREC) üzvlük üzrə müzakirələr aparmışdır. AMEA Malayziya Elmlər Akademiyası, Vyetnam Sosial Elmlər Akademiyası, Avstraliya Sosial Elmlər Akademiyası ilə elmi əlaqələrin

[79] Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2024, s. 280-282.

[80]Yenə orada, s. 281.

yaradılması məqsədini qarşıya qoymuşdur. Avropa istiqamətində isə geniş əməkdaşlıq nümunələri mövcuddur[81]

Beləliklə, AMEA hər üç miqyasda fənlərarası tədqiqatlar kontekstinə ciddi əhəmiyyət verir. Bu zaman mövzu müxtəlifliyi ilə yanaşı, əməkdaşlıqda fənlərarası əlaqələrin gücləndirilməsi və bunun konkret araşdırma ilə yanaşı, elmi fəaliyyətin təşkilini də əhatə etməsi olduqca əhəmiyyətlidir. Çünki bu cür fokuslandıqda fənlərarası tədqiqat üçün yaradılan hər bir yaradıcı komandanı dövlətçiliyə xidmət edən və ölkənin strateji inkişaf kursuna uyğun istiqamətə yönləndirmək səmərə verir. Bu baxımdan yaradıcılıq sərbəstliyi ilə alim məsuliyyəti faktorlarının həm ayrılıqda, həm də bir-biri ilə düzgün nisbətdə olmasının əhəmiyyəti və aktuallığını dərk etmək gərəkdir.

Yaradıcılıq sərbəstliyi ilə alim məsuliyyəti məsələsi bütün dünya üçün çox aktual mövzudur. İndi elmi cəhətdən ən inkişaf etmiş ölkələrdə dərindən fənlərarası epistemoloji kontekstdə bu problemi araşdırırlar. O cümlədən, Beynəlxalq Elmi Şura (İSC) həmin istiqamətdə ciddi araşdırmalar aparır. ISC-nin missiyasının VII bəndi belə adlandırılır: “Elmlə azad və məsuliyyətli məşğul olmağı müdafiə və təlqin etmək”[82].

Təşkilatın problemi bu aspektdə aktuallaşdırması təsadüfi deyildir. Çünki İSC elmi ictimai fəzilət kimi qəbul edir. Bunun başlıca səbəbi elmin sürətli inkişafı və elmlərarası inteqrasiyanın vüsət alması onun əsaslı “sosial ölçülməsi”ni daha da aktuallaşdırmışdır. Yəni elmi kəşflərin tətbiqinin mümkün nəticələrinin özü adekvat fəlsəfi və elmi qiymətləndirilməlidir. Və bu özəllik artıq elmi yaradıcılığın ikinci dərəcəli, “yan”, yalnız tətbiqi xüsusiyyəti kim deyil, birbaşa fəzilətli elmi yaradıcılığın atributu olaraq qəbul edilməlidir. Bu baxımdan elmi fəaliyyətdə yaradıcılıq sərbəstliyi ilə alim məsuliyyətinin düzgün nisbəti təmin edilməlidir.

---

[81]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD. Bakı. – 2024, 281-282.

[82] International Council Science: [Electronic resource] // Paris, 2018. URL:https://ru.council.science/about-us/. Müraciət tarixi 01.08.2024.

Son bir neçə ildə İSC-nin hazırladığı məruzələrdə həmişə yaradıcılıq sərbəstliyi ilə alim məsuliyyəti məsələsi aktual mərkəzi problem kimi təhlil edilmişdir. Bu məsələ milli və qlobal miqyaslarda elmin sosial fəzilət olması şərtləri kontekstində qoyulmuşdur. Orada bizi maraqlandıran iki özəlliyi vurğulayaq. Birincisi, elmin müasir cəmiyyəti faktiki olaraq formalaşdıran faktor kimi qəbul edilməsi. İkincisi, elmin milli təhlükəsizlik məsələsi ilə sıx əlaqələndirilməsi. Burada "milli təhlükəsizlik" dedikdə ölkənin strateji inkişafı, toplumun dinamik inkişafının təmini, mənəvi-əxlaqi, mədəni dəyərlərin təmini və müxtəlif dağıdıcı təsirlərə qarşı ölkənin dayanıqlı olması nəzərdə tutulur[83].

Belə alınır ki, qlobal miqyasda elmi yaradıcılıq sərbəstliyi ilə alim məsuliyyətinin vəhdəti birmənalı olaraq ciddi aktuallıq kəsb edir. Bu problemin həllinə dövlətçilik, milli təhlükəsizlik və strateji inkişaf kontekstlərində baxılması isə olduqca maraqlıdır. Ümumi nəticə onan ibarətdir ki, hər bir müstəqil dövlətin elmi hər şeydən öncə alim məsuliyyəti ilə dövlətçiliyin təminini, strateji inkişaf kursunun reallaşmasını elmi ictimai fəzilət faktoru kimi qəbul etməklə xidmət etməlidir.

AMEA-nın elmi fəaliyyətin təşkili ilə bağlı yuxarıda vurğuladığımız başlıca məqamlar təşkilatın 2024-cü ildəki fəaliyyətində daha da inkişaf etdirilmişdir. Burada həm AMEA-nın elmi-tədqiqat institutlarında, həm də dünyanın müxtəlif elmi mərkəzləri ilə əməkdaşlıq fəaliyyətində fənlərarası sferaya xüsusi diqqət yetirildiyini konkret faktlar göstərir. Akademiyanın yeniləşmə kursu kontekstində isə elmi baxımdan daha əhəmiyyətli məqamlardan biri təşkilatın Rəyasət Heyəti başda olmaqla bütün strukturlarının proseslərə daha geniş və əsaslı cəlb edilməsindən ibarətdir. Bu bağlılıqda bir neçə fakta baxaq.

2024-cü ildə AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsi elm və təhsil sahəsi elmi idarəetmənin və elmi-tədqi-

---

[83]A contemporary perspective on the free and responsible practice of science in the 21st century. Discussion paper of the International Science Council's Committee for Freedom and Responsibility in Science // Paris. ISC, - 2021, - pp.5-32.

qat işlərinin təşkilinin təkmilləşdirilməsi istiqamətində aktiv fəaliyyət göstərmişdir. O cümlədən, cəmiyyətdə elmin rolunun və nüfuzunun artırılması, elm və təhsilin səmərəli inteqrasiyasının təmin edilməsi və elmi və elmi-texniki potensialın inkişaf etdirilməsi ilə əlaqədar bir çox proqramlar hazırlamışdır.

Həmin kontekstdə Elm və təhsil şöbəsi "AMEA-nın elmi müəssisələrində 2024-cü ildə keçirilməsi nəzərdə tutulan beynəlxalq və respublika səviyyəli elmi və elmi-texniki tədbirlər, simpoziumlar, konfranslar və seminarlar haqqında AMEA-nın elmi bölmələrindən və elmi müəssisələrdən daxil olan təkliflər"i təhlil edərək sistemləşdirmişdir. Və "AMEA Rəyasət Heyətinin 9 yanvar 2024-cü il tarixli 1/7 nömrəli qərarı ilə "2024-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi konfransların planı" AMEA Rəyasət Heyətində müzakirə edilərək təsdiq olunmuşdur". Eyni mexanizmlə 2024-cü ildə AMEA-da aparılacaq elmi-tədqiqat işlərinin əhatəli planı AMEA Rəyasət Heyəti tərəfindən müzakirə olunaraq təsdiqləmişdir[84].

2024-cü ildə AMEA Rəyasət Heyətinin elmi fəaliyyətin təşkili istiqamətində həyata keçirdiyi proqramlar sırasında gənc tədqiqatçılarla əlaqəli tədbirlər xüsusi yer tutmuşdur. O cümlədən, 2 Fevral – Azərbaycan Gənclər Günü münasibətilə AMEA-nın elmi və ictimai fəaliyyətdə fərqlənən gənc alim və mütəxəssislərinin təşviq edilməsinə diqqət yetirilmişdir. Bu bağlılıqda AMEA-nın "İlin gənc alimi" mükafatı müsabiqəsi təşkil edilmişdir. Elm və təhsil şöbəsi tərəfindən AMEA-nın "İlin gənc alimi" mükafatı müsabiqəsinin keçirilməsi ilə bağlı təşkilati işlər yerinə yetirilmiş, eyni zamanda mükafata təqdim olunmuş gənclər sırasından seçilmiş namizədlərin siyahısı müvafiq qərarların qəbul olunması üçün AMEA Rəyasət Heyətinin müzakirəsinə təqdim edilmişdir. AMEA Rəyasət Heyətinin 27 yanvar

---

[84]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 168.

2025-ci il tarixli 6/4 nömrəli "2024-cü il üzrə AMEA-nın "İlin gənc alimi" mükafatı müsabiqəsinin nəticələri haqqında" qərarı ilə təsdiq edilmişdir"[85].

Azərbaycan Milli Elmlər Akademiyasında elmin təşviqinə diqqət islahatlar kursu çərçivəsində daha sistemli və davamlı xarakter almaqdadır. 2024-cü il martın 27-də AMEA-nın Əsas binasında Elm Günü münasibətilə "Elm Günü və Günün elmi: humanitar tədqiqatlar və süni intellekt" mövzusunda təntənəli tədbir keçirilməsi əlamətdar hadisədir. Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Elm Günü və Günün elmi: Humanitar tədqiqatlar və süni intellekt" mövzusunda etdiyi məruzəsində təşkilatın qarşısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qoyduğu vəzifələrin əsas mahiyyətini geniş izah etmiş və onların yerinə yetirilməsində gənc alimlərin rolunun çox vacib olduğunu əsaslandırmışdır. Akademik İsa Həbibbəyli xüsusi vurğulamışdır ki, Azərbaycan elmi Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur və elmi tədqiqatlar ölkəmizin inkişaf strategiyasına və milli prioritetlərə uyğun həyata keçirilir. Nəticədə həmin istiqamətdə böyük uğurlar əldə olunmuşdur[86].

Elmi fəaliyyətin daha səmərəli və çevik idarəetmə əsasında təşkili üçün AMEA Rəyasət Heyətinin 29 yanvar 2024-cü il tarixli 9/2 nömrəli qərarı ilə Direktorlar Şurası yaradılmışdır. Həmin qərarla Azərbaycan Milli Elmlər Akademiyası ilə Türkiyə Cümhuriyyətinin TÜBİTAK təşkilatının Əlaqələndirmə Mərkəzi də yaradılmışdır.

Azərbaycan alimlərinin yaradıcılıqlarının beynəlxalq miqyasda təşviqi baxımından əhəmiyyətli olan onların elmi əsərlərinin nüfuzlu elmmetrik bazalarda (Web of Science və Scopus) indeksləşən elmi jurnallarda dərc olunması stimullaşdırılmış və impakt faktorlu jurnallarda nəşr olunan məqalələrə görə müka-

---

[85]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 168-169.
[86]Yenə orada, s. 169.

fatlar verilmişdir. Bununla yanaşı, 2024-cü ilin "...iyul və dekabr aylarında AMEA-nın elmi müəssisə və təşkilatlarına, regional elmi bölmə və mərkəzlərinə müraciət olunmuş, əməkdaşların cari ilin ikinci yarısında Web of Science və Scopus bazalarında indekslənən jurnallarda çap olunan elmi işləri (məqalə, konfrans materialı, tezis, monoqrafiya və s.) və onlar haqqında məlumatlar toplanılmış, AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil, "Elektron Akademiya" şöbələri tərəfindən yoxlanılıb təhlil edildikdən sonra nəşr olunan məqalələr, həmçinin 2024-cü il üzrə birinci, ikinci və üçüncü yerlər müəyyənləşdirilmişdir...2024-cü ilin ikinci yarısı və ilin yekunu üzrə impakt faktorlu jurnallarda nəşr olunan məqalələrə görə AMEA əməkdaşlarının mükafatlandırılması və ilin yekunu üzrə qaliblərin müəyyən edilməsi haqqında AMEA Rəyasət Heyətinin 20 dekabr 2024-cü il tarixli 22/2 nömrəli qərarı qəbul edilmişdir"[87].

AMEA özünün 80 illik yubileyinin təşkilinə də böyük məsuliyyət və ciddiyyətlə yanaşır. Rəyasət Heyəti bununla bağlı 15 may 2024-cü il tarixli 14/1 nömrəli qərarında təşkilatın 80 illik yubileyinin yüksək elmi-təşkilati səviyyədə qeyd edilməsini təmin etməyin vacibliyi vurğulanmışdır. Yubileyin keçirilməsi məqsədilə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin sədrliyi ilə 14 nəfərdən ibarət Komissiya yaradılmışdır.

2024-cü ildə AMEA Azərbaycanın müxtəlif nazilikləri ilə birgə ölkə üçün aktual olan elmi xarakterli mövzular üzrə tədbirlər keçirmişdir. Bu sırada sentyabr və oktyabr aylarında İqtisadiyyat Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində keçirilmiş tədbirləri qeyd etmək olar.

AMEA-nın 2024-cü ildə elmi fəaliyyətin təşkili kontekstində atdığı addımlar sırasında 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsinin hazırlanması məsələsi xüsusi yer tutur. Bununla bağlı AMEA Rəyasət Heyəti 21 oktyabr

---

[87]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 171.

2024-cü il tarixli 20/2 nömrəli qərar vermişdir. Həmin sənəddə "AMEA-nın 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi"nin hazırlanması haqqında qərar qəbul edilmişdir. Konsepsiyanın hazırlanması ilə bağlı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli sədr, AMEA-nın akademik-katibi, akademik Arif Həşimov sədr müavini seçilmişlər. Bununla yanaşı, 14 nəfərdən ibarət Komissiya və 20 nəfərdən ibarət İşçi qrupu yaradılmışdır.

AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinin 28 noyabr 2024-cü ildə təşkil etdiyi "AMEA-nın 2025-2030-cu illər üçün İnkişaf Konsepsiyası və Yol Xəritəsi"nin hazırlanması üzrə İşçi qrupunun iclasında akademik İsa Həbibbəyli ətraflı çıxış etmişdir. AMEA-nın prezidenti vurğulamışdır ki, "2025-2030-cu illər üçün İnkişaf Konsepsiyası və Yol Xəritəsi" AMEA-da 2022-ci ildən etibarən həyata keçirilən geniş yeniləşmə islahatlarının tərkib hissəsi"dir və buna görə də bu sənəd Akademiyanın 80 illik yubileyinə mühüm töhfə olacaq. Perspektivdə isə həmin sənəd Azərbaycan Milli Elmlər Akademiyasının gələcək fəaliyyət istiqamətində xüsusi rol oynayacaq[88].

AMEA rəhbərliyi təşkilatda elmi fəaliyyətin təşkilində perspektivi nəzərə alan addımları ardıcıl olaraq atır. Bu məqam bütövlükdə yeniləşmə kursunun mahiyyətinə və əsas hədəflərinə tam uyğundur. Həmin aspektdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tərəfindən imzalanmış 2024-cü il 22 noyabr tarixli sərəncam çox əhəmiyyətlidir. Sərəncam 2025-ci ildə keçirilməsi nəzərdə tutulan beynəlxalq və respublika səviyyəli elmi və elmi-təşkilati tədbirlərin planının hazırlanması haqqındadır. Bu sərəncamın yerinə yetirilməsi üçün "AMEA-nın elmi müəssisələrində 2025-ci ildə keçirilməsi nəzərdə tutulan beynəlxalq və respublika səviyyəli elmi və elmi-texniki tədbirlər, simpozi-umlar, konfranslar və seminarlar haqqında AMEA-nın elmi böl-

---

[88]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 174-175.

mələrindən və elmi müəssisələrdən daxil olan təkliflər AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsi tərəfindən təhlil edilərək sistemləşdirilmiş və AMEA Rəyasət Heyətinin müzakirəsinə təqdim edilmişdir. AMEA Rəyasət Heyətinin 27 yanvar 2025-ci il tarixli 6/3 nömrəli "2025-ci ildə keçiriləcək beynəlxalq və respublika səviyyəli elmi tədbirlərin planının təsdiq edilməsi haqqında" qərarı ilə təsdiq edilmişdir"[89].

Yuxarıdakı təhlillər aydın göstərir ki, AMEA rəhbərliyinin həyata keçirdiyi yeniləşmə xəttində elmi fəaliyyətin təşkilinə ciddi diqqət yetirilir. O cümlədən həmin istiqamətdə elmin təşviqinin konkret nümunələrinin əhəmiyyəti də çoxdur. Bu kontekstdə AMEA rəhbərliyinin 2025-ci ilin ilk üç ayı ərzində atdığı addımlar da çox əhəmiyyətlidir. AMEA Rəyasət Heyətinin martın 8-də keçirilən İclasında təşkilatın rəhbəri, akademik İsa Həbibbəyli Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə qadınların cəmiyyət həyatında rolunun artdığını, toplumun aparıcı qüvvəsinə çevrildiyini ifadə etdi. AMEA prezidenti vurğulamışdır ki, "dahi liderin bu siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də daim Azərbaycan qadınına yüksək dəyər vermiş, nəticədə ictimai-siyasi həyatda, elmdə, təhsildə, mədəniyyətdə, incəsənətdə qadın liderlərin sayı əhəmiyyətli dərəcədə artmışdır"[90].

Fikirlərinə davam edərək, akademik İsa Həbibbəyli 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbriklərini dilə gətirmişdir. AMEA prezidenti, akademik İsa Həbibbəyli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan qadınının dövlətinə, xalqına şərəflə və sədaqətlə xidmət etməyin nümunəsini göstərdiyini xüsusi vurğulamışdır. Mehriban xanım Əliyevanın "həya-

---

[89]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 176.

[90] AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

ta keçirdiyi sosial və humanitar layihələrin xalqımız tərəfindən təqdir" olunduğunu söyləmişdir[91].

İclasda AMEA prezidenti, akademik İsa Həbibbəyli Akademiyada martın 27-də "Elm Günü"nün keçiriləcəyini elan etdi. Akademik İsa Həbibbəyli bununla bağlı ifadə etdiyi fikirlərdə xüsusi vurğulamışdır ki, "Azərbaycanda "Elm Günü" olaraq məhz Azərbaycan Milli Elmlər Akademiyasının təsis edildiyi tarixin müəyyən edilməsi dövlət başçısı tərəfindən AMEA-ya, Azərbaycan elminə və Azərbaycan alimlərinə göstərilən yüksək diqqət, qayğı və etimadın bariz nümunəsidir. 80 illik tarixi inkişaf yolu keçmiş Akademiyaya bu yüksək etimadın əsasında həm də müasir Azərbaycan mədəniyyətinin, milli dövlətçilik və azərbaycançılıq məfkurəsinin formalaşmasında, milli ziyalı elitasının yetişdirilməsində AMEA-nın fəaliyyəti dayanır"[92].

AMEA prezidenti iclasdakı nitqində bütövlükdə Azərbaycan elmi və ayrılıqda Akademiyanın inkişafı prosesinin davam etdiyini diqqətlərə çatdırdı. Akademik İsa Həbibbəyli bununla bağlı ifadə etdi: "Hazırda Azərbaycan elminin və onun əsas aparıcı mərkəzlərindən olan Azərbaycan Milli Elmlər Akademiyasının inkişafı yeni reallıqlara uyğun olaraq davam etdirilməkdədir. Bu inkişafın əsasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi və ölkənin hərtərəfli inkişafına yönəlmiş dövlət siyasətinin həyata keçirilməsində yaxından iştirak etmək, Azərbaycan dövlətinin elmi fəaliyyət sahəsində məqsədyönlü şəkildə reallaşdırdığı islahatların tərkib hissəsi olmaq təşkil edir"[93].

Bütün bunların fonunda AMEA prezidenti, akademik İsa Həbibbəylinin aşağıdakı fikri çox əhəmiyyətlidir və mövcud vəziyyəti adekvat ifadə edir. Akademik İsa Həbibbəyli iclasda demişdir: ""Elm Günü"nün qeyd edilməsi elmi fəaliyyətin cəmiy-

---

[91] AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

[92]Yenə orada.

[93]Yenə orada.

yətdə nüfuzunun gücləndirilməsi, elmin populyarlaşdırılması, alimlərin əməyinin qiymətləndirilməsi, onların yeni elmi nailiyyət və uğurlara təşviq edilməsi baxımından böyük əhəmiyyət kəsb edir".

AMEA Rəyasət Heyətinin 2025-ci il 7 mart iclasında başqa bir vacib məsələyə də diqqət ayrılmışdır. Orada bir neçə elm və mədəniyyət xadimi ilə bağlı qərarlar verilmişdir.

Bu sırada Azərbaycan Respublikası Prezidentinin "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" 3 fevral 2025-ci il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planı təsdiq edilmişdir. Tədbirlər planında "Üzeyir Hacıbəyli: ədəbi-mədəni dəyər və mənəvi-estetik zənginlik", "Akademik Üzeyir Hacıbəyli və Azərbaycan musiqi mədəniyyəti", "Üzeyir Hacıbəylinin publisistikasında dil məsələləri", "Üzeyir Hacıbəylinin Azərbaycanın ictimai-siyasi fikir tarixində yeri", "Üzeyir Hacıbəylinin yaradıcılığı və maarifçilik fəaliyyəti", "Üzeyir Hacıbəylinin yaradıcılığında azərbaycançılıq və türkçülük ideyaları", "Xalq düşüncəsinin ecazkarlığı: səsdə və bədii sözdə", "Azərbaycan musiqişünaslığında Üzeyir Hacıbəyli imzası", "Üzeyir Hacıbəylinin Nizami Gəncəvinin qəzəllərinə bəstələnmiş romansları", "Üzeyir Hacıbəylinin jurnalistik fəaliyyəti", "Üzeyir Hacıbəyli – 140" mövzusunda konfrans, dəyirmi masa, virtual sərgi və bir sıra nəşrlərin çapı yer almışdır[94].

Daha sonra ölkə Prezidentinin "Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 21 fevral 2025-ci il tarixli Sərəncamının icrası ilə bağlı AMEA-nın qarşısında duran vəzifələr müzakirə olunmuşdur. Akademik İsa Həbibbəyli bildirmişdir ki, "Bəxtiyar Vahabzadə daim milli azadlıq və istiqlal eşqi ilə yaşayıb, XX əsrdə ana dilimiz haqqında ən cəsarətli şeiri yazıb, məhz bu xidmətlərinə görə, Azərbaycan Respublikasının ən ali təltiflərindən "İstiqlal" ordenini ilk dəfə alan 3 şairdən bi-

---

[94] AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

ri" olmuşdur. Görkəmli şairin "yubileyinin nəinki ölkəmizdə, bütün Türk dünyasında qeyd olunduğunu, TÜRKSOY-un 2025-ci ili "Bəxtiyar Vahabzadəni Anma İli" elan etdiyini diqqətlərə çatdırmışdır. Akademik İsa Həbibbəyli "şairin 100 illik yubileyinin Akademiyada da yüksək səviyyədə keçiriləcəyini diqqətə" çatdıraraq, "AMEA-nın elmi müəssisə və təşkilatlarına, regional elmi bölmə və mərkəzlərinə Bəxtiyar Vahabzadənin yubileyinin qeyd edilməsi ilə bağlı AMEA-nın Tədbirlər planının hazırlanması ilə bağlı təkliflərini təqdim etmələrini" tapşırmışdır[95].

Bunlarla yanaşı, iclasda AMEA prezidenti elmin təşviqində güclü vasitə olan fəxri fərmanların təsis edildiyi haqqında məlumat vermişdir. 8 mart iclasında Üzeyir Hacıbəyli, Nobel mükafatı laureatı Əziz Sancar və məşhur bakılı fizik Lev Landau adına fəxri fərmanlar təsis edilmişdir.

Rəyasət Heyətinin iclasında, eləcə də akademik Sadıq Dadaşovun 120, akademik Mikayıl Useynovun 120, AMEA-nın müxbir üzvü Məqsəd Səttarovun 100 və AMEA-nın müxbir üzvü İlyas Babayevin 90 illik yubileyləri haqqında qərarlar verilmişdir[96].

Bütün bunlar onu göstərir ki, AMEA rəhbərliyi təşkilatın yeniləşməsini bütün istiqamətlərdə inamla aparmaqdadır.

Buradan belə nəticəyə gəlmək olar ki, AMEA-nın yeniləşməsi elmin Azərbaycanın daxili yaradıcılıq potensialı kimi daha da inkişaf etməsi ilə yanaşı, onun dünya elminə inteqrasiyası üçün də səmərəli baza yaradır. Bu iki miqyasın vəhdəti strateji əhəmiyyət kəsb edir. Həmin vəhdətdə yaradıcılıq sərbəstliyi ilə tədqiqatçı məsuliyyətinin qarşılıqlı əlaqəsinin məzmununda yeni elmi konsepsiyaların hazırlanması xüsusi yer tutur. Yəni AMEA-nın yeniləşməsi prosesi başqa əlamətlərlə yanaşı, yeni konsepsiyaların yaradılması ilə də xarakterizə olunur. Buna nü-

---

[95] AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib // Azərbaycan Milli Elmlər Akademiyası, 08.03.2025. URL: https://science.gov.az/az/news/open/31859

[96] Yenə orada.

munə kimi Akademik elmdə yeni dövrləşdirmə konsepsiyasının hazırlanmasını göstərə bilərik. Bu strateji xarakterli vacib məsələ üzərində növbəti paraqrafda geniş dayanaq.

## 2.4. *Akademik elmdə yeni dövrləşdirmə konsepsiyası və ədəbi-tarixi şəxsiyyətlərə yenidən qayıdış*

Etiraf edək ki, akademik elmdə yeni dövrləşdirmə konsepsiyası və ədəbi-tarixi şəxsiyyətlərə yenidən qayıdış olduqca aktual, səmərəli və milli maraqlar baxımından zəruri bir ideyadır. AMEA prezidenti, akademik İsa Həbibbəylinin bu ideyanın təşəbbüskarı və ilk reallaşdıran alim kimi fəaliyyəti gözəl nümunədir. Akademik İsa Həbibbəyli "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" (Bakı, "Elm", 2019, 448 s.) adlı sanballı monoqrafiyası ilə faktiki olaraq müasir Azərbaycan fəlsəfi və elmi yaradıcılığında yeni əhəmiyyətli istiqamətin əsasını qoymuşdur. Biz bu tezisimizi sübut edəcəyik. Öncə, bir neçə ümumi xarakterli fəlsəfi məqamları vurğulayaq.

Fəlsəfədə qədimdən tarix və müasirlik mövzuları aktual hesab olunmuşdur. Burada tarixi müasirliyə və müasirliyin tarixə münasibətlərinin qarşılıqlı tədqiqi aparıcılıq təşkil etmişdir. Çox fərqli yanaşmalar özünü göstərmişdir. Onların üzərində burada dayanmağa ehtiyac görmürük. Eyni zamanda, müasir Azərbaycan üçün əhəmiyyəti olan bir sıra prinsipial məqamların üzərində dayanmaq gərəkdir. Həm də məsələyə dövlətçilik, milli inkişaf və cəmiyyətin özünü adekvat dərketməsi kimi xüsusiyyətlərin prizmasında nəzər salacağıq.

Tarix həmişə özünü inkar edir. Onun başqa cür reallaşma və inkişaf yolu yoxdur. "Tarixi hadisə" həmişə keçmişə aiddir, lakin müasirliyin interpretasiyasıdır. Çünki hadisə baş verdiyi zaman o, həmin anda müasirliyi təmsil edir. Hadisə bitəndən sonra yeni zaman kəsmində onun cəmiyyətdə yeri və roluna qiymət artıq "tarixi hadisə" və ya "adi hadisə" kimi ola bilər. Bu mənada tarix narrativdir.

Müasir tarixşünaslar Frensis Yeyts, Patrik Hatton, Pyer Nora tarixi "yaddaşların kəsişmə sahəsi" kimi dərk edirlər[97]. Bu mənada tarix həmişə cəmiyyətin mədəniyyət özəlliyi ilə bağlı olur. Mədəniyyətin növlərini şifahi mədəniyyət, yazılı mədəniyyət və elektron (və ya rəqəmsal) mədəniyyət kimi təsnif edəndə[98] tarix-yaddaş-cəmiyyət münasibətləri kontekstində tarixi yaddaşın mədəniyyət növü ilə dərin əlaqələrinin fəlsəfəsi üzərində düşünmək olar.

Şifahi mədəniyyətin özünəməxsus fəlsəfi, elmi və bədii təfəkkür tərzi olur. Şifahi mədəniyyət şəraitində biliklərin və informasiyaların canlı və ustad-şagird münasibətlərində mövcud olan biliklərin dəyişməz ötürülməsi müəyyən növ təfəkkür formalaşdırır. Buna görə də şifahi mədəniyyətin fəlsəfi, elmi və bədii təfəkküründə özünəməxsus cəhətlər mövcuddur. P.Nora obrazlı şəkildə ifadə edir ki, ənənəvi cəmiyyətlərdə tarix=yaddaş[99]. M.Maklüyen və P.Nora bunun səbəbini şifahi mədəniyyət növündə dominant olan kommunikasiya tipində - şifahi ünsiyyətdə görürlər.

Yazılı mədəniyyətdə vəziyyət dəyişir. Artıq tarixin sürətlənməsi (P.Nora) yaddaşın cəmiyyətdə funksiyasını dəyişir. Ünsiyyət yazılı mətnlər üsuluna daha çox meyil edir. Əlyazmalar və kitabların meydana gəlməsi ilə təfəkkür tərzi keyfiyyətcə dəyişir. Artıq bilik və informasiya canlı deyil, mətn vasitəsilə ötürülə bilir. Bu da təfəkkürdə və yaddaşda stabilliklə dinamizmin yeni nisbətini yaradır. Təbii ki, bu mədəniyyət növünün

---

[97]Йейтс, Ф. Искусство памяти. Санкт-Петербург:Фонд поддержки науки и образования. "Университетская книга", – 1997, – 238 с.; Хаттон, П.Х. История как искусство памяти. Санкт-Петербург: Владимир Даль, - 2004,- 424 с.; Нора, П. Пюнмеж, Ж., Винок, М. Франция-память. Санкт-Петербург. Издательство Санкт-Петербургского университета. – 1999, – 333 с.

[98]Маклюэн, М. Галактика Гутенберга: Сотворение человека печатной культуры. Киев: Ника Центр, Эльга. Издательский дом Дмитрия Бураго. - 2003, - 206 с.

[99]Нора, П. Пюнмеж, Ж., Винок, М. Франция-память. Санкт-Петербург. Издательство Санкт-Петербургского университета. – 1999, – с. 19.

fəlsəfəsi, elmi və bədii təfəkkürü şifahi mədəniyyətdə olandan fərqlənməlidir[100].

Nəhayət, elektron (və ya rəqəmsal) mədəniyyət növündə bilik və informasiyanın həm ayrılıqda məzmunları dəyişir, həm onların qarşılıqlı münasibətləri yeni məzmun alır, həm də ötürülmə mexanizmləri tamamilə fərqli olur. Bu substantiv və kommunikativ dəyişmə avtomatik olaraq yeni təfəkkür tərzi formalaşdırır. Dövrün fəlsəfi, elmi və bədii təfəkkürü yeni çalarlar alır və daha dinamik bir formaya keçir. Ünsiyyətin elektron forması kommunikasiyada daha çevik, dəyişkən və rəmzi bir situasiya yaradır. Elektron kommunikasiya insanı hər bir həyat aspektində prinsipial olaraq yeni situasiyaya atır. Yaddaşın saxlanması və sosial-mədəni funksiyası yeniləşir. Belə bir şəraitdə cəmiyyətin bütövlüyünü təmin etmək problemi daha aktual mövqeyə keçid edir[101].

Bu fikirlərdən müəyyən nəticələr çıxarmaq olar. İlk olaraq, aydın olur ki, hər bir tarixi mərhələdə mədəniyyət növünün formalaşması o dövrə xas olan bilik və informasiyaların əldə olunması və ötürülməsi mexanizmləri (kommunikasiya üsulu) ilə sıx bağlıdır. Bu da o deməkdir ki, mədəniyyət tipinin məzmunlaşmasında elmi təfəkkür çox ciddi rol oynayır. Bu, faktiki olaraq, fəlsəfi-elmi-bədii təfəkkür üsullarının sintezində konkret təzahür forması alır. Həmin "kanal" üzrə elmi, fəlsəfi və bədii konsepsiyalar cəmiyyətin mədəniyyət, dünyagörüşü, mənəvi-əxlaqi, intellektual, dəyərlər sistemləri ilə sıx qarşılıqlı əlaqədə olurlar. Bu səbəbdən də tarixin intellekt, elm, şüur, mədəniyyət, mənə-

---

[100]Маклюэн, М. Галактика Гутенберга: Сотворение человека печатной культуры. Киев: Ника Центр, Эльга. Издательский дом Дмитрия Бураго. - 2003, - 206 с

[101]Зубанова, Л.Б. Цифровая память в пространстве мемориальной культуры: образы прошлого в медиа-технологиях будущего // Челябинский гуманитарий, 2020, № 3 (52), с. 15-22; Тихонова, С.В., Фролова, С.М. Историческая память и медиальный поворот: цифровизация Прошлого // Вестник Поволжского института управления. 2020, том 20, № 4, с. 78-85.

viyyat, bədii aspektlərlə bağlı istənilən elmi dövrləşdirilməsi toplumun özünüdərki baxımından prinsipial əhəmiyyət daşıyır.

Daha sonra, bu özünüdərk (və ya empatiya) yalnız izahedici funksiya yerinə yetirmir. Onun başlıca rolu yeni təfəkkür üsulu formalaşdırmaqla əlaqəlidir. Çünki tarixi elmi dövrləşdirmə uzun müddəti əhatə edən zamanda cəmiyyətin mənəvi, intellektual və mədəniyyət dünyasını zamanca "bir nöqtəyə akkumulyasiya" edir, zaman-məkan kontinuumunda vahid hədəfə fokuslandırır. Bununla tarixi yaradılan elmi konsepsiyanın konseptual və metodoloji prizmasında "görmək" mümkün olur. Bu, millətin öz tarixinə baxmaqla gələcəyi necə qurmağın fəlsəfəsini yaratmağa ciddi yardım edir.

Nəhayət, mədəniyyətin müasir növü olan rəqəmsal mədəniyyət şəraitində ölkənin intellektual dairəsinin daha perspektivli tədqiqat istiqaməti seçməsində tarixi dövrləşdirmə konsepsiyası böyük rol oynaya bilər. Əgər bu sahədə vahid mövqeyə gəlinsə, onda gələcəyin vahid elmi obrazını yaratmaq mümkün olacaq. Bu da, şübhəsiz ki, dövlətçiliklə birbaşa bağlıdır və ölkənin strateji inkişaf kursuna ciddi töhfədir.

Bütün bunların prizmasında akademik İsa Həbibbəylinin hazırladığı bədii təfəkkürü dövrləşdirmə konsepsiyası Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi konsepsiyası formasında qəbul edilməsi mühüm elmi hadisədir. Bu, AMEA prezidentinin çox əhəmiyyətli şəxsi və intellektual nümunəsidir.

Akademik İsa Həbibbəylinin Azərbaycan bədii təfəkkürünün dövrləşdirilməsi problematikasına yanaşması konseptual, metodoloji və məqsəd baxımından üç əlaməti ilə seçilir.

Birincisi, müəllif bədii təfəkkürün (ədəbiyyatın dövrləşməsi formasında) dövrləşdirilməsinə ümumi halda zaman, onun konkret ifadə forması səviyyəsində milli mədəniyyət kontekstində yanaşır.

İkincisi, akademik İsa Həbibbəyli dövrləşdirmədə tarixi kontekstə əsaslı yer verir. Azərbaycan bədii təfəkkürünün müxtəlif özəlliklərini mövcud tarixi reallıqlar və şərtlər aspektində refleksiya edir.

Üçüncüsü, hər tarixi mərhələdə Azərbaycan bədii təfəkkürünün daşıyıcıları olan şəxsləri bütövlükdə xalqın intellektual, mənəvi-əxlaqi və mədəni sinerjisinin ən faydalı nümunələri kimi qəbul edir.

Bu üç əlamətin elmi-nəzəri olmaqla yanaşı, dövlətçilik baxımından strateji vacibliyini anlamaq gərəkdir.

Vurğuladığımız üç əlaməti akademik İsa Həbibbəyli monoqrafiyasının girişində aşağıdakı kimi yığcam ifadə etmişdir: "Azərbaycan xalqının milli-mənəvi dəyərləri, adət-ənənəsi, mənəviyyatı, mübarizəsi və idealları bu ədəbiyyatın ana xəttini, əsas qayəsini təşkil edir. Bu – böyük ənənələri olan, Azərbaycan xalqının milli varlığını əks etdirən və onu dünyaya təqdim edən ədəbiyyatdır. Bu – Azərbaycan xalqının milli özünəməxsusluğunun ədəbi kimliyidir. Bu – ümummilli idealları əsrdən-əsrə yaşadan və inkişaf etdirən böyük ədəbiyyatdır. Bu – Azərbaycançılıq idealının ədəbi manifestidir!"[102]

Aydın görünür ki, Zaman-Milli mədəniyyət (geniş anlamda) – Tarixi kontekst dialektik sintezdə təqdim olunur. Bu vəhdəti gerçəkləşdirən Azərbaycanın böyük intellektual şəxsiyyətləridir. Mətndən aydın olur ki, böyük milli mütəfəkkirlər həmin əlamətlərin daşıyıcıları kimi hər tarixi mərhələdə fəlsəfi, elmi, bədii təfəkkürü toplum üçün aktuallaşdırır və reaktuallaşdırlar.

Bu özəllik Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyasının ümumi və konkret nəzəri, bədii və metodoloji prinsiplərində dövrdən asılı olaraq özəl məzmunda təqdim edilir. Akademik İsa Həbibbəylinin vurğulanan konsepsiyası həmin səbəbdən dinamik və yeniləşməyə açıq sistem-prosesdir. Onu vurğulayaq ki, müəllifin yanaşmasında həmin problemin tarixi və onun formalaşmasının təkamülü geniş şəkildə və obyektiv araşdırılır. Bu cür əsaslı nəzəri, fəlsəfi, tarixi, bədii və metodoloji təməl üzərində müasir mərhələdə Azərbaycan ədəbiyyatının dövlərşdirilməsinin aktual məsələlərinə baxılır.

---

[102]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, "Elm", - 2019, - s.3.

Vurğuladığımız kontekstdə konsepsiyanın bir neçə mühüm cəhətlərinə nəzər salaq. Konsepsiyada ümumi səviyyədə tarixə və onun çərçivəsində yaddaşa yanaşmada özəllik mövcuddur.

Birincisi, "tarix artıq mövcud olmayanın həmişə problematik və tam olmayan yenidən konstruksiyasıdır" (P.Nora) tezisidir.

İkincisi, "yaddaş həmişə əbədi indi (bu gün – F.Q.) ilə daxili bağlantısı olan aktual fenomendir" (P.Nora). Akademik İsa Həbibbəyli bu tezisləri qnoseoloji və metodoloji fikir kimi açıq ifadə etmir, lakin İsa Həbibbəyli Azərbaycanın görkəmli alimlərindən olan Yaşar Qarayevin Zamanla bağlı bir fikrini nümunə kimi vurğulamaqla, yuxarıda qeyd etdiyimiz tezislərə daha ümumi elmi miqyasda yanaşdığını göstərir. Y.Qarayev yazırdı: "Zaman – əbədi davam edən keçmiş deməkdir"[103].

Yuxarıdakı iki tezis mədəniyyət və tarixiliyi sintez edir. Zaman anlamı isə onlara dövlətçilik faktorunu da birləşdirməyə imkan verir. Əvvəlcə, həmin iki tezisin nəzəri anlamı üzərində dayanaq.

Belə görünür ki, akademik İsa Həbibbəyli araşdırdığı elmi problemə müasir metodoloji çərçivədə yaradıcı yanaşır. Həmin əlamətləri ardıcıl olaraq, müəllifin Azərbaycan ədəbiyyatının dövrləşməsi məsələsini hər tarixi mərhələdə öncəki tarixi mərhələyə nisbətdə "yenidən konstruksiya" edilən fenomen kimi təsəvvür etməsində və bu zaman "yeni konstruksiya"nın "tam olmadığı"nı sübut etməsində görə bilərik. Ancaq məhz bu dinamikada müəllif Azərbaycan ədəbiyyatının bədii və ictimai fikir prosesi kimi kəsintisiz daxili təkamül xüsusiyyəti daşıdığını da vurğulayır. Yəni yuxarıda vurğuladığımız əlamətlər bədii təfəkkürü tarixi xronologiyada vahid prosesin mərhələləri kimi qəbul etməyə elmi əsas verir. Bu artıq tarixi baxımdan Azərbaycan bədii təfəkkürünün holistik (tam) və geştalt (hər mərhələdə fraqmentar deyil, ənənəyə əsaslanan bütöv keçidlər silsiləsi) mahiyyətdə olduğunun elmi təsbitidir.

---

[103]Y.Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, IV c. – Bakı, Elm, - 2016, - s.13.

Sonuncu tezisin tarixi və filoloji əhəmiyyəti ilə yanaşı, ümumfəlsəfi miqyasda strateji vacibliyini anlamamız gərəkdir. Bununla akademik İsa Həbibbəyli Azərbaycan bədii təfəkkürünün timsalında, ümumiyyətlə, Azərbaycan mədəniyyəti, mənəvi-əxlaqi dünyaduyumu, fəlsəfi-tarixi təfəkkürünün iki mühüm özəlliyini aydınlaşdırır.

Birincisi, Azərbaycan cəmiyyət olaraq ciddi əsaslara malik mədəniyyət, fəlsəfə, elm və bədii fenomen məkanıdır. Həmin keyfiyyətdə Azərbaycan təfəkkürü sıx surətdə xalqın sosial-tarixi varlıq kimi özünüyaratması və yenidən yaratması prosesinin aparıcı faktoru-prosesidir. Bu yanaşma Ulu Öndərin Azərbaycan xalqının zəki olması və tarixən elmin cəmiyyətimizi yaratdığı ilə bağlı məlum fikirlərinə tam uyğundur. Ulu Öndərin bununla bağlı demişdir: "...xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir... Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır"[104].

İkincisi, Azərbaycan tarixi, fəlsəfi və bədii təfəkkürünün cəmiyyətlə bağlantısında dövlətçiliyin xüsusi yeri və rolu olmuşdur. Y.Qarayevin Zamanla bağlı ifadə etdiyi tezisin işığında bu qənaətə gəlmək olar - "Zaman – əbədi davam edən keçmiş deməkdir!"

Bu tezisin məntiqi daxilində akademik İsa Həbibbəylinin yanaşmasından avtomatik bir sual yaranır: "bu əbədi keçmiş əbədi olaraq toplumun intellektində nələri daşıyır?". Çox əhəmiyyətlidir ki, bu sual monoqrafiyada Yaşar Qarayevin qoyduğu bir sualın işığında aydın görünür. Akademik İsa Həbibbəyli Y.Qarayevin aşağıdakı sualını vurğulayır: "Ədəbiyyat tariximizin bir əsas vəzifəsi, bir suala cavab vermək borcu, missiyası vardır: qədimdən indiyə qədər, mifdən, folklordan müasir günlərə qədər Azərbaycan xalqı dünya ədəbi-bədii fikrinə hansı yeni-

---

[104]Bax: məs. Əliyeva-Kəngərli, A. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici. Bakı, "Şərq-Qərb", - 2010, - s. 28.

likləri gətirib, hansı mənəvi, əxlaqi, bədii dəyər və sərvətlərlə onu zənginləşdirib?”[105] və həmin Y.Qarayevin dili ilə cavab verir: “...ədəbiyyat tariximizin bu vaxta qədərki bütün dərslərini, təcrübəsini, ənənələrini rəhbər tutsaq, onun tam və dolğun elmi tarixini yarada bilərik, millətlərin, xalqların bugünkü mənəvi-əxlaqi, bədii dəyərlər müsabiqəsində və yarışında milli mədəniyyətimizin özünü təsdiq edə bilməsinə kömək etmiş olarıq”[106].

Y.Qarayevin bu fikrinin həm də akademik İsa Həbibbəylinin cavabı olduğunu monoqrafiyada həm bu tezislər və həm də akademik İsa Həbibbəylinin özünün yeni tezislərinin sintezi təsdiq edir. Akademik Azərbaycan tarixi, bədii təfəkkürünün araşdırlması ənənəsinin sadiq tərəfdarı kimi istinad etdiyi tezisləri həmişə zənginləşdirir, müasirləşdirir və onu birbaşa bütövlükdə mədəniyyət kimliyimizlə, dövlətçilik özünəməxsusluğumuzla immanent olaraq bağlayır.

Məhz bu kontekstdə İ.Həbibbəyli Y.Qarayevin bir ümumiləşdirici tezisini də önə çəkir: Azərbaycan bədii təfəkkürü “vahid, ümumi, bütöv bir manifest və yaddaş”dır[107]. Burada akademik İsa Həbibbəylinin baxdığı elmi problem daxilində tarixiliklə yaddaşın dərin sintezini ön plana çıxardığı aydınlaşır. Bunun davamı olaraq da hər iki faktoru mədəniyyət və dövlətçiliklə əlaqələndirir.

Bununla akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi məsələsində əsas hesab etdiyi faktorlara yanaşmanı nəzəri səviyyədə bütövləşdirir. Burada da Y.Qarayevin ümumiləşdirməsinə yüksək qiymət verir. İ.Həbibbəyli nümunə kimi göstərir ki, Y.Qarayev yazır: “Bütövlük isə köklə zirvə arasında vəhdətdən başlayır, onun sabitliyi ilə bərqərar olur. Kök – zəngin ədəbi keçmişimizdir, Azərbaycanda (Şərqdə) iki min illik tərəqqinin milli-mənəvi tarixi irsi, bədii, fəlsəfi-estetik dəyər və

[105] Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, “Elm”, - 2019, s.58-59.
[106]Yenə orada, s. 59.
[107]Yenə orada, s. 59-60.

sərvətidir. Zirvə – çağdaş suveren milli təfəkkürdür, istiqlal şüurudur, müstəqillik mentaliteti və statusudur”[108].

Beləliklə, müəllif problemə yanaşmanın ümumi nəzəri mənzərəsini tarixi özəllik, milli mədəniyyət və dövlətçilik aspektlərinin sintezi əsasında formalaşdırır. Bu çərçivədə də Azərbaycan ədəbiyyatşünaslığı üçün aktual olan kompleks meyarları müəyyən etmək vəzifəsi də yerinə yetirilməlidir. Müəllif yazır: “Müstəqillik dövründə Azərbaycan ədəbiyyatşünaslıq elmi müxtəlif səviyyələrdə həmin kompleks meyarları axtarıb müəyyən etmək problemi ətrafında axtarışlar aparmışdır. Təkcə ədəbiyyat tarixçiliyinin yox, bütövlükdə Azərbaycan ədəbiyyatşünaslıq elminin baş suallarından birinə çevrilən bu problemin həlli irəli sürülən təklif və mülahizələrin hamısını deyil, əsas meyar və prinsiplərin kompleksini müəyyən etməkdən asılı olmuşdur”[109].

Bütün bunlar əsasında akademik İsa Həbibbəyli vacib bir qənaət əldə edir: Azərbaycan ədəbiyyatının akademik dövrləşdirməsi yenidən aparılmalıdır! Müəllifin məsələyə yanaşmasında böyük şairimiz Səməd Vurğunun bir fikrinin də mühüm rol oynadığını düşünürük. S.Vurğun yazırdı ki, “...tarixçilərimiz və ədəbiyyatşünaslarımız var qüvvələri ilə …əl-ələ verərək …Azərbaycanın ümumi tarixini, eləcə də Azərbaycan ədəbiyyatı tarixini yaratmalıdırlar”[110]. Bu fikri akademik İsa Həbibbəyli böyük vətənpərvərlik, sevgi və Azərbaycan elmi təfəkkürünə hörmət ilə nümunə kimi gətirir. Həmin münasibəti müəllifin Azərbaycan ədəbiyyatını dövrləşdirmə konsepsiyasının əsas tezislərindən duymaq olur.

Bundan başqa, akademik İsa Həbibbəyli özünün dövrləşdirmə konsepsiyasının nəzəri, konseptual və metodoloji bazasını formalaşdırmaq üçün problemin XX əsrin ikinci yarısında araşdırılması vəziyyəti ilə bağlı maraqlı ümumiləşdirmə aparır. Müəllif yazır: “...Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolu-

---

[108]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, “Elm”, - 2019, s. 60.

[109] Yenə orada, s. 59.

[110]S.Vurğun. Əsərləri. 6 cilddə, V c. – Bakı, Elm, - 1972, - s.151.

nun müxtəlif formatlarda olsa da, mərhələlər üzrə təqdim olunması artıq ədəbiyyatşünaslıq elmində dövrləşdirmə baxımından formalaşma proseslərinin yarandığını göstərir. Ona görə də bu dövrü ədəbiyyatşünaslıqda *Azərbaycan ədəbiyyatı tarixinin elmi prinsiplərinin formalaşması mərhələsi* adlandırmaq olar”[111].

Həmin dalğa üzərində XX əsrin 90-cı illərində problemin araşdırılmasında irəliyə doğru addımlar atıldığını müəllif xüsusi vurğulayır. Bu baxımdan “Yaşar Qarayev, Nizami Cəfərov, Vəli Osmanlı, Nazif Qəhrəmanlı, Bədirxan Əhmədov, Alxan Bayramoğlu, Təyyar Salamoğlu və başqalarının əsərlərində öz əksini tapmış müddəalar dövrləşdirmənin müasir modelini hazırlamaq üçün mühüm təməl funksiyasını həyata” keçirdiyini ifadə edir. Yəni problemin araşdırılmasında elmi prinsiplərin formalaşması mərhələsi çərçivəsində keçən əsrin 90-cı illərinin araşdırmalarının əhəmiyyətli rol oynadığını qəbul etmək gərəkdir. Akademik İsa Həbibbəyli həmin mərhələni aşağıdakı kimi xarakterizə edir: “XX əsrin doxsanıncı illərini... əslində, Azərbaycan ədəbiyyatı tarixini yenidən formalaşdırmaq üçün *konsepsiya axtarışları dövrü* adlandırmaq olar”[112].

Məhz həmin mərhələ əsasında XXI əsrdə Azərbaycan ədəbiyyatını dövrləşdirmə konsepsiyasının başlıca prinsiplərini formalaşdırmaq mümkün olmuşdur. Bununla bağlı akademik İsa Həbibbəyli vurğulayır: “Bu mərhələdə konkret olaraq milli ədəbiyyat tarixinin dövrləşdirilməsinə dair konseptual versiyalar, fərziyyələr meydana çıxmışdır. XXI əsrdə artıq elmi cəhətdən əsaslandırılmış şəkildə müəyyənləşdirilmiş Azərbaycan ədəbiyyatının inkişaf tarixinin sistemli dövrləşdirilməsi son bir əsrə yaxın dövr ərzində aparılmış tədqiqatların, irəli sürülmüş variantların yenidən dəyərləndirilməsi, dünya elmi-nəzəri fikrində müşahidə olunan müasir baxışların və ölkəmizdə müstəqil dövlətçili-

---

[111]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, “Elm”, - 2019, s. 54.
[112] Yenə orada, s. 83.

yin ön mövqeyə çıxardığı azərbaycançılıq prinsiplərinin əsasında formalaşdırılmışdır”[113].

Nəhayət, məncə, akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının yenidən dövrləşdirilməsi konsepsiyasında fundamental tezislərdən biri kimi Yaşar Qarayevin aşağıdakı fikrinə üstünlük verir. Y.Qarayev yazmışdır: “Tarix boyu həmişə dövlət və elm (sənət, poeziya) milli şüurun və yaddaşın keşiyində qoşa dayanıb”[114].

Bununla akademik İsa Həbibbəyli, məncə, öz konsepsiyasının bütün müddəalarını 4 fundamental faktorun çətiri altında birləşdirmişdir: dövlət-elm-milli şüur-yaddaş! Bu, çox uğurlu və müasir dövrün tələblərinə tam uyğun olan elmi yanaşma mövqeyidir. Burada yuxarıda dünya fəlsəfi-elmi fikrində tarix, mədəniyyət növləri, cəmiyyətin təkamülü özəllikləri ilə bağlı aparılan araşdırmalarla Azərbaycan yaradıcı şəxsiyyətlərinin tədqiqatlarının ümummetodoloji özəlliklərinin qarşılıqlı əlaqəsini çox yaxşı görmək mümkündür. Milli və qlobal miqyasda aparılan tədqiqatların faydalı prinsiplərdə birləşdirilməsi olduqca təqdirəlayiq elmi xidmətdir. Həm də ona görə ki, akademik İsa Həbibbəyli yeni konsepsiyasında elmi yaradıcılığın dövlətçiliyə, milli şüura, yaddaşın müasir cəmiyyətdə birləşdirici funksiyasına ölkənin strateji inkişaf kursu kontekstində qiymətli töhfə vermişdir.

Yeni mərhələnin nəzəri-konseptual və metodoloji mənzərəsini təsvir etmək üçün müəllif konkret nümunələri təhlil edir. Bu kontekstdə N.Qəhrəmanlı və akademik N.Cəfərovun araşdırmalarını ətraflı tədqiq edir. Məsələyə milli və dünya üzrə problemə baxışların sintezində yanaşmanın daha səmərəli olacağı qənaətinə gəlir. Həmin mərhələnin ümumi mənzərəsini akademik İsa Həbibbəyli belə ifadə edir: “XX əsrin doxsanıncı illərində və XXI əsrin əvvəllərində meydana çıxan təşəbbüslər Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi sahəsində *konsepsiya axta-*

---

[113]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, “Elm”, - 2019, s. 54-55.

[114] Y.Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. – Bakı, - Elm, - 2002, - s.735.

*rışlarının* inkişaf etməkdə olduğunu nümayiş etdirir. Bu isə öz növbəsində milli ədəbiyyat tarixinin nəzəri-konseptual şəkildə dövrləşdirilməsi üçün yeni mərhələni hazırlamışdır”[115].

Bu əsasda Zaman-Ədəbiyyat münasibətləri kontekstində başqa bir maraqlı ümumiləşdirmə diqqəti cəlb edir. Müəllif vurğulayır: “Zamanın ictimai-siyasi xarakteri və ayrı-ayrı epoxalarda baş vermiş böyük tarixi-mədəni hadisələr ədəbi cərəyanları, mövzuları, janrları, üslubları, hətta qəhrəmanları meydana çıxarmışdır. Böyük ədəbiyyat da öz növbəsində Zamanın yeniləşməsinə, inkişafına və dəyişməsinə təkan vermişdir”[116]. Burada Y.Qarayev anlamında Zamanın fəlsəfi dərki kontekstində bədii yaradıcılığın vacib özəlliyi ifadə edilmişdir.

Bütün bunların əsasında Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi haqqında elmi konsepsiyanın yenidən işlənməsini zəruri edən 5 faktoru müəyyən edir və vurğulayır. Onlar aşağıdakılardır:

“***1.*** *Azərbaycan ədəbiyyatı tarixinin keçmiş sovet ideologiyası əsasında aparılmış dövrləşdirilməsinin ədəbi-tarixi proseslərin reallıqlarını əks etdirməməsi, müstəqillik dövrünün prinsiplərinə, milli məfkurəyə uyğun gəlməməsi;*

***2.*** *Ayrı-ayrı müəlliflərin və ya müəlliflər kollektivinin yazıb nəşr etdirdikləri Azərbaycan ədəbiyyatı tarixinə dair akademik nəşrlərdə, dərsliklərdə, monoqrafik tədqiqatlarda dövrləşdirmədə keçmişdə müəyyən edilmiş mərhələlərdən uzaqlaşa bilməmək hallarının aşkar görünməsi;*

***3.*** *Dövrləşdirmə meyarlarında və mərhələlərin müəyyən edilməsində pərakəndəliyin müşahidə olunması;*

***4.*** *Dövlət müstəqilliyi ideallarının işığında Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin vahid sisteminin yaradılması zərurətinin meydana çıxması;*

---

[115]Y.Qarayev. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. – Bakı, - Elm, - 2002, s. 89.

[116]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, “Elm”, - 2019, s. 90.

*5. Dövrləşdirmədə dünyada gedən ədəbi-tarixi proseslərin nəzərə alınması zərurəti"*[117].

Bunlar akademik İsa Həbibbəyliyə problemin yeni tələblərə uyğun araşdırılması üçün ciddi elmi mövqe müəyyən etməsinə əsas yaratmışdır. Birincisi, "ədəbi-tarixi reallıqlar ...yazıçı və şairlərin ictimai formasiyalar üzrə qruplaşdırılması kimi" qəbul edilməməlidir. İkincisi, həmin reallıqlar "cəmiyyətdə və ədəbiyyatda baş vermiş mühüm yeniləşmələrin: siyasi-tarixi və mənəvi proseslərin qabarması və çəkilməsi, ədəbi cərəyanların, janrların, üslubların yaranması, dəyişməsi və inkişaf etdirilməsi mənasında qəbul edilməlidir"[118].

Müəllif sırf elmi-nəzəri və metodoloji prinsiplərə digər aktual prinsipi əlavə edir. İsa Həbibbəyli yazır ki, "bundan başqa, fikrimizcə, yenidən dövrləşdirmə zamanı Azərbaycan xalqının milli maraqlarından və dövlətçilik meyarlarından çıxış etmək də zəruri tələblərdən biri olmalıdır"[119].

Bizcə, vurğulanan nəzəri, konseptual, metodoloji və sosial-mədəni məqamlar akademik İsa Həbibbəyliyə konsepsiyası üçün konkret prinsipləri müəyyən etməyə əsas vermişdir. Müəllif onları aşağıdakı kimi məzmunlaşdırmışdır:

"*1. Azərbaycançılıq məfkurəsi;*

*2. Sivilizasiya faktoru;*

*3. Ədəbi-tarixi prosesin reallıqları;*

*4. Azərbaycanda ədəbi cərəyanlar"*[120].

Bu prinsiplər əsasında akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının yeni dövrləşdirmə konsepsiyasını "vahid şəbəkə təşkil edən yanaşmalardan" yaratmışdır. Həmin prinsiplər konsepsiyada "kompleks şəkildə nəzərə" alınmışdır. Nəticədə "çoxəsrlik ədəbiyyat tarixinin mərhələlər üzrə aydın və obyektiv mənzərəsini yaratmaq mümkün" olmuşdur. Burada vacib mə-

---

[117]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, "Elm", - 2019, s. 95-96.

[118]Yenə orada, s. 96.

[119]Yenə orada.

[120]Yenə orada, s. 97.

qamlardan biri ondan ibarətdir ki, "milli ədəbiyyatın çoxəsrlik tarixində və taleyində azərbaycançılıq faktorunun aparıcılıq təşkil etdiyi" göstərilmişdir. Daha doğrusu, müəllif təsdiq edir ki, "milli ədəbiyyat tarixinin dövrləşdirilməsi üçün müəyyən edilmiş digər faktorların da mahiyyətində azərbaycançılıq məfkurəsinin özünəməxsus mühüm yeri vardır"[121].

Monoqrafiyasında akademik İsa Həbibbəyli azərbaycançılığı məfkurə kimi xarakterizə edərkən ideoloji, mənəvi, mədəni, əxlaqi, siyasi aspektlərlə yanaşı, dövlətçiliyi də izah edir və nəticədə azərbaycançılığın sistemli bir mövqe olduğunu əsaslandırır. Bu mövqedən siyasi-ideoloji və mənəvi-mədəni komponentlərlə dövlətçilik vəhdətdədir. Həmin kontekstdə müəllifin Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərini aşağıdakı kimi müəyyən etməsi tamamilə məntiqidir:

*"1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan-eposadək (ən qədim dövrlərdən VII əsrə qədər);*

*2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər);*

*3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər);*

*4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər);*

*5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər);*

*6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr);*

*7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək);*

*8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər);*

*9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər)";*

*10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı*

[121]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, "Elm", - 2019, s. 97.

*(1991-ci ildən)”*[122].

Beləliklə, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli təşkilatın elmi tədqiqatlarının yeniləşməsi istiqamətində mühüm addım ataraq, nümunə göstərmiş və faktiki olaraq sosio-humanitar elm qarşısında əhəmiyyətli araşdırma vəzifəsi müəyyən etmişdir. Azərbaycan dövlətçiliyinin, elminin və cəmiyyətin bütün sosio-humanitar sferalarının ciddi elmi əsasda tədqiqi məsələsini daha da aktuallaşdırmışdır. Elmi yaradıcılığın bu istiqaməti bütövlükdə alimlər qarşısında yeni üfüqlər açır. O cümlədən, Azərbaycanın ədəbi-tarixi şəxsiyyətlərinin yaradıcılığına yeni əsasda qayıdış üçün münbit nəzəri-konseptual əsas yaradılır.

Bu istiqamətdə də AMEA rəhbərliyi ardıcıl olaraq tədbirlər həyata keçirir. Azərbaycanın tanınmış görkəmli elm xadimlərinin yaradıcılığı yeni yanaşma çərçivəsində fənlərarası mövqedən tədqiq edilir, onların yubileyləri ardıcıl olaraq qeyd olunur. Son 3 ildə bu istiqamətdə kifayət qədər təcrübə toplanmışdır. Burada çoxlu sayda ədəbi-tarixi şəxsiyyətin Azərbaycan elminə, tarixinə, mədəniyyətinə və dövlətçiliyinə verdiyi töhfələrin geniş müzakirəsi çox müsbət nəticələr verməkdədir.

Bütün bunların fonunda 2024-cü ildə AMEA rəhbərliyinin görkəmli elm adamlarının, Azərbaycanın müxtəlif sahələrinə böyük töhfələr vermiş mütəfəkkirlərinin, tanınmış şəxsiyyətlərin fəaliyyəti ilə bağlı yüksək səviyyəli tədbirləri mütəmadi olaraq təşkil etməsi təşkilatın yeniləşmə kursu çərçivəsində dövlətçiliyə, milli-mənəvi dəyərlərə, intellektual təcrübəyə, bütövlükdə ölkənin intellektual potensialına böyük önəm verdiyinin göstəricisidir. Həmin təbdirlər çoxsaylıdır və burada onların hər birini ayrılıqda vurğulamaq imkanı yoxdur.

Burada onu qeyd edək ki, şübhəsiz, ədəbi-tarixi şəxsiyyətlərin yaradıcılığına yeni yanaşma əsasında qayıdış əslində irəli doğru atılmış addımdır. Bununla həm cəmiyyət özünüdərkdə yeni səviyyəyə yüksəlir, həm Azərbaycan elmi müstəqilliyə xid-

---

[122]Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. - Bakı, “Elm”, - 2019, s. 114-423.

mət aspektində yeni şanslar əldə edir və həm də ölkənin strateji inkişaf kursuna konkret xidmət göstərilir. Bu prosesdə AMEA-nın yeni loqotipi yeniləşdirmə konsepsiyasının rəmzi kimi maraq doğurur. Bu məsələnin bir sıra məqamları üzərində dayanmaq lazımdır.

### 2.5. *Akademiyanın yeni loqotipi yeniləşdirmə konsepsiyasının rəmzi kimi*

Hər bir yeniləşmə prosesi davamlı, sistemli, məqsədyönlü və uzunmüddətli nəzərdə tutulursa, onun rəmzi ifadəsi vacib şərtə çevrilir. Məhz buna görə, dünya tarixində insanlar həmişə nəzərdə tutduqları ideyanı rəmzi olaraq ifadə etmişlər. Müxtəlif simvollar, bayraqlar, digər rəmzi təmsilçilik üsulları milyonları qarşıya qoyulan məqsədə istiqamətləndirmiş, onları fəaliyyətə səsləmişdir.

AMEA-da yeniləşmə prosesi başlayanda hiss etmək olurdu ki, təşkilatın rəhbərliyi uzunmüddətli, davamlı və mütləq qarşıya qoyulan məqsədə çatmalı olan prosesə start vermişdir. Ölkənin ali elmi təşkilatının rəhbərliyi hər hansı yarımçıqlıq, yarıda qalmaq və ya formal hesabatlar hazırlamaq fikrindən çox uzaqdır. Yeniləşmənin fəlsəfəsi və icra mexanizmlərini də AMEA-nın prezidenti müxtəlif çıxışlarında aydın və dəqiq ifadə etmişdir. Bu proses Azərbaycan baş elmi təşkilatının Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət-elm münasibətlərinin fəlsəfəsi bazasında Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursunun həyata keçməsi üçün alimlərin səfərbər olunmasını təmin etməklə bağlıdır.

Qarşıya qoyulan bu məqsədə çatmaq üçün elmi fəaliyyətin bütün istiqamətləri (sırf idraki, sosial, mədəni, ideoloji, aksioloji, kulturoloji və s.) üzrə yeniləşmələri həyata keçirmək lazımdır. Artıq bu sistemli, dinamik və birbaşa dövlətçiliyə xidmət istiqamətinə köklənmiş "alim hərəkatı"na çevrilmişdir. AMEA rəhbərliyinin həmin prosesdə şəxsi fəallıq nümunəsi ciddi stimulverici faktordur.

Yeniləşmə ilə bağlı bütün bu ab-havanın dönməz proses halına gətirilməsi hər şeydən öncə, dövlətçilik baxımından vacibdir. Məsələ ondan ibarətdir ki, sürətlə dəyişən müasir dünyada, o cümlədən elmi-texnoloji sıçrayışlar dönəmində AMEA əsaslı elmi mövqeyi ilə yanaşı prinsipial dövlətçi mövqeyini də ortaya qoymalıdır. Bu kontekstdə Azərbaycan alimi daim müstəqilliyin, dövlətçiliyin, strateji inkişafın və Liderin yanında olduğunu nümayiş etdirməlidir.

Ulu Öndər Heydər Əliyevin bununla bağlı çox əhəmiyyətli fikri vardır. Bu kitabın giriş hissəsində Ümummilli Liderin bir fikri vurğulanmışdır: "Azərbaycan Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır!" Bu tezisin ümumi əsaslandırılması Heydər Əliyevin digər fikrində lakonik ifadə olunmuşdur. Ulu Öndər öyrədirdi ki, "Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir!"

Vurğuladığımız məqamlardan məntiqi olaraq alınır ki, AMEA indiki yeniləşmə mərhələsinin əsas özəlliklərini özündə ehtiva edən rəmzini – loqotipini hazırlamalıdır. AMEA prezidenti yeni loqotipin hazırlanması zərurəti haqqında demişdir: "AMEA-nın inkişafının hazırkı yeniləşmə mərhələsi müasir elmi çağırışlara, informasiya cəmiyyətinin tələblərinə, həmçinin son dövrlərdə Akademiyanın fəaliyyət istiqamətlərində baş verən dəyişikliklərə cavab verən loqotipinin - embleminin yenidən hazırlanması zərurəti yaratmışdır"[123].

Məhz buna görə də AMEA Rəyasət Heyəti tərəfindən "Azərbaycan Milli Elmlər Akademiyasının yeni loqotipinin (emblem) hazırlanması üçün müsabiqənin keçirilməsi haqqında" 9 yanvar 2024-cü il tarixli 1/5 nömrəli qərar qəbul edilmişdir.

---

[123]Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Akademiyanın yeni loqotipinin - embleminin hazırlanması üçün müsabiqə elan edir: [Elektron resurs] // - Bakı. Azərbaycan Milli Elmlər Akademiyası, 12.03.2024. URL: https://science.gov.az/az/news/open/27674.

AMEA-nın loqotipinin (emblem) seçimi və digər zəruri məsələlərin həlli üçün  AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin sədrliyi ilə müsabiqə komissiyası yaradılmışdır. Eyni zamanda AMEA-nın loqotipi (emblem) hazırlanarkən nəzərə alınması məqsədəuyğun hesab olunan meyarlar qərarda öz əksini tapmışdır. Birincisi, yeni loqotip-emblem müasir dünyanın elmi çağırışlarına uyğun olmalıdır. İkincisi, dövlətçilik ənənələrini əks etdirməlidir. Üçüncüsü, "Milli Elmlər Akademiyasının əsas məqsədləri, inkişafı, vəzifələri, hədəfləri ilə bağlı simvol və təsvirlərin elementlərini" əks etdirməlidir. Dördüncüsü, "yaradıcı təfəkkürün məhsulu olmalıdır"[124].

Bütün bu kimi özəlliklərin ümumiləşdirilmiş ifadəsi kimi, AMEA prezidentinin Rəyasət Heyətinin 29 fevral 2024-cü il Ümumi yığıncağında "AMEA-da yeniləşmə prosesləri: ilkin nəticələr və perspektivlər" adlı məruzəsində söylədiyi aşağıdakı fikir məsələnin elmi və təşviqi mahiyyətini dolğun ifadə edir: "Hazırda AMEA-nın loqosunun-embleminin dəyişdirilməsi üçün AMEA Rəyasət Heyətinin 9 yanvar 2024-cü il tarixli 1/5 nömrəli qərarı ilə elan edilmiş müsabiqə də, əslində, Akademiyanın forma etibarilə və məzmunca yeniləşməsinin ümumiləşdirilmiş simvolik ifadəsidir"[125].

Beləliklə, yeni loqotip AMEA-nın yeniləşməsini forma və məzmunca ümumi səviyyədə rəmzi ifadə etməli idi. Bununla əlaqədar olaraq, AMEA-nın yeni loqotipinin seçilməsi üçün Müsabiqə Komissiyasına təqdim olunmuş loqotip (emblem) dizaynlarının geniş elmi ictimaiyyətə nümayişi təmin olunmuş və AMEA-nın Rəyasət Heyətinə təqdim olunması üçün məqbul variantlar seçilmişdir.

---

[124]Yeniləşən akademiyanın yeni loqotipi - emblemi hazırlanır: [Elektron resurs] // AZƏRTAC, 02.02.2024. URL: https://azertag.az/xeber/yenilesen_akademiyanin_yeni_loqotipi___emblemi_hazirlanir-2906203. Müraciət tarixi 05.08.2024.

[125]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024  s.10

AMEA prezidentinin sədrliyi ilə yekun loqotip layihəsini müəyyən etmək üçün geniş elmi ictimaiyyətin təqdim edilən layihələrə ictimai baxış keçirilmiş, ümumi rəy öyrənilmişdir. Bir aydan çox davam edən AMEA emblemi layihələrinin sərgisinə Azərbaycan Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov və münsiflər heyətinin üzvləri də baxış keçirmiş, yekun qərar formalaşdırılmışdır.

Ümumilikdə müsabiqəyə AMEA-nın 23 əməkdaşı 67 eskiz layihəsi təqdim olunmuşdur.

AMEA Rəyasət Heyətinin 15 may 2024-cü il tarixli 14/2 nömrəli "AMEA-nın loqotipinin seçilməsi üzrə Müsabiqə komissiyasının fəaliyyətinin nəticələri və AMEA-nın loqotipinin təsdiq olunması haqqında" qərarı qəbul olunmuşdur. Qərara əsasən, AMEA-nın yeni loqotipinin – embleminin ideya müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin təklifləri əsas kimi qəbul olunmaqla AMEA-nın yeni loqotipi (emblemi) formalaşdırılmışdır.

Yeni loqotip 6 elementin kompleksindən ibarətdir. Onlardan 5-i simvol, biri isə sözdür. Söz "AMEA"-dır ki, simvolların birgə məhz ona aid olduğunu ifadə edir. Akademik İsa Həbibbəylinin elmi-fəlsəfi interpretasiyasında simvolların hər birinin öz rəmzi mənası vardır:

"Bina" simvolu söhbətin konkret təşkilatdan getdiyinə işarədir. Binanın görünüşündə həm memarlığın inciləri ifadə olunmuşdur, həm də AMEA-nın elmi təşkilat kimi tarixi və elmi-mədəni yaddaş rəmzinə çevrildiyi əks olunmuşdur. AMEA binasının Azərbaycan mədəniyyəti, tarixi və elminin "yaddaş məkanı" kimi təqdimatı təşkilatın yeniləşmə kursuna olduqca uyğundur. Çünki AMEA müasir Azərbaycan cəmiyyətində güclü ənənəsi olan yaddaş məkanı kimi rol oynayır. Ali elmi qurum elmi ənənəyə söykənir, lakin gələcəyə istiqamətlənmiş fəaliyyət göstərir. Bu mənada loqotipdəki "bina" həm də Azərbaycan elminin möhtəşəmliyinin, yenilməzliyinin, yaddaş kimi əhəmiyyətinin göstəricisidir. "Bina" AMEA-nın milli sərvət kimi özəlliyinin əksidir.

“Qlobus” AMEA-nın daim dünya elmi ilə sıx bağlılığını, qlobal elmi strukturlaşmanın tərkib hissəsi olduğunu ifadə edir. Bu mənada yeniləşmə mərhələsində Azərbaycan elminin dünyanın aparıcı elmi strukturlarına və bütövlükdə mühitinə inteqrasiya olunma məqsədini göstərir. AMEA-nın yeniləşməsində beynəlxalq elmi əməkdaşlığın xüsusi yer tutduğunu və onun strateji mahiyyət kəsb etdiyini təsdiq edir.

“Kitab” mədəniyyət kontekstində bəşər tarixində iki məqamın rəmzidir. Kitab elmi fəaliyyətin, biliklərin rəmzi, elmi biliklərin əsas daşıyıcısı və qoruyucusudur. Kitab həm də kitabxanaların ifadəçisidir. Loqotipdə “kitab” simvolu elmi biliklə kitabxanaçılığın sintezi mənasında verilmişdir. Yəni AMEA üçün “kitab” simvolu yeniləşmədə həm bilik mənbəyi, onun müqəddəs “saxlanma və ötürülmə məkanı”, həm də kitabxana formasında “elmi yaddaşın əsas ifadə rəmzidir”.

Deməli, akademik İsa Həbibbəylinin baxış bucağına əsasən, yeni loqotipdə AMEA-nın yeniləşməsinin mühüm bir aspekti – daim elmi biliyə əsaslanmaq, onun kommunikativ funksiyasını mükəmməl və yeni texnologiyalar vasitəsi ilə təmin etmək və kitaba biliklərin əsas yaddaş yeri kimi baxmaq əksini tapmışdır.

“Alov”, ümumiyyətlə, Azərbaycanın və bu kontekstdə azərbaycançılığın enerji simvolu kimi qəbul edilə bilər. “Alov” Azərbaycan aliminin, yaradıcı şəxsinin tükənməz enerjiyə sahib olduğunu ifadə edir. Həmin enerjinin tükənməzliyi azərbaycançılıqdan qaynaqlanır. Bu anlamda “alov” Azərbaycançı olmağın, milli yaradıcı qaynağa istinad etmənin, Azərbaycan toplumunun tarixən özünüyaratma sinerjisinin ümumiləşmiş rəmzidir. “Alov” həm də Azərbaycan yaradıcı insanının həmişə Elm, Vətən, Dövlət, Xalq və Millət üçün “yanmağa” hazır olduğunun rəmzidir. “Mən yanmasam, sən yanmasan, bəs qaranlıqdan işıqlığa bizi kim çıxaracaq!” (Nazim Hikmət).

Nəhayət, “bayraq!” Bu, ideyanın, milli kimliyin, siyasi identikliyin və dövlətçiliyin tarixi rakursda mükəmməl və gözəl ifadəsidir! “Bayrağ”ın üç rəngi loqotipdə kitabın səhifələrinin “içindən” keçir. Səhifələr bayraq “rəngdə”dir. Hər səhifə bay-

raqda olan mənaların daşıyıcısı olmalıdır. Onlar Türkçülük, Müasirlik və İslamdır! Bu rəmzləri birləşdirən faktor isə Dövlətçilikdir! Deməli, yeni loqotip uğurlu şəkildə elmi, tarixi, siyasi, mədəni, ideoloji, yaradıcılıq və digər faktorları dövlətçiliklə, azərbaycançılıqla birləşdirir. Və bu keyfiyyətdə AMEA-nın yeniləşməsinin ümumi təcəssümünə, təmsilçisinə və rəmzinə çevrilir!

Loqotipdəki "AMEA" sözü həm də vurğulanan sonuncu mənada təşkilatın yeniləşməsinin ünvanı, məkanı, ruhu və ideyasıdır! Yuxarıdakı müqəddəs rəmzlər AMEA-da kompleksləşir, birləşir, vahid məna daşıyıcısı olur! Və bu proses əbədi xarakter daşıyır! Çünki AMEA Zamanda strukturlaşır, funksionallaşır, məzmun alır, yeniləşir! Zaman isə həmişə keçmiş, indi və gələcəyin dinamik qovşağıdır, kəsilməzdir, tükənməzdir, əbədidir!

Görülən işlərin nəticəsi olaraq, AMEA-nın loqotipinin (emblem) Azərbaycan Respublikasında əmtəə nişanı və müəlliflik hüququ obyekti kimi dövlət qeydiyyatında alınması barədə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə müraciət edilmişdir. AMEA-nın loqotipinin (emblem) dövlət qeydiyyatında alınmış, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən əmtəə nişanı şəhadətnaməsi dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmişdir.

# III FƏSİL

# "ELEKTRON AKADEMİYA" HƏRƏKATININ MAHİYYƏTİ VƏ HƏDƏFLƏRİ

## 3.1. *"Elektron Akademiya" hərəkatının məqsəd və vəzifələri*

AMEA-nın yeniləşməsi struktur, məzmun və mahiyyət baxımından kompleks bir prosesdir. Bu proses özündə elmi fəaliyyətin müxtəlif aspektlərini yeniləşdirməklə yanaşı, qarşıya qoyulan məqsədlərə çatmaq üçün struktur yenilikləri, fəaliyyət səmərəliliyi və müasir tendensiyaları ehtiva etməkdədir. Onların sistem halında müasirliyə tam uyğunlaşması mütləq şərtdir.

İndi müasir mədəniyyət növünü "elektron" və ya "rəqəmsal" adlandırırlar. Bu anlayışın fəlsəfi anlamının detallarına baş vurmadan onu vurğulayaq ki, ümumi halda "rəqəmsallıq" cəmiyyətin bütün sferalarına ən yüksək texnologiyaların tətbiqini, elektronlaşmanı, kompüterləşməni, süni intellektin müxtəlif növlərinin sosial həyata tətbiqini nəzərdə tutur[126]. Hazırda bu proses cəmiyyətin bütün sferalarına o dərəcədə sirayət etmişdir ki, çox müxtəlif aspektlərdə rəqəmsallaşmanı və elektronlaşmanı nəzərə almaq lazımdır.

Azərbaycanda bu məsələyə diqqət olduqca böyükdür. Biz kitabın birinci fəslində ölkənin strateji inkişaf konsepsiyasında süni intellekt, rəqəmsallaşma, kibertəhlükəsizlik, yüksək texnologiyalar, "yaşıl iqtisadiyyat" kimi məfhumların geniş yer tutduğunu vurğulamışıq. Yəni Azərbaycan dövlətinin strateji inkişaf kursunda ən müasir texnologiyalardan, informasiya-kommunikasiya vasitələrindən istifadə aparıcı yer tutur. Bu prosesin əyani təzahürlərindən biri də ölkədə "ağıllı şəhər", "ağıllı kənd" və s. kimi yeni obyektlərin yaradılmasıdır.

---

[126]Bax: məs. Gere, Ch. Digital Culture // Ch. Gere. – London: Reaktion Books, – 2002, – 222 pp.

Əlbəttə, vurğulanan istiqamətdə elmin yeri və rolu daha da artır. Yeniləşmə mərhələsində olan AMEA bu prosesdən nəinki kənarda qalmamalı, hətta onun aparıcı faktoruna çevrilməli idi. AMEA rəhbərliyi bu məqama həssaslıqla yanaşaraq çox səmərəli bir addım atdı – "Elektron Akademiya" yaradıldı!

Əlbəttə, burada yuxarıda vurğuladığımız ümumi məqamlar fonunda yeni yaradılan şöbənin konkret elmi fəaliyyət proqramları və məqsədi müəyyən edilmişdir. Bu məqsədyönlülük şöbənin qısa müddətdə səmərəli nəticələr əldə etməsinə imkan yaratmışdır.

"Elektron Akademiya"nın fəaliyyəti və alınan nəticələrin təhlili göstərir ki, "2023-cü ildə "Elektron Akademiya" şöbəsi tərəfindən AMEA-nın elmi fəaliyyətinin, əldə edilmiş mühüm elmi nəticələrin elmmetrik təhlilinin aparılması və müqayisəli şəkildə qiymətləndirilməsi, elmi müəssisələrinin, elmi jurnallarının saytlarının fəaliyyətinin monitorinqinin keçirilməsi və müvafiq veb-analitika araşdırmalarının aparılaraq ümumiləşdirilməsi, eyni zamanda AMEA əməkdaşlarının "Vikipediya" Virtual Ensiklopediyasında fəaliyyətinin daha da genişləndirilməsi, elmi müəssisələrdə viki qrupların yenidən təşkil olunması və fəaliyyətlərinin canlandırılması istiqamətində işlər icra olunmuşdur"[127].

"Elektron Akademiya"nın fəaliyyətinin mühüm istiqamətlərindən birini rəqəmsal istinad sisteminin yaradılması təşkil edir. Belə ki, 2023-cü ildə şöbə Scopus, Web of Science kimi nüfuzlu elmmetrik bazalarla yanaşı, Google Academy (Scholar), Microsoft Academic, Index Copernicus, TÜBİTAK ULAKBİM Dərgi Parkı, Russian Science Citation Index və s. kimi ixtisaslaşmış xülasələndirmə və indeksləndirmə bazalarında AMEA-nın dövrü elmi jurnallarının təmsil olunması, əməkdaşların fərdi səhifələrinin yaradılması sahəsində fəaliyyətin genişləndirilməsi və mü-

---

[127] Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", - s.288.

vafiq elmmetrik araşdırmaların təşkil edilməsi istiqamətində" işlər aparmışdır[128].

Bunlardan başqa, Akademiyada aparılan tədqiqatların tanınması üçün şöbə tərəfindən Vikipediya ensiklopediyası yaradılmışdır. Həmin istiqamətdə 2024-cü ilin fevralına qədər "63 nəfər AMEA əməkdaşı təlim keçmiş, sertifikat almış, 1659 yeni məqalə yaradılmış, 10000-ə yaxın məqalə isə redaktə olunmuşdur"[129].

Vikipediyada "Azərbaycan dilində 258, ingilis dilində 69, türk dilində 72, rus dilində 53, fars dilində 8, özbək dilində 1, alman dilində isə 10 məqalə (cəmi 471 məqalə) yaradılmışdır... "Vikipediya" Virtual Ensiklopediyasının Azərbaycan dili bölməsinin dərinlik dərəcəsi 44-dür"[130].

2024-cü il ərzində AMEA əməkdaşları tərəfindən 2207 yeni məqalə yazılmış, 1500 məqalə əsaslı redaktə olunmuşdur.

Bundan əlavə, "Elektron Akademiya" şöbəsinin əməkdaşının bilavasitə iştirakı ilə Vikipediyada Azərbaycan dilində 465, ingilis dilində 111, türk dilində 73, rus dilində 52, fars dilində 10, alman dilində 9, özbək dilində 7 məqalə (cəmi 727 məqalə) yaradılmışdır.

Hazırda "Vikipediya"da Azərbaycan dilində 200.028 məqalə var, redaktələrin sayı isə 7.792.893-dür. 2-ci kateqoriyaya aid edilən azərbaycandilli vikipediya ümumilikdə 55-ci yerdədir. Vikipediyada məqalələrin sayından fərqli olaraq, dərinliyi (xüsusi keyfiyyət göstəricisi) daha önəmlidir. Bu səbəbdən Azərbaycanca vikipediya özündən qabaq sıralarda olan 27 fərqli dil-

---

[128]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", - s.288.

[129]Yenə orada, s. 73-74.

[130]Yenə orada.

dəki vikipediyalardan dərinliyinə görə üstündür. Hazırda "Vikipediya"nın Azərbaycan dili bölməsinin dərinliyi 49-dur[131].

"Elektron Akademiya" AMEA-nın beynəlxalq əməkdaşlığının genişlənməsi və yeni səviyyəyə yüksəldilməsi istiqamətində addımlar atmışdır. O cümlədən Açıq Elm Platforması, Avropa Redaktorlar Şurası, Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) və onun Milli Akademik Şəbəkə və İnformasiya Mərkəzi (ULAKBİM) ilə əməkdaşlıq qurulmuşdur. Bu kimi çalışmalar nəticə etibarı ilə, "AMEA DOI, AMEA Dərgi Parkının, AMEA İnsan Resursları və Elmmetrik Məlumatlar Bazasının (AMEA İREMB), AMEA Rəqəmsal Elmi İnformasiya Sisteminin (AMEA HARMAN) yaradılmasında əsas məqsəd Ali Attestasiya Komissiyasının, Açıq Elm Platformasının, Avropa Redaktorlar Şurasının, TÜBİTAK ULAKBİM DERGİPARK Tr Dizin Qayda və tövsiyələrinə riayət etməklə AMEA elmi müəssisələrinin, elmi jurnallarının, müəlliflərin, elmi məqalələrin və kitabxana fondlarının vahid bir bazada təsnifatlandırılması, elmmetrik dəyərləndirilməsi, ranqlaşdırılması və yayımlanması Azərbaycan və Türkiyə elmi ictimaiyyətini müvafiq texnoloji mühitdə əlaqələndirərək Türk İndeksini formalaşdırmaq üçün bazis yaradır"[132].

"Elektron Akademiya"nın dünyanın rəqəmsal informasiya mühitinə AMEA-nın inteqrasiyasının genişləndirilməsi və elmi nəticələrin sistemli təqdimatı məqsədilə Rəqəmsal Elmi İnformasiya Resursları Sistemi (AMEA REİRS) işləməsi çox əhəmiyyətlidir. O cümlədən, "Cəmiyyətimizdəki mütərəqqi ənənələri davam etdirərək həmin sistemdə Azərbaycanın dahi şəxsiyyətləri, görkəmli alimləri, mütəfəkkirlərinə həsr olunan "QIZIL FOND"un yaradılması və Fondda seçilmiş video və audio re-

---

[131]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s.207.

[132]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024 s.80.

sursların, kitabların, məqalələrin, məruzələrin toplanılması, əməkdaşların fərdi elmi fəaliyyəti - elektron məlumat-biblioqrafiya bazasının yaradılması və elmi yaradıcılıq nailiyyətlərinin, yeni elmi nəticələrinin, nəşrlərinin toplanılması, AMEA elmi müəssisələrinin akademik Elektron Elmi Məlumat Bazasının yaradılması və institutların fəaliyyətinin məlumatlarının toplanılması”[133] vacib hadisədir.

Onu mütləq vurğulamaq lazımdır ki, “Elektron Akademiya” şöbəsinin əməkdaşları artıq Rəqəmsal Elmi İnformasiya Resursları Sisteminin ilkin variantını (AMEA REİRS) hazırlamışlar. Bunun üçün onlar “...Linux Fedora Əməliyyat Sistemi – Fedora Server (ən müasir məlumat mərkəzləri texnologiyalarını özündə birləşdirən açıq platformalı əməliyyat sistemidir), Apache Lucene üzərində qurulmuş Solr (açıq mənbəli, sürətli müəssisə axtarış platforması) və DSPASE (açıq rəqəmsal repozitoriyalar yaradan, akademik, qeyri-kommersiya təşkilatları üçün axtarış və akademik tədqiqatlarda istifadə olunan rəqəmsal materialların uzunmüddətli saxlanması üçün) platformaları əsasında “Open JDK, Apache Maven Project, AngularJs, Apache Tomcat, NodeJs və digər proqramları” tətbiq etmişlər[134].

AMEA-nın prezidenti bütün bu yenilikləri bütövlükdə “Elektron Akademiya” hərəkatı adlandırmaqda tam haqlıdır. Akademik İsa Həbibbəyli bununla bağlı demişdir: “Cəmi bir il ərzində Akademiyanın elmi-tədqiqat institutları əməkdaşlarının əsərlərinə elmi istinadları, reytinq göstəricilərini müəyyən etmək üçün təxminən 1700 elmi işçinin şəxsi profili yaradılmışdır. Elmi istinadları vahid mərkəzdən müşahidə etmək və əlaqələndirmək məqsədilə Milli Elmlər Akademiyasının ölkədə ilk dəfə olaraq Rəqəmsal İnformasiya Resursları Mərkəzi təsis edilmiş-

---

[133]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - “Elm”, - s.294.

[134]Yenə orada, s. 295.

dir"[135]. Fikirlərinə davam edərək AMEA prezidenti vurğulamışdır: "AMEA-nın elmi bölmələrinin və Akademiyanın tabeliyində olan elmi müəssisələrin 8 elmi jurnalı elektron bazada yerləşdirilmişdir. Akademiyada nəşr edilən jurnallarda çap olunan məqalələrin hamısı DOI ilə təmin olunmuşdur. Akademiyanın elmi jurnallarını vahid şəbəkədə birləşdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının Dərgi Parkı yaradılmışdır"[136].

Bunlarla yanaşı, "Elektron Akademiya" AMEA daxilində sənəd mübadiləsinin elektronlaşdırılması istiqamətində də əhəmiyyətli işlər görməkdədir. Bu zaman şöbə "Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" 27 oktyabr 2018-ci il tarixli və "Dövlət orqanları arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" 01 avqust 2023-cü il tarixli fərmanlarının təmin edilməsi ilə əlaqədar AMEA Rəyasət Heyətinin müvafiq qərarı əsasında" fəaliyyət göstərir[137]. Artıq "...AMEA-nın internet şəbəkəsinin, kompüterlərin texniki imkanlarının mövcud durumunun dəyərləndirilməsi məqsədilə texniki baxış keçirilmiş, təhlillər aparılmış və müvafiq təkliflər hazırlanaraq AMEA-nın Rəyasət Heyətinə təqdim olunmuşdur"[138].

Beləliklə, AMEA-nın yeniləşməsi çərçivəsində "Elektron Akademiya"nın yaradılması mühüm bir hadisədir. "Elektron Akademiya"nın yuxarıda vurğulanan ümumi fəaliyyət istiqamətləri və əldə etdiyi nəticələrin prizmasında AMEA-nın inkişafı kontekstində məqsəd və vəzifələrini aydınlaşdırmaq mümkündür.

AMEA prezidentinin təhlilindən və şöbənin həyata keçirdiyi işlərin xarakterindən aydın görünür ki, "Elektron Akademi-

[135]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s.8.
[136]Yenə orada, s. 8-9.
[137]Yenə orada, s.77.
[138]Yenə orada.

ya"nın başlıca vəzifəsi ölkənin strateji inkişaf konsepsiyasına uyğun məzmun və formada AMEA-da elmi fəaliyyətin təşkilinin rəqəmsallaşdırılması, elmi biliklərin elektron formada saxlanması və qorunması, dünyanın müxtəlif indeksli jurnalları ilə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsi, beynəlxalq elmi əməkdaşlığın tam rəqəmsal bünövrəyə yerləşdirilməsi və Akademiya daxilində elektron xidmətin mükəmməl sistem halına gətirilməsi ilə bağlıdır. Bu vəzifələrin sistemli və ardıcıl yerinə yetirilməsi AMEA-da ciddi islahatlar prosesinin mühüm əlamətlərindən biri olacaqdır. Əslində, "Elektron Akademiya"nın yaradılmasında başlıca məqsəd də həmin məqamla əlaqəlidir.

Vurğuladığımız aspektdə "Elektron Akademiya" iki funksiyanı yerinə yetirməlidir:

1. AMEA-nın daxili fəaliyyətini və xarici elmi əməkdaşlıq proseslərini elektronlaşdırmaqla substantiv və kommukativ dinamizmə nail olmaq.

2. Dünya üzrə müşahidə edilən elmin və elmi fəaliyyətin rəqəmsallaşması prosesi ilə AMEA-nın fəaliyyətinin ahəngdarlığına nail olmaq. Bu iki funksiya bir yerdə AMEA-nın yeniləşməsini dövrün tələblərinə uyğun daim korrektə etməyə və paralel olaraq ölkənin strateji inkişaf kursuna fokuslaşdırmağa şərait yaradır.

"Elektron Akademiya" yeniləşmə prosesinə ancaq daha yüksək dinamizm vermir, eyni zamanda, elmi fəaliyyətin təşkilində keyfiyyətcə yeni mərhələyə yüksəltməyə imkan yaradır. Həmin prizmada "Elektron Akademiya"nın yaradılması yalnız struktur yeniliyi deyildir, həm də yeniləşmə prosesini həyata keçirməyin müasir səmərəli mexanizmlərindən biridir. Bu tezisin elmi əsası vardır.

Məsələ onunla bağlıdır ki, müasir elmin fəlsəfəsində elmi biliyin və informasiyanın alınması, saxlanması və onlardan yeni biliklərin alınması üsulu ilə elmi fəaliyyətin təşkili prosesi arasında sıx bağlılıq aksiom kimi qəbul edilir. Çox müxtəlif ölkə-

lərdə aparılan fəlsəfi və elmi araşdırmaların nəticələri bunu təsdiq edir[139].

Bu zaman, fənlərarası yanaşma çərçivəsində vahid yaradıcı komandanın fəaliyyətinin önəmi daha da artır. Müasir mərhələdə həmin fəaliyyətin səmərəliliyi böyük mənada rəqəmsallaşmadan (elektronlaşmadan) asılıdır. O sırada, məsələn "virtual laboratoriya" kimi yeni kollektiv yaradıcı fəaliyyət növlərinin aktuallığı da aydın olur. Bu üsuldan AMEA Fəlsəfə və Sosiologiya İnstitutu artıq istifadə edir.

"Elektron Akademiya"nın qeyd olunan aspektdə əhəmiyyəti həm də çevik surətdə elmi informasiya mübadiləsini təmin etməklə bağlıdır. Bu üsulla həm Akademiyadaxili mühiti aktivləşdirmək, həm də beynəlxalq əməkdaşlığı daha dinamik etmək mümkündür.

Nəhayət, AMEA-da yaradılmış "Elektron Akademiya"nın Azərbaycanın 2022-2026-cı illəri əhatə edən strateji inkişafına aid sənəddəki rəqəmsal biliklərin inkişaf etdirilməsi və onların praktiki tətbiqi ilə bağlı bəndlərə tam uyğundur.

Yuxarıda aparılan təhlildən aydın olur ki, "Elektron Akademiya" geniş anlamda iki vacib faktorla bağlıdır. Birincisi, bu yeni struktur həm substantiv, həm də funksional aspektlərdə AMEA-nın yeniləşmə fəlsəfəsinə tamamilə uyğundur, hətta çox əhəmiyyətli struktur vahididir. İkincisi, "Elektron Akademiya" müasir elmi idrakda özünü göstərən dəyişmə özəllikləri fonunda AMEA üçün çox aktualdır. Bu tezisin fonunda AMEA-nın yeniləşməsi kontekstində elmi fəaliyyətlə süni intellekt və rəqəmsal inkişafın "Elektron Akademiya"nın funksiyaları kontekstində araşdırılmasına ehtiyac görürük.

---

[139]Moiranoa, R., Sáncheza M.A., Štěpánek, L Creative interdisciplinary collaboration: A systematic literature review // - Elsevier: Journal "Thinking Skills and Creativity", – 2020, v. 35, – pp. 1-14

## 3.2. *Süni intellekt, rəqəmsal inkişaf və elm*

Elm, məncə, insanın yaratdığı ən möhtəşəm, ən zəngin, ən faydalı və bir o qədər müəmmalı, suallarla dolu yaradıcılıq nümunəsidir. Əsrlərlə bəşər övladı bu yaratdığı möcüzənin sirlərini sona qədər aydınlaşdıra bilməmişdir. Maraqlıdır ki, insan təfəkkürü dünya sirlərini çözmək üçün yaratdığı elmin özünün sirlərini aça bilmir.

XXI əsrin üçüncü onilliyinin ilk illərindən elmin tarixinə və elm haqqında deyilənlərin tarixçəsinə baxanda bu cür təzadlı fikirlər yaranır. Məsələ yalnız ritorikada və ya təşbehdə deyil. XXI əsrin astanasında dünyanın bir çox alimləri üçün "elmin sonu gəlirmi?" sualı aktualdırsa, başqa necə düşünmək olar? Ancaq elə elmin işığında bu suala baxanda daha maraqlı və cəlbedici mənzərə göz önünə gəlir. Yəni bu suala elmi cavab axtarışı təbəssüm və nikbinlik yaradır: elmin problemini yalnız elmi yanaşma həll edə bilər! Ola bilər.

Ancaq R.Penrouz və C.Horqanın analoji suallar qoyması, ona cavab axtarışları, bundan başqa çoxlu sayda digər araşdırmaçıların həmin suala müraciət etməsi problemin köklü olduğunu göstərir (alimlər üçün). C.Horqan elmi "insan məşğuliyyətinin ən fəzilətli və ən qiymətlisi" kimi qəbul edir. Sonra davam edir ki, alimlər bilik almaq üçün maşın deyillər, onların emosiyası, intuisiyası, hesabı və "soyuq" qənaətləri vardır.

Deməli, elmi yaradan insanın hansısa məqamda potensialının tükənməsi ola bilər. O, zəkavi ilə emosional olanın vəhdətidirsə, bunun da bir sərhədi ola bilər. Başqa tərəfdən, fundamental elmlərin və ya "saf elmlər"in (burada əsas olaraq təbiəti öyrənən təbiətşünaslıq nəzərdə tutulur) tədqiqat obyektləri də məhduddurlar. Onları araşdırmağın bir sonu ola bilər. Buna görə də C.Horqan R.Penrouz kimi belə bir qənaətə gəlir: "bir sıra elmlər öz təbii hüdudlarına (dərketmə sərhədləri – F.Q.) yaxınlaşmışlar

(və ya yaxınlaşacaqlar)[140]. Lakin problem bədbin yanaşma çərçivəsində qalmamışdır, əksinə yeni elmi axtarışlara bir təkan vermişdir. Alimlər və filosoflar "elmin sonu" ifadəsini daha çox ritorik ifadə olaraq qəbul edirlər və həm də elmi idrakı daha yüksək və universal səviyyəyə yüksəltmək imkanı kimi qəbul edirlər. Problemi fəlsəfi və metodoloji aspektlərdə indi də araşdırırlar. Yəni məsələnin qoyuluşu aktuallığını saxlayır[141].

Eyni zamanda, elmi axtarışlar davam edir. Bu dalğada yeni epistemoloji yanaşmalar meydana gəlmişdir. Onlardan ikisi bizim baxdığımız prizmada əhəmiyyətlidir. Biri "genişlənmiş idrak" epistemologiyası, digəri isə "paylanmış idrak" epistemologiyasıdır[142].

Burada həmin epistemologiyaların detallarına varmaq imkanımız yoxdur. Onu qeyd edək ki, filosofların və alimlərin "elmin sonu" ilə bağlı narahatlıqlarına vurğulanan epistemologiyalar nikbinlik çaları gətirirlər. "Genişlənmiş idrak" yeni yüksək texnologiyalar, süni intellektlər vasitəsi ilə insan idrakının elmi yaradıcılıq imkanlarını genişləndirdiyini irəli sürür, "paylanmış idrak" isə müasir mərhələdə vahid komanda formasında elmi yaradıcılığın daha səmərəli olduğunu təsbit edir.

Sonuncu tezisin bizim bu paraqrafda təhlil etmək istədiyimiz süni intellekt, rəqəmsal inkişaf və elmin qarşılıqlı əlaqəsinin

---

[140]Bax: məs., Horgan, J. The End Of Science: Facing The Limits Of Knowledge In The Twilight Of The Scientific Age. Addison-Wesley; First Edition. - 1996, - 320 pp.

[141]Рубаков В.А., Князева Е.Н., Баженов Л.Б..и др. // Под ред.: Крушанов А.А., Мамчур Е.А. Будущее Фундаментальной науки: Концептуальные, философскиеи социальные аспекты проблемы. Хорган ДЖ. и его пророчества "конца науки" в xxi веке. - Москва. URSS. – 2011, - 288 с.

[142]Hutchins E. Distributed Cognition: [Electronic resource] // – Amsterdam: International Encyclopedia of the Social and Behavioral Sciences. Elsevier. - 2000. - pp. 2068-2072. URL: http://comphacker.org/pdfs/631/Distributed Cognition.pdf. Müraciət tarixi 07.08.2024 ; Шевченко, С.Ю. Расширенный разум и эпистемическая ответственность в цифровом обществе // – Москва. Эпистемология и философия науки. – 2021, т. 58, – № 4, – с. 209–227.

AMEA-nın yeniləşməsi və konkret olaraq "Elektron Akademiya" kontekstində araşdırılmasına birbaşa aidiyyatı vardır.

AMEA rəhbərliyi nəzəri olaraq elmi fəaliyyətə "genişlənmiş idrak" və "paylanmış idrak" epistemoloji mövqeyindən yanaşır. Burada "Elektron Akademiya" layihəsi ciddi rol oynayan faktorlardan biridir. Bu tezisi iki aspektdə əsaslandıra bilərik.

Birincisi, nəzəri olaraq AMEA-nın yeniləşməsi həm də elmi axtarışlar üsulu və metodologiyasının, elmi fəaliyyətin təşkilinin yeniləşməsini özündə ehtiva edir. Təşkilati tərəflə yaradıcılıq aspektinin vəhdəti olmasa, yeniləşmə bir proses (akademik İsa Həbibbəyli daha maraqlı ifadə edir: "yeniləşmə hərəkatı") kimi məzmun, təşkilatçılıq və məqsəd baxımından tamamlanmamış olar. Bu baxımdan AMEA-da yeniləşmənin təcəssümlərindən biri kimi "Elektron Akademiya" nümunəsində elm-süni intellekt-rəqəmsal inkişafı ehtiva etdiyinə geniş baxaq.

İkincisi, məsələnin qoyuluşundan görünür ki, AMEA-da elmi yeniləşmə kontekstində süni intellekt və rəqəmsallığa elmi idrakın genişlənməsi ilə yaradıcılığın kollektiv formasının vəhdəti əsas götürülür. Burda yeni strukturların yaradılması ilə yaradıcılığın ahəngdarlığının təmini ön plana çıxarılır. Həmin prosesin artıq konkret faktları da mövcuddur.

AMEA Rəyasət Heyətinin 2024-cü il 29 fevral tarixli Ümumi yığıncağında akademik İsa Həbibbəyli belə bir fikir ifadə etmişdir. AMEA prezidenti məruzəsində vurğulamışdır: "Elektron hərəkatla əlaqədar bir çox sahələrdə: IV Sənaye inqilabı, süni intellekt, rəqəmsallaşma, seysmologiya, arxeologiya və sair istiqamətlərdə əməkdaşlıq üçün imkan yaradan bu müqavilə nəticə etibarilə qardaş Türkiyə Cümhuriyyətinin TÜBİTAK təşkilatı ilə Azərbaycan Milli Elmlər Akademiyasının TÜBİTAK-nı yaratmağa kömək edəcəkdir[143].

[143]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s 9.

“Elektron Akademiya” bu fikrin işığında süni intellekt və rəqəmsallaşma ilə bağlı bir sıra proqramları həyata keçirməyə başlamışdır. Həmin proqram-layihəni “eksperimental arxeologiya, süni intellekt, rəqəmsallaşma” adlandırmaq olar. Bu istiqamətdə proqram aşağıdakı tərkibə malikdir:

“– Arxeoloji tədqiqatlara müasir yanaşmanın təməl prinsipi: daha az qazıntı, daha çox bilgi əldə etməkdir. Smarter digs (daha ağıllı qazıntı).

– Klassik qazıntı sistemindəki mala-kürək-fırça işləri laboratoriyalarda mikro və makro analizlərlə mikroskopik araşdırmalara tamamlanır, yaxud da əvəzlənir. Tədqiqatlarda ən müasir elektron rəqəmsal və optik texnoloji cihaz və avadanlıqlar tətbiq edilir.

– Mikro arxeologiya: arxeologiyada alət və əşyalar üzərində ən müasir mikroskoplarda analizlər edilməkdədir. Aşınma (use-wear\ trace analysis) və qalıq izləri (residue analysis) analizləri aparan laboratoriya və mütəxəssislərin beynəlxalq cəmiyyəti Arxeoloji Aşınma və Qalıq Analitikləri Assosiasiyası mövcuddur: (AWRANA-Association of Archaeological Wear and Residue Analysts).

– Müasir arxeologiya elə bir inkişaf mərhələsinə gəlib çatmışdır ki, arxeoloji bilginin əldə edilmə üsulu da önəm kəsb edir və əldə edilən məlumatlar eksperimental tədqiqatlarla da əsaslandırılır.

– “Şübhəli yanaşma” təməl araşdırma məntiqi üzərində elmi bilginin üsul və prinsipi də test edilir.

– Almaniya Federativ Respublikasındakı TraCEr-Traseologiya və Nəzarətli Eksperimentlər Laboratoriyasında (Laboratory for Traceology and Controlled Experiments, LEIZA Leibniz-Zentrum für Archäologie), şübhəli yanaşma məntiqi əsasında, traseoloji analizlərə paralel eksperimental sınaqlar da aparılır.

– Dövrlərə görə əmək aləti çantasında yer alan artefaktların düzəltmə və işlətmə texnologiyasını anlamaq üçün bir neçə eksperimental sınaqlar keçirilir.

– Eksperimentlər bir neçə prosesdən və iki fərqli texnikadan keçir: biri insan (müasir) əli ilə mexaniki proses, digəri isə elektron cihazlardır.

– İlk olaraq alətlərin tipoloji modelləri - xüsusi avadanlıqdan fərqli və müxtəlif xammal materiallardan nümunələr hazırlanılır.

– Eksperimental olaraq hazırlanan alət nümunələri iki: test stendi - robot Inotec SMARTTESTER və UR1 robotic arm robot testerlər çalışdırılır”[144].

Bunlardan başqa, “Tester robotlar” (UR1 robotic arm robot**)** sınaqdan keçirilir. URİ tipli süni intellektlərdə hazırda “…tipoloji alətlər dəri, sümük, ağac, yaş, quru bir çox sayda material üzərində kəsmə, doğrama, parçalama, əzmə, sürtmə kimi təzyiq və basqı zərbələrinin hərəkət gücü və yaratdığı mexanizm test edilir”[145].

Tester robotların hazırlanması və rəqəmsallığın inkişafı məsələsi yalnız vurğuladığımız sfera ilə məhdudlaşmır. Maraqlı və əhəmiyyətlidir ki, “Elektron Akademiya” problemə geniş idraki və praktiki-tətbiqi aspektdə yanaşır. Burada, ümumiyyətlə, AMEA-nın “yeniləşmə hərəkatı” çərçivəsində yeni süni intellekt ixtiraları (robotlar və sonrakı mərhələdə kobotlar və s.) və rəqəmsallığın imkan verdiyi miqyasda Akademiyanın özünün yüksək texnologiyalarını yaratmaq məqsədi hiss edilir. Bu, olduqca əhəmiyyətlidir.

Həmin bağlılıqda Arxeologiya və Antropologiya İnstitutunda Eksperimental arxeoloji laboratoriya yaradılması və ora Əjdər Yusif oğlu Babazadə kimi mütəxəssisin rəhbər təyin edilməsi AMEA rəhbərliyinin çox ciddi və əsaslandırılmış yeniləşmə kursuna malik olduğunun təsdiqlərindən biridir. Çünki “Əjdər

---

[144]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – “Elm” – 2024, s. 80-81.

[145]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – “Elm” – 2024, s.81.

Babazadə Azərbaycan Elm Fondunun X mobillik qrantı müsabiqəsində "Arxeologiya elmi sahəsində eksperimental və traseoloji tədqiqatlar üzrə təcrübə və nəzəri biliklərin qazanılması və artırılması" layihəsinin qalibi olmuş, 27.09.2023-26.10.2023 tarixinədək Almaniyanın TraCEr laboratoriyasında təcrübə keçmiş və hazırda birgə elmi əlaqələri inkişaf etdirir. Bundan əlavə, Əjdər Babazadənin "Qarabağın daş dövrünə aid alət sənayesinin texno-tipologiyasının traseoloji ve eksperimental analizləri" adlı layihəsi Azərbaycan Elm Fondunun Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Əsas qrant müsabiqəsi -2023"ün qalibi olmuşdur. Ölkəmizdə ilk dəfə olaraq bu layihə çərçivəsində əldə edilən artefaktların eksperimental və traseoloji analizlərinin nəticələrinə rəqəmsal, elektron, smart cihazların və IT (software) proqramların tətbiqi ilə Qarabağın ilk və müxtəlif Hominin sakinlərinin həyat tərzinin vizual formada canlandırılması planlaşdırılır"[146].

Bu fakt AMEA rəhbərliyinin yeniləşmə prosesində həyata keçirdiyi kadr siyasətinin başlıca özəlliyini göstərir. Ölkənin ali elmi təşkilatı yalnız yüksək səviyyəli, yaradıcılıq qabiliyyəti geniş, zəngin təcrübəli, müəyyən uğurlar qazanmış və vətənpərvər ruhlu kadrları seçir. Bu seçimin qarşıya qoyulmuş məqsədə çatmaqda ciddi rol oynadığına şübhə yoxdur! AMEA rəhbərliyinin "yeniləşmə hərəkatı"nı Dövlətsevər, Vətənsevər, Azərbaycançı və yaradıcılıq potensialı yüksək olan enerjili kadrlar komandası irəli aparmaqdadır!

Bütün bunların fonunda "Elektron Akademiya" şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Fariz İmranovun bir qənaəti, məncə, əsaslıdır: "Beləliklə, bu araşdırmalar, sadəcə alət sənayesində yer alan arxeoloji materialların növlərini, formalarını öyrənmir, həm də bütün alət hazırlama istifadə əməliyyat zəncirində (chain operation) alətin insanın uzaq və yaxın əc-

[146]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 81-82.

dadının texnologiyasını, bioloji, anatomik və idraki təkamülündə sosial davranışları tədqiq edir. Bu sahədəki tədqiqatları dəstəkləmək məqsədi ilə AMEA Rəyasət Heyəti Aparatının “Elektron Akademiya” şöbəsində ixtisaslaşmış robot testerin milli mütəxəssislər tərəfindən yaradılması layihəsi aidiyyəti qurumlarla birgə hazırlanır. Güman edirəm ki, aidiyyəti qurumların dəstəyi ilə biz bu robotu yarada biləcəyik”[147].

Təbii ki, AMEA-da elmi yeniləşmələrlə süni intellektdən və rəqəmsal texnologiyadan istifadə yalnız vurğulanan istiqamətlə məhdudlaşmır. Lakin həmin istiqamətdə “Elektron Akademiya” tərəfindən həyata keçirilən konkret proqramlar bütövlükdə Akademiya miqyasında yeniləşmə kursunun yığcam ifadəsi kimi qəbul edilə bilər.

Məsələn, başqa nümunə kimi, AMEA prezidentinin vurğuladığı IV sənaye İnqilabı istiqamətində atılmış addımları göstərə bilərik. Belə ki, “11 oktyabr 2023-cü ildə AMEA-nın Rəyasət Heyətində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) ilə AMEA arasında keçirilmiş görüşün nəticəsi olaraq, 22 noyabr 2023-cü il tarixindən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi ilə 71 nəfər AMEA əməkdaşı dünyanın ən qabaqcıl universitetlərinin də dəstəklədiyi “Coursera” platformasında lisenziya ilə təmin edilmişlər. AMEA-nın əməkdaşları 6 həftə ərzində kataloqdakı 788 kursda iştirak etmək imkanı əldə etmiş, 133 kursda iştirak edərək, ümumilikdə 358 “Coursera” sertifikatı almışlar”[148].

Digər nümunə kimi isə elmi-tədqiqat institutlarında elektron xidmətlər şöbələrinin yaradılmasını göstərə bilərik. Elektron xidmətlər bütövlükdə Akademiyadaxili sənədləşmənin elektron formaya salınmasında həlledici rol oynamalıdırlar. Burada təbii

[147]Yenə orada.

[148]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - “Elm”, - s. 296.

ki, rəqəmsallıqla süni intellektin imkanları konkret sferada sintez halında birləşdirilməlidir.

Başqa mühüm istiqamət Azərbaycan elmi jurnallarının indeksli nəşrlər sisteminə daxil edilməsi ilə bağlı atılan addımlardan ibarətdir. Bu kontekstdə 2024-cü il üçün maraqlı bir faktı vurğulamaq lazımdır. Hazırda AMEA-nın əməkdaşlarının nəşrlərinin müxtəlif reytinqli bazalardakı profillərinə daxil edilməsi üçün məqsədli iş aparılır. Məsələn, “2024-cü il dekabrın 31-dək olan dövr ərzində AMEA-nın 868 əməkdaşının Google Scholar profillərində 902 əsəri qeydə alınmış, bu əməkdaşların əsərlərinə il ərzində edilmiş 3457 istinad Google Scholar tərəfindən qeydə alınmışdır. Əməkdaşların əsərlərinin sayına, əsərlərinə edilmiş istinadların sayına, h-indeksinə görə ranqlaşdırılması zərurət üzrə icra olunur. Bazadakı məlumatlar müntəzəm yenilənir və ölkəmizin alimlərinin fəaliyyətini elmmetrik dəyərləndirən digər sistemlərin məlumatları ilə müqayisə edilir. Bu sahədə aparılan işlərin daha da genişləndirilməsi, xüsusən də daha çox istinadın qeydə alına bilinməsi və bununla da sayının artırılmasına yönəlmiş tədbirlərin icrası vacib hesab edilir”[149].

Nəhayət, AMEA-nın beynəlxalq elmi əməkdaşlığında süni intellektin imkanları ilə rəqəmsallığın vəhdətdə iştirakı zəruri bir tələbatdır.

Beləliklə, AMEA-nın yeniləşməsi kompleks xarakterli dinamik prosesdir və onun tərkibinə müxtəlif xarakterli, funksiyalı və məqsədli elmi fəaliyyət daxildir. Burada təşkilatçılıqla, struktur dəyişmələri və yaradıcılığın inkişaf etdirilməsi üsulları sıx qarşılıqlı əlaqədə özünü göstərir. Həmin sırada “Elektron Akademiya” və onun konktestində süni intellekt, rəqəmsal inkişaf və elmi yeniləşmənin vəhdəti mühüm əhəmiyyət kəsb edən məqamdır. Vurğuladığımız kontekstdə yeniləşən AMEA-da elektron kitabxananın yaradılması mühüm göstəricidir. Bu məsələnin üzərində dayanmaq zəruridir.

---

[149]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 210.

## 3.3. *Elektron kitabxana uğrunda*

Yazılı mədəniyyətin bərqərar olması ilə kitab nəşri, kitabların saxlanması və ondan istifadə üsulları ayrıca əhəmiyyət kəsb etməyə başlamışdır. İnsanların bilik əldə etməsi və ya biliyin səmərəli ötürülməsi vacib sosial məsələ kimi irəli çıxmışdır. Hələ Bizansda Akademiyaların mövcudluğu zamanı kitabxanalar biliyin ötürülməsində ciddi rol oynamışlar. Təbii ki, o dövrdə kitabların saxlanması yeri və forması indiki kitabxana anlayışı ilə uyğun gəlmir. Lakin biliyin saxlanması və ötürülməsi üsulu kimi kitablar və onların yığılması yaradıcı insanları düşündürürdü.

Sonra Akademiyaların müsəlman mədəniyyət arealına yayılması ilə kitab və kitabların saxlanması da aktuallaşdı. Dünyada məşhur olan Bağdad kitabxanası bu hərəkatın nəticələrindən biri idi. Marağada N.Tusinin rəsədxanasında zəngin kitabxana vardı. Ümumiyyətlə, həmin dövrdə Təbriz şəhəri bu sferada seçilən məkanlardan biri olmuşdur.

Avropada Orta Əsrlərdə İohann Hutenberqin (XIV əsr) kitab nəşri evi çox məşhur olmuşdu. Bununla bağlı Marşall Maklüyen sosioloji araşdırma da aparmışdır. O, İ.Hutenberqin kitab nəşr etmək işini "Hutenberqin qalaktikası" kimi ifadə etmişdir. M.Maklüyenin yazdığına görə, həmin dövrdə cəmiyyətin elitası İ.Hutenberqin evinə yığışırmış[150].

Elmi biliklər çoxaldıqca kitabxana işi daha da aktuallaşdı. Dünyanın müxtəlif ölkələrində zəngin kitabxanalar meydana gəldi. Müasir mərhələdə kitabxanalar rəqəmsallığın və elektronlaşmanın fonunda daha çox aktuallıq kəsb etməyə başlamışdır. Aydın görünür ki, elmin inkişafı ilə kitabxanaların da fəaliyyətində və strukturunda, təşkil olunma formasında keyfiyyət dəyişiklikləri olmalıdır. Çünki elmi biliyin alınması və ötürülməsi mexanizmləri yeni tələblərə uyğun olmalıdır. Burada yaddaşla

---

[150]Маклюэн, М. Галактика Гутенберга: Сотворение человека печатной культуры. Киев: Ника Центр, Эльга. Издательский дом Дмитрия Бураго. - 2003, - 206 с

elmi yaradıcılığın optimal nisbətinə nail olmaq ayrıca önəm kəsb edir. Yəni faktiki olaraq kitabxana yalnız elmi-mədəni yaddaş məkanı kimi deyil, həm də yeni biliklərin çevik surətdə insanlara çatdırılması mexanizmi olmalıdır. Kitabxana bilik və informasiya almanın mənbəyi kimi müasir dövrün şərtləri daxilində inkişaf etdirilməlidir.

Ulu Öndər Heydər Əliyev kitablara və onların nəşrinə çox böyük önəm verirdi. Heydər Əliyev öyrədirdi ki, "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ancaq kitab vasitəsi ilə təhsil, elm almışıq, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq"[151].

Kitablara olan bu sonsuz sayğılı münasibət bütövlükdə Azərbaycanda kitabxanalara olan münasibətin təməlində dayanmaqdadır. Onun ən gözəl ifadəsi Ulu Öndər Heydər Əliyevə məxsusdur. Heydər Əliyev demişdir: "Kitabxana, xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"[152].

Vurğulanan qısa fikirlərdən də aydındır ki, AMEA-nın yeniləşmə kursunda kitabxananın xüsusi yeri olmalıdır. AMEA prezidenti həmin məqamı daim vurğulamışdır. Akademik İsa Həbibbəyli AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) inkişaf etməsinə ayrıca diqqət göstərmişdir. MEK-ə gənc, enerjili və dövlətçiliyə sadiq alimi rəhbər təyin etməklə AMEA rəhbərliyi bu vacib struktur vahidinin yeniləşmə kontekstində daha səmərəli fəaliyyəti üçün geniş imkanlar yaratmışdır. Bununla "Elektron Kitabxana" uğrunda maraqlı proses  başlamışdır.

---

[151]Əliyeva-Kəngərli, A. Heydər Əliyev və Azərbaycan elmi. Biblioqrafik göstərici. Bakı, "Şərq-Qərb", - 2010, - s. 28.

[152]Xələfov, A. A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. - Bakı. Azərnəşr, - 2006.- s.2.

Burada iki istiqamət özünü göstərir. Birincisi, MEK fəaliyyətini tamamilə AMEA-nın yeniləşməsi kursu çərçivəsində qurmuşdur. Həmin aspektdə çoxlu sayda tədbirlər həyata keçirilmişdir. Onların sırasında Azərbaycan Respublikası Prezidentinin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı 29 sentyabr 2022-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar Mərkəzi Elmi Kitabxanada görkəmli dövlət xadimi "Heydər Əliyev: biblioqrafik göstəricisi"nin çapa hazırlanması xüsusi əhəmiyyət daşıyır.

Bundan başqa, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinə dair normativ hüquqi sənədlər: Heydər Əliyev – 100" toplusu hazırlanmışdır. Onlara "Heydər Əliyev irsinin kitabxanalarda tədqiqi və təbliği" elmi kitabxanalar üçün metodik vəsaiti, "Ümummilli Lider Heydər Əliyev: Müdrik kəlamlar" adlı Azərbaycan və ingilis dillərində elektron diskin hazırlanmasını da əlavə etmək lazımdır.

Bunlardan başqa, Ümummilli Lider Heydər Əliyev haqqında Vikipediyada 100 məqalə hazırlanmışdır. Bütövlükdə "Heydər Əliyev" adlı tammətnli elektron baza yaradılmışdır[153]. MEK-in fəaliyyətində yeni istiqamətlər özünü göstərir. Məsələn, dövlətçiliklə sıx bağlı olan lektoriyalar təşkil edilir, aktual və maraqlı mövzular müzakirə edilir. Nümunə kimi, "Heydər Əliyev və kitab mədəniyyəti" və "Ulu Öndər Heydər Əliyevin hərb siyasətinin zəfəri" adlı lektoriyaların təşkilini göstərə bilərik. 2024-cü ilin iyul ayında Heydər Əliyevin XX əsrin 60-80-ci illərindəki fəaliyyəti ilə bağlı da lektoriya-müzakirə təşkil olunmuşdur. Tanınmış jurnalist Elmira Axundovanın Ulu Öndərlə bağlı yeni kitabları müzakirə edilmişdir. Bundan başqa, AMEA və bir neçə təşkilatın birgə təşkil etdiyi və Azərbaycan dilinə həsr edilmiş maraqlı müzakirələr aparılmışdır. AMEA prezidenti həmin tədbirdə Azərbaycan dili haqqında dərin təhlilli nitq söyləmişdir.

---

[153]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", - s. 259.

Mərkəzi Elmi Kitabxana Qərbi Azərbaycan məsələsi ilə də əlaqədar tədbirlər təşkil edir. Azərbaycan Milli Məclisinin deputatı, şair Musa Urudun "Zəngəzur. Uzaq keçmişdən müasir dövrə qədər" (Bakı, Nurlar, 2016) adlı kitabının müzakirəsi bunun təsdiqidir.

Bunlardan başqa¸ MEK digər təşkilatlarla birgə aktual mövzuda tədbirlər keçirir. Həmin sırada MEK-in Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, YAP Yasamal rayon təşkilatı və digər qurumlarla birgə kitab sərgiləri təşkil etməsini göstərə bilərik.

MEK Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarından irəli gələn aktual məsələləri də öz fəaliyyətinin gündəmində saxlamaqdadır. Nümunə üçün vurğulaya bilərik ki, "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Şuşa şəhərinin 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər planı haqqında 6 dekabr 2022-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq "Şuşadan Türk dünyasına" adlı kitab nəşr olunmuşdur. "Heydər Əliyev İli" çərçivəsində akademik Zərifə Əliyevanın 100 illiyi münasibətilə, "Elm günü" ilə bağlı tədbirlərin keçirilməsi istiqamətində ənənəvi və virtual kitab sərgiləri və videoslayd hazırlanmış, MEK əməkdaşları tərəfindən dövri mətbuatda məqalələr nəşr olunmuşdur"[154].

Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin intensivləşməsi və genişlənməsi təsadüfi deyildir. Burada əsas stimulverici faktor AMEA rəhbərliyinin yeniləşmə kursunu davamlı olaraq həyata keçirməsidir. Həmin kontekstdə Kitabxananın fəaliyyətinin intensivləşməsi "Elektron Kitabxana" yaradılması ilə müşayiət olunur. Məsələnin bu aspekti yeniləşmə kontekstində çox aktualdır və həmin prosesin üzərində geniş dayanaq.

---

[154]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", s. 260.

Mərkəzi Elmi Kitabxananın elektron kitabxana xidməti “İrbis” sistemi bazasında təşkil edilmişdir. Bu çərçivədə “AMEA Mərkəzi Elmi Kitabxanasının tammətnli verilənlər bazasına 4000-dən artıq e-kitab, e-kataloqa 321075 adda 605988 nüsxə informasiya daxil edilmiş, 7 verilənlər bazası yaradılmış və mek.az saytı vasitəsilə oxucuların istifadəsinə verilmişdir”[155].

Bunlardan başqa, EBSCO HOST Research Databases, ARBİCON Databases RF bazalarına və Türkiyənin LEHCEDİZ məlumat bazasına abunəçilik həyata keçirilmişdir. Onu vurğulayaq ki, LEHCEDİZ məlumat bazasına Türkiyə Respublikası Prezidentinin Administrasiyasının kitabxanası, qabaqcıl universitetlərin kitabxanaları abunədir. Xarici abunəçilik yalnız AMEA MEK-ə məxsusdur[156].

Türk dövlətləri ilə humanitar və ictimai elmlər sahələrində kitabxanalar vasitəsilə türkdilli rəqəmsal elmi mübadilə mühitinin və elmi ədəbiyyatın vahid reyestrinin yaradılması üçün TÜBİTAK ULAKBİM - Dərgi Parkı ilə birgə əməkdaşlığın təşkili istiqamətində müzakirələr aparılmışdır.

2023-cü ildə MEK-in fondlarındakı sənədlərin elektron kataloqu yaradılmışdır. Həmin ildən Mərkəzi Elmi Kitabxananın İnformasiya Bülleteni nəşr olunur. Onu da deyək ki, kitabxananın işində elektronlaşmanın daha da təkmil aparılması və müasir standartlar səviyyəsinə qaldırılması üçün Elmi-metodiki Şura yaradılmışdır.

Mərkəzi Elmi Kitabxana beynəlxalq əməkdaşlığa ayrıca diqqət verir. Onun hazırda Rusiya, Belarus, Yaponiya, Çin, Fransa, ABŞ, Almaniya, Bolqarıstan, Türkiyə, Sloveniya, Rumıniya və Türkmənistan kitabxanaları və cəmiyyətləri ilə əlaqələri mövcuddur. Bunun nəticəsində MEK-in fonduna 154 nəşr daxil edilmişdir və öz növbəsində 53 nüsxə ədəbiyyat xarici tərəfdaş-

---

[155] Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - “Elm”, s. 295.

[156] Yenə orada, s. 296.

lara göndərilmişdir. Bu cür əlaqələr bütövlükdə Kitabxananın elektronlaşması prosesinin tərkib hissəsi kimi əhəmiyyətlidir.

Bütövlükdə elektronlaşdırma çərçivəsində avtomatlaşdırma və proqram təminatı istiqamətlərində də ciddi addımlar atılmışdır. Belə ki, "avtomatlaşdırma və proqram təminatı sahəsində ümumilikdə sistemin yaddaşına 625000 adda, 726336 nüsxə ədəbiyyat daxil edilmişdir. 1135 material "ByMetis" aparatı vasitəsilə skan olunaraq və xüsusi ABBYY FineReader 12 proqramı vasitəsilə konvertləşdirilərək PDF formatda MEK-in ümumi bazasına yerləşdirilmişdir"[157].

Bunlardan başqa, "Heydər Əliyev İli" çərçivəsində Ümummilli Liderin irsinə dair 330 kitab və 1300 məqalə rəqəmsallaşdırılaraq kitabxananın bazasına daxil edilmişdir. "MEK-in yerli və xarici saytlarda yayımlanan məlumatlarının sayı 3000-dən artıq, qəzetdə yayımlanan məlumatların sayı 40-dən artıq, TV və radio efirində yayımlanan məlumatların sayı 30-dan artıq, MEK-in facebook, instagram və twitter səhifələrində (sosial şəbəkələrdə) paylaşılan məlumatlar 300-dən artıq, hazırlanan videoların sayı 30 ədəd, facebook izləyicilərinin sayı 7500 nəfər olmuşdur"[158].

Gətirilən çoxsaylı faktlar göstərir ki, MEK-in elektronlaşması prosesi vüsət almışdır və sistemli formada həyata keçirilir. Bu proses özündə bir neçə istiqaməti optimal surətdə birləşdirir.

Hər şeydən öncə, MEK kitab bazasını zənginləşdirir. Bu zaman kitabların elektron formada saxlanmasına xüsusi önəm verilir. Kitab ehtiyatının artması ilə yanaşı, kitabxananın funksionallığında elektron və rəqəmsal faktorların yeri və rolu yeni səviyyəyə yüksəldilir. O sırada həm elektron kataloqların yaradılması, həm ondan istifadənin rəqəmsallaşdırılması, həm də beynəlxalq əlaqələri rəqəmsallıq əsasında genişləndirmək aparıcılıq təşkil edir. Bunun üçün artıq Kitabxanada konkret elektron və rəqəm-

---

[157]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", s. 261.

[158]Yenə orada.

sallaşma sistemi qurulmuşdur. Həmin kontekstdə indi Kitabxananın bazasına 100 minlərlə ədəbiyyatın elektron formada konvertləşdirilərək yerləşdirilməsi ciddi hadisədir. Şübhəsiz ki, bu proses davam edəcəkdir.

Elektron kitabxananın yaradılması prosesinin çox vacib bir aspekti də vardır. Bu proses AMEA-nın yeniləşmə kursunun mahiyyətinə və məqsədinə tam uyğundur. Artıq faktiki olaraq Kitabxana yeniləşməni həyata keçirən əsas təşkilati vahidlərdən biridir. MEK həmin prosesdə həm AMEA rəhbərliyi və Rəyasət Heyəti, həm də elmi-tədqiqat institutları ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Deməli, bu anlamda fəaliyyətdə rəqəmsallaşma və elektronlaşma aspekti həm də elmi-tədqiqat institutlarının fəaliyyətinə ciddi təsir edir. Bu da bütövlükdə AMEA-da elektronlaşmanın vahid məntiq üzrə aparıldığını təsdiq edir.

Etiraf etmək lazımdır ki, AMEA-nın rəhbərliyi Elektron kitabxana yaradılması istiqamətində çox fəallıq göstərir. Bunun üçün hər bir şərait yaradılmışdır və yeniləşmə prosesinin sistemliliyinin təmin edilməsi prinsipi ciddi surətdə gözlənilir.

Bunların fonunda digər mühüm məqamı vurğulamaq lazımdır. MEK son 3 ildə dövlətçilik kontekstində fəaliyyət göstərir. Kitabxanada tədbirlərin keçirilməsi, dövlətçilik və azərbaycançılığa aid ədəbiyyatlara üstünlük verilməsi, dövlətçiliyin aktual məsələləri ilə bağlı müxtəlif müzakirələrin aparılması bu tezisin təsdiqidir.

Nəhayət, elektron kitabxana yaradılması prosesinin fonunda elmi-tədqiqat institutlarında elektron xidmətlərin təşkili məsələsi də yeniləşmə kontekstində son dərəcə aktual təsir bağışlayır. Burada həm elmi-tədqiqat institutlarında elektron xidmətin təşkili, həm də onların AMEA Rəyasət Heyəti, MEK və xarici elmi təşkilatlarla qarşılıqlı əlaqədə işləməsi önəm kəsb edir. Çünki AMEA üzrə elektronlaşma və rəqəmsallaşma vahid sistem tərkibində reallaşdırılır.

Bu, yeniləşmənin çox vacib faktorlarından biridir. Məsələ ondan ibarətdir ki, vahid kommunikasiya sisteminin rəqəmsal və elektron formada mövcudluğu bəri başdan yeniləşmənin müxtə-

lif aspektlərini eyni qaydada koordinasiya etməyə, idarəetməni daha çevik və səmərəli səviyyəyə yüksəltməyə və bütövlükdə prosesi sistemli aparmağa imkan verir. Yalnız bu şərt daxilində AMEA monolit təşkilat kimi strateji inkişaf kursunun reallaşmasında üzərinə düşəni səmərəli formada yerinə yetirə bilər. Onu vurğulayaq ki, məhz bu cəhət AMEA-nın yeniləşməsinin başlıca özəlliyini təşkil edir.

Elektron kitabxananın inkişaf etdirilməsi xətti 2024-cü ildə yeni səviyyəyə yüksəlmişdir. Belə ki, "2024-cü ildə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və AMEA-nın Rəyasət Heyəti tərəfindən Mərkəzi Elmi Kitabxananın fəaliyyəti ilə bağlı" vacib qərarlar qəbul edilmişdir. Həmin sırada "kitabxana işinin səmərəliliyinin yüksəldilməsi, struktur və kadr məsələləri, normativ-hüquqi sənədlərin təkmilləşdirilməsi istiqaməti" ayrıca vurğulanmalıdır. Çox əhəmiyyətlidir ki, "AMEA-nın digər elmi müəssisələrində olduğu kimi Mərkəzi Elmi Kitabxanada da struktur islahatları aparılmış, bəzi şöbə və sektorlar ləğv edilmiş, bəziləri birləşdirilmiş, həmçinin yeni strukturlar yaradılmışdır"[159].

2024-cü ildə Mərkəzi Elmi Kitabxanada müxtəlif aktual mövzularda kitablar dərc olunmuşdur. Nümunə kimi, "Azərbaycan ekologiyası: biblioqrafik göstəricisi" (630 s.) və "Azərbaycanın milli parkları, təbiət qoruqları və yasaqlıqları: soraq-biblioqrafik məlumat kitabı" (120 s.), "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamının icrası ilə bağlı "Naxçıvan Muxtar Respublikası - 100: biblioqrafik göstəricisi" (510 s.) və "Naxçıvan Muxtar Respublikasında dövri mətbuat: məlumat kitabı" (130 s.) kimi nəşrlərin hazırlanmasını göstərmək olar.

Kitabxana Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin 530 illiyi ilə bağlı da müxtəlif tədbirlər keçirmişdir. "Mərkəzi

---

[159]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 644.

Elmi Kitabxanasında füzulişünas alimlərlə görüş, Erudit liseyində dahi Azərbaycan şairi "Məhəmməd Füzuli - 530" adlı tədbir, 25 iyun 2024-cü il tarixində "Füzuli əlyazmaları dünya kitabxanalarında" adlı seminar, 23 oktyabr 2024-cü il tarixində isə Xaçmaz şəhərində Mərkəzi Elmi Kitabxana, Quba-Xaçmaz Regional Mədəniyyət İdarəsi və Xaçmaz Tarix Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Şərqin Füzuli dühası" adlı tədbir və kitab sərgisi keçirilmişdir". Bunlarla yanaşı, "Elm günü" ilə əlaqədar ənənəvi və virtual kitab sərgiləri keçirilmiş və video – roliklər hazırlanmışdır. "Elm və mədəniyyət xadimlərinin həyat və fəaliyyətini özündə əks etdirən çoxsaylı biblioqrafik göstəricilər nəşr olunmuşdur[160].

2024-cü ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının strukturu təkmilləşdirilmiş və optimallaşdırılmışdır. Bu istiqamətdə AMEA Rəyasət Heyətinin 21 oktyabr tarixli 20/9 nömrəli qərarı ilə müstəqil struktur vahidi kimi Biblioqrafiya şöbəsi, Biblioqrafiya şöbəsinin tərkibində Elmi biblioqrafiya sektoru və Biblioqrafik informasiya xidməti sektoru yaradılmışdır. MEK-in müstəqil struktur vahidi kimi Kitabxana fondlarının təşkili, mühafizəsi və istifadəsi şöbəsi yaradılmışdır. Həmin qərarla, eyni zamanda "Azərbaycan dilində ədəbiyyat fondu, Xarici dillərdə ədəbiyyat fondu, Dissertasiya və avtoreferatlar fondu və Mübadilə fondu yaradılmış, Avtomatlaşdırılma və proqram təminatı şöbəsinin adı dəyişdirilərək Kitabxana resurslarının rəqəmsallaşdırılması və idarə edilməsi şöbəsi adlandırılmışdır. Həmçinin, Mərkəzi Elmi Kitabxananın Nadir kitablar və qiymətli nəşrlər fondunun adı dəyişdirilərək Nadir kitablar fondu adlandırılmış və daxilli imkanlar hesabına Arxiv şöbəsi yaradılmışdır". Bunlarla yanaşı, "Mərkəzi Elmi Kitabxananın fondlarında olan sənədlərin elektron kataloqu yaradılaraq, oxucuların istifadəsinə verilmişdir. Bunun üçün kitabxanada tətbiq edilən İRBİS 64+

---

[160]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 644.

proqramından istifadə olunmuşdur. Kitabxananın elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılması istiqamətində işlər davam etdirilmişdir"[161].

2024-cü ildə MEK-də həyata keçirilən layihələrdən biri də sentyabr ayında xüsusi olaraq "Akademiklər kitabxanası"nın yaradılmasıdır. Burada kitabxanada qorunan akademiklərin çoxsaylı kolleksiyaları toplanmışdır.

AMEA-nın Mərkəzi Elmi Kitabxanası 2024-cü il ərzində beynəlxalq əməkdaşlıq istiqamətində də fəal olmuşdur. Çoxlu sayda elmi kitabxanalarla əməkdaşlıq əlaqələri qurulmuşdur. Vurğulanan tendensiyaların 2025-ci ildə yeni səviyyəyə yüksəldiləcəyinə inam vardır.

### 3.4. *Elmi-tədqiqat institutlarında elektron xidmətlərin təşkili*

12 sentyabr 2023-cü ildə AMEA Rəyasət Heyətinin iclasında Akademiyanın elmi müəssisə və təşkilatlarında Elektron xidmətlər şöbəsinin yaradılması haqqında qərar qəbul edilmişdir[162]. Bu addıma bütövlükdə AMEA-da həyata keçirilən yeniləşmə prosesindən kənarda baxmaq doğru deyildir. Əksinə, ümumi götürdükdə elmi müəssisə və təşkilatlarda Elektron xidmət şöbəsinin yaradılması iki aspektdə böyük əhəmiyyət daşıyır. Onlardan biri, AMEA-nın hər bir elmi müəssisə və təşkilatının daxilində elmi-informasiya kommunikasiyasını müasir səviyyəyə yüksəltməklə bağlıdır. Burada həm əlaqələrin sürətlənməsi, həm də təşkilati baxımdan daha çevik fəaliyyət üçün imkan yaratmaq nə-

---

[161] Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 645.

[162]AMEA-nın elmi müəssisə və təşkilatlarında Elektron xidmətlər şöbəsi yaradılıb: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 12.09.2023. URL: https://science.gov.az/az/news/open/26179. Müraciət tarixi 09.08.2024.

zərdə tutulur. Yeniləşmə prosesində elmi-tədqiqat institutlarının bu keyfiyyətə malik olmaları çox vacibdir. Əgər elektron xidmətlər olmasa, elmi fəaliyyətin təşkili və yaradıcılığın vahid komanda formasında inkişafı imkansız hala gələr. Məsələ ondan ibarətdir ki, elmi-tədqiqat institutlarında elektron xidmət həm alimlərin şəxsi fəaliyyətinin, həm də bütövlükdə institutun elmi fəaliyyətinin dinamik qiymətləndirilməsinə imkan yaradır.

Bundan başqa, texniki tərəfdən də sənədləşmənin elektron formasına keçid həm prosesi sürətləndirir, həm də subyektiv xarakterli müdaxilələri istisna edir.

Bu iki aspekt bir yerdə indiki yeniləşmə mərhələsində elektron xidmətlərin təşkilinin əhəmiyyətini aydın göstərir. Burada alimlərin şəxsi fəaliyyətinin şəffaf olması məqamı xüsusi yer tutur. Yaradıcı kadrlarla bağlı elektron formada informasiya bazasının yaradılması bir çox göstəriciləri vahid mərkəzdən təhlil etmək şansı verir.

Bütün bunları nəzərə alaraq, AMEA rəhbərliyi elmi-tədqiqat institutlarında elektron xidmətin təşkilini aşağıdakı kimi əsaslandırmışdır:

- Akademiyada sənədlərin rəqəmsallaşdırılması,
- arxiv sənədlərinin elektron bazasının yaradılması,
- elektron sənəd dövriyyəsinin tətbiq edilməsi,
- elektron imza texnologiyasının tətbiqi,
- elektron imza texnologiyasının kompleks olaraq kibertəhlükəsizliyinin təmin edilməsi və s.

Elektron xidmətlər şöbəsi AMEA-nın aşağıdakı elmi müəssisə və təşkilatlarında yaradılmışdır:

- AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Elmi informasiya şöbəsinin bazasında daxili imkanlar hesabına Elektron xidmətlər şöbəsi;
- AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində İnformasiya şöbəsi və Veb-sayt qrupunun bazasında Elektron xidmətlər şöbəsi;

- AMEA-nın Naxçıvan Bölməsində Beynəlxalq əlaqələr və informasiya şöbəsinin bazasında daxili imkanlar hesabına Elektron xidmətlər şöbəsi;
- AMEA-nın Gəncə Bölməsində İnformasiya texnologiyaları şöbəsinin bazasında daxili imkanlar hesabına Elektron xidmətlər şöbəsi;
- AMEA-nın Şəki Regional Elmi Mərkəzində Elmi-texniki informasiya şöbəsinin bazasında daxili imkanlar hesabına Elektron xidmətlər şöbəsi;
- AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin bazasında daxili imkanlar hesabına Elektron xidmətlər və ictimaiyyətlə əlaqələr şöbəsi;
- AMEA-nın Mərkəzi Elmi Kitabxanasında İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin bazasında daxili imkanlar hesabına Elektron xidmətlər və ictimaiyyətlə əlaqələr şöbəsi;
- AMEA-nın "Elm" Nəşriyyatında daxili imkanlar hesabına Elektron xidmətlər şöbəsi[163].

Burada əsas məqsəd vurğulanan istiqamətlərdə fərdi və kollektiv miqyaslarda elmi və təşkilati fəaliyyətin daha da genişləndirilməsi və sistemliliyin təmin edilməsi ilə bağlıdır. Bu məqamların üzərində geniş dayanmaq lazımdır.

AMEA-da sənədlərin rəqəmsallaşdırılması alimlərin yaradıcılığını daha müasir üsullarla qiymətləndirmək üçün əhəmiyyətlidir. Bu aspektdə Scopus, Web of Science kimi nüfuzlu elmmetrik bazalarda alimlərin əsərlərinin və AMEA-nın dövrü elmi jurnallarının təmsil olunması əhəmiyyətlidir. Bundan başqa, Google Academy (Scholar), Microsoft Academic, Index Copernicus, TÜBİTAK ULAKBİM DergiParkı, Russian Science Citati-

---

[163]AMEA-nın elmi müəssisə və təşkilatlarında Elektron xidmətlər şöbəsi yaradılıb: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 12.09.2023. URL: https://science.gov.az/az/news/open/26179. Müraciət tarixi 09.08.2024.

on Index və s. kimi ixtisaslaşmış xülasələndirmə və indeksləndirmə bazalarında AMEA-nın dövrü elmi jurnallarının təmsil olunması da nailiyyətdir.

AMEA əməkdaşlarının fərdi səhifələrinin yaradılması sahəsində fəaliyyət genişləndirilir. Uyğun elmmetrik araşdırmaların təşkil edilməsi istiqamətində davamlı olaraq işlər aparılır. AMEA-da internet və İKT xidmətlərindən istifadə üçün lazım olan texniki xidmətlər göstərilir.

Bütün bunların sayəsində Azərbaycan alimlərinin beynəlxalq elm aləminə çıxışları daha sürətli və intensivdir, getdikcə daha çox sayda elmi məqalələrə dünya alimləri istinad edirlər. Məsələn, 2023-cü ildə AMEA-nın və əhatə etdiyi elmi müəssisələrin elmi işçilərinin əsərlərinə 31000-dən çox istinad olunmuşdur[164].

Bu irəliləyiş birbaşa sənədlərin rəqəmsallaşması sayəsində mümkün olmuşdur. Azərbaycan alimlərinin elmi əsərlərinə istinadların artması bütövlükdə elmimizin dünya miqyasına çıxışı üçün olduqca vacibdir. Çünki belə qarşılıqlı istinadlar elmi informasiyaların mübadiləsi baxımından çox əhəmiyyətlidir.

Bu baxımdan elmi-tədqiqat institutları əməkdaşlarının 2023-cü ildə 1659 məqalənin yaradılaraq və 9924 məqalənin əsaslı və ya kiçik redaktə edilərək virtual Ensiklopediyaya yerləşdirilməsi də faydalıdır. Həmin il alimlərin 1000-dən çox məqaləsi "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda dərc edilmişdir.

Yuxarıda qeyd etmişik ki, 2023-cü ilin iyun ayından etibarən Azərbaycan Milli Elmlər Akademiyası rəqəmsal obyekt identifikatoru olan DOI ilə təmin edilməsi məqsədilə "DOI" Beynəlxalq Fondunun "Crossref Publishers International Linking Association, Inc." Rəsmi Qeydiyyat Agentliyinə ali qurum

---

[164]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrinin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. II CİLD Bakı – 2024, s. 4

qismində üzv olmuşdur. Bu da elmi-tədqiqat institutlarının yaradıcı kollektivinin rəqəmsal fikir və təcrübə mübadiləsi aspektində çox müsbət haldır. DOİ vasitəsi ilə Azərbaycan alimlərinin əsərlərinə çıxış əldə edilir və bu proses həm də Azərbaycan alimlərinin dünya alimləri ilə ünsiyyətinə yeni imkanlar yaradır. Vurğulanan kontekstdə AMEA-da Rəqəmsal Elmi İnformasiya Resursları Sisteminin (AMEA REİRS) işlənməsi prosesləri sistemli təşkil etmək üçün çox vacibdir[165].

Elmi-tədqiqat institutlarında elektron xidmətin yaradılması kontekstində alimlərin həm tanıdılması, həm də geniş planda təcrübə mübadiləsi aparmaq üçün yeni imkanlarının meydana gəlməsi baxımından Google Scholar, Academia.edu, ORCİD, ResearchGate və s. bazalarda profillərinin yaradılması əhəmiyyətli hadisədir. Həmin profillərin fəallığı da təşkil edilmişdir. Ayrıca olaraq, AMEA İnsan Resursları və Elmmetrik Məlumatlar Bazasının ilkin versiyasının (AMEA İREMB) yaradılması vurğulanmalıdır.

Elmi-tədqiqat institutlarında əməkdaşların elmmetrik göstəricilərinin qeydə alınması, təhlili və zəruri ranqlaşdırılması yaradıcılığın elektron üsulla qiymətləndirilməsi baxımından çox vacib faktordur. Məlumdur ki, bunun üçün konkret faktorlar da müəyyən edilir və onlar rəqəmsal formada ifadə olunurlar. Həmin göstəricilərin xüsusi üsulla müqayisəsi əsasında bütövlükdə yaradıcılığın elmmetrik mənzərəsi alınır. Bununla dünya üzrə hər hansı alimin reytinqini, faydalılıq dərəcəsini, tanınma miqyasını, intellektual səviyyəsini rəqəmsal ifadə etmək olur. Burada həmin meyarlar üzərində detallı dayanmaq imkanı yoxdur. Lakin ümumilikdə elmi yaradıcılığın ekspert qiymətləndirilməsi baxımından əhəmiyyəti olan bir məqamı vurğulamaq lazımdır.

---

[165]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - “Elm”, - s. 294.

AMEA-nın 2023-cü il Hesabatında bununla bağlı vurğulanır: "...AMEA üzrə elmmetrik göstəricilər saytı yaradılmışdır. Saytda ümumilikdə AMEA-nın ayrı-ayrı müəssisələri və ya əməkdaşlarının göstəriciləri qeydə alınmış, təhlil olunmuş, ranqlaşdırılmış və müvafiq qaydada nümayiş etdirilmişdir. Əməkdaşlar korporativ elektron poçt ünvanı ilə təmin edildikcə yaradılmış profillərin sayı artır. Hazırda AMEA-nın əməkdaşlarının bu bazalarda profillərinin nəşrləri ilə zənginləşdirilməsi üçün iş aparılır. 2023-cü ildə Google Scholar elektron bazasında əməkdaşların 17392 əsəri yerləşdirilmiş, əsərlərə 12152 istinad olunmuşdur"[166].

Aydın olur ki, artıq AMEA-da əməkdaşların göstəricilərinin qeydə alınması, təhlil edilməsi, ranqlaşdırılması və uyğun qaydada nümayişi vahid sistem halına salınmışdır. Bu da AMEA-nın elmi-tədqiqat institutlarında aparılan araşdırma işlərinə vahid bucaq altında və sistemli halda nəzər salmağa imkan verir. Bu, elmi fəaliyyətin təşkili, koordinasiyası və yeniləşmə prosesinə uyğunlaşdırılması aspektində vacib bir yenilikdir.

Belə görünür ki, AMEA rəhbərliyi daha dinamik bir rəqəmsal araşdırma, qiymətləndirmə və nəticəçıxarma sisteminə doğru irəliləyir. Həmin kontekstdə hesabatda vurğulanan başqa bir məqam da diqqəti çəkir. Orada yazılmışdır: "Əməkdaşların əsərlərinin sayına, əsərlərinə edilmiş istinadların sayına, h-indeksinə görə ranqlaşdırılması da yerinə yetirilir. Cari dövr ərzində 755 əməkdaşın profili aktiv olmuşdur. Bazadakı məlumatlar müntəzəm yenilənir və ölkəmizin alimlərinin fəaliyyətini elmmetrik dəyərləndirən digər sistemlərin məlumatları ilə müqayisə edilir. Zəruri təkmilləşdirilmələrdən, müvafiq texniki parametrli ser-

[166]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", s. 295.

verdə quraşdırıldıqdan sonra AMEA İREMB tam istifadəyə verilməsi istiqamətində işlər davam etdirilir”[167].

Burada maraq doğuran məqam alimlərin əsərlərinin və onlara olan istinadların sayına, h-indeksinə görə ranqlaşdırma qiymətləndirilməsinin AMEA-da tətbiqi ilə bağlıdır. Dünya təcrübəsinə baxsaq, həmin kəmiyyətlər elmmetik qiymətləndirmədə əsas sayılırlar. Deməli, bu istiqamətdə də AMEA artıq dünya təcrübəsinə uyğun fəaliyyət göstərməyə başlamışdır. Bu da bütövlükdə təşkilatın yeniləşmə kursunun mühüm özəlliklərindən biridir. Lakin burada başqa bir məqamı vurğulamaq gərəkdir.

Məsələ ondan ibarətdir ki, indi alimlər rəqəmsallığın elmi yaradıcılığı nə dərəcədə ifadə edə bildiyi ilə bağlı araşdırmalar aparırlar. Burada əsas suallar belədir: rəqəmləşdirmə elmi yaradıcılığı və elmi bilikləri tam rəmzləşdirə bilirlərmi? Yəni rəqəmlər nə dərəcədə biliyi ifadə edə bilir? Bu suallara cavab axtarışları nəticəsində gəlinən qənaət belədir: rəqəmsallaşdırma elmi yaradıcılığı və elmi biliyi tam kodlaşdıra bilmir. Yəni həmişə elə biliklər olur ki, onları rəqəmlərlə ifadə etmək mümkün deyildir. Maykl Polani anlamında bunlar “aşkar olmayan” biliklərdir. “Qeyri aşkar” biliklərin rəqəmlərlə ifadə edilə bilmədiyini filosoflar əsaslandırmışlar[168].

Elmi yaradıcılığa gəldikdə isə, o, daha çətin rəqəmsallaşan sahədir. Bir sıra filosoflara görə, ümumiyyətlə, yaradıcılığın kollektiv növünü rəqəmsallaşdırmaq olduqca çətindir[169]. Lakin elmi kreativliyin və biliyin elə forması da var ki, onları robotlar tam

---

[168]Масланов, Е.В. Креативность и цифровизация // Эпистемология и философия науки - 2022, т. 59, - № 3, - с. 38–45.
[169]Касавин, И.Т. Научное творчество как социальный феномен // Эпистемология и философия науки. – 2022, т. 59, - № 3, - с. 19–29.

yerinə yetirirlər. Məsələn, alimlərin xüsusi hazırladığı proqramları süni intellekt tam olaraq imitasiya etmişdir[170].

Belə alınır ki, elmmetrik üsulla elmi yaradıcılığı və bilikləri xarakterizə etmək tam mənzərəni verməsə də, kəmiyyət göstəriciləri əsasında müəyyən təsəvvür əldə etməyə imkan verir. Bu baxımdan da alimlərin yaradıcılıq məhsullarının rəqəmsal-elmmetrik ifadəsi əhəmiyyət daşıyan məsələdir. Sənədlərin arxivləşdirilməsi bu prosesdə ciddi əhəmiyyəti olan məsələdir. Bu baxımdan AMEA DOI identifikatoru təmin edilmiş jurnallar, jurnal məqalələri və konfrans materiallarının arxivləşdirilməsi qeyd edilməlidir[171].

Elektron sənəd dövriyyəsi və elektron imza texnologiyalarının tətbiqi elmi-tədqiqat institutlarının elektron xidmətlərinə aiddir. Onların kibertəhlükəsizliyinin təmini də vacibdir.

İndi elmi-tədqiqat institutlarında elektron xidmətin yaradılmasına ümumilikdə AMEA-nın yeniləşmə kursu prizmasında baxaq. Struktur və funksional baxımdan elmi-tədqiqat institutlarında həm yaradıcılıq prosesinin təşkili, həm də alınan nəticələrin funksionallaşması AMEA Rəyasət Heyətindən kənarda mümkün deyildir.

Bununla yanaşı, elektron xidmət bir neçə institut arasında kommunikasiyanı sürətləndirməli, asanlaşdırmalı və daha çevik mühit yaratmalıdır. Bu baxımdan elektron xidmətin tərkib hissələri kimi sənədlərin rəqəmsallaşdırılması, arxiv sənədlərinin elektron bazasının yaradılması, elektron sənəd dövriyyəsinin tətbiq edilməsi, elektron imza texnologiyasının tətbiqi və onun kompleks olaraq kibertəhlükəsizliyinin təmin edilməsi qarşıya

---

[170]Bax: məs., Junge J., Hughes J., Thuruthel T.G. & Iida F. “Improving Robotic Cooking Using Batch Bayesian Optimization”, IEEE Robotics and Automation Letters, - 2020, vol. 5, iss. 2, - pp. 760–765.

[171]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - “Elm”, - s. 289.

qoyulan məqsədə çatmaq və AMEA-nı inkişaf etdirmək prosesinə səmərəli xidmət edə bilərmi?

AMEA rəhbərliyini müəyyən etdiyi kriteriyalar üzrə elektron xidmət tam olaraq yeniləşmə və inkişaf kursuna uyğun görünür. Çünki burada yaradıcılıq (sənədlərin rəqəmsallaşdırılması), saxlama (arxiv sənədlərinin elektron bazasının yaradılması), sistemdaxili kommunikasiya qaydasının müəyyən edilməsi (elektron sənəd dövriyyəsinin tətbiqi), aparılan işlərin təsdiqi (elektron imza texnologiyasının tətbiqi) və təhlükəsizlik (kompleks olaraq kibertəhlükəsizliyinin təmin edilməsi) sistemli olaraq bir-birini tamamlayırlar. Yaradıcılıqda əldə edilən biliklərin saxlanması, sistem daxilində kommunikasiya üçün açıq olması, görülən işlərin imza ilə təsdiq olunması və nəhayət, bütün bunların təhlükəsizliyinin təmini vahid sistemin funksional atributlarıdırlar.

Bundan başqa, vurğulanan məzmunda müəyyən olunan elektron xidmət avtomatik olaraq, AMEA-nın strukturundakı iyerarxiyalar arasında bağlantı yaradır. Həmin bağlantı yaradıcılıq, biliyin saxlanması, təsdiqi və qorunmasını bütövlükdə təmin edir. Bu üsul ümumilikdə elektron xidmətlərinin AMEA-nın yeniləşmə özəllikləri ilə sıx surətdə daxili əlaqədə həyata keçirməsinə geniş şərait yaradır.

Vurğulanan məqamlardan belə ümumi qənaət əldə etmək olar ki, elmi-tədqiqat institutlarında elektron xidmətin təşkili mütləq mükəmməl aparılmalıdır. Çünki bu, bir neçə aspektdə bütövlükdə təşkilatın yeniləşməsini güclü surətdə stimullaşdıra bilər. AMEA rəhbərliyinin öncədən bunu nəzərə aldığına şübhə yoxdur. Atılan addımlar da göstərir ki, həmin istiqamətdə davamlı olaraq fəaliyyət göstərilir.

Növbəti mərhələdə bu prosesin yeniləşmənin bütün istiqamətləri ilə özünüinkişaf etdirən sistem əmələ gətirəcəyinin cizgiləri artıq özünü göstərir. Buradan Akademiyadaxili yeniləşmə prosesləri ilə beynəlxalq əlaqələrin inkişafı aspektlərinin bir-biri

ilə harmoniya təşkil etməsində məhz elmi-tədqiqat institutlarında elektron xidmətin təşkilinin əsas kommunikasiya kanalı olacağı qənaəti də alınır. Məsələnin bu tərəfi çox əhəmiyyətlidir və AMEA-nın beynəlxalq əməkdaşlıq istiqamətində həyata keçirdiyi yeniləşmə siyasətini araşdırmağı tələb edir. Növbəti fəsildə biz məsələnin həmin cəhəti üzərində geniş dayanacağıq.

# IV FƏSİL

# YENİLƏŞƏN AMEA VƏ BEYNƏLXALQ ELMİ ƏLAQƏLƏRİN QURULMASINDA YENİ MƏRHƏLƏ

## 4.1. *İkitərəfli əməkdaşlıqdan beynəlxalq elmi təşkilatlarla əlaqələrə doğru*

AMEA-nın yeniləşmə kursunda fəaliyyətin iki miqyası bir-biri ilə üzvü surətdə birləşmişdir. Təşkilatın rəhbərliyi öncədən düşünülmüş şəkildə Akademiyadaxili fəaliyyəti ilə ali elmi qurumun beynəlxalq əməkdaşlıq forması arasında vəhdətin yaranmasını təmin edən şərtləri müəyyənləşdirmişdir.

2022-ci ildən başlayaraq AMEA-nın həyata keçirdiyi tədbirlərin işığında aparılan təhlil göstərir ki, burada sağlam məntiqi yanaşma və aydın strateji hədəf mövcuddur. Belə ki, vurğulanan iki miqyasın qarşılıqlı əlaqəsi ölkənin strateji inkişaf kursunun ümumi müddəalarına əsaslanır. Orada öncələr də dəfələrlə qeyd etdiyimiz kimi, AMEA üzərinə icraedici orqanlardan biri kimi konkret vəzifələr qoyulmuşdur.

Həmin vəzifələrdən irəli gələn tələblər vardır. Bu kontekstdə AMEA özünü yeniləşdirməklə ölkənin strateji inkişaf kursunun reallaşmasında çox ciddi rol oynamalıdır. Məhz həmin “ciddi rol”un səmərəli reallaşması prinsipini əsas götürərək, AMEA rəhbərliyi müasir mərhələdə müstəqillik tariximizdə ilk dəfə olaraq sistemli yeniləşmə xəttini müəyyən etmişdir. Qəbul etməliyik ki, bu, XXI əsrdə dövlətçilikdə elmin layiq olduğu yeri tutması və rolunu yerinə yetirməsi kontekstində çox faydalı prosesdir, nəzəri və praktiki fəaliyyətdə bir “elmi sıçrayışdır”.

Vurğuladığımız aspektdə AMEA-nın rəhbərliyi təşkilatdaxili yeniləşmələrin məzmunu, reallaşma mexanizmləri, yaradıcı tərəflə təşkilati tərəfin münasibətləri və məqsədləri ilə beynəlxalq əməkdaşlığın başlıca istiqamətlərini tam uyğunlaşdırmaqdadır. Konkret ifadə etsək, dövlətçiliyə xidmət çərçivəsində daxili ye-

niləşmə ilə beynəlxalq əməkdaşlığın forma, məzmun və məqsədi bir-birini tamamlayır. Əməkdaşlığın istiqamətləri təsadüfi seçilmir – onların hər biri qarşıya qoyulmuş məqsədlərə çatmağa xidmət edir. Burada hansı xarici elmi təşkilatla hansı aspektlərdə əməkdaşlıqdan tutmuş ölkə və ölkələr qrupunu seçməyə qədər müxtəlif faktorlar nəzərə alınmaqdadır.

Sonuncu tezisin işığında AMEA-nın yeniləşməsi ilə ikitərəfli əməkdaşlıqdan çoxtərəfli əməkdaşlığa keçidin daxili məntiqi və strateji hədəfi üzərində bir qədər geniş dayanmaq lazım gəlir. İkitərəfli əməkdaşlıq modeli AMEA-nın fəaliyyət tarixində uzun müddətdir ki, mövcuddur. Biz I fəsildə bu prosesin əsasını Ulu Öndər Heydər Əliyevin hələ sovet dönəmində qoyduğunu vurğulamışıq. Müstəqillik mərhələsində həmin istiqamət inkişaf etdirildi. Lakin XXI əsrin gəlişi göstərdi ki, bu prosesdə üç faktora daha çox diqqət etmək gərəkdir. Birincisi, dünya elmi elə sürətlə inkişaf edir ki, ənənəvi aparıcı elmi mərkəzlərin coğrafiyası yeniləşir. Yəni yalnız ənənəvi güclü elmi məkanlara üz tutmaq yetərli deyil. Fəaliyyətin çoxistiqamətliliyi təmin olunmalıdır.

İkincisi, məsələ sadəcə ikitərəfli əlaqələrdən çoxtərəfli əməkdaşlıq formatına keçidlə bağlı deyil. Burada başlıca prinsip bu keçidin dövlətçiliyə, ölkənin strateji inkişaf fəlsəfəsinə uyğun aparılması ilə əlaqəlidir.

Üçüncüsü, Azərbaycan Prezidentinin strateji aspektdə müəyyən etdiyi bir mühüm məqam mövcuddur. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatını daha da gücləndirməyi yeni tarixi mərhələdə Azərbaycan Respublikasının fəaliyyətində prioritet istiqamətlərdən biri kimi müəyyən etmişdir. Bu, faktiki olaraq bütün sferalarda TDT faktorunu ciddi nəzərə almağı tələb edir. AMEA rəhbərliyi həmin faktoru çox məharətlə yeniləşmə kursuna daxil etmişdir və həmin istiqamətdə praktiki addımlarını atmaqdadır. Yəni ikitərəfli əməkdaşlıq formatından çoxtərəfli əməkdaşlığa keçid proses olaraq iki şərti sintez etməlidir. Onlardan biri AMEA-nın türk dövlətləri ilə çoxtərəfli əməkdaşlığı in-

kişaf etdirməsidir, digəri isə, bütövlükdə dünyanın aparıcı elmi mərkəzləri ilə çoxtərəfli əməkdaşlığı inkişaf etdirməkdir.

Bu elmi mərkəzlərin coğrafiyasının yeniləşdiyini yuxarıda vurğulamışıq. Deməli, AMEA həm də dünyanın hansı elmi mərkəzləri ilə çoxtərəfli əməkdaşlığı inkişaf etdirməli olduğunu dəqiq müəyyən etməlidir. Təcrübə göstərir ki, bu vəzifə də uğurla həyata keçirilir. Məsələn, son illər AMEA rəhbərliyi Çin Xalq Respublikasının müxtəlif elm və təhsil ocaqları ilə əlaqələri yeni səviyyəyə yüksəltməkdədir. 2024-cü ilin iyun ayında AMEA prezidentinin rəhbərliyi ilə Çinə nümayəndə heyəti səfər etmişdir və o səfər zamanı çox əhəmiyyətli sənədlər imzalanmışdır. Bundan başqa, AMEA Avropa, Amerika, Yaponiya kimi elmi yüksək inkişaf etmiş coğrafiyalarda yerləşmiş elmi qurumlarla əlaqələrini inkişaf etdirməkdədir. Bu proseslər davam edir.

Deməli, vurğuladığımız şərtlər daxilində AMEA rəhbərliyi sistemli, məqsədyönlü və dəqiq məzmunlaşdırılmış yeniləşmə xəttini hazırlayaraq, orada beynəlxalq əməkdaşlığın fəlsəfəsini doğru müəyyən etmişdir. Məsələyə yanaşmanı bu məntiq çərçivəsində davam etdirsək, ölkənin ali elmi təşkilatının beynəlxalq əməkdaşlıq istiqamətində atdığı addımların mahiyyətini daha dərindən və əhatəli dərk edə bilərik. Bu səbəbdən, konkret faktlara müraciət edək.

AMEA-nın yeni rəhbərliyi Türkiyə, İtaliya, Özbəkistan, Qazaxıstan, Rusiya, Pakistan İslam Respublikası, Gürcüstan, Bolqarıstana səfərlər etmiş və onların elmi qurumları ilə əməkdaşlıq qurmuşdur. Bu proses mütəmadi davam etdiyindən hər il bu siyahı genişlənir. Ona görə də biz ancaq onların müəyyən qismi üzərində dayana bilərik. Yəni bu istiqamətdə faktları tam olaraq vurğulamaq mümkün deyildir. Məsələn, 2024-cü ildə Çin Xalq Respublikasına AMEA nümayəndə heyətinin səfəri çox səmərəli olmuşdur.

Biz artıq vurğulamışıq ki, 2023-cü ildə AMEA Türkiyənin TÜBİTAK, TÜBA, AKDTYQ, AASSA kimi qurumları ilə əməkdaşlıq qurmuşdur və akademik İsa Həbibbəyli Ankarada TEKNOFEST-də iştirak etmişdir. AMEA prezidenti həmçinin

TÜBA-nın Baş Assambleyasının Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş iclasında məruzə ilə çıxış etmişdir.

AMEA-nın Özbəkistanın elmi qurumları ilə əməkdaşlığı inkişaf edir. 2023-cü ildə AMEA ilə Özbəkistanın "elm və təhsil qurumları arasında 4 əməkdaşlıq sənədi imzalanmışdır". Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti və onun tərkibində yaradılmış Füzulişünaslıq Mərkəzi ilə sıx əlaqələr yaradılmışdır. Daşkənd Dövlət Şərqşünaslıq Universiteti və onun tərkibində yeni açılmış Azərbaycanşünaslıq Mərkəzi və Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə də əməkdaşlıq mövcuddur.

AMEA Özbəkistan Elmlər Akademiyası ilə geniş əlaqələrə malikdir. Hər iki Akademiya arasında alimlərin müxtəlif tədbirlərdə iştirakı üçün qarşılıqlı səfərlər həyata keçirilir.

AMEA Özbəkistan Respublikasının İnnovativ İnkişaf Nazirliyi ilə də Anlaşma Memorandumu imzalamışdır. AMEA Özbəkistan Respublikasının İnnovativ İnkişaf Nazirliyi ilə birgə 44 layihə təqdim etmişdir.

AMEA Qazaxıstanın da elmi qurumları ilə əməkdaşlığı çoxşaxəlilik prinsipi üzrə inkişaf etdirir. Belə ki, "2023-cü ildə Qazaxıstan Respublikası ilə elmi əlaqələr genişləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri çərçivəsində Dövlət başçılarının görüşü zamanı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ilə Qazaxıstan Milli Elmlər Akademiyasının prezidenti akademik Murat Jurinov tərəfindən elm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Akademik İsa Həbibbəyli və AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev Almatı şəhərində Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin VI Baş Assambleyasının iclasında iştirak edərək çıxış etmişlər"[172].

---

[172]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", - s. 280.

Bunlarla yanaşı, AMEA ilə Qazaxıstanın elmi qurumları müxtəlif elmi tədbirləri birgə təşkil etmişlər. O sırada AMEA-nın Şərqşünaslıq İnstitutu ilə Qazaxıstan Respublikası R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş "Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" adlı beynəlxalq konfransı vurğulaya bilərik. Bu proses əhatəlidir və AMEA-nın elmi-tədqiqat institutları ilə Qazaxıstanın müxtəlif elmi qurumları arasında əməkdaşlıq haqqında sənədlər imzalanır.

Onu da vurğulamaq lazımdır ki, AMEA türk dövlətlərinin hər birinə aid olan Beynəlxalq Türk Akademiyası ilə də əlaqələri yeni səviyyəyə yüksəltmişdir. Akademik İsa Həbibbəyli "Beynəlxalq Türk Akademiyası tərəfindən birgə layihələrin qiymətləndirilməsi məqsədilə yaradılmış Qiymətləndirmə Komitəsinə üzv seçilmişdir"[173].

AMEA-nın İslam Respublikasının Lahor Dövlət Kollec Universiteti (LDKU) ilə əməkdaşlığı vardır. Həmin universitetdə AMEA Azərbaycanşünaslıq Mərkəzi yaratmışdır. LDKU "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" adlı kitab hazırlamışdır ki, bu da Azərbaycan mədəniyyətinin təbliği baxımından çox əhəmiyyətli faktlardan biridir.

AMEA Çinin elmi qurumları ilə əlaqələri 2024-cü ildə yeni səviyyəyə yüksəltmişdir. Bir neçə ildir ki, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Mərkəzi fəaliyyət göstərir. Burada qarşılıqlı ədəbi əlaqələr istiqamətində tədqiqatlar aparılır. Müxtəlif elmi konfranslar təşkil edilir. Bu kontekstdə Azərbaycan-Çin ədəbi əlaqələrinə aid poeziya antalogiyasının hazırlanması xüsusi yer tutur.

AMEA-nın Ədəbiyyat İnstitutunun Çinin Hebey Pedaqoji Universiteti və Pekin Xarici Dillər Universiteti ilə əlaqələri son illər daha da inkişaf etmişdir. Hebey Pedaqoji Universitetinin

---

[173]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", s. 280.

dünyanın 35-dən çox elmi qurumu ilə əlaqələri vardır. 2024-cü ilin iyun ayında isə AMEA prezidenti Şiçzyaçjuan şəhərində Hebey Sosial Elmlər Akademiyasının rəhbərliyi ilə Anlaşma Memorandumu imzalamışdır. Tədbirdə Azərbaycanla Çin arasında elmi əməkdaşlığın əhəmiyyətindən danışılaraq, onun perspektivlərindən bəhs edilmişdir. Vurğulanmışdır ki, iki ölkənin rəhbərlərinin inkişaf etdirdiyi dostluq münasibətləri "...dünya miqyaslı qlobal layihələrdə ölkələrimizin birgə iştirakının elm sahəsinə də xüsusi diqqət yetirilməsinin vacibliyini önə çıxarmışdır..." və bu "...dost dövlətlərin prioritet istiqamətlərindən birini təşkil edən elmi əməkdaşlığa da daim diqqət yetirilməsini" zəruri etmişdir. Anlaşma Memorandumunda "elmi əməkdaşlığın gücləndirilməsi, prioritet istiqamətlərin inkişaf etdirilməsi, elmi nəşrlərin mübadiləsi üzrə müddəalar öz əksini tapıb"[174].

AMEA prezidentinin Çinə həmin səfəri zamanı bir əhəmiyyətli əməkdaşlıq sənədi də imzalanmışdır. Çinin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondu ilə AMEA arasında "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Memorandumda birgə elmi fəaliyyətin müddəaları yer almışdır[175].

AMEA yeniləşmə prosesi çərçivəsində Avropa və Rusiya istiqamətində də əməkdaşlığa ayrıca diqqət yetirməkdədir. Akademik İsa Həbibbəylinin Bolqarıstana səfəri zamanı 6 iyul 2023-cü il tarixində Bolqarıstan Elmlər Akademiyası (BEA) ilə Anlaşma Memorandumu imzalanmışdır.

Ayrıca, "...AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutu ilə BEA Ədəbi Tədqiqatlar İnstitutu tərəfindən "Ədəbiyyatda satira və yumor: folklordan yazılı ədə-

---

[174]AMEA prezidenti Çinin Hebey Pedaqoji Universitetinin nümayəndə heyəti ilə görüşüb// Azərbaycan Milli Elmlər Akademiyası, 29.12.2023. URL: https://science.gov.az/az/news/open/27586. Müraciət tarixi 10.08.2024.

[175]AMEA ilə Çinin Biomüxtəlifliyin Qorunması və Yaşıl İnkişaf Fondu arasında memorandum imzalanıb: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 21.06.2024.URL: https://science.gov.az/az/news/open/29458. Müraciət tarixi 10.08.2024.

biyyatadək (Azərbaycan və bolqar ədəbiyyatının materialları əsasında)" mövzusunda elmi layihənin icrası üzrə fəaliyyət başlanmışdır. Eyni zamanda, AMEA-nın Abbasqulu ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu ilə BEA Tarix Araşdırmaları İnstitutu arasında Anlaşma Memorandumu imzalanmışdır"[176].

Bunlarla yanaşı, Bolqarıstan Elmlər Akademiyasının Etnologiya və Folklor İnstitutu, Ədəbiyyat İnstitutu, Milli Arxeologiya İnstitutunun Arxeologiya Muzeyi, Sofiya Universitetinin Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində müzakirələr aparılmışdır. Bu ölkənin Privadiye bölgəsindəki Duzdağ kurqanında aparılan arxeoloji qazıntılar kontekstində birgə tədqiqat imkanları nəzərdən keçirilmişdir[177].

AMEA başqa bir Avropa ölkəsi olan İtaliyanın Sandro Teti Nəşriyyat Evi ilə əməkdaşlıq istiqamətində addım atmışdır: "bir sıra nəşrlərin italyan dilində çap edilməsi məsələsi müzakirə olunmuşdur"[178].

Biz bu kitabın öncəki fəsillərində artıq vurğulamışıq ki, AMEA tarixində ilk dəfə olaraq 3 beynəlxalq elmi təşkilatın üzvü olmuşdur. Onlar tanınmış Beynəlxalq Elmi Şura (İSC), Asiya Elmlər Akademiyaları və Assosiasiyaları Cəmiyyəti (AEAAC) və Avrasiya Universitetlər Birliyidir (AUB). AMEA İSC-nin "Paris, Monteneqro və Kuala Lumpurda keçirilən tədbirlərində təmsil olunmuşdur". Akademik İsa Həbibbəyli "İSC-nin Avropa üzvlərinin Monteneqroda keçirilən İllik Toplantısında iştirak etmiş və mühüm qərarların qəbul edilməsi üçün səsvermədə iştirak etmişdir".

Bunlarla yanaşı, AMEA çox müxtəlif coğrafiyalarda yerləşən elmi qurumlarla əməkdaşlıq edir. O cümlədən, "AMEA Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyası, eyni zamanda Avrasiya Universitetlər Birliyi (EURAS) çərçi-

---

[176]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", - s. 280.

[177]Yenə orada.

[178]Yenə orada, s. 281.

vəsində tamhüquqlu üzv kimi fəaliyyət" göstərir. Həmçinin, AMEA tərəfindən Akademiyalararası Əməkdaşlıq Təşkilatına (İAP) üzvlük üçün müraciət göndərilmiş, Asiya Sosial Elmi Tədqiqat Şuraları Assosiasiyasına (AASSREC) üzvlük üzrə müzakirələr aparılmışdır"[179].

AMEA Malayziya Elmlər Akademiyası, Vyetnam Sosial Elmlər Akademiyası, Avstraliya Sosial Elmlər Akademiyası ilə elmi əlaqələrin yaradılması üzrə fəaliyyətə başlamış, Avropa Komissiyasının ekspertlərinin iştirakı ilə Azərbaycanın alim və mütəxəssisləri üçün "Horizon Avropa" həftələri, "Avropa Komissiyasının Horizon Avropa Proqramı və Alman Akademik Mübadilə Xidməti (DAAD) ilə birlikdə avropalı ekspertlərin iştirakı ilə gənc mütəxəssislər üçün layihələrin hazırlanması üzrə təlimlər" təşkil etmişdir[180].

Cəmi bir il ərzində AMEA "...30-a yaxın əməkdaşlıq sənədi imzalamışdır. AMEA tərəfindən 40-dan çox beynəlxalq konfrans, konqres, seminar, dəyirmi masa keçirilmişdir. Hesabat ilində gənc alim və mütəxəssislər daxil olmaqla, AMEA-nın əməkdaşları tərəfindən 100-ə yaxın ezamiyyət təşkil olunmuşdur"[181].

Onu da vurğulamaq lazımdır ki, AMEA prezidenti 10 iyul 2024-cü il tarixində Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçilmişdir ki, Azərbaycan elminin artan nüfuzunun göstəricilərindən biridir[182].

Bütövlükdə AMEA 2024-cü il boyu beynəlxalq əməkdaşlığı dinamik olaraq genişləndirmiş və mövzu baxımından onun əhatə dairəsini yeni səviyyəyə yüksəltmişdir. Bu tezisi təsdiq edən faktları vurğulamaq gərəkdir.

---

[179]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı – 2024, - "Elm", s. 282.

[180]Yenə orada.

[181]Yenə orada.

[182]Akademik İsa Həbibbəyli Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçilib // Azərbaycan Milli Elmlər Akademiyası, 27.07.2024. URL: https://science.gov.az/az/news/open/29720. Müraciət tarixi 10.08.2024.

AMEA 2024-cu il iyulun 17-də 150-dən çox elmlər akademiyasını özündə birləşdirən Akademiyalararası Tərəfdaşlıq Təşkilatının (IAP) üzvlüyünə qəbul edilmişdir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq mərhələsi kimi keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində IAP-ın ölkəmizdə səfərdə olan nümayəndəsi Dr. Robin Fears ilə 03 oktyabr 2024-cü il tarixində görüşmüşdür. Görüş zamanı birgə layihələrdə iştirak imkanları müzakirə edilmiş, əməkdaşlıq üçün elmi istiqamətlər müəyyənləşdirilmişdir. 04 oktyabr 2024-cü il tarixində Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində "İqlim Fəaliyyəti üçün Tədqiqat və Əməkdaşlığın Sürətləndirilməsi" mövzusunda keçirilmiş Bakı İqlim Elmi Konfransında AMEA-nın nümayəndə heyəti iştirak etmiş, akademik İsa Həbibbəyli Açılış mərasimində məruzə ilə çıxış etmişdir"[183].

2024-cü ildə Beynəlxalq Elmi Şuranın (ISC) üzvü kimi də AMEA aktiv fəaliyyət göstərmişdir. COP29 çərçivəsində Azərbaycanda səfərdə olan İSC-nin baş icraçı direktoru Salvatore Arico 11 noyabr 2024-cü il tarixində AMEA-nın qonağı olmuş, 250-dən artıq akademiya, elmi birlik, milli və beynəlxalq elmi qurumu özündə birləşdirən təşkilat çərçivəsində AMEA ilə əməkdaşlıq imkanları və gələcək fəaliyyət istiqamətləri müzakirə edilmişdir. ISC və Almaniyanın Karlsruhe Texnologiya İnstitutunun birgə təşkilatçılığı ilə 12 noyabr 2024-cü il tarixində keçirilən "İqlim elmi: 2024-cü il üçün əsas nəticələr" mövzusunda elmi konfransda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli məruzə ilə çıxış etmişdir.

Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının (AASSA) və Avrasiya Universitetlər Birliyi (EURAS) çərçivəsində AMEA-nın tamhüquqlu üzv kimi fəaliyyəti 2024-cü ildə

---

[183]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 179.

uğurla davam etdirilmişdir. "AASSA-nın prezidenti professor Ahmet Nuri Yurdusevərlə 18 dekabr 2024-cü il tarixində AMEA-nın Rəyasət Heyətində görüş keçirilmiş, AMEA-nın AASSA çərçivəsində növbəti illər üçün fəaliyyət planı müzakirə edilmişdir. Akademik İsa Həbibbəyli AASSA-nın Baş Assambleyasının 29-30 oktyabr 2024-cü il tarixlərində Filippin Respublikasının Manila şəhərində keçirilən iclasında və "Elmdə Rəqəmsal Transformasiyalar" mövzusunda beynəlxalq simpoziumda iştirak etmiş, tədbirlərdə məruzələr təqdim etmiş və AASSA-nın yeni İdarə Heyətinin seçkilərində iştirak etmişdir...Həmçinin AMEA tərəfindən AASSA-nın elan etdiyi layihə müsabiqəsinə layihə təklifi hazırlanaraq təqdim edilmişdir"[184].

Əlamətdardır ki, 2024-cü ildə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyasının (BEAA) həqiqi üzvü seçilmişdir.

AMEA ayrıca Çinin elmi təşkilatları ilə əlaqələri sürətlə inkişaf etdirmişdir. O cümlədən, Çin Xalq Respublikasının Kore Akademiyası (Core Academy) ilə əlaqələr qurulmuşdur. Bu akademiya Honkonq şəhərində yerləşir. Akademik İsa Həbibbəyli bu təşkilatın həqiqi üzvü seçilmişdir. 2024-cü il iyunun 13-də AMEA prezidenti Kore Akademiyanın nümayəndə heyəti ilə Honkonqda əməkdaşlıq perspektivlərini müzakirə etmişdir. Həmin il 04-07 oktyabr tarixində isə Bakıda müzakirələr aparılmışdır. AMEA ilə Kore Akademiya arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

Ümumilikdə 2024-cü ildə AMEA tərəfindən 30-a yaxın əməkdaşlıq sənədi imzalanmışdır. Həmin aspektdə Özbəkistan, Türkiyə, Çin, Qazaxıstan, Rusiya və Almaniya ilə bu istiqamətdə fəaliyyət üstünlük təşkil etmişdir.

Bununla yanaşı, Tacikistan, Bolqarıstan, Gürcüstan, Pakistan, İraq, Misir və Qırğızıstanın elmi qurumları ilə əməkdaşlıq

---

[184]Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 180.

yaradılmışdır. Bu sənədlərdən 28%-i İctimai Elmlər Bölməsi, 20%-i Humanitar Elmlər Bölməsi, 8%-i Yer Elmləri Bölməsinin elmi müəssisələrinin payına düşür. 32% əməkdaşlıq sənədi AMEA rəhbərliyi, 12% isə AMEA-nın regional bölmələri tərəfindən imzalanmışdır[185].

Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi Türk dövlətlərinin elmi təşkilatları ilə əməkdaşlığın inkişafına xüsusi diqqət yetirmişdir. AMEA prezidenti 27 may 2024-cu il tarixində Ankara şəhərində təşkil edilən Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin (UNASTW) 7-ci Baş Assambleyasında iştirak və çıxış etmişdir. Bundan başqa, akademik İsa Həbibbəyli hər bir türk dövlətinin elmi müəssisələri ilə əməkdaşlığı qurmuş və onu inkişaf etdirməkdədir. Türk dövlətləri Təşkilatı çərçivəsində bu istiqamətdə ən fəal təşkilat hazırda AMEA-dır. Təsadüfi deyildir ki, AMEA prezidenti Türkiyə Elmlər Akademiyası (TÜBA) Şurasının 17 dekabr 2024-cü il tarixli, 372 nömrəli qərarı ilə TÜBA-nın Fəxri üzvü seçilmişdir[186].

AMEA, həmçinin Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə keçirilən müxtəlif tədbirlərin fəal iştirakçısı olmuşdur. AMEA-nın tarixində ilk dəfə olaraq AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hazırlanmış “86 il öncə - Xalid Səidin “Divanü Lüğat-it-Türk” tərcüməsi” kitabının təqdimat mərasimi Fond tərəfindən 13 dekabr 2024-cü il tarixində UNESCO-nun Paris şəhərindəki Baş qərargahında keçirilmişdir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professoru Nadir Məmmədli və institutun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva-Nəbiyeva, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının üzvü professor Həsən Həsənov və Ba-

---

[185] Azərbaycan Milli Elmlər Akademiyasının və əhatə etdiyi elm və ali təhsil müəssisələrinin 2024-cü ildəki elmi-təşkilati fəaliyyəti. HESABAT. I CİLD. Bakı. – 2025, s. 184.

[186]AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkiyə Elmlər Akademiyasının fəxri üzvü seçilib // Azərbaycan Milli Elmlər Akademiyası, 30.12.2024. URL: https://science.gov.az/az/news/open/31209.

kı Dövlət Universitetinin professoru Yeganə İsmayılova "Dünyanın leksikoqrafiyada xəritələşdirilməsi: "Divanü lüğat-it-türk"ün 950-ci ildönümü" mövzusunda beynəlxalq konfransda məruzələr etmişlər. Akademik İsa Həbibbəyli konfransda "Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri Azərbaycanda" mövzusunda çıxış etmiş, konfransın bir bölməsinin moderatoru olmuşdur. O, həmçinin Fond tərəfindən nəşr olunmuş "Heydər Əliyev və Məhəmməd Füzuli" adlı kitabın 02 oktyabr 2024-cü il tarixində X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində keçirilmiş təqdimatı mərasimində məruzə ilə çıxış etmişdir.

AMEA-nın elmi müəssisələri tərəfindən UNESCO-nun "Üzv dövlətlərin fəaliyyəti ilə bağlı iştirak" proqramına AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və AMEA Rəyasət Heyəti Aparatı tərəfindən 2 layihə təklifi təqdim edilmişdir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən "UNESCO Dünya Yaddaşı Proqramının təhlükə altında olan sənədli irsin qorunması təşəbbüsü" proqramı üçün 1 layihə təklifi hazırlanmışdır. UNESCO-nun Dünya Yaddaşının Beynəlxalq Reyestrinə, həmçinin 2026-2027-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilməsi üçün nominasiya faylları hazırlanmışdır. AMEA-nın Folklor İnstitutu tərəfindən "Aşıq Şəmşir" Xalq musiqisi irsi və hekayəçilik ənənələri kafedrası üzrə fəaliyyət davam etdirilmişdir. Həmçinin, AMEA tərəfindən UNESCO-nun Şarja mükafatına AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi işçisi Zərnaz İmanzadənin və Jikji Dünya Yaddaşı mükafatına AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun namizədliyi verilmişdir. AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunda Beynəlxalq Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru ilə görüş və müzakirə təşkil edilmişdir.

AMEA Rəyasət Heyəti Aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və Respublika Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 26 sentyabr 2024-cü il tarixində ADA

Universitetində təşkil edilən NATO Sülh və Təhlükəsizlik naminə Elm proqramı üzrə məlumatlandırma günündə iştirak etmişlər. Tədbirdə AMEA Rəyasət Heyəti Aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri məruzə ilə çıxış etmişdir. AMEA-nın nümayəndə heyəti, həmçinin 28 oktyabr 2024-cü il tarixində Azərbaycanın NATO ilə tərəfdaşlığı çərçivəsində enerji təhlükəsizliyi və iqlim dəyişikliyi üzrə Dəyirmi Masa və 26 noyabr 2024-cü il tarixində Azərbaycanın NATO-nun Sülh naminə Tərəfdaşlıq Proqramı Çərçivə Sənədinə qoşulmasının 30 illiyinə həsr olunmuş elmi-praktiki konfransda iştirak etmişlər.

Ümumiyyətlə, Azərbaycan alimləri yeniləşmə prosesi çərçivəsində beynəlxalq miqyasda fəallıqlarını artırmışlar. Məsələn, Avropa Komissiyasının COST proqramı üzrə 30-dan çox, Mari-Küri Proqramı, Tədqiqat və İnnovasiya üzrə 5 layihə çərçivəsində fəaliyyət göstərmişlər. Gənc tədqiqatçıların beynəlxalq aləmə inteqrasiyasının təmin edilməsi istiqamətində konkret addımlar atılmışdır.

Etiraf edək ki, AMEA rəhbərliyi qısa müddətdə beynəlxalq əməkdaşlıq istiqamətində kifayət qədər çox işlər görmüşdür. Onların hər birinin özəl məzmunu vardır. Həm əməkdaşlıq yaradılan ölkələrin sayı xeyli dərəcədədir, həm də sosial, ictimai və humanitar elmlər üzrə qarşılıqlı əlaqələrin çeşidi zəngindir. Bu müxtəlifliyi birləşdirən ümumi məqamlar da mövcuddur. Onların bir qismi üzərində dayanmışıq və burada bir qədər başqa prizmada məsələyə baxmaq istərdik.

Hər şeydən öncə, AMEA yeniləşmə prosesi kontekstində beynəlxalq əməkdaşlıqda türk dövlətləri ilə əlaqələrə üç aspektdə önəm verməyə başlamışdır. Birincisi, bu prosesin bütün türk coğrafiyasını əhatə etməsi əlaməti özünü göstərməkdədir. Bura müstəqil türk dövlətləri ilə yanaşı avtonomluğu olan türk respublikaları da daxildir. Əsas məqsəd ortaq etnik-milli mədəniyyəti daha dərindən və kollektiv yaradıcı qruplar vasitəsi ilə araşdırmaqdan ibarətdir. Bu prosesin bütövlükdə Avrasiyada inteqrasiyaya yeni təkan verəcəyinə şübhə yoxdur.

Lakin AMEA-nın əsas əməkdaşlıq özəlliyi müstəqil türk dövlətləri ilə elmin bütün sferaları ilə əlaqələri inkişaf etdirməkdən ibarətdir. Yeri gəlmişkən, Nobel mükafatı laureatı Aziz Sancar də AMEA Rəyasət Heyətində çıxışı zamanı türk dövlətlərinin elm sahəsində hansı səbəblərdən inkişaf etmiş digər dövlətlərdən hələlik geridə qalmasının səbəblərini araşdırmağı tövsiyə etmişdir.

Nobel mükafatçısının əsas arqumenti ondan ibarətdir ki, elm üzrə inteqrasiya, əməkdaşlıq, ortaq fəaliyyət müasir elmi idrakın inkişaf xüsusiyyətlərinə tam uyğundur və bu mənada həmin imkandan lazımi səviyyədə yararlanmayanda geniş bir məkanda mədəni inkişaf axsaya bilir. Bu baxımdan türklər elmi əməkdaşlığın elə optimal modellərini tapmalıdırlar ki, bütövlükdə bəşəriyyətə fayda verəcək inkişaf kursunu müəyyənləşdirmək mümkün olsun.

Düşünürük ki, məhz bu aspektdə AMEA-nın yeniləşmə kursu həm də bəşəri miqyasda sivilizasiyanı inkişaf etdirməyə, cəmiyyətlərin elmi əsasda tərəqqisini təmin etməyə ciddi töhfələr verməkdədir. Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin elmi qurumları ilə əlaqələr genişləndikcə və dərinləşdikcə vurğulanan özəllik daha aydın görünəcəkdir.

AMEA-nın beynəlxalq elmi əməkdaşlıq istiqamətində yeniləşməsinin başqa bir əhəmiyyətli cəhəti Türk Dünyası coğrafiyasını aşaraq, bütövlükdə fərqli coğrafiyalarda yerləşən, lakin elmi nailiyyətləri olan ölkələrlə əlaqələri gücləndirməklə bağlıdır. Burada biz Avropa, Amerika, Latın Amerikası, Uzaq Şərq, bütövlükdə Asiya, Yaxın Şərq istiqamətlərini görürük. AMEA həm də Cənubi Qafqaz ölkələri arasında elmi əməkdaşlığa ayrıca önəm verir. Hələlik Ermənistanla bağlı bunu demək çətindir, lakin Gürcüstan elmi qurumları ilə əməkdaşlıqda inkişaf gözə dəyir.

Belə alınır ki, AMEA beynəlxalq əməkdaşlıq istiqamətində konkret məqsədli və ardıcıl reallaşan xətt seçmişdir. Bütün hallarda beynəlxalq əməkdaşlıq Azərbaycanın strateji inkişaf kursuna, müstəqil dövlətçiliyin, azərbaycançılığın möhkəmlənmə-

sinə xidmət edir. Burada AMEA-nın qarşısına yeniləşmə prosesi kontekstində çox aktual və maraqlı bir vəzifə də çıxır – azərbaycançılığın müddəalarını regional və qlobal miqyasa proyeksiya etmək!

Burada “proyeksiya” dedikdə dünyaya azərbaycançı ruhda, milli dəyərlərə tam sadiq, lakin həm də bəşəri ruhlu, ən müasir biliklərə yiyələnmiş, mütərəqqi düşüncəli kadrların hazırlanması nəzərdə tutulur. Bu zərurət bütövlükdə müasir elmi epistemologiyanın tələblərindən irəli gəlir. Belə ki, indi filosoflar və müxtəlif epistemoloji məsələlərlə məşğul olan alimlər alimin sosial və mədəni mentaliteti və ya identikliyi ilə “elmi və yaradıcılıq mentaliteti” və ya identikliyi arasında sıx bağlantı olduğunu təhlil edirlər.

Bu yanaşma daha geniş aspektdə, ümumiyyətlə, insan və onun yaradıcılıq özəlliklərinə sırf idraki (koqnitiv) aspektlə sosial-mədəni və texniki sferanın qarşılıqlı əlaqəsində araşdırma istiqamətinin (məsələn, “sosial epistemologiya”, “genişlənmiş idrak epistemologiyası”, “paylanmış idrak epistemologiyası”, “epistemoloji randoma”, “post-normal elmi epistemologiya”, “relyativist epistemologiya”, “mürəkkəblik epistemologiyası”, “böyük antropoloji keçid epistemologiyası” və s.) üstünlük təşkil etməsi ilə bağlıdır.

Bütün bu istiqamətlərin ortaq mövqeyi ondan ibarətdir ki, yaradıcı adamın özü, mənsub olduğu mədəniyyəti haqqında təsəvvürləri və yaşadığı sosial-mədəni mühitin xüsusiyyətləri, ümumiyyətlə, onun elmi fəaliyyətinə və onun nəticələrinə birbaşa təsir edir.

Pol Feyerabend hətta bu kontekstdə qədim yunan yaradıcı insanlarının, o cümlədən, Homer və Platonun insanın yaradıcılığına yanaşmasını və F.V.Humboltun ideal universitet konsepsiyasını tənqid edir. P.Feyerabend yaradıcı insanın formalaşmasını P.Burdyenin “habitus” – insanın başlıca inkişaf istiqaməti, anlayışı ilə izah edir.

Qədim filosofların yanlışlığı, P.Feyerabendə görə, insan yaradıcılığının formalaşmasında başlıca istiqamətin idraki ilə sosi-

al-mədəni və texniki aspektlərin vəhdətini görə bilməmələri ilə əlaqəlidir. Buna görə də Homerin yaradıcı insanı "tərkib hissələri zəif əlaqədə olan "ötürücü stansiyaya" bənzəyir. Bütün bunların əsasında P.Feyerabend və həmin mövqenin tərəfdarları belə nəticə çıxarırlar ki, yaradıcı insanın daxili psixoloji, iradi, mənəvi-əxlaqi, emosional və mental özəllikləri yaradıcılığın məzmun və mahiyyətinə təsir edir. Qısa desək, yaradıcılıq hər bir halda son nəticədə insanın özü ilə mənsub olduğu mühitin vəhdətini "ifadə edir"[187].

Burada daha dərin detallara varmaq imkanı olmadığından qısa ümumiləşdirmə edək. Müasir epistemoloji təsəvvürlərdən görünür ki, yaradıcı insan, alim özündə şəxsi, fərdi, etnik, milli, mədəni-əxlaqi, iradi, psixoloji, ideoloji faktorları sintez edən bütöv şəxsiyyət kimi formalaşan varlıq olaraq, koqnitiv və sosial-mədəni-texniki şərtlərin qarşılıqlı təsiri sahəsində elmi fəaliyyət göstərir.

Bu bağlılıqda biz məsələni azərbacançılıq kontekstində qoya bilərik. Beynəlxalq əməkdaşlıqda azərbaycançı "yaradıcı insan" obrazı bu prizmada dövlətçilik aspektində çox aktual təsir bağışlayır. Və həmin tezisin işığında akademik İsa Həbibbəylinin müasir mərhələdə ədəbiyyatın dövrləşdirilməsi məsələsini azərbaycançılıq kontekstində götürməsinin çox səmərəli olduğu qənaətinə gələ bilərik. Daha doğrusu, həmin tezisin irəli sürülməsinin əsaslı, müasir və dərin səbəbləri mövcuddur!

Bundan başqa, həmin tezisin məzmun, mahiyyət və məqsədində AMEA-nın yeniləşməsi prizmasında yaradıcılıqda və elmi fəaliyyətin təşkilində elmiliklə beynəlxalq əməkdaşlığın azərbaycançılıq aspektində vəhdətinin mümkünlüyünün cizgilərini görürük! Deməli, azərbaycançılığın vurğulanan bağlılıqda daha geniş araşdırılması vacibliyini dərk etməyimiz bir zərurətdir!

[187]Фейерабенд, П. Прощай, разум. М.: Астрель, - 2010, - 477 с.; Касавин, И.Т. Научное творчество как социальный феномен // Эпистемология и философия науки. – 2022, т. 59, № 3, - с. 19-29.

Alınan qənaətdən avtomatik olaraq yeniləşmə prosesində türk dövlətləri ilə elmi əlaqələrin inkişafının əhəmiyyəti alınır. Bu məsələ üzərində geniş dayanmağa ciddi ehtiyac vardır.

## 4.2. *Türk dövlətləri ilə elmi əlaqələrin inkişafının əhəmiyyəti*

Azərbaycan müstəqil dövlət və azad cəmiyyət kimi Cənubi Qafqazın digər dövlətlərindən bir sıra özəlliklərinə görə fərqlənir. Ölkəmizin hazırkı etnik-mədəni, siyasi, geosiyasi, tarixi, ideoloji və dövlətçilik kimliyində bu, öz əksini tapmışdır. Detallara varmadan mövzuya uyğun səviyyədə həmin fərqliliklər üzərində dayanaq.

Azərbaycan çox qədim tarixi olan və bir çox etnik mənsubların birgə yaşadığı sivil məkandır. Tarixin bütün dönəmlərində Azərbaycan etnik müxtəlifliyin sınaqlarından çıxmışdır. Onun bu nailiyyətində Azərbaycanın əsas etnik kimliyi olan türklük aparıcı və həlledici rol oynamışdır. Türk etnosu Azərbaycanın siyasi-coğrafi sərhədlərinin də daxil olduğu çox geniş coğrafiyada dövlətçilik, mədəniyyət, sosial-psixoloji, özünüyaratma, idarəetmə və kültürlərarası kommunikabellik istiqamətlərində çox ciddi ənənə yaratmışdır. Bu keyfiyyətdə türklük, türk mədəniyyəti və dövlətçiliyi bəşəri miqyasda rolu və təsiri olan fenomendir.

Həmin səbəblərdən türklüyü yalnız etnik mənsubluqla izah etmək real vəziyyəti adekvat ifadə etmir. Çünki tarixən dövlətçiliyi, sivil özəllikləri, birgəyaşayışın geniş coğrafiyada nümunəsini və kültürlərarası ünsiyyətin seçilən kommunikabelliyini daşıyan etnosun kimliyi yalnız etnik faktora sığmaz. Türklər üçün türklük etnik mənsubluq qədər mədəniyyət, dövlət, kültür kommunikabelliyi, birgəyaşayış xüsusiyyətləri, özünə və özgəsinə münasibətlərin kompleksi kimi, milli ilə bəşəriliyin vəhdəti formasında dərk edilməli olan fenomendir.

Bundan başqa, tarixin hökmü ilə türk tayfaları və sonrakı özünüyaratma mərhələsində xalqları fərqli siyasi, geosiyasi,

ideoloji, coğrafi və kültür mühitlərində təkamül etməli olmuşlar. Bu da türk etnosunun aparıcı olduğu toplumlarda həm fərdi səviyyədə insanların sosial-psixoloji keyfiyyətlərinin formalaşmasına, həm də dövlətçilik miqyasında özünəxas incə məqamların meydana gəlməsinə səbəb olmuşdur. Bu müxtəliflik vəhdət halında özünü yenidən təsdiq etsə, dünya növbəti dəfə "türk möcüzəsi"nin şahidi olacaqdır. Dünyaya ədalət, özəl kültür, təkrarolunmaz sivil xüsusiyyətlər, barış və sülh nümunələri, inkişaf yolları verə biləcək müxtəlifliyin vəhdətini bəxş edəcəkdir. İndi bu proses gedir və onun önündə həmişə özünəməxsus incəlikləri ilə fərqlənən Azərbaycan toplumu gedir.

Azərbaycan cəmiyyət və sivil məkan olaraq tarixən bu regionda barış, sülh, əməkdaşlıq və müxtəlifliyin vəhdəti kimi seçilmişdir. Buna görə də indiki mərhələdə də bu görəv azərbaycanlıların üzərinə düşür. Deməli, biz müstəqil dövlətçiliyimizi yalnız Azərbaycan Respublikasının indiki siyasi-coğrafi sərhədləri daxilində əhəmiyyəti olan hadisə kimi təsəvvür etməməliyik. Bu dövlətin və cəmiyyətin üzərinə Cənubi Qafqazın bütün ağrılarını, çətinliklərini çəkmək, problemlərini daşımaq və xilas yolları axtarmaq kimi tarixi məsuliyyət düşür. Müstəqil Azərbaycan Respublikası həmin məsuliyyətin şərəfli təcəssümü və onu reallaşdıran tarixi-siyasi kimliyidir. Mübaliğəsiz belədir və biz bu reallığın gözünə düz, başıuca baxmalıyıq.

"Bir millət, iki dövlət" kəlamı həmin reallığın dahiyanə və çox mənalı ifadə edilmiş manifestidir. Türk dövlətləri, xalqları, cəmiyyətləri ilə yanaşı, geniş bir coğrafiyada ölkələrin birgəyaşayış nümunəsinin ən müasir və sivil formasını öz geniş mənasında ehtiva edən strateji tezisdir! "Bir millət, iki dövlət" bu baxımdan Avrasiya cəmiyyətlərinə indiki tarixi mərhələdə qonşuluğun, dövlətçiliyin, dinc birgəyaşayışın, bir-birinin müstəqilliyi, azadlığı və suverenliyinə sayğının əbədiyaşar rəmzidir!

Anlamaq gərəkdir ki, söhbət ancaq iki qardaş türk xalqlarından getmir, burada Ulu Öndər, ümumiyyətlə, müasir dünyada birgə dinc yaşamanın, birgə müstəqil dövlət olmanın və elmdə

deyildiyi kimi, “inkişaf”ın fəlsəfəsini aktuallaşdırmışdır! Bu XXI əsr üçün Azərbaycan türk nümunəsidir!

Əlbəttə, Azərbaycanın üzərinə düşən bu miqyasda şərəfli və məsuliyyətli tarixi-siyasi-geosiyasi-mədəni vəzifənin öhdəsindən gəlməsi üçün ilk növbədə coğrafi olaraq həmsərhəd olduğu türk dövlətləri və sərhədsiz tarixi, mənəvi, mədəni, sivil, birgəyaşayış prinsiplərinin ortaq olduğu türk xalqları ilə münasibətləri XXI əsrin reallıqlarının şərtlərinə uyğun münasibət qurması təbii və zəruridir. Türk dövlətləri və xalqları öz aralarında münasibətlərin bütün çeşidləri ilə bəşərilik, suverenlik, sivillik, davamlı tərəqqi nümunələri olmasalar, üzərlərinə düşən şərəfli və məsuliyyətli tarixi vəzifənin öhdəsindən gələ bilməzlər. Türklərin uğurlu olduğu bütün geosiyasi məkanda digər hər bir xalq və etnik qrup da ədalət, sülh və inkişaf içində yaşayacaqlar!

Bəs XXI əsrdə cəmiyyətlərin özünü formalaşdırması və birgə sivil təkamülündə aparıcı faktor kimi indi filosoflar, siyasətçilər və konkret elm sahələrinin insanları nəyi qəbul edirlər? Bu sualın cavabını hər kəs bilir: ELM! Bu həqiqətin digər məna çaları ilə yanaşı, müstəqil dövlətin strateji inkişaf kursu çərçivəsində əsl mənası türk dövlətlərinin tərəqqisi məsələsinin tamamilə elmi “relsdə” olması zəruriliyini dərk etmək şərti ilə bağlı olduğunu qəbul etməklə əlaqəlidir. O cümlədən, hər bir türk dövlətinin strateji inkişaf kursunda elmi faktor aparıcı yerdə olmalıdır. Bu, həm dövlətin özünün daxili inkişafı, həm də türk dövlətləri və cəmiyyətləri arasında münasibətlərin “ana sütununu” təşkil etməlidir.

AMEA-nın yeniləşmə kursunda elm faktorunun hansı səbəblərdən türk dövlətləri ilə münasibətlər kontekstində çox ciddi yer tutması səbəbləri, bizcə, aydındır. Məsələnin məğzi ondan ibarətdir ki, AMEA rəhbərliyi bu incə məqamı tamamilə elmi çərçivədə dərk edərək, səmərəli addımlarla həyata keçirməkdədir. Azərbaycanın ali elmi təşkilatı həmin prosesi tamamilə ölkənin strateji inkişaf kursu çərçivəsində aparır. Biz bu kitabın müxtəlif yerlərində AMEA-nın digər türk dövlətlərinin müxtəlif elmi qurumları ilə qurduğu əməkdaşlıqdan geniş bəhs etmişik.

Burada onlara bir neçə faktı nümunə gətirməklə ümumi bir baxış formalaşdırmalıyıq.

AMEA prezidenti, akademik İsa Həbibbəyli təşkilatın fəaliyyətinin əsas prioritetləri sırasında 2-ci yerə türk dünyası ilə elmi əlaqələrin inkişafı istiqamətini yerləşdirmişdir. Orada yazılır: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində türk dünyası ilə əlaqələri ölkəmizin ən mühüm prioritetlərindən biri kimi müəyyən etməsi Akademiyada da türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini tələb edir"[188].

Bu prioritet istiqamət üzrə AMEA-nın fəaliyyəti sistemli və ardıcıl xarakter almışdır. Həmin əlamət AMEA Rəyasət Heyətinin müxtəlif sənədlərində, Hesabat Qərarlarında və konkret əməli fəaliyyətdə əksini tapmışdır. AMEA prezidenti akademik İsa Həbibbəyli bu istiqamətdə təşkilatın fəaliyyətinin təməl şərtlərini aşağıdakı kimi izah etmişdir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 fevral 2023-cü il tarixində Andiçmə mərasimindəki nitqində türk dünyası ilə əlaqələrin genişləndirilməsini ölkəmizin prioritet istiqamətlərindən biri hesab etmişdir. Qeyd etməliyəm ki, türk dünyası ilə elmi-ədəbi və mədəni inteqrasiya baxımından ölkəmizin elm və ali təhsil müəssisələrində, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında artıq formalaşmış bir ənənə mövcuddur. Azərbaycan Milli Elmlər Akademiyası və elmi-tədqiqat institutlarının demək olar ki, hamısı türk dünyasının elmi qurumları ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilələr imzalamış, dəfələrlə birgə elmi konfranslar keçirmiş, kitablar və məqalələr çap etdirmişlər"[189].

AMEA prezidenti konkret faktlar da göstərmişdir. Məsələn, "Hazırda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda, Ziya Bünya-

---

[188]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s 10.

[189]Yenə orada, s. 8

dov adına Şərqşünaslıq İnstitutunda türk dünyası ilə əlaqələri araşdırıb öyrənən elmi-tədqiqat şöbələri fəaliyyətlərini davam etdirirlər".

Onu da vurğulamaq gərəkdir ki, "son illərdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ictimai əsaslarla fəaliyyət göstərən Əlişir Nəvai, Mehmet Akif Ersoy Mərkəzləri yaradılmışdır. İnstitutda Məhtimqulu Fəraqi Mərkəzinin yaradılması üçün hazırlıq işləri aparılır. Bununla belə, türk dünyası ilə əlaqələrin sistemli və davamlı şəkildə təşkil edilməsi, konkret əməli nəticəsi olan ortaq layihələrin icra edilməsi, qarşılıqlı təcrübələrin təşkili, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması və s. baxımdan qarşıda daha məsul vəzifələr dayanır"[190].

Baxdığımız kontekstdə AMEA Rəyasət Heyətinin 29 fevral 2024-cü il Ümumi yığıncağının Qərarından bir bənd (5.2.12.-ci bənd) əhəmiyyətlidir. Orada vurğulanır: "Beynəlxalq əlaqələrin inkişafı istiqamətində islahatlar çərçivəsində AMEA-nın elmi müəssisələri ilə Beynəlxalq Türk Akademiyası, Türkiyə Elmlər Akademiyası, Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu, TÜBİTAK və Orta Asiya Respublikalarının Elmlər Akademiyaları arasında elmi əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqatların, digər elmi və elmi-təşkilati tədbirlərin həyata keçirilməsi davam etdirilsin"[191].

Fəaliyyətdə də Türkiyə və Orta Asiya Respublikaları (yəni faktiki olaraq, Türk dövlətləri) ilə əlaqələr intensiv surətdə inkişaf etdirilir. Bura həmin istiqamətdə həyata keçirilmiş və keçirilməsi nəzərdə tutulan və bu kitabda qeyd edilən bütün faktlar daxildir.

Onların sırasında Daşkənd şəhərində Özbəkistan Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yubiley tədbirlərində AMEA-nın prezidentinin iştirakı və çıxışını, Türkiyədə akademik İsa Həbibbəylinin Türkiyə Elmlər Akademiyasının (TÜBA)

---

[190]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 8

[191]Yenə orada, s. 106.

prezidenti, professor doktor Müzəffər Şəkərlə görüşünü, Ankara şəhərində Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun rəhbəri, professor Yüksel Ozgenlə görüşü, AMEA ilə Qazaxıstan Elmlər Akademiyası və Türkmənistan Elmlər Akademiyası ilə görüşlərin keçirilməsini, Türkmənistan Elmlər Akademiyası prezidenti Allahverdi Aşirovun Azərbaycanda görüşlər keçirməsini və AMEA prezidentinin Türkmənistan Elmlər Akademiyasında keçirilən "Elm, Texnika və İnnovativ texnologiya müasir inkişaf mərhələsində" adlı beynəlxalq elmi konfransda "Azərbaycan-Türkmənistan əlaqələrinin inkişaf mərhələləri və müasir proseslər" mövzusunda elmi məruzə ilə çıxış etməsini və digər çoxlu sayda faktları vurğulaya bilərik[192].

Bu cür qarşılıqlı səfərlər və aparılan müzakirələrdə əsas mövzu əlaqələrin elmin bütün sahələri üzrə daha da inkişaf etdirilməsindən ibarət olur. Əminliklə demək olar ki, bu aspektdə AMEA rəhbərliyi yeniləşmə prosesində Türk dünyası ilə əlaqələrin inkişafına ciddi yer verir və onu ölkənin strateji inkişaf kursuna uyğun olan müasir əlaqələr formasında həyata keçirir. Bura bir neçə elmi aspekt daxildir.

Öncə, təşkilat olaraq türk dövlətlərinin elmi qurumları arasında əməkdaşlığın ümumi maraqlara xidmət edən miqyas və məzmunda təşkili əhəmiyyətlidir. Əlbəttə, burada Orta Asiya dövlətləri ilə sovet dönəmində toplanmış təcrübə mövcuddur. Onu kənara qoymaq düzgün olmazdı. Eyni zamanda, indiki müstəqillik mərhələsində türk dövlətlərinin öz maraqları ilə ümumtürk məkanında ortaya çıxan elmi-mədəni maraqların uzlaşdırılması vacibdir. AMEA bu məqamı əsaslı şəkildə nəzərə alır və münasibətləri ona uyğun inkişaf etdirir.

AMEA-nın Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan elmi qurumları ilə əldə etdiyi əməkdaşlıq razılaşmalarından həmin faktor ana xətt kimi keçməkdədir. Məsələn,

---

[192]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 30.

TÜBİTAK, TÜBA, Qazaxıstan Elmlər Akademiyası, Özbəkistan Elmlər Akademiyası, Türkmənistan Elmlər Akademiyası və Qırğızıstan Elmlər Akademiyası ilə əlaqələrdə qarşılıqlı elmi maraq doğuran məsələlər ortaq dəyər kimi müzakirə edilir.

Nümunə üçün Türkiyə Elmlər Akademiyası (TÜBA), Türkmənistan Elmlər Akademiyası və ya Özbəkistan Elmlər Akademiyası ilə birgə təşkil edilən tədbirləri göstərə bilərik. Bu tədbirlərdə Yunus Əmrə, Məhtimqulu Fəraqi, Əlişir Nəvai, Nizami, Füzuli, Nəsimi və digər ədəbi-tarixi şəxsiyyətlər türk mədəniyyətinin ortaq nümunələri kimi müzakirə edilir. Onların fəlsəfi, elmi, tarixi, filoloji, kulturoloji və s. aspektlərdə də tədqiqində ortaq mədəni məxsusluğun yeni səviyyədə vurğulanmasına diqqət yetirilir.

Bu proses təbii ki, ən azı iki funksiyanı yerinə yetirir: birincisi, türk dövlətlərinin elmi qurumlarını yaradıcılıq istiqamətində vahid məqsədə fokuslandırır, ikincisi, indiyə qədər arxa plana atdırılmış ortaq türk mədəniyyəti və elminin "qaranlıq səhifələri"nə birgə işıq salmağa imkan verir. Müasir mərhələdə toplumları birləşdirən əsas gücün elm və mədəniyyət olduğunu nəzərə alsaq, bunun nə dərəcədə inteqrəedici əhəmiyyət daşıdığına bir daha əmin olarıq. Bu prosesin təşəbbüskarının AMEA olması ayrıca tarixi faktdır. Azərbaycanın baş elmi təşkilatı sözün həqiqi mənasında türk dövlətləri elmini birləşdirir. Buradan prosesin təşkilati səviyyədə aparılmasının önəminin fəlsəfi və elmi aktuallığı alınır.

Məsələ ondan ibarətdir ki, AMEA rəhbərliyi ilk növbədə təşkilat səviyyəsində türk dövlətlərinin elmi qurumları ilə əlaqələri qurmağın əhəmiyyətini dövlətin strateji inkişaf kursunun hədəfləri prizmasında həyata keçirir. Burada isə XXI əsrin tələblərinə uyğun mükəmməl təşkilatlanmış formada əməkdaşlığı sistemli, məqsədyönlü və geridönməz formada aparmaq mühüm şərtdir.

Tarix türk cəmiyyətlərinə sübut etdi ki, daxili istək, şəxsi təşəbbüslər və fraqmentar (parlaq da olsa) əlaqələr qalıcı deyildir, ondan bütövlükdə dövlət və cəmiyyət fayda əldə edə bilmir. Kə-

nardan olan hər hansı pozucu dalğa asanlıqla sıraları pozur, türkləri hədəflərindən yayındırır. Bu kimi yayındırıcı təsirlərdən qorunmaq üçün məsələləri kökündən, fundamental, yəni konkret sənədlər, proqramlar və hüquqi mexanizmlər əsasında həll etmək gərəkdir. AMEA rəhbərliyi məhz bu əməkdaşlıq modelini seçməklə türk dünyasına və bütövlükdə mütərəqqi bəşəriyyətə tarixi xidmət etmiş olur. Nümunə kimi bir neçə məqama diqqət edə bilərik.

Məlumdur ki, AMEA Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) və onun Milli Akademik Şəbəkə və İnformasiya Mərkəzi (ULAKBİM) ilə müxtəlif aspektlərdə ciddi əməkdaşlıq sistemi yaratmışdır. Bura ortaq maraq kəsb edən müxtəlif aktual elmi problemlərin birgə müzakirəsi ilə yanaşı, alimlərin elmi yaradıcılıq məhsullarının dünya miqyasına elektron çıxışının əldə edilməsi, elmi jurnalların nüfuzlu indeksli bazalara daxil edilməsi, Azərbaycan alimlərinin məqalələrinin yüksək indeksli jurnallarda dərc edilməsi və s. kimi məsələlər də daxildir. Təsəvvür edin ki, AMEA-nın bu təşəbbüsü bütün türk dünyasında elmi əməkdaşlığı həm sistem səviyyəsinə yüksəldir, həm də türk yaradıcı insanlarını vahid qiymətləndirmə şəbəkəsində birləşdirir. Təşkilati və hüquqi müstəvidə əldə edilən bu uğur türk dünyası ilə yanaşı, bəşəriyyətə çox ciddi töhfədir. Bunun fəlsəfəsi, bizcə, gün kimi aydındır.

Məsələ onunla bağlıdır ki, elmi proqnozlara görə, dünya strateji olaraq inteqrasiyaya doğru gedir. Müəyyən bir tarixi zaman göstərilir ki, ondan sonra bəşəriyyət keyfiyyətcə yeni səviyyəyə keçid edəcəkdir (buna elmdə "sinqulyar keçid" deyilər). Əsas qayğı da dünyanın sinqulyar nöqtəyə maksimum zərərsiz yaxınlaşmasının təmini və keçiddən sonra bütöv, vahid özünüyaradan sistem kimi varlığına davam etməsidir. Bu problemi necə həll etmək olar?

Məhz bu məqamda elm, fəlsəfə, humanitarlıq, konstruktiv əməkdaşlıq və kommunikativ açıqlıq kimi məsələlər ön sıraya çıxır. Süni intellektdən, ən müasir informasiya-kommunikasiya

texnologiyalarından, insan zəkasının potensialından maksimum yararlanmaq kimi müsbət vəzifələr aktuallaşır.

Bu, başqa məqamlarla yanaşı, o deməkdir ki, indi regionların sistemi kimi təsəvvür edilən (geosiyasi, geomədəni və geoiqtisadi aspektlərin sistemi olaraq) dünyada elmin həqiqi həlledici yeri və rolu təmin edilməlidir. Tarixən Avrasiyanın əsas mədəni, dövləti və coğrafi məkan statusu etiraf edilən türk dünyası, bu baxımdan bütün bəşəriyyət üçün aktual faktorlardan biridir. Buna görə də AMEA geniş bir türk coğrafiyasında bütövlükdə dövləti və toplumsal tərəqqini sırf elmi bünövrəyə, elmi təşkilatlanmaya və humanitarlığa (AMEA-nın bütün ortaq elmi proqramları və layihələri mahiyyətcə humanitar xarakterlidir) cəlb edirsə, böyük addımdır, tarixi nailiyyətdir. Əlbəttə, AMEA rəhbərliyi tam olaraq dərk edir ki, bu fəaliyyətin təməli, stimulverici gücü, reallaşma mexanizminin mahiyyəti və strateji məqsədi Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursundan qaynaqlanır. Bununla Azərbaycan Respublikasınn inkişafı vahid sistemdə təzahür edir, dəqiq fokuslanmış proses xarakteri alır!

Beləliklə, AMEA-nın yeniləşməsi prosesi faktiki olaraq milli miqyasdan türk dövlətləri miqyasına uğurla proyeksiya etmiş olur. İndidən aydın görünür ki, AMEA əməkdaşlığın təşkilati aspekti ilə alimlərin yaradıcılığını uyğunlaşdıra bilir. Burada yaradıcılıq kontekstində iki xüsusiyyətin sintezini görürük. Birincisi, fərdi səviyyədə alimlərin elmi yaradıcılığının stimullaşdırılmasının təmini. İkincisi, kollektiv yaradıcı komandaların yaradılması təcrübəsi istiqamətində ilk addımların atılması.

Fərdi səviyyədə yaradıcılığın stimullaşdırılması baxımından müxtəlif indeksli jurnallarda alimlərin əsərlərinin nəşri və onlara istinadların diqqətə alınması əhəmiyyət daşıyır. Burada müxtəlif elmmetrik qiymətləndirmə də ayrıca rol oynayır. Məsələn, h-indeksi üzrə müqayisə tez-tez AMEA-da yaradıcılıq aspektində dilə gətirilir. Biz yuxarıda vurğulamışıq ki, real olaraq heç bir elmmetrik qiymətləndirmə alimin kreativliyini tam ifadə edə bilmir. Lakin ümumi müqayisə aparmaq və yaradıcılığı stimullaşdırmaq baxımından elmmetrik qiymətləndirmə vacibdir. Bundan başqa,

bu cür çıxışlar dünya miqyasında yaradıcı adamların ünsiyyəti, təcrübə mübadiləsi və ortaq yaradıcı komanda yaratmaq imkanlarının genişlənməsi aspektində olduqca əhəmiyyətlidir.

Kollektiv yaradıcı vahid komandanın yaradılması da çox əhəmiyyətli məsələdir. Bu, təşkilati səviyyədə uğurlu əməkdaşlığın ən parlaq göstəricisi ola bilər. Çünki kollektiv vahid yaradıcı komanda faktiki olaraq bir neçə pozitiv, faydalı funksiyanı yerinə yetirə bilər. Bir neçə türk dövlətinin yaradıcı insanlarının eyni problem üzrə əməkdaşlığı və hətta canlı olaraq (və ya elektron laboratoriya, virtual laboratoriya) formasında ünsiyyəti çoxlu sayda faktorları birləşdirir.

Alimlər psixoloji, mənəvi, əxlaqi, mental, etnik, sosial, kulturoloji və sırf idraki aspektlərin konkret sosial-mədəni şərtlər (iş yeri, oradakı psixoloji mühit, texniki təchizat və s.) daxilində qarşılıqlı əlaqəsinin optimal formasını tapırlar. Vahid yaradıcı komandada kollektivçilik əhval-ruhiyyəsi yekunda türk alimlərin ümumi fəaliyyət motivasiyasına müsbət təsir edir. Eyni zamanda, onların bəşəri miqyasda faydalı olmaq təsəvvürlərini yeniləşdirir, konkret istiqamətə yönəldir.

Vurğulanan baxımdan türk dövlətlərinin elmi əməkdaşlığında təşkilati miqyasda ayrıca elmi fəaliyyətin təşkilinin xüsusi yer tutduğu aydın olur. Elmi fəaliyyətin dövlətlərarası məkanda təşkili özlüyündə asan məsələ deyildir. Bunun üçün həm təcrübə gərəkdir, həm də çox müxtəlif üsullardan istifadə lazımdır. Müasir mərhələdə bu aspektdə elektronlaşma və rəqəmsallaşmanın imkanlarından istifadə çox əhəmiyyətlidir.

Buna görə də AMEA rəhbərliyinin yeniləşmədə "Elektron Akademiya", "Elektron Kitabxana" və elmi-tədqiqat institutlarında elektron xidmət istiqamətlərinə ayrıca önəm verməsi vacib məqamdır. Bu üç mühüm struktur-funksional vahid AMEA-nın yeniləşmə ruhunun türk dünyası miqyasına proyeksiyasında xüsusi rol oynayırlar. Elmi-tədqiqat institutlarında elektron xidmətin təşkili yaradıcılığın məqsədyönlü çeşidlənməsi, sistemləşdirilməsi, ümumi qiymətləndirilməsi və dövlətçiliyə fokuslandırılması üçün imkanlar yaradır.

"Elektron Kitabxana", obrazlı desək, AMEA-nın elmi-mədəni yaddaşının simvolu kimi əldə edilən nəticələrin ötürülməsi funksiyasını çevikləşdirir, sürətləndirir və onun əhatə dairəsini genişləndirir.

"Elektron Akademiya" isə AMEA-nın beynəlxalq elmi mühitə çıxışını təmin edir, onun yerini müəyyənləşdirir və statusunu yüksəltmək üçün kriteriyaları təhlil edir. "Elektron Akademiya" AMEA-nın yeniləşmə ab-havasını, konkret proqramlarını, yaradıcılıq aspektində özəlliklərini beynəlxalq miqyasa, o cümlədən, Türk dövlətləri səviyyəsinə çıxarılmasının əsas struktur-funksional vahidlərindən biridir.

AMEA-nın Türk dövlətlərinin elmi qurumları ilə əməkdaşlığı təşkilati miqyasda yeni məcraya yönəltməsinin başqa əhəmiyyətli tərəfi akademik İsa Həbibbəylinin müəyyən etdiyi prioritetlərdən birinin prizmasında da çox aktual təsir bağışlayır. AMEA-nın yaxın perspektivdə fəaliyyətinin 4-cü prioritet istiqaməti aşağıdakı kimi məzmunlaşdırılmışdır: "Geniş mənada dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək məqsədilə beynəlxalq elmi təşkilatların işində yaxından iştirak etmək, ölkəmizi yüksək səviyyədə təmsil etmək, dünya elminin ən yeni təcrübələrini Akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirmək lazımdır"[193].

Məntiqi olaraq buradan maraqlı bir sual meydana gəlir: Türk dövlətlərinin elmi qurumları ilə bütövlükdə dünya elminə inteqrasiya məsələsini prioritet istiqamətlər kontekstində uzlaşdırmaq mümkündürmü? Bunun faydası nələrdən ibarət ola bilər?

Aparılan təhlil göstərir ki, nəinki mümkündür, hətta strateji inkişaf kontekstində zəruridir və bunun bütövlükdə elmə faydaları çoxdur. Məsələ ondan ibarətdir ki, AMEA-nın təşkilati səviyyədə Türk dövlətlərinin elmi qurumları ilə əməkdaşlıq müstəvisində yaratdığı sistem ümumdünya elmi şəbəkəsinin ayrılmaz

---

[193]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024 s 10-11.

tərkib hissəsidir. Yəni AMEA-nın yeniləşmə kursunda elm bəşəri fenomen kimi qəbul edilir və eyni zamanda, onun inkişafında hər bir regionun, müstəqil dövlətin və dövlətlər qrupunun özəl funksiyası etiraf olunur. Nümunə üçün Avropa ölkələrinin alimlərini birləşdirən bir neçə elmi təşkilat mövcuddur. Onlar kollektiv yaradıcı komandalar formalaşdırır və müxtəlif istiqamətlərdə araşdırmalar aparırlar.

Bu baxımdan Avropa İttifaqının süni intellektin etikası ilə bağlı təşkilatdaxili normalar müəyyən etməsi faktdır. Və ya "Horizon 2020" layihəsi Qərb ölkələrinin müxtəlif istiqamətlərdə elmi tədqiqatlarını vahid komandada birləşdirmək kimi strateji məqsədə malikdir[194]. "Horizon 2020" proqramı Avropa İttifaqının elmi tədqiqatların və innovasiyaların inkişafı üzrə çərçivə sazişidir. Bu proqram 7 illik maliyyələşdirməni nəzərdə tuturdu. Onun həcmi 80 milyard avro idi ki, Aİ tarixində ən böyük çərçivə saziçi kimi qiymətləndirilir. Onu da vurğulamaq lazımdır ki, "Horizon 2020" çərçivə sazişi Aİ-nin "Lissabon strategiyası" adlanan inkişaf konsepsiyası çərçivəsində hazırlanmışdır. Yəni bu elmi-tədqiqat istiqaməti birbaşa Aİ-nin inkişaf strategiyası ilə bağlıdır.

Başqa maraqlı məqam sənəddə "Avropa elmi (və ya tədqiqat) məkanı" (European Research Area, ERA)[195] anlayışının yer alması ilə əlaqəlidir. Bu anlayış Avropa İttifaqı məkanında elmi resursların inteqrasiyasının elmi-tədqiqat proqramlarının sistemini ifadə edir.

Bunlardan aydın olur ki, Avropa üçün ayrıca (şərti də olsa) ümumi elmi məkan mövcuddur. Bu tərkibdə xüsusi elmi-tədqiqat

---

[194]Grove, J. 'Triple miracle' sees huge rise in EU funds for frontier research: [Electronik resource] // Times Higher Education (28 июля 2011). URL: https://www.timeshighereducation.com/news/triple-miracle-sees-huge-rise-in-eu-funds-for-frontier-research/416952.articleMüraciət tarixi 11. 08.2024.
[195] European Research Area: [Electronik resource] // European Komission, - 2024. URL: https://european-research-area.ec.europa.eu. Müraciət tarixi 11. 08.2024.

sistemi vardır və həmin sistem elmi resursların inteqrasiyası naminə elmi-tədqiqat proqramlarının inteqrasiyasını təmin etməlidir.

Başqa nümunələr kimi hələ 1984-cü ildə yaradılmış Asiya elmi cəmiyyətləri və elmlər akademiyaları Assosiasiyasını (FASA), 1999-cu ildə yaradılmış Asiya ölkələri Elmlər Akademiyalarının Assosiasiyasını (AASA) və 2012-ci ildə bu iki təşkilatın birləşməsi nəticəsində meydana gəlmiş Asiyada Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasını (AASSA) göstərə bilərik[196].

AASSA Asiyada Davamlı İnkişaf (SDA), Asiya və Sakit Okeanda Elm Təhsili (SEAP), Elm və Mühəndislikdə Qadınlar (WISE), Elm, Səhiyyə, Kənd Təsərrüfatı, Risk və Ətraf Mühit (PAYLAŞIN), Rabitə, Elm, Texnologiya və İnnovasiya vasitəsilə İqtisadi İnkişaf (EASTI) mövzuları üzrə layihələr həyata keçirir. Fəaliyyət məqsədləri isə aşağıdakılardır:

- Elm və texnologiya sahəsində əməkdaşlığı inkişaf etdirmək və Asiya və Avstraliya akademiyaları arasında fənlərarası və beynəlxalq əlaqələr şəbəkəsi yaratmaq,
- Üzv ölkələrin milli innovasiya sistemlərində elm və texnologiyanın roluna dair məsləhətlər vermək,
- Üzv ölkələrin milli inkişaf gündəliyinə uyğun olan elmi və texnoloji problemlər, onların iqtisadi, sosial nəticələri ilə bağlı tədqiqatların başlanmasına və aparılmasına kömək etmək,
- Beynəlxalq elmi təşkilatlarla əməkdaşlıqda AASSA ölkələri arasında alim və məlumat mübadiləsini asanlaşdırmaq[197].

Gətirilən faktlar onu ifadə edir ki, hazırda dünyada regional miqyasda elmi təşkilatların müxtəlif birlikləri mövcuddur. Avropa, Asiya və digər regionlarda elmin və cəmiyyətlərin elmi əsasda inkişafının çox müxtəlif aspektlərini əhatə edən əməkdaşlıq

---

[196]aassa.asia: [Electronic resource] // URL: http://aassa.asia/?ckattempt=1. Müraciət tarixi 14.08.2024

[197]Asiyada Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyası (AASSA): [Elektron resurs] // İSC, 2024. URL: https://az.council.science/member/aassa-association-of-academies-and-societies-of-sciences-in-asia/. Müraciət tarixi 14.08.2024.

platformaları yaradılmışdır. Analoji əməkdaşlıq platformasının TDT üçün hazırlanıb reallaşması bunlara görə, zamanın tələbi kimi görünür. O cümlədən, "Türk dövlətləri elmi məkanı" anlayışının daxil edilib araşdırılması vacibliyi şübhə doğurmur. AMEA-nın yeniləşməsi kontektsində bu, tamamilə təbii görünür. Hətta həmin istiqamətdə ilk addımları artıq AMEA atmışdır. AMEA eyni təcrübənin türk dövlətlərinin elmi məkanında yaradılması prosesini başlamışdır. Burada təşkilati miqyasda çox maraqlı mənzərə yaranmışdır.

Yuxarıdakı nümunələr də göstərir ki, Türk dövlətləri Avropa, Avrasiya (Avrasiya Akademiyaları Birliyi də vardır) və Asiya üzrə yaradılmış elmi təşkilatlar çərçivəsində əməkdaşlıq təcrübəsinə malikdirlər. Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan müxtəlif regionlara aid elmi təşkilatlarda əməkdaşlıq edə bilirlər. Təbii bir sual meydana çıxır: "türk dövlətləri özlərinin yaratdıqları təşkilat çərçivəsində sistemli və planlı elmi əməkdaşlıq edə bilməzlər?"

Cavab aydındır və məhz buna görədir ki, AMEA dövlət başçısının müəyyən etdiyi kurs üzrə TDT daxilində elmi əməkdaşlıq təcrübəsi yaratmaqdadır. Bu, bir yenilikdir və əhəmiyyətli irəliləyişdir. Eyni zamanda, məsuliyyətdir, çünki qarşıya praktiki vəzifə çıxır – real olaraq TDT daxilində səmərəli elmi əməkdaşlığı necə təşkil etmək olar? Yəni Türk Dövlətləri Elmi Məkanını nəzəri obrazdan real feili təşkilatlanmaya transfer etmək necə mümkündür? AMEA-nın yeniləşməsinin türk dünyası miqyasında olduqca böyük əhəmiyyətlərindən biri bu suala cavab axtarışları ilə bağlıdır.

Bu istiqamətdə davamlı olaraq uğurlu olmaq üçün sözün həqiqi mənasında savaşmaq, mübarizə aparmaq lazımdır. Çünki əsrlərdir ki, məhz bu istiqamətdə bir-birindən təcrid olunmuş və faktiki olaraq türk birliyi xaricində əməkdaşlıqlara cəlb edilmiş, hər hansı türk birliyi ideyasını "pantürkizm" kimi qələmə verib, ayrımçılıqla məşğul olan dairələr indi də sakit dayanmamışlar.

Bundan başqa, türk dövlətlərinin elmi qurumlarının əməkdaşlıq üçün stimullaşdırılması da ayrıca aktual məsələdir. Əlbət-

tə, aydındır ki, bu kimi məsələləri reallaşdırmaq üçün konkret nümunə və nümunəvi davranış lazımdır. Bunu AMEA rəhbərliyindən görürük. Faktlar.

Sözsüz ki, XXI əsrdə ciddi struktur-funksional keyfiyyətə malik təşkilat olmasa, beynəlxalq miqyasda elmi əməkdaşlıq səmərə verməz. Türk Dövlətləri Təşkilatı üzvlərinin də bu baxımdan üzərində işləmək üçün xeyli vəzifələri vardır. AMEA bunu nəzərə alaraq, aktiv şəkildə ilk olaraq TDT üzvləri ölkələrinin Elmlər Akademiyaları və elmi təşkilatları ilə praktiki əlaqələr qurur. AMEA prezidentinin fəal şəkildə Türkiyə, Qazaxıstan, Özbəkistan və Türkmənistana səfərləri bunu təsdiq edir. Həmin səfərlər zamanı əldə edilən razılaşmalara vahid bucaq altında baxsaq, maraqlı mənzərə görərik. Çünki onların hər birində əməkdaşlığın üç aspekti mütləq özünü göstərir.

Birincisi, qarşılıqlı faydalı istiqamətlər üzrə müasir tələbləri nəzərə alaraq əməkdaşlıq sferaları müəyyənləşir. Nümunə kimi Qazaxıstan, Özbəkistan. Türkmənistan və Türkiyə ilə ən yeni elmi istiqamətlər (süni intellekt, yüksək kommunikasiya-informasiya texnologiyaları, cəmiyyətin müasir sosioloji texnologiya ilə tədqiqi, elektron kommunikasiya üsullarından geniş istifadə və s.) üzrə razılaşmaların əldə olunduğunu göstərə bilərik.

İkincisi, türk xalqlarını elmi-mədəni kimliyi ilə sıx bağlı olan mövzular üzrə əməkdaşlığa üstünlük verilir. Həmin kontekstdə Azərbaycanın görkəmli dövlət, elm, mədəniyyət. incəsənət xadimlərinin, ümumilikdə tarixi şəxsiyyətlərinin türk dövlətlərinin elmi qurumlarında müzakirələrinin aparılması, həmin elmi təşkilatlarda müxtəlif guşələrin yaradılması (məsələn, Azərbaycan mədəniyyəti guşəsi və ya Heydər Əliyev guşəsi, Nizami guşəsi və s.) və eyni zamanda, AMEA-da digər türk dövlətlərinin görkəmli şəxsiyyətləri ilə bağlı müzakirələrin keçirilməsi və uyğun guşələrin yaradılması (məsələn, Məhtimqulu Fəraqi guşəsi, türk dövlətlərinin mədəniyyət guşəsi, Əlişir Nəvai guşəsi və s.) artıq faktlardır.

Üçüncü aspekt də çox əhəmiyyətlidir. AMEA vurğulanan istiqamətlərdə konkret yaradıcılığın təşkil edilməsi və həyata

keçməsi üçün yeni struktur vahidləri yaradır. Məsələn, bir neçə elmi-tədqiqat institutlarında türkologiya şöbələri yaradılmışdır. AMEA prezidentinin təşəbbüsü ilə yarandığı tarixdən ilk dəfə olaraq, Fəlsəfə və Sosiologiya İnstitutunda türk xalqlarının fəlsəfəsini müasirlik kontekstində sistemli araşdıracaq şöbə təsis edilmişdir. Təşkilati və kadr işlərindən sonra şöbə konkret fəaliyyətə başlayacaqdır.

AMEA-nın bu təşəbbüsləri digər türk dövlətlərinin analoji araşdırma strukturlarının yaradılmasını stimullaşdırır. Həmin prosesin sistemli və davamlı aparılması ilə tarixdə ilk dəfə olaraq müstəqil dövlətlər kimi türk ölkələri ortaq real mövcud olan elmi əməkdaşlıq məkanına sahib olurlar! Təbii ki, biz hər bir türk dövlətinin uğuruna sevinirik, lakin həmin tarixi hadisənin təşəbbüskarı və aparıcı gücünün Azərbaycan olması, ayrıca qürur verir! AMEA bu sferada bütövlükdə türk dövlətçiliyinə və sosial-mədəni tərəqqisinə strateji əhəmiyyətli töhfə verməkdədir!

Burada digər bir əhəmiyyətli məsələni vurğulamaq gərəkdir. Məsələ yaradıcılıqla bağlıdır. Yaradıcılıq olmadan elmdən danışmaq absurd məşğuliyyətdir. Türk dövlətlərinin elmi məkanı da öz yaradıcılıq potensialı ilə fərqlənməlidir. Kimlərdənsə üstün görünmək və ya başqalarına acıq vermək anlamında deyil, müasir dünyada türk sivilizasiyasının (bu ayrı mövzudur və onu fəlsəfi aspektdə tədqiq etmək lazımdır) əsl yeri və rolunu müəyyən etməklə bağlıdır. Bundan daha fundamental olan məqsəd isə türk dövlətlərinin elmi əsasda inkişafını ortaq relsə çıxarmadan ibarədir. Həmin dəyərin təməlində isə türk dövlətlərinin hər bir vətəndaşının rifahı, intellektual inkişafı və sağlam həyat sürməsi dayanır.

Deməli, bünövrəsi türk dövlətləri vətəndaşlarının ləyaqətli, sivil, intellektual dəyərlərə malik, yaradıcı şəxslər kimi formalaşması əsasında kreativ cəmiyyət (toplum və ya millət) formalaşdırmaq AMEA-nın “türk elmi məkanı” anlayışının mərkəzində dayanır. Bunun nəzəri elmi obraz və konseptual məqsəddən

sosial-praktiki-tətbiqi gerçəkliyə çevrilməsi isə ancaq elmi yaradıcılıq vasitəsi ilə mümkündür.

Elmi yaradıcılığın vurğulanan məqsədə nail olmaq aspektində motivə edilməsi prosesi müxtəlif elmlər üzrə və fənlərarası tədqiqat sahələrində konkret elmi proqramların, layihələrin, simpoziumların, konfransların, seminarların, dəyirmi masaların və yubileylərin keçirilməsi formatlarından aktiv istifadəsi ilə əlaqəli ola bilər.

Türk dövlətlərinin elmi qurumlarının həm ortaq kommunikasiya mühitindən yararlanmaları, həm dünya miqyasında elmi reytinqlərə çıxmaq üçün ortaq kommunikativ kanaldan istifadə etmələri, həm də çoxlu sayda birgə layihə-proqramlar reallaşdırmağa başlamaları bu səbəbdən çox vacibdir.

Yaradıcılığı kollektiv vahid komanda aspektinə transformasiya etməklə vurğulanan elmi məqsədlərlə yanaşı, alimlərin psixoloji, sosial, mənəvi-etik, kommunikativ ünsiyyətdə ortaq prinsiplərdən istifadə etmək kimi əhəmiyyətli keyfiyyətlərə sahiblənmələri vəzifəsi də yerinə yetirilmiş olur. Vahid yaradıcı komandada səmərəli yaradıcılıq fəaliyyətinə nail olmağın gözəl nümunəsini Avropadakı regional elmi təşkilatların qazandığı uğurlar aydın göstərir. Onlar müasir elmin ən yeni sahələri üzrə kəşfləri ilə yaxşı mənada təəccübləndiririrlər. Bizcə, məhz bu kimi təcrübəni türk elmi təşkilatları və alimləri sürətlə əxz etməlidirlər. Eyni zamanda, hər bir türk dövləti elm və təhsilə Avropa qədər diqqət ayırmağın, maliyyə sərf etməyin təcrübəsini də götürməlidir. Çünki yerlərdə ciddi yaradıcılığa imkan verən yeni tipli fəaliyyət olmasa, davamlı və sistemli elmi inkişaf mümkün deyildir. Azərbaycanda çox düşündürücü bir atalar sözü vardır: "quyunun dibinə su tökməklə o dolmaz – su gərək özündə ola"!

Türk dövlətlərinin ortaq elmi məkanının yaradıcılıq aspektində formalaşması ancaq türk coğrafiyası ilə məhdudlaşmayan təsir gücü yaradacaqdır. Çünki coğrafi olaraq türk məkanı çoxlu sayda ölkələr və cəmiyyətlərlə həmsərhəddir və qarşılıqlı elmi-mədəni, informasiya mübadiləsi tarixən mövcud olmuşdur. İndiyə qədər hər hansı türk dövlətinin özünütəcrid siyasəti yeritdiyi

nümunəsi yoxdur. Yəni təbiətən və mahiyyətcə yerli ilə beynəlmiləlin sintezini özündə ehtiva edən türk cəmiyyətləri mütləq digər xalqların, cəmiyyətlərin elmi məkanları üçün açıq olacaqdır.

O halda TDT davamlı inkişaf edən elmi məkan yaratdıqda geniş geosiyasi və coğrafi məkanda elmin inkişafı üçün yeni stimul qaynağı əldə etmiş olacaqdır. TDT bununla geosiyasi, iqtisadi, informasiya mərkəzi olmaqla yanaşı, elm və mədəniyyət mərkəzi kimi də özünü təsdiq edəcəkdir. Şübhə yoxdur ki, müasir sivilizasiya üçün bu, yeni sivil töhfədir. Dünyanın daha humanitar və elmi mənzərə alması yolunda atılmış mühüm addımdır! Bu mənada türk sivilizasiyasının öz ədaləti, elmi, mədəniyyəti, sülhü və barışçıllığı ilə dünya sivilizasiya arenasına yeni Qayıdışıdır![198]

Nəhayət, AMEA-nın yeniləşmə xətti kontekstində beynəlxalq əməkdaşlıq üçün də çox əhəmiyyəti olan bir məqamı – elmi təcrübə mübadiləsi məsələsini mütləq vurğulamaq lazımdır. Məsələnin bu aspekti üzərində növbəti paraqrafda geniş dayanmağa ciddi ehtiyac varadır.

### 4.3. *Məşhur elm xadimləri ilə görüşlərin təşkili: təcrübə mübadiləsi aspektində*

Müasir dünyada istənilən ölkədə elmin inkişafı təcrübə mübadiləsi olmadan mümkün deyildir. Hətta elmdə nailiyyətlər əldə edilməsi üçün müxtəlif ölkələrin elmi təcrübəsinin mübadiləsi zərurətdir. Məsələnin aktuallığının bir tərəfi, ümumiyyətlə, elmi fəaliyyətin mahiyyəti, xarakteri və dərketmənin reallaşması mexanizmləri ilə bağlıdırsa, digər tərəfdən, çağdaş dünyanın özəllikləri ilə əlaqəlidir. Burada qloballaşma adlanan prosesin rolu az deyildir. İndi dünya “çox kiçilmişdir”: ən uzaq ölkələr və fəaliyyət sahələri əsasında sıx əlaqələr meydana gəlmişdir.

---

[198]Paraqrafın bu hissəsinin işlənməsində müəllifin “Xalq qəzeti”ndə dərc olunmuş (15.08.2024) “Beynəlxalq elmi əməkdaşlıq: Türk Dövlətləri Təşkilatı konteksti. III məqalə” adlı məqaləsindən istifadə edilmişdir.

Elmi idrakın təbiətinə gəldikdə isə, alimlər mahiyyətcə dərketmənin intersubyektiv xarakterli olduğunu vurğulayırlar. Yəni faktiki olaraq elmi dərketmə kollektiv fəaliyyətin nəticəsidir. Kollektiv fəaliyyətin elmdə konkret idraki təmərküzləşmə "məkanları" isə yaradıcı kollektivlərin formalaşmasıdır. Burada həm əyani, həm də virtual fəaliyyət göstərən yaradıcı komandalar yarana bilər. Lakin bütün hallarda elmi fəaliyyətdə subyektlərarası kommunikasiyada elmi təcrübələrin mübadiləsi əsas yer tutur.

Etiraf edək ki, elmi təcrübələrin mübadiləsinin səmərəli təşkili sadə proses deyildir. Çünki hər bir konkret mərhələdə elmi təcrübə mübadiləsini kimlərlə və hansı elmi mərkəzlərlə aparılmalı olduğunu dəqiq müəyyən etmək lazımdır. Bu baxımdan AMEA-nın yeniləşmə kursu tərkibində tanınmış elm adamları ilə elmi təcrübənin bölüşülməsi mexanizmi konkret məzmun və forma almışdır. Təşkilatın rəhbəri akademik İsa Həbibbəyli həmin istiqamətdə ardıcıl addımlar atmaqdadır. Bu zaman aydın görünür ki, AMEA rəhbərliyi konseptual səviyyədə müəyyən edilmiş prinsiplərə əsaslanır. Həmin prinsiplər də öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursuna və onun icra olunması ilə əlaqədar verdiyi sərəncamlar və imzaladığı fərmanlara əsaslanır.

AMEA-nın Rəyasət Heyətinin 29 fevral 2024-cü ildə keçirilmiş Ümumi yığıncağının qərarlarında (5.1.1. bənd) yazılmışdır: "Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın müddəalarının AMEA-nın və digər akademik, ali təhsil və sahə elmi müəssisələrinin fəaliyyətində rəhbər tutulması tövsiyə edilsin, İnkişaf Strategiyasına dair Tədbirlər planında AMEA-nın icraçı olduğu tədbirlərin həyata keçirilməsi davam etdirilsin"[199].

---

[199]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s 104.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamının fonunda AMEA-nın yeni tarixi mərhələdə piroritetlərindən biri kimi "...dünya elminin ən yeni təcrübələrini Akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirmək" fikrinin vurğulanması tamamilə doğru addımdır. Bu bağlılıqda akademik İsa Həbibbəylinin prioritet istiqamətlərdən biri olaraq "Akademiyanın gəncləşdirilməsinin genişləndirilməsi üçün "Gənc Akademiya" layihəsinin həyata keçirilməsinə ehtiyac vardır" bəndini göstərməsi elmi təcrübə mübadiləsinin perspektivi baxımından əhəmiyyətlidir[200].

Məntiqi olaraq belə alınır ki, AMEA rəhbərliyi təşkilatın yeniləşmə prosesində perspektiv imkanları dəqiq müəyyən etmişdir və burada gənclərə xüsusi önəm verilir. Əlbəttə, gənc Azərbaycan alimlərinin inkişafında elmi təcrübə mübadiləsinin çox böyük rolu vardır. Məhz həmin aspektdə Nobel mükafatını almış məşhur yaradıcı insanlarla gənclərin görüşü, onlardan bilik alması, strateji elmi fəaliyyətin sirlərini öyrənməsi olduqca vacib faktordur.

Burada bir faktı mütləq vurğulamaq istərdik. 2023-cü il noyabrın 17-də AMEA-da "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransın işində onlayn rejimində Nobel mükafatçıları Aziz Sancar və Məhəmməd Yunus da iştirak etmişlər. Mövzunun adından göründüyü kimi, müzakirə birbaşa elmi təcrübənin mübadiləsi kontekstində yaradıcı, təşkilati və əməkdaşlığın sintezi kontekstində qoyulmuşdur və hədəf kimi uğurlu olmaq göstərilmişdir. Bu kontekstdə də AMEA prezidentinin məruzəsində reallıqlar çərçivəsində gənc Azərbaycan alimlərinin uğurlu olmasına etdiyi çağırışlar maraqla qarşılanmışdır.

---

[200]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s 10-11.

Məruzədə Nobel mükafatını almağa fakt, hansısa qeydiyyat kimi deyil, yaradıcılığı inkişaf etdirmək əsasında elmi kəşflər etməyə və bu əsasda Azərbaycan elmini dünyada tanıtmağa fokuslanmaq aspektində yanaşmanı daha doğru hesab etdiyini akademik İ.Həbibbəyli vurğulamışdır.

AMEA prezidenti demişdir: "Elmi konfransın keçirilməsində əsas məqsəd Nobel mükafatı ilə bağlı dünya təcrübəsini, Nobel mükafatına aparan yolun çətinliklərini, maneələrini, psixoloji eyforiyasını aydınlaşdırmaq, uğurlarını, çağırışlarını gənc alimlərə, yeni nəsillərə çatdırmaq, alimlərimizi, yazıçılarımızı Nobel mükafatının təqdim etdiyi elmi istiqamətlərə doğru yönləndirməkdən ibarətdir"[201].

Həmin konfransda müzakirələrin yekununda gəlinən nəticələrə uyğun olaraq AMEA qarşısına vəzifələr qoymuşdur. Bu məqam AMEA Rəyasət Heyətinin qəbul etdiyi qərarlarda konkret ifadəsini tapmışdır. Orada yazılmışdır: "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda 17 noyabr 2023-cü il tarixində AMEA-da keçirilmiş beynəlxalq elmi konfransdan çıxarılan nəticələrə uyğun olaraq, AMEA-nın tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrdə elmi tədqiqatların təşkili prosesində elm sahələri arasında multidisiplinar əlaqələrin təmin edilməsinə və fərdi elmi-tədqiqat planları ilə yanaşı, aktual mövzuların və problemlərin daha dərindən araşdırılıb öyrənilməsi məqsədilə ayrı-ayrı istiqamətlər üzrə kollektiv işçi qrupların yaradılmasına, həmin elmi qruplarda xarici ölkələrin, xüsusən türk dövlətləri alimlərinin iştirak etməsinə və birgə fəaliyyətinin səmərəli təşkilinə xüsusi diqqət yetirilsin"[202].

---

[201]AMEA-da "Nobel mükafatına aparan yolun dərsləri: mif, reallıqlar, uğurlar və çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib: [Elektron resurs] // Azərbaycan Milli Elmlər Akademiyası, 18.11.2023. URL: https://science.gov.az/az/news/open/27087. Müraciət tarixi 12.08.2024.

[202]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024 s. 110.

Ölkənin ali elmi təşkilatı vurğulanan nəzəri-konseptual vəzifələri konkret və praktiki fəaliyyətdə həyata keçirir. Bu sırada Nobel mükafatı laureatı, ABŞ-ın Şimali Karolina Universitetinin professoru Aziz Sancarın 29 noyabr 2023-cü il tarixində AMEA-nın Ümumi yığıncağında Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri üzvü seçilməsi əhəmiyyətli hadisədir. Çünki faktiki olaraq dünyanın tanınmış Nobel mükafatçılarından biri AMEA-nın akademik korpusunun tərkibinə daxil edilmişdir. Bu, həm yaradıcılıqda yeni imkanlardır, həm də gənclər üçün bir nümunədir. İndi biz qürur duya bilərik ki, AMEA-nın üzvlərindən biri Nobel mükafatçısıdır.

Ümumiyyətlə, Aziz Sancarın AMEA-ya səfəri elmi cəhətdən zəngin olmuşdur. Təşkilatda Nobel mükafatçısı ilə bir neçə görüş keçirilmişdir. Ayrıca, 2024-cü il iyunun 3-də AMEA-nın Rəyasət Heyətində Aziz Sancarla görüşə həsr olunmuş AMEA-nın Ümumi yığıncağının Xüsusi iclası keçirilmişdir. Tədbirdə AMEA prezidenti Aziz Sancarın yaradıcılıq yolunu lakonik ifadə etmişdir.

Akademik İsa Həbibbəyli vurğulamışdır ki, Aziz Sancar "...Dallasdakı Texas Universitetində molekulyar biologiya proqramı üzrə doktorantura təhsili alıb, gen tərəfindən şifrələnmiş ferment ultrabənövşəyi şüalar tərəfindən zədələnmiş DNT-nin bərpası ilə bağlı tədqiqatlar aparıb. O, 1997-ci ildən bu günə kimi ABŞ-ın Şimali Karolina Universitetinin Biokimya və biofizika bölməsində fəaliyyətini davam etdirir. Aziz Sancar xərçəngin bioloji və biokimyəvi üsullarla müalicəsini tədqiq edib və bu istiqamətin əsas yaradıcısıdır. O, 2005-ci ildə ABŞ Milli Elmlər Akademiyasına üzv seçilən ilk amerikalı türk olub, 2006-cı ildə isə Türkiyə Elmlər Akademiyasının həqiqi üzvü seçilib. 2015-ci ildə DNT-nin bərpası işinə görə iki alimlə birgə kimya üzrə Nobel mükafatına layiq görülüb"[203].

---

[203]AMEA-da Nobel mükafatı laureatı Aziz Sancara həsr olunmuş Xüsusi iclas keçirilib // AZƏRTAC, 03.06.2024. URL: https://azertag.az/xeber/amea_da_nobel_mukafati_laureati_eziz_sencere_hesr_olunmus_xususi_iclas_kechirilib-3036830. Müraciət tarixi 12.08.2024.

Bu qısa təqdimat hər bir gənc tədqiqatçı üçün həm qiymətli elmi informasiya, həm də alimlik yolunda uğur qazanmağın "yol xəritəsi"dir. İnsan çalışqan, təşəbbüskar, daim biliklərə can atan olursa, nailiyyətlər əldə edə bilir. Bu baxımdan Aziz Sancarın həmin tədbirdə məruzəsi zamanı (Aziz Sancar "Türk dünyası elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda elmi məruzə ilə çıxış edib – F.Q.) "mən daha çox çalışqanlığa inanıram" deməsi, səslənişdir, uğur devizidir. Bu o deməkdir ki, alim faktiki olaraq, gənc araşdırmaçılara özünün "alimlik formulu"nu izah etmişdir. Bu baxımdan, Aziz Sancarın, ümumiyyətlə, "alim necə olmalıdır?" sualına dolayısı cavabı olduqca maraqlı və düşündürücüdür.

Daha doğrusu, türk "Nobelçi" məruzəsinə başlayanda alim olmağın bir formulunu vermişdir. Həmin formul belədir: alimlik zəkadan çox zəhmətə, çalışqanlığa bağlıdır!

Əslində, alimliyin bu cür dixotomiya formasında tərif edilməsi Qərbin fəlsəfi və elmi dairələrində çoxdan müzakirə edilir, araşdırılır. "İnsanın zəkası, yoxsa çalışqanlığı, zəhmətkeşliyi alimlik üçün həlledicidir?" sualı ritorik deyildir. Onun fəlsəfi altmənaları zəngindir. Zəkavi, fizioloji, psixoloji, sosial-mədəni aspektləri mövcuddur. Hələ Aristotel maraqlı bir fikir irəli sürmüşdü. Aristotel elmi fəaliyyəti insanın daxili intensiyası, təbii meyli, həvəsi, istəyi, can atması keyfiyyəti ilə bağlayırdı. Yunan filosofu yazırdı ki, alim olmaq üçün insanın təməldən alimliyə intensiyası, can atması olmalıdır ("niyyətin hara, mənzilin ora"). Bu olmasa, əsl alimlik alınmaz.

Bununla yanaşı, tarix boyu alimliyi yüksək zəka, ağıl və mənəviyyatla sıx bağlı təqdim etmişlər. Bu bağlılığın bir tərəfi yaradıcılıqdırsa, digər tərəfi bəşəriyyət qarşısında məsuliyyətlə əlaqəlidir. Ona görə də alim fərd olaraq zəkalı, cəmiyyət üzvü kimi əxlaqlı, bəşəri varlıq kimi isə məsuliyyətli şəxs kimi yüksəklərə qaldırılmışdır. Nizaminin elmə verdiyi yüksək qiymətin mənasına varmaq, Füzulinin yanğısında yanmaq, Nəsiminin "iki cahanına sığmamağı" sınamaq bəsdir!

Amma alimliyi yalnız şüuri və psixoloji faktorlarla izah etmək, cəmiyyətdə verilən yüksək qiymətə görə təsnif etmək ye-

tərli deyildir! Aziz Sancar yanaşmasının əsas motivi bundan ibarətdir! Yəni insan fitri istedad sahibi ola bilər, yüksək analitik təfəkkürə və zəkaya malik olar, fəzilətliliyin yüksək səviyyəsinə qalxar, lakin alim olmaya da bilər. Bunun üçün elmi fəaliyyət, zəhmətkeşlik, çalışqanlıq mütləq şərtdir.

Dünyada çox adamların başına alma düşmüşdür, lakin yalnız Nyuton bundan elm düzəltdi. Və yaxud, hər gün kimsə kiməsə "sənin başın boşdur" deyir, lakin yalnız Tomas Edisona küçədə keçmiş sinif yoldaşı ona "sənin başın boşdur, mənasız işlərlə məşğulsan" deyib. Alim bundan nəticə çıxararaq lampanın havasını alıb və o, işıq saçıb!

Başqa misallar da çoxdur, lakin aydındır ki, alimlik zəka və zəhmətlə yanaşı başqa faktorlarla da bağlıdır. Buna görə XX əsrdə Pol Feyerabend qədim yunanları, o cümlədən Platonu yaradıcılığı adekvat anlamamaqda günahlandırırdı. Öncə vurğuladığımız kimi, P.Feyerabendə görə, elmi yaradıcılıq insanın ruhsal, fiziksəl, psixoloji, koqnitiv (idraki) keyfiyyətləri ilə sosial-mədəni mühitin vəhdətində meydana gələ bilir[204].

Aziz Sancar elmi təcrübə mübadiləsi baxımından çox əhəmiyyətli olan bir suala da cavab axtarışlarından bəhs etmişdir. Nobel mükafatçısı çıxışında "elmi fəaliyyət necə qurulmalıdır" sualını qoymuş və onu bir neçə konkret fakt əsasında izah etmişdir.

Əlbəttə, elm çalışmağı sevir. Alim daim öz üzərində işləməli elmi araşdırmaları dayandırmamalıdır. Bununla yanaşı, məsələnin başqa tərəflərini də unutmaq olmaz. Çünki elm adamı tək, yalnız və toplumdan kənar həyat sürmür. O, cəmiyyətin həyat tərzindən xilas ola bilməz. Deməli, alimin özündən asılı olmayan faktorlar vardır ki, onların təsirlərində olur. Elmi fəaliyyət kontekstində bu məqamı müqayisələr əsasında izah etmək olar.

İndi elmə aidiyyəti olan hər kəs bilir ki, Nobel mükafatçıları əsasən ABŞ və Avropa dövlətlərində çalışanlar olurlar. Amerika

[204]Paraqrafın bu hissəsinin yazılmasında müəllifin "Xalq qəzeti"ndə dərc edilmiş "Zəka və zəhmətin vəhdətində Əziz Səncər örnəyi. I məqalə"dən (bax: "Xalq qəzeti", 07.06.2024) istifadə edilmişdir.

hətta dünyanın müxtəlif regionlarından perspektivli elm adamlarını ölkəyə dəvət edir. Layihələrə qoşur və ondan maksimum yararlanır. Nümunə kimi, Sant-Fe və ya süni intellekti araşdıran elmi institutu göstərə bilərik. ABŞ-da idarəetməni idarəedən robotlar hazırlayan xüsusi araşdırma institutu fəaliyyət göstərir. Onun çox az tələbəsi və ya doktorantı olur. Tədris edənlərin daimi siyahısı yoxdur. Ştat çox azdır. Lakin əvəzində konkret araşdırma layihəsi üzrə dünyanın ən perspektivli alimlərini dəvət edir, müvəqqəti müqavilə əsasında ona yüksək əməkhaqqı verir, lazımi şəraiti yaradır və "nobelçilər" yetişdirir.

Statistikaya baxsaq, görərik ki, yüksək elmi reytinqli çinli, yapon, Koreya, türk, Latın Amerikası ölkəsindən olan və digərləri, əsasən Qərbin elmi mühitində ya yetişəndir, ya da orada çalışandır. Aziz Sancar harada çalışaraq Nobel mükafatını almışdır? Amerikada! Bəs niyə Türkiyədə deyil, Amerikada buna nail olmuşdur? Və yaxud hansı səbəblərdən Aziz Sancar və yüzlərlə istedadlı türk insanı Avropa və ABŞ-ın elmi mərkəzlərinə can atırlar? Elə Türkiyənin özündə də uşaqları ingilis, amerikan, fransız, alman liseylərində oxudanlara daha perspektivli baxırlar. Niyə?

Elə çinlilərin özləri də Qərbdə yüksək nəticələr əldə edirlər. Əgər dünyanın yüksək reytinqli nəşrlərində müəlliflərə baxsaq, onların sırasında çinli, yapon, hindli və başqalarının adlarına tez-tez rast gələ bilərik. Ancaq onların böyük əksəriyyəti Qərb ölkələrinin elmi dairələrində çalışanlardır. Deyək ki, indi hindlilər və ya pakistanlılar Avropada və Amerikada böyük elmi uğurlar əldə edirlər. Onlar öz vətənlərində deyil, məhz Qərbdə! Özü də əsasən Qərbdə uğur əldə edən alimlər reklam olunur, onları tanıdırlar.

Misallar çoxdur. Lütfi Zadəni Amerikada uzun müddət qəbul etmədilər. Cənubi Koreyadan olan filosof Y.Hueyə London elmi mühitində çalışandan sonra diqqət yetirildi. L.Flek keçən əsrin ortalarında Qərbin elmi dairələrində qəbul edilmədi (əslən Polşa yəhudisi olmasına baxmayaraq). Fraktal həndəsənin banisi

B.Mandelbrot ABŞ-da düz 10 il yeni ideyalı məqaləsini çap elətdirə bilməmişdir! Və s.

Belə alınır ki, alimlikdə və ümumiyyətlə, yaradıcılıqda zəka və zəhmətdən başqa faktorlar da vardır ki, konkret alimin elmi taleyinə ciddi təsir edir. Onların sırasında alimin yaşadığı ölkədə elmi mühitin xüsusiyyətləri, elm siyasəti, elmi fəaliyyətin təşkili üsulları, elmin cəmiyyətin həyatında rolunun müəyyən edilməsi, bir sıra psixoloji faktorlar, şəxsi münasibətlər və başqa parametrlər vardır.

Amerikada elmi fəaliyyət elə təşkil olunmuşdur ki, yaradıcılıq, kəşflər, yeni ideyalar meydana gəlir. Laboratoriyalar, iş mühiti, texniki təchizat, müəyyən edilən məqsədlər və s. alimin səmərəli fəaliyyəti üçün imkanları genişləndirir. Məsələn, ABŞ-da türk və ya çinli oradakı şəraitdə istedadını üzə çıxardır, ona bu meydan verilmişdir!

Bunlardan başqa, elmi ənənəni də unutmaq olmaz. Dünyanın elə bir ölkəsi yoxdur ki, qəfil nəyəsə nail olsun. Bu proses həmişə ziddiyyətli, çəkişməli, müzakirəli, səhvlər və onların öyrənilməsi kimi müxtəlif məqamları özündə ehtiva edir. Deməli, fərdin elmi nailiyyəti də əslində kollektiv fəaliyyətin nəticəsidir. Alim çox çalışqan olar, amma bunu real elmi nəticəyə çevirməyə də bilər. Və ya başqa situasiya da ola bilər.

Məsələn, çilili U.Maturana və F.Varela Amerikada təhsil almışdılar. ABŞ universitetləri onları əldən vermək istəmirdilər. Lakin hər ikisi öz ölkələrinə dönmüşlər. Çilidə universitetlərin birinin lap alt qatlarında laboratoriyada çalışmışlar. Şüuru təbiət elmləri prizmasında öyrənərək indi "avtopoyezis" (özünüyaradan sistem nəzəriyyəsi) adlanan elmi istiqamətin əsasını qoymuşlar. Lakin sonradan yenidən Avropaya gəlmişlər. Bu nümunə göstərir ki, avtopoyezisin müəllifləri milliyyətcə çilili olsalar da, təhsildə və alim kimi fəaliyyətdə yenə də Qərbə bağlanmışlar.

Bütün bu faktların işığında Aziz Sancar "niyə türklər Nobel mükafatı almaqda, dünyaının yüksək reytinqli dövlətləri sırasına çıxmaqda arzu edilən səviyyədə deyillər?" və "türk dünyasında

elmi necə sürətli inkişaf etdirmək olar?” suallarına cavab axtarışı olduqca əhəmiyyətli məqamdır. Burada çıxarmalı olduğumuz ibrət dərsləri vardırmı?

Əlbəttə, vardır! Bunlar onu göstərir ki, türk xalqları zəkidirlər. Təmkinlidirlər. İstedadlı insanları kifayət qədərdir. Ancaq elmi fəaliyyət başqa kriteriyaları da tələb edir. Onların sayı çoxdur. Türk dövlətləri elm siyasətində hansısa məqamlara yenidən baxmalıdırlar. Türkiyədə indi çox məşhur olan Səlcuk Bayrakdar Amerika təhsillidir. Elə etmək olmazmı ki, türk insanı öz vətənində yüksək təhsil alsın, buradakı laboratoriyada çalışa bilsin və yüksək nəticələr alsın? Həmin nəticələr ona Nobel mükafatı almağa yetsin?

Məncə, məsələni türk xalqları və dövlətləri səviyyəsində bu cür qoymalıyıq və ona nail olmaq üçün ciddi çalışmaq lazımdır. Həmin bağlılıqda türk dövlətlərinin elmi təşkilatları arasında əlaqələri yeni səviyyəyə yüksəltmək də, bizcə, mühüm şərtdir. Bu cür əlaqələr həm təcrübə mübadiləsinə, həm elmi imkanların genişlənməsinə və həm də daha yüksək nəticəverici elmi fəaliyyətin təşkilinə təkan verə bilər.

Bir sözlə, elmi fəaliyyətin təşkilinin müasir tələblərə uyğun institutlaşması prosesi aktual məsələlərdəndir. İndi dünyanın bir sıra ölkələrində tələbələrə və hətta ibtidai sinif şagirdlərinə fənlərarası tədris proqramları əsasında kollektiv yaradıcılıq öyrədilir. Kiçik yaşlarından onlar təhsil sistemi daxilində kollektiv olaraq necə elmi yaradıcılıqla məşğul olmağı, vahid komandada necə səmərəli çalışmağı öyrənirlər. Bu, faktiki olaraq təhsildə yeni təşkilati və tədrisdə yeni keyfiyyət səviyyəsinin yaranmaqda olması deməkdir. Belə bir proses türk dövlətlərində gedirmi? Əgər bu prosesdən geridə qalsaq, hansı gələcək mənzərə ilə üzləşmiş olarıq?

Cəmi bir neçə ildən sonra (məsələn, 2030-cu ilə) o dövlətlər elmdə irəli çıxacaqlar ki, onlar təhsil və tədqiqatda kollektiv səmərəli fəaliyyəti təşkil edə biləcəklər və vahid komanda halında elmi ideyalar irəli sürüb, kəşflər edəcəklər. Bütövlükdə bəşəriyyətdə təkamül prosesi inteqrasiyaya doğru gedir. Burada isə kol-

lektiv fəaliyyətin səmərəsi ön plana çıxır. Türk dövlətləri üçün bunun ayrıca əhəmiyyəti vardır.

Türk xalqları iki səviyyədə kollektiv elmi fəaliyyətin təşkilinə, tədrisinə və yeniliklərin alınmasına nail olmalıdırlar. Birinci səviyyə hər bir türk dövlətində elmi fəaliyyətin institutlaşması və təhsilin innovativliyinin təmin edilməsinin mükəmməl səviyyəyə yüksəldilməsi ilə bağlıdır. Hər bir türk dövləti ayrılıqda buna nail olmasa, Türk Dövlətləri Təşkilatı (TDT) daxilində gözlənilən nəticə alınmayacaq. Bu o deməkdir ki, türk dövlətləri özlərinin təhsil və elmi araşdırma sistemlərini yeni tələblərə uyğun qurmalıdırlar. Azərbaycanın bu istiqamətdə maraqlı təcrübəsi formalaşır və müsbət nəticələri mütləq olacaqdır.

İkinci səviyyə TDT tərkibində türk dövlətlərinin elmi fəaliyyətlərinin koordinasiya edilməsi ilə əlaqəlidir. Bu istiqamətdə aparılan işlər səmərə versə, yüksək elmi potensial meydana gələcəkdir. Türk dövlətlərinin alimləri birgə fəaliyyətlə çox uğurlar əldə edə bilərlər. Dünyanın ən uzaq ölkələrinin alimləri birgə çalışa bilirlərsə və nəticələr alırlarsa, TDT-də bunu daha səmərəli etmək mümkündür.

Deməli, türk dövlətlərinin elmdə dünyanın qabaqcıl hissəsi səviyyəsinə qalxması kompleks xarakterli və müxtəlif təbiətli işlərin görülməsini tələb edir. Özü də söhbət ondan getmir ki, türk ölkələri insanlarını Qərbə və ya Çinə göndərib, orada təhsil alandan sonra geri qaytarmaqla bunlara nail olsun. Bu, türk dövlətinin özündə elmi məktəblərin yaradıcı olmasına qalıcı təsir göstərməyə bilər.

Əsas məsələ alimin burada yetişdirilməsi, burada ona şəraitin yaradılması və məhz burada alimin dünya miqyaslı elmi nəticələr almasına nail olmaqdan ibarətdir. Təhsil və elmin Vətəndə birləşdirilməsi və nəticənin də Vətəndə alınması mühüm şərtdir! Bu da elm siyasətinin hazırda hər bir türk dövləti üçün nə dərəcədə əhəmiyyətli olduğunu təsdiq edir.

Bunlar onu göstərir ki, əgər söhbət türk dövlətlərində elmdən gedirsə, yalnız alimin zəkavi, emosional, çalışqanlıq, məsuliyyət kimi keyfiyyətləri ilə məhdudlaşmaq reallığı tam ifadə et-

mir. Burada dövlət-cəmiyyət-alim-elm-sosial-mədəni şərait kimi mürəkkəb mənzərə vardır. Onların qarşılıqlı təsiri yekunda alim fəaliyyətinin effektini və ideya yeniliyini şərtləndirir[205].

Onu da vurğulayaq ki, AMEA rəhbərliyi digər Nobel mükafatçısı, banqladeşli Məhəmməd Yunusla da görüş keçirmişdir. M.Yunus "Nobel mükafatına aparan yolun dərsləri: mif, çətinliklər, uğurlar və çağırışlar" mövzusunda beynəlxalq elmi konfransda onlayn formada çıxış etmişdir. 2024-cü ilin martında isə AMEA-da olmuşdur. Akademik İsa Həbibbəyli müzakirələr zamanı M.Yunusa "akademiyanın tarixi, burada fəaliyyət göstərən elmi bölmələrin işi, eləcə də AMEA-nın elmi istiqamətləri barədə ətraflı məlumat" vermişdir. Həmin bağlılıqda AMEA-nın "...beynəlxalq elmi əlaqələrinin inkişaf etdirilməsi mərhələsində olduğunu" ifadə etmişdir. M.Yunus da öz növbəsində Nobel mükafatına aparan fəaliyyət yolundan danışmış, bu baxımdan AMEA-nın beynəlxalq elmi əlaqələrini yüksək qiymətləndirmişdir. Banqladeşli alim bu istiqamətdə AMEA-ya töhfələrini verə və təcübəsini paylaşa biləcəyini söyləmişdir[206].

Vurğuladığımız çox maraqlı və aktual məqamlardan iki mühüm nəticə çıxara bilərik. Birincisi, AMEA-nın Nobel mükafatı laureatları ilə əlaqələr qurması düşünülmüş, sistemli və konkret məqsədli prosesdir. Bu istiqamətdə fəaliyyət AMEA-nın yeniləşməsi kursu daxilində həyata keçirilir. İkincisi, aydın olur ki, dünyanın tanınmış elm xadimləri ilə elmi təcrübə mübadiləsi istiqamətində AMEA Türk dövlətləri ilə elmi əlaqələri qurmaq üçün həm məqsədyönlü, həm də konkret hədəfə istiqamətlənmiş fəaliyyət göstərir.

---

[205]Paraqrafın bu hissəsinin yazılmasında müəllifin "Xalq qəzeti"ndə dərc edilmiş "Zəka və zəhmətin vəhdətində Əziz Səncər örnəyi. II məqalə"dən (bax: "Xalq qəzeti" 09.06.2024l) istifadə edilmişdir.

[206]AMEA prezidenti Nobel mükafatçısı ilə görüşüb // AZƏRTAC, 18.03.2024. URL: https://azertag.az/xeber/amea_prezidenti_nobel_mukafatchisi_ile_gorusub-2952039. Müraciət tarixi 12.08.2024.

Bunlardan başqa, AMEA yeniləşmə kontekstində dünyanın tanınmış elm adamları ilə təcrübə mübadiləsi ilə başqa bir vacib elmi məqamı səmərəli şəkildə əlaqələndirməyə nail olur. Bu məqamı AMEA Rəyasət Heyətinin 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının qərarları sırasında yer almış bir bəndin (5.2.1.1.) məzmunundan aydın görmək mümkündür. Orada yazılmışdır: "AMEA Rəyasət Heyətinin 22 fevral 2024-cü il tarixli iclasında AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "Humanitar və ictimai elmlər sahəsində ədəbi-tarixi şəxsiyyətlərin həyatı və fəaliyyətlərinin tədqiq edilməsi vəziyyəti və müstəqillik dövrü Azərbaycan elminin vəzifələri" adlı məruzəsində irəli sürülən ideyalara uyğun olaraq, müxtəlif elmi-nəzəri problemlərin öyrənilməsi ilə bərabər, görkəmli tarixi şəxsiyyətlərin, elm və mədəniyyət xadimlərinin, yazıçı və şairlərin həyat və fəaliyyətlərinin, xidmətlərinin azərbaycançılıq baxımından tədqiq edilməsi, bu sahədə elmi konfransların təşkili, plan işlərinin, dissertasiya mövzularının yerinə yetirilməsi mühüm elmi istiqamətlərdən biri olaraq həyata keçirilsin"[207].

Bu bəndin məzmununun, akademik İsa Həbibbəylinin bədii təfəkkürü dövrləşdirmə konsepsiyasının və tanınmış alimlərlə elmi təcrübə mübadiləsini ifadə edən prioritet fəaliyyət istiqamətinin qarşılıqlı əlaqəsinə AMEA-nın yeniləşmə fəlsəfəsi kontekstində baxsaq, çox vacib qənaətlər ala bilərik. Həmin faktorların nəzəri-konseptual müqayisəsi göstərir ki, AMEA elmi təcrübənin paylaşılmasının ölkədaxili (o cümlədən, təşkilatdaxili) özəllikləri ilə xarici alimlərin elmi təcrübəsini öyrənmək arasında sıx bağlılıq qurmaqdadır. Bir tərəfdən, dünyada tanınmış alimlərlə təcrübə mübadiləsini inkişaf etdirir, digər tərəfdən isə Azərbaycanın görkəmli elmi, tarixi, ədəbi insanlarının yaradıcılığını təkrar-təkrar müasir tələblər prizmasında tədqiq edir, müxtəlif elmi tədbirlərdə müzakirələr aparır.

---

[207]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 106.

Azərbaycanın tarixi şəxsiyyətlərinin, elm, mədəniyyət xadimlərinin, şair və yazıçılarının təcrübələri bizim üçün olduqca əhəmiyyətlidir. Çünki məhz onların nurlu işığında irəli gedə bilərik. Elmimizi, təhsilimizi, mədəniyyətimizi inkişaf etdirə bilərik. Həmin şəxsiyyətlər Azərbaycan fəlsəfəsi, elmi, tarixi və bədii təfəkkürünün sönməz çıraqları, əbədi sinerji qaynağıdır!

Bu kontekstdə bizim üçün həm də Azərbaycanda, ümumiyyətlə, elmi bilik təcrübəsinin ötürülməsi mexanizmlərinin özəlliklərinin fəlsəfi, filoloji, tarixi, sosioloji, folklor, kulturoloji təhlili strateji əhəmiyyət kəsb edir. Deməli, elmi təcrübə mübadiləsi indi Azərbaycan elmi üçün həm daxili, həm də xarici miqyaslarda eyni dərəcədə aktuallıq almışdır. Bunu ilk dəfə olaraq, AMEA-nın yeniləşmə kursu prizmasında görmək mümkün olmuşdur.

Eyni zamanda, vurğulanan istiqamətdə təməl konsepsiya rolunu oynaya biləcək nəzəri yanaşma da hazırlanmalıdır. Burada baza rolunu akademik İsa Həbibbəylinin bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyası oynaya bilər. Həmin konsepsiyanın nəzəri, konseptual, metodoloji faktorları, tədqiqatın elmi strategiyasının məzmunu geniş və müxtəlif aspektlərdə araşdırılmalı və ümumi nəzəri qənaət əldə edilməlidir.

Beləliklə, AMEA-nın yeniləşməsi kursu kontekstində elmi təcrübə mübadiləsi məsələsi strateji əhəmiyyət daşıyan prosesdir. Azərbaycan Respublikasının ali elmi təşkilatının rəhbərliyi bu prosesi ölkənin strateji inkişaf konsepsiyasının şərtləri və tələblərinə uyğun formada aparmaqdadır. Eyni zamanda, həmin proses AMEA-nın yeniləşmə fəlsəfəsinə uyğundur. Əlbəttə, elmi təcrübə mübadiləsi dinamik olaraq inkişaf edir və genişlənir. Buna görə də, 80 illik yubileyini AMEA daha yeni faktlarla qeyd edə bilər!

O da əhəmiyyətlidir ki, bu prosesdə AMEA-nın elmi jurnallarının rolu xüsusidir. Çünki elmi yaradıcılığın son nəticəsi məhz elmi jurnallarda ifadə edilir və "yaddaşlaşır". Bu formada elmi təcrübənin və elmi yeniliklərin qarşılıqlı əlaqəsini də dərc olunan məqalələrdə görə bilərik. Bu məsələ üzərində geniş dayanaq.

## 4.4. *AMEA-nın elmi jurnallarının yüksək indeksli elmi nəşrlər sırasına yüksəldilməsi xətti*

Elmi jurnal elmi ədəbiyyatın başlıca tərkib hissələrindən biri kimi qəbul edilir. İndi alimlər elmi jurnallardan daha çox istifadə edirlər. Əvvəllər elmi məqalələrdə əsas olaraq tək müəlliflik üstünlük təşkil edirdisə, indi daha çox kollektiv müəllifliyə üstünlük verilir. Elmi jurnallarda dərc olunmaq kitab formatından daha çevik və sürətlə yayılmaq imkanı verir. İnsanlar bir kitabı oxumağa sərf etdikləri vaxtdan çox daha az zamanda elmi məqalədə yeniliklə tanış ola bilir. Bundan başqa, müasir mərhələdə elmi məqalə formatı elektron kommunikasiya üçün daha əlverişlidir. Bununla çoxlu sayda müəllifi eyni zamanda təqdim etmək mümkün olur.

O da həqiqətdir ki, elmi məqalələrin jurnallarda yerləşdirilməsi daha çox yaradıcı insan arasında elmi mübadiləni və ümumi səviyyədə ünsiyyəti təmin etmək imkanı yaradır. Bütün bunlar həm yaradıcılığın məqalə formasında təqdimatını, həm də elmi jurnalların ekspert qiymətləndirilməsi məsələsini aktuallaşdırır. Həmin səbəbdən hazırda elm dünyasında "resenziyalaşmış jurnallar" əsas elmi göstərici kimi təqdim olunur.

Resenziya, yəni mütəxəssis rəyi məqaləyə dərc olunmadan öncə verilir. Rəyçi obyektivlik naminə jurnalın redaksiya heyətinə daxil olmur və müəllif onun kimliyini bilmir. Belə hesab edilir ki, məqalələrin və monoqrafiyaların nəşrdən öncə rəyə verilməsi praktikasının əsasını XVII əsrdə alman alimi və diplomatı Henri Oldenburq qoymuşdur.

Deməli, rəyvermə XX və ya XXI əsrin tapıntısı deyildir, bir neçə əsrdir ki, dərc olunmalı məqalə və ya kitabın nə dərəcədə dövrün elmi kriteriyalarına uyğun gəldiyinin peşəkar səviyyədə yoxlanışıdır.

Bunlarla yanaşı, XX əsrin ikinci yarısından başlayaraq elmi jurnalların elmi-yaradıcı və kommunikativ vahid kimi təqdimatında ciddi dəyişikliklər baş verdi. Elmi jurnallar kağız formatı ilə yanaşı internetdə dərc olunmağa başlandı. Buna elmi jurnal-

ların elektron daşıyıcı formasında təqdimatı deyə bilərik. Elmi jurnalın elektron formada təqdimatı imkanlarının genişlənməsi jurnala və məqalələrə yeni qiymətləndirmə baxışlarının formalaşmasına təkan verdi. Çünki elektron kommunikasiya forması çoxlu sayda jurnala vahid mövqedən və oxşar kriteriyalarla qiymət vermək imkanı meydana gətirdi.

XX əsrdə Yudjin Harfildin əsasını qoyduğu "Elmi İnformasiya İnstitutu" (İSİ) elmi jurnallarda dərc olunan məqalələr üçün istinadlar indeksini tətbiq etdi. Bununla "Elmi istinad indeksləşmə"nin (Science Citation Index, SCI) əsası yaradıldı. Sonra ona ictimai elmlər üzrə istinad indeksi (Social Sciences Citation Index, SSC) və incəsənət üzrə istinad indeksi (Arts and Humanities Citation Index, AHCI) əlavə edildi. 2006-cı ildən başlayaraq, digər istinad indeksləri, məsələn, Google Scholar, Web of Science və s. yarandı.

Bunların fonunda dərc olunan məqalənin istinadların sayına görə qiymətləndirilməsi üsulu keçən əsrin 60-cı illərindən "Elmi İnformasiya İnstitutu"nda həyata keçirilir. Bu prosedur "impakt-faktor" (İF) göstəricisi adlanır. İF dərc olunan məqaləyə istinadların kəmiyyət göstəricisidir. 1992-ci ildən həmin prosedur "Journal Citation Report"da "Thomson Scientific" tərəfindən dərc olunur.

Beləliklə, elmi jurnalların qiymətləndirilməsi və onların ranqlara bölünməsinin konkret tarixi vardır. Yuxarıdakı qısa təqdimatdan görünür ki, jurnalların indeksləşməsi kəmiyyət göstəriciləri əsasında olur. Burada baza faktor kimi dərc edilən məqaləyə edilən iqtibaslar (istinadlar) götürülür. Onun müsbət və mənfi tərəfləri vardır. Müsbət tərəf ondan ibarətdir ki, istinadların sayı məqalənin yeniliyini, aktuallığını və müəllifin yaradıcılığının məhsuldarlığını rəqəmlərlə ifadə etmək imkanı yaranır. Mənfi tərəf isə yaradıcılığın keyfiyyətini qiymətləndirməyə imkanın olmaması ilə əlaqəlidir. Bundan başqa, dünyada məqaləni qiymətləndirmənin müxtəlif indeksləri vardır.

Məsələn, elmi məqalələrə istinad indeksi (Science Citation Index) ilə yanaşı, Hirş (9H-indeksi) indeksi, ekspert qiymətlən-

dirməsi və impakt faktor da vardır. Əgər istinad indeksi məqaləyə olan istinadların ümumi sayını ifadə edirsə, H-indeksi məqalənin dərc olunma sayı ilə ona olan istinadların sayının nisbəti ilə müəyyən olunur[208]. Hirş indeksi Google Scholar, - Elibrary.ru, ADS NASA, Scopus və ISI Web of Science bazalarında hesablana bilər.

Bunlardan başqa, populyarlığı ilə seçilən "Web of Science" (WoS) bazası bir neçə biblioqrafik və referativ göstəriciləri birləşdirir. O, Y.Harfildin hazırladığı istinad indeksi göstəricisinə əsaslanır. WoS 34.000-dən çox rəy verilən jurnalda dərc edilən məqalələr haqqında informasiya saxlayır[209].

Bunlarla yanaşı, veb-səhifələri qiymətləndirmək üçün istifadə edilən PageRank bazasını vurğulamaq olar. Bu baza iqtibas alqoritmlərinin ranqlaşmasına aiddir. Orada hər veb-səhifəyə xas kəmiyyət qiymətləndirilməsi verilir ki, onun əsasında "veb-səhifənin nüfuzu" ölçülür.

İmpakt faktor öncə dərc edilmiş məqaləyə il ərzində edilən istinadların sayına görə ranqlaşdırmanı nəzərdə tutur. Bunun üçün adətən məqalə dərc olunandan iki il əvvəlki müddət diqqətə alınır. Mütəxəssislər bu üsulu bir qədər qeyri-müəyyən hesab edirlər, lakin hazırda ən populyar və yüksək qiymətləndirilən impakt-faktordur[210].

Qiymətləndirmə üçün başqa kəmiyyət faktorları da vardır. Məsələn, istinadların ümumi sayına görə, istinadların tezliyi, "yarıdağılmanın orta dövrülüyü" (istinadların kəsildiyi andan)

---

[208]Jones Thomas, Huggett Sarah, Kamalski Judith. Finding a Way Through the Scientific Literature: Indexes and Measures // World Neurosurgery. - 2011. - Июль (т. 76, № 1-2). - с. 36-38.

[209]Web of Science platform. Clarivate: [Electronic resource] URL: https://clarivate.com/products/scientific-and-academic-research/research-discovery-and-workflow-solutions/webofscience-platform/. Müraciət tarixi 13.08.2024.

[210]"Impact factor". Clarivate: [Electronic resource] // URL: https://clarivate.com/blog/journal-citation-reports-2024-simplifying-journal-evaluation/. Müraciət tarixi 13.08.2024.

və s. Bütün bunların fonunda jurnalın həqiqi nüfuzunu kəmiyyət göstəriciləri ilə ümumiyyətlə müəyyən etməyin mümkün olub-olmadığı ilə bağlı müzakirələr aparılır.

Vurğulanan məqamlardan dünya miqyasında elmi jurnalların qiymətləndirilməsi ilə bağlı aşağıdakı ümumi mənzərənin yarandığını ifadə edə bilərik. Elektronlaşma və rəqəmsallaşma elmi jurnalların qiymətləndirilməsi məsələsini daha da aktuallaşdırmışdır.

Qloballaşma, alimləri və mütəxəssisləri bunun üçün universal qiymətləndirmə kriteriyaları axtarışına çıxarmışdır. İlk olaraq XX əsrin 60-cı illərində bu, sınaqdan keçirilmişdir. Həmin mərhələdən, ümumiyyətlə, elektron kommunikasiya üsulu vasitəsi ilə dünya üzrə elmi jurnalların qiymətləndirilməsi ideyasını reallaşdırmağa çalışmışlar. Nəticədə yekdil mövqe formalaşmamışdır. Lakin jurnalların elmiliyini, yeniliyini, yaradıcılıq dərəcəsini müəyyən etməyin kəmiyyət üsullarını tapmışlar. Bunun üçün jurnalda dərc olunan məqaləyə müraciət və istinad saylarının kəmiyyət müqayisəsi əsas götürülmüşdür. Onun da müxtəlif variantları təklif edilmişdir. Nəticədə bir neçə bazada məqalələri və jurnalları qiymətləndirmə təcrübəsi toplanmışdır. Onların hər birinin öz adı vardır.

Deməli, müasir dünyada elmi jurnalların elmilik və yenilikçi dərəcələri üçün ortaq olan informasiya bazaları mövcuddur. Hər hansı ölkənin elmi jurnallarına verilən qiymət həmin bazalara oturmaları ilə ölçülə bilər.

Bundan başqa, dünya üzrə fərdi qaydada alimlərin tanınması, alimliklərinə verilən qiymətlər elmi jurnallarda dərc olunan məqalələri vasitəsi ilə həyata keçirilir. Bu zaman daha yüksək reytinqli elmi jurnalda nəşr edilən məqalənin müəllifi daha nüfuzlu alim kimi qiymətləndirilir. Burada həm də alimin mənsub olduğu ölkənin və çalışdığı konkret elmi təşkilatın reytinqi məsələsi də vardır.

Belə alınır ki, istənilən ölkənin elm adamlarının dünya miqyasında qəbul edilməsi və tanınması üçün mütləq ölkənin elmi jurnalları beynəlxalq indeksli bazalara, “sistemlər”ə daxil olmalıdır. AMEA bu istiqamətdə yeniləşmə kursu çərçivəsində ardı-

cıl və sistemli addımlar atır. Bu kitabın digər hissələrində də vurğuladığımız kimi konkret faktlar vardır ki, bu tezisin doğruluğunu təsdiq edir. Onlara nəzər salaq.

AMEA prezidenti 2024-cü il 29 fevralda keçirilmiş AMEA-nın Ümumi yığıncağında demişdir: "…Akademiyada elektron hərəkat başlanmışdır. Cəmi bir il ərzində Akademiyanın elmi-tədqiqat institutları əməkdaşlarının əsərlərinə elmi istinadları, reytinq göstəricilərini müəyyən etmək üçün təxminən 1700 elmi işçinin şəxsi profili yaradılmışdır. Elmi istinadları vahid mərkəzdən müşahidə etmək və əlaqələndirmək məqsədilə Milli Elmlər Akademiyasının ölkədə ilk dəfə olaraq Rəqəmsal İnformasiya Resursları Mərkəzi təsis edilmişdir. AMEA-nın elmi bölmələrinin və Akademiyanın tabeliyində olan elmi müəssisələrin 8 elmi jurnalı elektron bazada yerləşdirilmişdir. Akademiyada nəşr edilən jurnallarda çap olunan məqalələrin hamısı DOİ ilə təmin olunmuşdur. Akademiyanın elmi jurnallarını vahid şəbəkədə birləşdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının Dərgi Parkı yaradılmışdır[211].

Beləliklə, AMEA elmi jurnallarının indeksləşməsi özündə bir neçə aspekti ehtiva edir:

– Müəlliflərin şəxsi profilləri yaradılır;
– Elmi istinadları vahid mərkəzdən müşahidə etmək və əlaqələndirmək üçün Milli Elmlər Akademiyasının Rəqəmsal İnformasiya Resursları Mərkəzi təsis edilmişdir;
– Məqalələr DOİ ilə təmin olunur;
– AMEA-nın elmi jurnallarını vahid şəbəkədə birləşdirmək üçün Akademiyanın Dərgi Parkı yaradılmışdır[212].

Bununla həm də Türkiyənin TÜBİTAK təşkilatı ilə əlaqələrin inkişafı üçün zəmin hazırlanmışdır. Həmin aspektdə akademik İsa Həbibbəyli TÜBİTAK-la əlaqələri əks etdirən faktlar

[211]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 8-9.
[212]Yenə orada.

gətirmişdir və "Elektron hərəkat, süni intellekt və rəqəmsallaşma baxımından Azərbaycan Milli Elmlər Akademiyasına göstərdiyi texnoloji dəstəyə görə TÜBİTAK-ın Başkanı, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri doktoru, professor Hasan Mandala" təşəkkür etmişdir"[213].

AMEA prezidentinin vurğuladığı kontekstdə 2023-cü ildə əldə olunan nəticələr də maraqlıdır. Belə ki, AMEA-nın həmin il üçün Hesabatında yazılmışdır ki, "2023-cü ildə elmi müəssisələrdə çalışan alimlər tərəfindən 500-ə yaxın kitab və monoqrafiya, 3000-dən çoxu xaricdə (bunlardan 1000-dən çoxu "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda) olmaqla 9500-dən çox məqalə və tezis nəşr etdirilmişdir. Elmi işçilərin əsərlərinə 31000-dən çox istinad olunmuşdur"[214].

Bunlarla yanaşı, Akademiyanın İnsan Resursları və Elmmetrik Məlumatlar Bazası işlənilmişdir. Bu əsasda AMEA əməkdaşlarının Google Scholar, Web of Science, Scopus bazalarında profillərindəki məlumatlarının toplanılaraq təhlil edilməsi imkanı yaranmışdır, Nəticədə alimlərin yaradıcılığını ranqlaşdırmaq mümkün olur.

Baza sabit deyildir. Oradakı informasiyalar ayda bir dəfə yenilənir. Bununla aydınlaşdırılmışdır ki, 2023-cü ildə "Google Scholar-da AMEA əməkdaşlarının 22417 əsəri qeydə alınmış, əsərlərə 31535 istinad olunmuşdur. Bazaya daxil edilmiş 1449 əməkdaşın 940-nın profili aktiv olmuşdur"[215].

---

[213]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 8-9.

[214]Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olan və əhatə etdiyi elmi müəssisələrin 2023-cü ildəki fəaliyyəti haqqında H E S A B A T. I CİLD Bakı, "Elm". – 2024, – s.5.

[215]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 79.

Onu da vurğulayaq ki, AMEA-da bu istiqamətdə fəaliyyət tam elmi və hüquqi zəmində həyata keçirilir. Məsələn, AMEA-nın 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının qərarının 5.3.14 bəndində yazılmışdır: "AMEA əməkdaşlarının məqalələrinin vahid bir bazada toplanaraq elmmetrik dəyərləndirilməsi, zəruri təhlillərin aparılması məqsədilə AMEA-nın İnsan Resursları və Elmmetrik Məlumatlar Bazasının (AMEA İREMB) yaradılması və istifadəyə verilməsi istiqamətində zəruri tədbirlərin icrası təmin edilsin"[216]. Həmin qərarın 4.6-cı bəndində isə məsələ daha geniş miqyasda qoyulmuşdur. Orada vurğulanır ki, "beynəlxalq elmi mühitə, nüfuzlu elmi qurumlara və bazalara inteqrasiyanın sürətləndirilməsi" həyata keçirilsin[217].

Eyni zamanda, həmin qərarın 5.3.8-ci bəndində "Türkiyə Elmi və Texnoloji Araşdırma Şurası (TÜBİTAK) ilə AMEA arasındakı qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, layihələrin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin davam" etdirilməsi vurğulanmışdır[218].

AMEA-nın elmi jurnallarının yüksək reytinqli elmi jurnallar kateqoriyasına daxil olması üçün atılan addımların çoxaspektliliyi aydın görünür. Azərbaycanın ali elmi- təşkilatı bu prosesdə əsas kommunikasiya "kanalı"nı da müəyyən etmişdir – TÜBİTAK! Həmin xətlə dünyanın müxtəlif elmmetrik bazalarında yerləşdirilmiş jurnallara həm çıxış əldə etmək olur, həm də Azərbaycanın elmi jurrnallarının ranqını yüksəltmək şansı yaranır.

Lakin elmi jurnalların yüksək indeksləşməsi konteksti bununla məhdudlaşmır. Biz, AMEA-nın Açıq elm platformasına ciddi diqqət yetirməsini nəzədə tuturuq. Burada həmin platforma TÜBİTAK ULAKBİM-lə əməkaşlıqla sıx bağlantıda götürülür. Faktiki olaraq, maraqlı bir qarşılıqlı əlaqələr sistemi yaranır –

---

[216]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s. 110.

[217]Yenə orada, s. 104.

[218]Yenə orada, s.109.

AMEA-nın yeniləşməsi, Açıq elm platforması və TÜBİTAK ULAKBİM. Bunların bir-biri ilə elmi və informasiya bağlantıları isə konkret ULAKBİM DergiParkının Tr Dizin vasitəsi ilə predmetləşir. Həmin struktur vahidin standartlarına uyğunlaşmaq üçün isə ayrıca AMEA DərgiParkı yaradılır (Azərbaycan elmi üçün çox əhəmiyyətlidir).

Çox vacib məqamdır ki, bu proses də ciddi elmi və hüquqi təmələ malikdir. AMEA-nın 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının qərarlarının bir bəndində (5.3.13) həmin kontekstdə yazılmışdır: "AMEA elmi jurnallarının beynəlxalq indekslənmə bazalarında tanınmasını dəstəkləmək məqsədilə onların fəaliyyətinin Açıq elm platforması əsasında, TÜBİTAK ULAKBİM DergiParkının Tr Dizin meyarlarına uyğun təşkili üçün AMEA DərgiParkının yaradılması və istifadəyə verilməsi istiqamətində zəruri tədbirlərin icrası təmin edilsin"[219].

Aydın olur ki, AMEA-nın yeniləşməsi prosesi tərkibində elmi jurnalların indeksləşməsi Açıq elm platformasının müddəaları və prinsiplərinə əsaslanaraq TÜBİTAK xətti ilə müxtəlif elmmetrik bazalara çıxış əldə etmək mexanizmi ilə reallaşdırılır.

Onu da vurğulayaq ki, Açıq elm platforması XX əsrin 90-cı illərində Qərbdə vüsət alan elmi biliklərin sərbəst mübadiləsi uğrunda hərəkatla başlamışdır. XXI əsrdə isə o artıq konkret təşkilati fəaliyyət səviyyəsinə keçmişdir.

Bu platformada əsas məqsəd elmi biliklərin yaradılması və mübadiləsində bütün maneələri dəf etməkdən ibarətdir. Burada əsas olaraq, "açıq göstəricilər", "açıq proqramlaşdırma", "açıq əlçatanlıq" və s. kimi anlayışlardan istifadə olunur.

2002-2003-cü illərdə açıq əlçatanlıq üçün "Əlçatanlığın Budapeşt təşəbbüsü" irəli sürülmüşdür. Sonra təbiət və humanitar elmlərlə bağlı Berlin Bəyannaməsi meydana gəldi. Sonrakı illərdə isə iş prinsipləri tamamilə Açıq elm platformasının tələbləri

---

[219]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – "Elm" – 2024, s.110.

daxilində olan Ronin Institute, Açıq elm Mərkəzi (Open Science, ASAP), Patient-Centered Outcomes Research Institute və başqaları yarandı[220]. 2014-cü ildən isə "açıq elm" anlayışı hamı tərəfindən qəbul edilmişdir.

Buradan aydın olur ki, AMEA-nın yeniləşməsi kontekstində bütövlükdə elmi əməkdaşlıq, daha konkret səviyyədə isə elmi jurnalların indeksləşməsi açıq elmi platformanın tələblərinə uyğun aparılır. Bu da maksimum dərəcədə kommunikabelliyi təmin edir.

AMEA-nın elmi jurnallarının yüksək indeksli jurnallar sırasına yüksəlməsində iki mühüm aspektin üzərində dayanmaq zəruridir. Onlardan biri Azərbaycan alimlərinin həm fərdi, həm də kollektiv yaradıcı komanda kimi dünyanın müxtəlif elmi jurnallarında nəşr edilmək şansının sürətlə artması ilə bağlıdır. Digər aspekt AMEA-nın həmin istiqamətdə fəaliyyətinin TDT üçün də çox faydalı olması ilə əlaqəlidir.

Azərbaycan alimlərinin fərdi qaydada dünyanın nüfuzlu elmmetrik bazalarında məqalələrinin olması zaman-zaman onlara istinadlara təkan verir. Təcrübə göstərir ki, son illər Azərbaycan alimlərinin həmin istiqamətdə xeyli uğurları olmuşdur. Özü də bu proses təşkil edilmiş qaydada və ardıcıl aparılır. Onun, təbii ki, başlıca reallaşdırma mexanizmi "Elektron Akademiya" ilə bağlıdır. Məhz həmin struktur vahidinin fəaliyyəti sayəsində texniki və texnoloji olaraq Azərbaycan jurnallarının indeksləşməsi sistemli xarakter almışdır, həm də dünyanın müxtəlif elmmetrik bazalarına çıxış əldə edilmişdir.

Oxşar proses Azərbaycan alimlərinin müxtəlif elmi layihələrdə vahid yaradıcı komanda tərkibində iştirak etmək şansının yaradılmasında müşahidə edilir. Tamamilə təbiidir ki, hər hansı alim və ya institut müxtəlif nüfuzlu elmi jurnallarda ardıcıl olaraq sanballı məqalələrlə çıxış edirsə, ona maraq artacaqdır. Buna görədir ki, coğrafi olaraq ən uzaq ölkələrin yaradıcı adamları va-

---

[220]Mirowski P. The future(s) of open science (англ.) // Social Studies of Science. – 2018, vol. 48, №2, – p. 171–203.

hid yaradıcı komanda formalaşdırır və araşdırma aparırlar. Son illər həmin növ yaradıcı komandalarda Azərbaycan alimlərinin də iştirakına rast gəlinir. Xüsusilə süni intellektin tədqiqi, yeni informasiya texnologiyaları ilə əlaqəli aparılan araşdırmalarda bunu görmək olur.

Bu aspektdə aktual və maraqlı olan məqam gənc azərbaycanlıların dünyanın müxtəlif nüfuzlu elm və təhsil ocaqlarına dəvət edilməsi ilə bağlıdır. Son 2-3 ildə bir neçə dəfə informasiya getmişdir ki, dünyanın ən nüfuzlu universitetləri beynəlxalq olimpiadalarda uğur qazanmış Azərbaycan gənclərini dəvət edir. Bu il də bir neçə bu kimi faktlara rast gəlinmişdir. Bu nailiyyətlərdə, əlbəttə, informasiya mübadiləsi, elektron kommunikasiyanın, o cümlədən müxtəlif elmmetrik bazalarda yerləşdirilmiş məqalələrin rolu vardır. Həmin kontekstdə də yeni tarixi mərhələdə AMEA-nın prioritet fəaliyyət istiqamətləri sırasında akademik İsa Həbibbəylinin aşağıdakı müddəanı vurğulaması çox əhəmiyyəlidir:

– Dördüncü prioritet istiqamət belə adlanır: “Geniş mənada dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək məqsədilə beynəlxalq elmi təşkilatların işində yaxından iştirak etmək, ölkəmizi yüksək səviyyədə təmsil etmək, dünya elminin ən yeni təcrübələrini Akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirmək lazımdır”;

–Beşinci prioritet aşağıdakı kimi ifadə olunmuşdur: “Akademiyanın gəncləşdirilməsinin genişləndirilməsi üçün “Gənc Akademiya” layihəsinin həyata keçirilməsinə ehtiyac vardır”;

–Altıncı prioritet istiqamətdə deyilir: “Azərbaycan elmində, o cümlədən də Akademiyada doktorantura təhsilinin Qərb modelinə uyğunlaşdırılmasına ehtiyac vardır. Doktorantura özünəməxsus tədris planı, fənn proqramları, kredit vahidləri, dərs sistemi olan bir təhsil səviyyəsinə çevrilməlidir”[221].

---

[221]Azərbaycan Milli Elmlər Akademiyasının 29 fevral 2024-cü il tarixli Ümumi yığıncağının hesabatına dair MƏRUZƏ VƏ ÇIXIŞLAR toplusu Bakı – “Elm” – 2024 s. 10-11.

Həmin prioritetlərin məzmunundan görünür ki, AMEA başlıca hədəf kimi dünya elminə inteqrasiyanı seçmişdir və bu zaman beynəlxalq elmi təşkilatlarla əməkdaşlıq ayrıca yer tutur. Bununla yanaşı, AMEA həmin istiqamətdə uğurlu olmağı birbaşa gənc alimlərin yetişdirilməsi ilə əlaqələndirir. Bir tərəfdən "Gənc Akademiya" yaradılır, digər tərəfdən isə doktorantura sistemi Qərb modelinə uyğunlaşdırılır. Bu addımlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü ilin avqustunda dövlət proqramına doktorantura pilləsinin də daxil edilməsi ilə bağlı Sərəncam imzalamasının məzmunu və məqsədinə tam uyğundur[222].

Beləliklə, AMEA-nın yeniləşməsində elmi jurnalların indeksləşməsi dinamik proses kimi yer almışdır. Digər istiqamətlərlə harmoniyada elmi jurnalların indeksləşməsi Azərbaycan elminin uğurla dünya elminə inteqrasiyasını təmin etməkdədir. Həmin proses digər strateji əhəmiyyəti olan prosesi –Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin dünya elminə inteqrasiyasına ciddi təkanlar verir. O cümlədən, elmi jurnalların elmmetrik bazalarda yerləşdirilməsi olduqca müsbət təsir göstərir. Həmin prosesin fəlsəfi məzmunu vardır.

Məsələyə AMEA-nın bütövlükdə yeniləşməsi özəlliyi kontekstində baxmaq lazımdır. Yuxarıda vurğuladığımız bir sıra səbəblərdən aydın olur ki, Türk dövlətlərində elmin Qərb standartlarına uyğunlaşdırılması və onların beynəlxalq aləmə çıxış üçün vasitəçi gərəkdir. Həmin vasitəçi rolunu AMEA yerinə yetirir. AMEA həm Türkiyə istiqamətində elmi əməkdaşlıq və ortaq fəaliyyət standartları yaratmaq üçün ardıcıl və sistemli addımlar atır, həm də Mərkəzi Asiya türk dövlətlərinin elmi təşkilatları ilə plan üzrə əlaqələri yeniləşdirir, TDT səviyyəsində qarşıya qoyulan birlik istiqamətində fokuslandırır. Qərb və Mərkəzi Asiya is-

---

[222]Xaricdə təhsilə dair Dövlət Proqramı ilə bağlı yeniliklər edilib: [Elektron resurs] // AZƏRTC, 12.08.2024. URL: https://azertag.az/xeber/xaricde_tehsile_dair_dovlet_proqrami_ile_bagli_yenilikler_edilib-3134182. Müraciət tarixi 13.08.2024.

tiqamətlərini ortaq elmi standarta məhz AMEA-nın təşəbbüsü ilə irəli sürülən əməkdaşlıq proqramları gətirməkdədir. 2023-cü ilin statistik məlumatı göstərir ki, Mərkəzi Asiya dövlətləri artıq nüfuzlu reytinqli jurnallarda məqalələrin dərc edilməsində irəliləyişə nail olmuşlar.

Bunlar AMEA-nın yeniləşmə ilə faktiki olaraq TDT miqyasında da mühüm rol yerinə yetirən elmi təşkilata çevrilməsi anlamına gəlir. Ölkə miyqasından regionlararası miqyasa bu transformasiya sözün həqiqi mənasında tarixi olaydır! AMEA-nın 80 illik yubileyini bu kimi nailiyyətlərlə qarşılaması onun əməkdaşlarına və bütövlükdə Azərbaycanın elmi ictimaiyyətinə ayrıca qürur verir!

# V FƏSİL

# AMEA-NIN STRATEJİ İNKİŞAF KONSEPSİYASI VƏ "YOL XƏRİTƏSİ"[223]

## 5.1. *AMEA-nın 2025-2030-cu il strateji inkişafının metodologiyası, başlıca prinsipləri və əsas hədəfləri*

Hər hansı təşkilatın strateji inkişafı onun fəaliyyət istiqamətlərini və resursların paylanması haqqında qərarların qəbul edilməsini nəzərdə tutur. Elmi təşkilatlar üçün resursrların paylanması əsas olaraq maliyyə və kadrları əhatə edir. Strateji inkişaf uzunmüddətli məqsədlərin və inkişaf istiqamətlərinin dəqiq müəyyən edilməsini tələb edir. Strateji inkişafda başlıca məqsəd gələcəkdə dayanıqlı tərəqqiyə və rəqabətdə üstünlüyə malik olmaqla bağlıdır. Bu anlamda təşkilatın missiyası, baxışlar sistemi və dəyərləri yeniləşə bilər. Bu, təşkilatın daxili və xarici mühiti mütəmadi təhlilini, nəticələrin qiymətləndirilməsini, müəyyən düzəlişlər olunmasını tələb edir.

Baxışlar və missiya təşkilatın strateji inkişafında mühüm rol oynayırlar. Baxışlar sistemi təşkilatın uzunmüddətli məqsədlərini və iddialarını ifadə edir. Missiya isə təşkilatın rəhbər tutduğu əsas məqsəd və dəyərləri ehtiva edir. Baxışlar və missiya təşkilatın prioritetlərini müəyyən etməyə və qarşıya qoyulan məqsədlərə çatmaq üçün imkanları səfərbər etməyə yardım edir. Bu zaman təşkilat fəaliyyətinin müxtəlif aspektlərini uyğunlaşdırmağa və fokuslaşdırmağa çalışır.

Fəaliyyət növündən asılı olaraq, hər bir təşkilat uyğun yanaşmadan istifadə edir. Elmi təşkilat üçün bu, intellektual yanaşmadır. Strateji idarəetmədə intellektual yanaşma bilik, verilənlər

[223]Bu fəsildə strateji inkişaf konsepsiyası və “”Yol Xəritəsi”nə istinadlar sənədlərin Rəyasət Heyətində qəbul edilmiş layihə variantı üzrədir. Onun təsdiq olunmuş variatla səhifə fərqləri ola bilər.

və analitik metodları özündə ehtiva edir. Bunlarım kompleks istifadəsi əsasında qərarlar qəbul edilir. Bu zaman süni intellekt, yeni informasiya-kommunikasiya texnologiyaları, fəlsəfi metodologiyadan yararlanır. Həmin kontekstdə strategiya hazırlanır. Onu da nəzərə almaq lazımdır ki, strateji inkişaf kursu təşkilatın rəqabət qabiliyyətini mütləq nəzərə almalı və həm də onu inkişaf etdirməlidir.

İntellektual yanaşma keçid dövrlərində, qeyri-müəyyənliyin və mühitin sürətlə dəyişdiyi şəraitdə çox səmərəli ola bilər. Bu, səhvləri minimallaşdırmağa, alınan nəticələri geniş aspektdə qiymətləndirməyə və əsaslı qərarlar qəbul etməyə imkan verir. İntellektual yanaşma strateji əhəmiyyətli təşkilatların özünün inkişafı ilə ölkənin strateji inkişaf kursu arasında harmoniya yaratmağa imkan yaradır. Həmin bağlılıqda intellektual yanaşma təcrübə toplanması, qərarların qəbulunda dəqiqliyin artırılması, proqnozlaşdırma və planlaşdırmada faydalı olur.

Azərbaycan Milli Elmlər Akademiyası üçün vurğulanan ümumi müddəaların əhəmiyyəti çox böyükdür. Bu, bir tərəfdən elmi təşkilatın fəaliyyətinin mahiyyət və məzmunu ilə bağlıdırsa, digər tərəfdən müasir mərhələdə Azərbaycan Respublikasının dövlət olaraq inkişafının prinsipial strareji istiqamətləri ilə əlaqəlidir. Həmin bağlılıqda AMEA rəhbərliyi məsələni tam aydın və qəti şəkildə qoymuşdur: AMEA Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursuna uyğun, dünya elminə inteqrasiya olmaq xəttini gözləməklə və fəaliyyətinin bütün sferalarını sistemli yeniləşdirməklə inkişaf etməlidir.

Etiraf etmək gərəkdir ki, AMEA tarixində bu cür yanaşma ilkdir. Əlbəttə, Ulu Öndər Heydər Əliyev fundamental olaraq Elmlər Akademiyasının dövlətə və xalqa xidmət etməsi məsələsini qoymuşdu. Bu istiqamətdə Azərbaycan Elmlər Akademiyasında daimi struktur-funksional yeniləşmələri aparılmış, onun fəaliyyətinin təkmilləşdirilməsinə nail olunmuşdur. Məhz bu fəaliyyətin nəticəsində AMEA müstəqillik mərhələsində özünü saxlamış və yeni tələblərə uyğun inkişaf xəttinə çıxmağa başlamışdır.

Bunlarla yanaşı, XXI əsrin gəlişi ilə milli, regional və qlobal miqyaslarda elə sürətli və xeyli dərəcədə yeni proseslər getməyə başlamışdır ki, hər bir müstəqil dövlət üçün elmin əhəmiyyəti və təsiri dəfələrlə artmışdır. Bu məsələnin sırf elmi idrakda gedən dəyişmələr aspektini də diqqətə almaq lazımdır. Hər iki trendin fonunda isə AMEA-nın özünün təşkilat kimi fəaliyyət ənənəsini nəzərə almaq gərəkdir. AMEA prezidenti, akademik İsa Həbibbəyli bütün bu faktorları sistemli olaraq vahid məntiqi müstəviyə gətirmiş və təşkilatın yeniləşmə kursunun başlıca istiqamətlərini müəyyən etmişdir. 2022-ci ildən başlayaraq AMEA-da həyata keçirilən fəaliyyət prinsipləri həmin tezisi tam təsdiq edir. AMEA rəhbərliyi təşkilatın yeniləşmə kursunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin strateji inkişaf kursunun mahiyyəti, məzmunu və məqsədlərinə tam uyğun olaraq müəyyən etmişdir. Həmin yeniləşmə kursunun 7 prioritet istiqamətləri haqqında biz bu kitabda təhlil aparmışıq.

Təşkilatın 2022-2024-cü illərdəki fəaliyyət təcrübəsi və bütövlükdə Azərbaycanın dövlət olaraq inkişaf xüsusiyyətləri özlüyündə AMEA-nın 2025-2030-cu illəri əhatə edən Strateji İnkişaf Konsepsiyasını və "Yol Xəritəsi"ni hazırlamaq ehtiyacını ortaya çıxarmışdır.

Bu tələbatı AMEA rəhbərliyi dərhal anlamış və sürətlə Strateji İnkişaf Konsepsiyasını hazırlamağa start vermişdir. Artıq Konsepsiya və Yol Xəritəsi hazırdır. Onun məzmunu fonunda 80 illik yubiley üçün də əhəmiyyəti olan bir sıra fəlsəfi ümumiləşdirmələr aparmaq zərurəti meydana gəlmişdir.

Öncə vurğulayaq ki, Strateji İnkişaf Konsepsiyası və "Yol Xəritəsi" yalnız AMEA miqyasında deyil, bütün Azərbaycan masştabında əhəmiyyəti olan aktual məsələdir. Məsələ onunla bağlıdır ki, ölkəmizdə mövcud olan və strateji əhəmiyyət daşıyan təşkilatlar sırasında AMEA dövlətçiliyin inkişafında elmin yeri və roluna fundamental və dünya səviyyəsində vacib olan kontekstdə yanaşan ilk qurumdur. Bununla AMEA bütövlükdə müasir mərhələdə təşkilatın funksional öhdəlikləri ilə Azərbaycanın müstəqil dövlətçiliyinin uyğunlaşdırılması prinsipinin əsas

götürülməsi aspektində bir nümunədir. Onun təşəbbüskarı və həyata keçirəni isə AMEA-nın indiki rəhbərliyidir.

Bununla yanaşı, təşkilatın strateji İnkişaf Konsepsiyası və Yol Xəritəsinin hazırlanması AMEA-nın elmi fəaliyyətdə özünü səfərbər etməsinin göstəricisidir. Çünki belə bir sənədin hazırlanması mütləq surətdə onun reallaşmasını və sonda hesabatlılığını tələb edir. Bu da təşkilatın kollektiv olaraq elmi sərbəstlik, dövlətçilik və alim məsuliyyəti kimi dəyərləri həm fərd, həm də kollektiv olaraq yenidən aktuallaşdırması deməkdir. Bu baxımdan da AMEA bir nümunədir.

Nəhayət, mühüm bir məqam AMEA-nın yeni yanaşma əsasında Azərbaycan elminin dünya miqyasında yeri və rolunu yenidən müəyyən etmək prosesinə başlaması ilə əlaqəlidir. Təşkilatın strateji konsepsiyasında həmin prosesdə türk dövlətlərinin elmi təşkilatları ilə əməkdaşlıq, ən yeni metod və metodologiyadan istifadə, ən yeni texnologiyalardan bəhrələnmə (o cümlədən, süni intellekt, informasiya-kommunikasiya texnologiyaları, interdisiplinar yanaşmalar, elektron elm, texnoelm, elektron kitabxana və s.) ayrıca yer tutur.

Bununla AMEA rəhbərliyi strateji inkişaf və yol xəritəsində üç mühüm faktoru sintez edə bilmişdir – dövlətçilik, tədqiqat sərbəstliyi ilə alim məsuliyyətinin məsuliyyəti və özünüyeniləşdirmə prosesində dünyanın mütərəqqi elmi dairələrinə inteqrasiya! Bunun üçün fəaliyyətin ümumi fəlsəfəsi (milli maraqlar-regional maraqlar-qlobal maraqların Azərbaycan dövlətçiliyi kontekstində uyğunlaşdırılması fonunda elmin dövlətçiliyin inkişafında fundamental və aparıcı roluna nail olmaq), fəaliyyətin başlıca prioritet istiqamətləri (7 istiqamət) və alınacaq nəticələrin monitorinqi, qiymətləndirilməsi, elmin sonrakı inkişafı aspektində təhlili və proqnozlaşdırılması (mütəmadi olaraq geniş tərkibli ekspertizaların təşkili, müxtəlif səviyyələrdə təcrübə mübadiləsinin aparılması, beynəlxalq və respublika miqyaslarında konfransların, dəyirmi masaların, seminarların keçirilməsi, impakt faktorlu jurnallarda elmi nəticələrin aprobasiyası və nəticələrin praktiki tətbiqi səviyyəsinin elmmetrik üsulla ölçülməsi) dəqiq müəyyən edilmişdir.

Bütün bu məqamların ideoloji təməlinin sənəddə necə ifadə olunduğu maraqlıdır. Həmin sənədin ümumi müddəalar hissəsində yazılmışdır: "Konsepsiyanın ideoloji təməlində, əsasən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu dayanır. 2030-cu ilə qədər müddəti əhatə edən bu sənəd ümumi, konseptual aspektlər üzrə AMEA-nın fəaliyyətinin strateji yönünü, hədəfini və başlıca məqsədlərini müəyyən etməyin əsas təminedici ideya bazası funksiyasını daşıyır"[224]. Bu əsasda konsepsiyanın üç əsas hədəfi müəyyən edilmişdir.

Birincisi, Akademiyanın Nizamnaməsi ilə müəyyən edilən "təbiət, cəmiyyət və insan haqqında yeni biliklər əldə etməklə, Azərbaycan Respublikasının iqtisadi, sosial, mədəni və innovativ inkişafına xidmət göstərmək" (2.1.bəndi) məqsədindən irəli gələrək Akademiyanın müstəqil Azərbaycan Respublikasında ictimai və humanitar, həmçinin təbiət və texnika elm sahələri üzrə yeni biliklərin əldə edilməsi, toplanması, saxlanılması, ötürülməsi, tətbiqi və həmin baza üzərində generasiyasının başlıca sferası kimi dövlətin iqtisadi, sosial, mədəni və innovasiya sistemi strukturunda mühüm rolu – Akademiyanın respublika üzrə elmin inkişafının təmin edilməsində və elm sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, elmi-metodiki dəstək göstərən mərkəzə çevrilməsidir.

İkincisi, Akademiyanın Nizamnaməsi ilə müəyyən edilən "Azərbaycan dilinin qorunmasında, azərbaycançılıq və milli dövlətçilik ideologiyasının elmi əsaslarının işlənib hazırlanmasında iştirak etmək, bu istiqamətdə ardıcıl və sistemli tədqiqatlar aparmaq, Azərbaycan ədəbi-ictimai fikrinin, mədəniyyətinin, tarixi-mədəni irsinin, adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunmasına və inkişaf etdirilməsinə dair elmi tədqiqatlar həyata keçirmək" (3.1.6., 3.1.7. bəndləri) məqsədlərindən irəli gələrək Akademiyanın yeni mərhələdəki fəaliyyətində ictimai və humanitar elm sahələrinin xüsusi rolunu, dövlətin mədəni-mənəvi,

---

[224] Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi (ümumi müddəalar hissəsi). Bakı, - 2025¸ s.3.

sosial-humanitar və ideoloji inkişafında, milli maraqlarının qorunmasında mühüm əhəmiyyətini artırmaq – Akademiyanın Azərbaycanşünaslıq mərkəzinə çevrilməsidir. Ona görə də sənədin başlıca prinsipi azərbaycançılıq və müstəqil dövlətçilik olmaqla ölkənin dayanıqlı inkişafında elmin iştirakının artırılmasından ibarətdir. Burada ictimai-humanitar elmlər – fəlsəfə, tarix, ədəbiyyatşünaslıq, dilçilik, mətnşünaslıq, kulturologiya, sosiologiya, antropologiya, psixologiya, folklorşünaslıq, sənətşünaslıq, siyasi elmlər və digər elm sahələri arasında əlaqələrin yeni səviyyəyə yüksəldilməsi nəzərdə tutulur. Bu mənada İnkişaf Konsepsiyası və Yol Xəritəsinin hazırlanması və icrası zərurəti hər şeydən öncə Azərbaycan Respublikasının strateji inkişaf kursunun məzmun və məqsəd özəlliklərindən irəli gəlir. Azərbaycan Prezidentinin müəyyən etdiyi yeni tarixi mərhələnin tələblərini ciddi nəzərə alaraq, burada ölkənin davamlı və dayanıqlı tərəqqisinə nail olmaq əsas məqsədlərdən biridir.

Üçüncüsü, dünya elminin yeni çağırışlarına uyğun olaraq süni intellekt, rəqəmsal və ağıllı texnologiyaların humanitar və ictimai elm sahələrinə, həmçinin təbiət və texnika elmlərinə transformasiya edilməsi, ümumbəşəri dəyərlərin bərqərar edilməsi, qlobal problemlərin həlli istiqamətində tədqiqatların gücləndirilməsi ilə dünya elminə layiqli töhfələrin verilməsi – Akademiyanın ümumbəşəri dəyərlərə xidmət edən modern elm mərkəzinə çevrilməsidir. Konsepsiyada cəmiyyətin intellektual imkanlarının artırılması ilə sosial faydalılığın vəhdətinin təmin edilməsi prinsipial vəzifələrdən biri kimi nəzərdə tutulur[225].

Bu hədəflərə çatmaq üçün dünyada geniş istifadə olunan forsayt metodologiyasından (**foresight -** gələcəyi görmə və ya strateji öncəgörmə) istifadə edilir. Bununla bağlı sənəddə vurğulanır: “Bu, gələcəkdə baş verə biləcək hadisələri proqnozlaşdırmaq, trendləri müəyyənləşdirmək və uzunmüddətli strategiyalar hazırlamaq üçün istifadə olunan yanaşmalar və metodlar toplusudur. Bu metodologiya hökumətlər, bizneslər, tədqiqatçılar və

[225]Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi (ümumi müddəalar hissəsi). Bakı, - 2025, - s. 3-4.

müxtəlif təşkilatlar tərəfindən gələcək ssenariləri qurmaq və onlara uyğun planlar hazırlamaq məqsədilə istifadə olunur. Bu metodologiya gələcəyi tam dəqiq proqnozlaşdırmaqdan çox, mümkün ssenariləri araşdıraraq onlara hazır olmaq üçün strategiyalar hazırlamağa yönəlmişdir. O, həmçinin qərar qəbul edənlərə qeyri-müəyyənlik şəraitində daha hazırlıqlı olmağa kömək edir. Hesab edirlər ki, forsayt metodologiyası elmin inkişaf strategiyasının qurulmasında olduqca effektiv bir alət ola bilər. Bu metodologiya elmin gələcək inkişaf istiqamətlərini müəyyən etmək, strateji prioritetləri təyin etmək və innovasiyaları təşviq etmək üçün istifadə olunur”[226].

Nəhayət, forsayt metodologiyasının tətbiqi ilə aşağıdakı nəticələr alınmışdır:

“- Azərbaycan elmində mövcud elmi trendlərin və texnoloji yeniliklərin analizi aparılaraq yaxın beş ildə hansı elm sahələrinin daha perspektivli ola biləcəyi müəyyən edilmişdir;

– Hansı sahələrə daha çox resurs ayrılmalı olduğu müəyyənləşdirilmişdir;

– Dövlət və özəl sektorun elmi tədqiqatlara ayırdığı vəsaitlərin daha səmərəli istifadəsi modelləri müəyyənləşdirilmişdir;

– Elmi kadrlardan ümumi məqsədlər naminə daha səmərəli istifadə üsulları müəyyənləşdirilmişdir;

– Elmin milli maraqlar və ümumbəşəri universalilər kəsişməsində hər iki amili nəzərə almaqla inkişaf strategiyası müəyyənləşdirilmişdir;

– Müxtəlif elm sahələrinin kəsişməsində yeni tədqiqat istiqamətlərinin yaradılmasına təşviq edilmişdir;

– Müxtəlif elmi inkişaf ssenarilərinin yaradılması və onların mümkün təsirlərinin təhlili aparılmışdır”[227].

Strateji İnkişaf Konsepsiyasının ideologiyası, metodologiyası və əsas hədəflərinin məzmunu göstərir ki, AMEA problemə yeniləşmə kursu kontekstində baxır. Burada təşkilatın elmi-təd-

---

[226]Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi (ümumi müddəalar hissəsi). Bakı, - 2025, - s. 4.
[227]Yenə orada, s. 4-5.

qiqat ənənələri ilə müasir yanaşmaların vəhdətini görürük. Başlıca məqsəd Azərbaycanın ölkə olaraq 2030-cu ildə qüdrətli dövlət və yüksək rifaha malik cəmiyyətə sahib olmasının elmi təminatını həyata keçirməkdən ibarətdir. Bununla AMEA bir elmi təşkilat kimi müasir mərhələdə Azərbaycanda dövlət quruculuğunun yeni mərhələsində elmiliyi tam olaraq bütün yeniləşmə proseslərinin təməlinə gətirməyi hədəflədiyi aydınlaşır. Onu vurğulayaq ki, qarşısına tam müstəqillik və yüksək inkişaf kimi məqsədlər qoymuş hər bir dövlət üçün bu, xarakterik haldır.

İdeologiya, metodologiya və əsas hədəflərin vurğulanan yüksək dərəcədə qarşılıqlı əlaqəsinin sənədin məzmunu və mahiyyətində dəqiq ifadə edilməsi onu sübut edir ki, AMEA əsaslı şəkildə yeniləşməkdə qətiyyətli və qərarlıdır. Bu məqam "Yol Xəritəsi"nin mahiyyəti, məzmunu və punktlarının dəqiq müəyyən edilməsində də özünü qabarıq şəkildə göstərməkdədir. Növbəti paraqrafda məsələnin bu aspektinə geniş nəzər salacağıq.

## 5.2. *AMEA-nın "Yol Xəritəsi"nin mahiyyəti və metodologiyası. Gələcəyə baxış*

Strateji yol xəritəsi təşkilatın inkişaf strategiyasını əks etdirmək məqsədi ilə müəyyən edilir. Yol xəritəsi bu keyfiyyətdə özündə ən yüksək məqsədləri, istiqamətləri və əsas mərhələləri ehtiva edir. Burada "ən yüksək" ifadəsi təşkilatın ümumi məqsədlərini əks etdirir. Bunun fonunda başlıca istiqamətləri müəyyən edir. Və burada prosesin başlıca mərhələlərinin müəyyən edilməsi və onların keçilməsi mühüm əhəmiyyət kəsb edir. AMEA-nın strateji "Yol Xəritəsi"ndə bütün bu özəlliklər mövcuddur.

"Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi"nin ümumi müddəalar hissəsində bu bağlılıqda yazılmışdır: "Sənədin həm də "Yol Xəritəsi" adlandırılması 2025-2030-cu illərdə Akademiyanın inkişafı üçün müəyyənləşdirilən məqsədə çatmaq üçün onun, atılacaq addımların planlaşdırıldığı və izlənildiyi bir strateji sə-

nəd olmasından irəli gəlir. Nəzərdə tutulan həfədlərə çatmaq üçün müxtəlif elmi və elmi-təşkilati istiqamətlər üzrə tədbirlərin "Yol Xəritəsi" vasitəsilə icra edilməsi nəzərdə tutulur. Bu sənəd "Konsepsiya" olaraq hədəfləri, məqsəd və vəzifələri, "Yol Xəritəsi" olaraq Akademiyanın yaxın 5 il ərzində inkişafı üçün izlənməli olan "yolu" nişan verir. Yol xəritəsində prioritetlər üzrə icraçılar müəyyənləşdirilmiş, resursları səmərəli bölüşdürmək və prosesləri idarə etmək üçün icra mexanizmləri təqdim olunmuşdur"[228].

Beləliklə, strateji inkişaf konsepsiyası ilə yanaşı, yol xəritəsinin də başlıca müddəaları, prinsipləri və reallaşma üsulları dəqiq müəyyən edilmiş, onlar arasında məntiqi, feili və praktiki bağlantı yüksək səviyyədə nəzərə alınmışdır. Onları ümumiləşdirmək olar.

Aydın olur ki, İnkişaf Konsepsiyası və Yol Xəritəsininin hazırlanmasında Azərbaycan Respublikası Prezidentinin 3 noyabr 2023-cü il tarixli 2340 nömrəli Fərmanı ilə təsdiq edilmiş AMEA-nın Nizamnaməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 sentyabr 2022-ci il tarixli 374 nömrəli qərarı ilə təsdiq edilmiş "AMEA-nın strukturu" əsas götürülmüşdür. Bu zaman, birincisi, AMEA-nın məqsəd və vəzifələri, strukturu, ikincisi, dövlət siyasətinin sosial-iqtisadi, mədəni-mənəvi və ideoloji inkişaf tendensiyaları, üçüncüsü, qlobal çağırışlar və dünya elminin yeni inkişaf tendensiyalarının bir-birinə uyğunluğu başlıca prinsip olaraq seçilmişdir. Bu cür təməl yanaşma əsasında əsas məqsədlər aşağıdakı kimi müəyyən edilmişdir:

– Akademiyanın mövcud elmi potensialının inkişaf etdirilməsi;
– strukturunun modernləşdirilməsi;
– maddi-texniki bazasının gücləndirilməsi;
– elmin təşkili, idarə edilməsi;
– elektron elmin inkişaf etdirilməsi;
– beynəlxalq elmi əlaqələrin genişləndirilməsi;

---

[228]Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi (ümumi müddəalar hissəsi). Bakı, - 2025¸ - s.4.

– respublikada və beynəlxalq aləmdə Azərbaycan elminin nüfuzunun yüksəldilməsi;

– müasir beynəlxalq standartlar əsas götürülməklə yüksəkixtisaslı kadrların hazırlanması;

– elmi tədqiqatların prioritetlərinin ölkənin sosial-iqtisadi, mədəni-ictimai problemlərinin həllinə yönəldilməsi;

– elmlə təhsilin inteqrasiyası;

– elmin informasiya təminatının gücləndirilməsi və digər istiqamətlərində kompleks tədbirlərin həyata keçirilməsi[229].

Vurğulanan məqsədlərin ümumi məntiqi və semantik özəlliyindən görünür ki, strateji inkişafda əsas məqsəd "...azərbaycançılıq və müstəqil dövlətçilik daxilində müasir tələblərə cavab verən əsas meyarlar əsasında elmi yaradıcılıq və fəaliyyətin təşkilinin elə harmoniyasına nail olmaqdan ibarətdir ki, o, iki aspektdə səmərəli olsun: birincisi, nəzəri tədqiqatların aparılması, onun təşkili və beynəlxalq aləmə çıxışı aparıcı dövlətlər səviyyəsində struktur-funksional keyfiyyət kəsb etsin, ikincisi, qarşıdakı 5 il müddətində nəzəri tədqiqatların nəticələrinin praktiki tətbiqi arasında sədlər aradan qaldırılsın"[230].

Nəhayət, məqsədlərin məzmununa və hədəflərinə görə, Konsepsiyada və "Yol Xəritəsi"ndə 16 vəzifə müəyyən edilmişdir. Onlar AMEA-nın elmi fəaliyyətinin bütün sferalarını əhatə edirlər. Burada sırf nəzəri idraki aspektdən tutmuş elmi fəaliyyətin təşkili, sosial-mədəni faktorlar, yeni texnologiyalar və təşkilatın beynəlxalq əməkdaşlığının özəllikləri nəzərə alınmışdır[231].

Strateji İnkişaf Konsepsiyası və "Yol Xəritəsi"nin həyata keçirilməsi üçün AMEA konkret fəaliyyət planı tərtib etmişdir. Orada hər istiqamət və mərhələlər üzə reallaşacaq tədbirlər icraçının və zamanın dəqiq müəyyən edilməsi ilə əksini tapmışdır. Burada elmi-tədqiqat institutları və AMEA-nın tərəfdaşı kimi

---

[229]Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi (ümumi müddəalar hissəsi). Bakı, - 2025, s. 5.

[230]Yenə orada.

[231]Yenə orada, s. 6-7.

proqramların həyata keçirilməsində iştirakçı olacaq təşkilatların fəaliyyəti punktual şəkildə ifadə edilmişdir.

Ümumilikdə 100 səhifədən bir qədər çox həcmdə olan bu sənəd AMEA tarixində ilk dəfədir ki, yüksək dərəcədə həm fəaliyyətin başlıca istiqamətlərini, həm də onların həyata keçirilməsi mərhələlərini kompleks halında əks etdirir. Məsələn, "Yol Xəritəsi"ndə əsas istiqamətlər kimi müəyyən edilmiş "beynəlxalq elmi əlaqələrin genişləndirilməsi" və ya "respublikada və beynəlxalq aləmdə Azərbaycan elminin nüfuzunun yüksəldilməsi" üzrə AMEA-nın ayrıca özü və həm də tərəfdaş təşkilatlarla birgə nəzərdə tutduğu tədbirlərin təşkili, keçirilmə zamanı, əsas məqsədi, gözlənilən nəticələri də əks etdirilməklə ifadə edilmişdir[232].

Strateji İnkişaf Konsepsiyası və "Yol Xəritəsi"nin ümumi təhlili göstərir ki, AMEA qarşıdakı 5 illik fəaliyyətinə nəzəri və metodoloji aspektlərdə ciddi əsaslandırılmış fəaliyyət kursu çərçivəsində yanaşmışdır. Burada ümumi fəaliyyət "sərhədləri"ni təşkilatın yeniləşməsi kursu müəyyən edir. Yeniləşmə kursu isə birbaşa ölkənin strateji inkişaf kursunun şərtlərinə tam uyğun olaraq müəyyən olunmuşdur. Bununla da AMEA tədqiqat, təhlil, nəzəri-metodoloji yeniləşmə, yeni texnologiyalar və dünya elminin ən yeni nailiyyətlərini tətbiq etməklə keyfiyyətcə yeni struktur-funksional səviyyəyə yüksəlməyi hədəfləmişdir. Bunun bir aspekti Azərbaycan elmini nəzəri və praktiki-tətbiqi aspektlərdə inkişaf etdirməkdirsə, digər aspekti fəaliyyəti dövlətçiliyin möhkəmləndirilməsinə yönəltməkdən ibarətdir.

AMEA 2030-cu ilə qüdrətli dövlət və yüksək rifah cəmiyyətini yaratmaq strategiyasına uyğun olaraq qabaqcıl elmə və yüksək elmi-intellektual sərvətə malik milli ziyalı elitasının formalaşması üçün bütün imkanlarından istifadə etməkdə qərarlıdır! Bu barədə təşkilatın prezidenti, akademik İsa Həbibbəyli çıxışlarında açıq və birmənalı bəhs edir! Bu həm də AMEA kollektivinin iradəsidir!

---

[232]Azərbaycan Milli Elmlər Akademiyasının 2025-2030-cu illər üzrə İnkişaf Konsepsiyası və Yol Xəritəsi (ümumi müddəalar hissəsi). Bakı, - 2025, 120 s.

# NƏTİCƏ

Son iki ildə AMEA-nın fəaliyyətinin ümumi araşdırılması göstərir ki, ölkənin ali elmi təşkilatında çox ciddi, əsaslı və sistemli yeniləşmə prosesi davamlı olaraq aparılır. AMEA rəhbərliyi yeniləşmə məsələsinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni tarixi mərhələ üçün müəyyən etdiyi strateji inkişaf kursu çərçivəsində yanaşır. Qəbul edilən strateji inkişaf sənədlərində qarşıya qoyulan konkret məqsədlərə uyğun olaraq Azərbaycan elminin üzərinə düşən vəzifələr AMEA-da dəqiqləşdirilmiş, konkret istiqamətlər müəyyən edilmiş və fəal surətdə onların həyata keçirilməsi prosesinə start verilmişdir. Bu kitabda gətirilmiş çoxsaylı, əhatəli və müxtəlif istiqamətlərə aid olan faktlar bu yeniləşmənin davamlı və sistemli xarakterdə olduğunu təsdiq edir.

AMEA müstəqil dövlətçiliyin inkişafı kontekstində Azərbaycanın 2022-2026-cı illərdə inkişafında əsas icraçı orqanlardan biri kimi, dəqiq müəyyən edilmiş istiqamətlər üzrə fəaliyyətini təmin edən əsaslı proqramlara malikdir. Bu proqramlarda yer almış müddəalar əsasında elmi yaradıcılıq, elmi fəaliyyətin təşkili, təşkilatın struktur-funksional yeniləşməsi və beynəlxalq elmi əməkdaşlığın inkişaf etdirilməsi üzrə AMEA rəhbərliyinin fəaliyyəti öz səmərəli nəticələrini verməkdədir. Həmin fəaliyyəti fəlsəfi ümumiləşdirsək, maraqlı və zəngin mənzərə alınır.

Birincisi, AMEA daxili struktur-funksional özəlliyini qarşıya qoyulan yeni məqsədlərə tam uyğunlaşdırmışdır. Burada da fəaliyyət çoxaspektli və çoxistiqamətlidir. Alimlərin fərdi elmi məhsuldarlığından tutmuş ayrıca elmi-tədqiqat institutları daxilində kollektiv yaradıcılığın vahid araşdırma komandaları formasında səmərliliyinin artması yönündə təsirli və nəticəverici addımlar atılmaqdadır. Onun əyani təzahürü və təcəssümü Azərbaycan alimlərinin yüksək reytinqli elmi jurnallarda əsərlərinin (əsasən məqalələrin) dərc olunması və onlara olan istinadların sayının artmasındadır.

Elmi-tədqiqat institutları səviyyəsində isə müxtəlif elmi tədbirlərin, yubileylərin, beynəlxalq səviyyəli müzakirələrin, tanınmış elm xadimləri ilə təcrübə mübadiləsinin təşkili diqqəti çox çəkir. Həmin aspektlərin hər biri bütövlükdə AMEA miqyasında kollektiv yaradıcılıq imkanlarını sürətlə artırmağa xidmət edir. Məsələnin bu tərəfinin önəmi hazırda dünya elmində kollektiv formada vahid yaradıcı komanda kimi elmi fəaliyyətin aparıcı yer tutması ilə bağlıdır. Kitabda müraciət etdiyimiz faktlar göstərir ki, AMEA bu prosesdə çox fəal iştirak edir və özünün töhfələrini verir.

Bütün bu yeniləşmələrə AMEA hər səviyyədə - idarəetmə, elmi yaradıcılığın formasının yeniləşməsi və elmi-təşkilati işlərin vahid məntiq çərçivəsində aparılması və uyğun struktur-funksional dəyişikliklər sayəsində nail olmaqdadır. Faktlar göstərir ki, Rəyasət Heyətində aparılmış struktur yeniləşmələri (məsələn, "Elektron Akademiya" şöbəsinin yaradılması), kadr dəyişiklikləri (məsələn, Mərkəzi Elmi Kitabxanaya gənc, enerjili və tam dövlətçi alimin gətirilməsi), elmi-tədqiqat institutlarında yeni məqsədlərə uyğun olan struktur vahidlərinin yaradılması (məsələn, türkologiya istiqamətində, türk xalqlarının fəlsəfəsinin müasirlik kontekstində öyrədilməsi üzrə ayrıca şöbənin yaradılması), elmi-tədqiqat institutlarında elektron sənədləşmə sisteminin yaradılması, beynəlxalq əməkdaşlığın inkişafına xidmət edəcək yeni strukturların yaradılması, Azərbaycan alimlərinin reytinqli jurnallarda dərc edilməsinin təşkilində və onların kommunikativ imkanlarının genişləndirilməsində rol oynayan uyğun struktur dəyişiklikləri müsbət nəticələrini verməkdədir.

İkincisi, AMEA-nın yeniləşməsi elmi fəaliyyətin təşkilində yeni mərhələnin başlaması ilə müşayiət olunmaqdadır. Elmi fəaliyyətin təşkili də iki aspektə bölünür. Onlardan birincisi AMEA daxilində elmi fəaliyyətin təşkilinin struktur tərəfi ilə bağlıdır. Digəri isə alim sərbəstliyi və məsuliyyətinin optimal nisbəti çərçivəsində dövlətçiliyə xidmətin aparıcı olmasıdır. AMEA hər iki aspektin vəhdətini təmin etmişdir və bu istiqamətdə inkişaf davam edir.

Üçüncüsü, AMEA həm fərdi, həm də kollektiv səviyyədə alimlərin yaradıcılığının nəticələrini dünya miqyasına çıxarmaqda elektron-kommunikasiya vasitələrindən geniş istifadə edir. Bunun sayəsində Azərbaycan alimlərinin əsərləri son iki ildə müxtəlif beynəlxalq bazalarda yerləşdirilmişdr. Eyni zamanda, AMEA-nın beynəlxalq əməkdaşlıq istiqamətində fəallığı və hədəflərini konkretləşdirməsi yeni səviyyəyə yüksəlmişdir. AMEA Avropa, Amerika, Asiya istiqamətləri ilə yanaşı, Türk dövlətləri ilə elmi əməkdaşlığı inkişaf etdirir. Burada həm mövzu müxtəlifliyi, həm də konkret elmi təşkilatlara üzv olmaq, həm də ortaq layihələr həyata keçirmək aspektləri üzvi surətdə bir-biri ilə bağlıdır. Türk Dövlətləri Təşkilatına (TDT) üzv olan ölkələrin elmi qurumları ilə əlaqələr təşkilati, elmi yaradıcılıq və birgə araşdırmalar sahəsində keyfiyyətcə yeni səviyyəyə yüksəldilmişdir. Burada türk tarixi, mədəni, mənəvi, elm, təhsil və digər sferalarında ortaq olan mövzuların araşdırılması istiqaməti aparıcı rol oynamaqdadır.

Dördüncüsü, AMEA-nın yeniləşməsində, dünyanın tanınmış alimləri ilə elmi təcrübə mübadiləsi ciddi yer tutmağa başlamışdır. Son iki ildə həyata keçirilən görüşlər, müzakirələr, elmi konfranslar çox yaxşı nəticələr verməkdədir. Azərbaycanın gənc alimləri bu prosesdən bəhrələnirlər. Həmin kontekstdə AMEA-da gənc alimlərin Akademiyasının yaradılması istiqamətində atılan addımlar strateji əhəmiyyətlidir.

Beşincisi, yeniləşən AMEA-da Azərbaycanın tarixi, elmi, ədəbi xadimlərinin yubileylərinin təşkil edilməsi, onların yaradıcılığının institutlararası əməkdaşlıq şəraitində müzakirə edilməsi çox mühüm hadisədir. Çünki burada faktiki olaraq dörd məqsədə çatılır. Birincisi, Azərbaycanda elmi, ədəbi, mədəni təcrübənin ötürülməsi sahəsində imkanlar genişlənir. İkincisi, bizim yaradıcı insanlarımızın əsərləri yeni prizmada təkrar araşdırılır. Üçüncüsü, Azərbaycan elmində fənlərarası yanaşma üzrə konseptual, nəzəri və metodoloji aspektlərdə daha geniş imkanlar meydana gəlir. Dördüncüsü, Azərbaycanın görkəmli yaradıcı insanlarının əldə etdikləri nəticələrdən dövlətçilik və strateji inki-

şaf kursu kontekstində daha səmərəli faydalanmaq şansı meydana gəlir.

Altıncısı, bütün bu yeniləşmələrin yaradıcılığa proyeksiyası kimi, yeni araşdırma istiqamətlərinin formalaşması prosesi getdikcə daha da güclənir. Biz kitabda aparılan araşdırmaların məntiqi nəticəsi olaraq, bu baxımdan bir sıra mövzuların tədqiq edilməsi ilə bağlı təklif verə bilərik.

a) Elmi-tədqiqat (sosial, humanitar və ictimai elmlər üzrə) institutlarında Heydər Əliyev-İlham Əliyev xəttinin araşdırılması ölkənin strateji inkişafı kontekstində davamlı proses statusunda yaradıcı fəaliyyətin mərkəzi mövzusu kimi tam möhkəmlənməlidir;
b) Azərbaycançılığın geniş anlamda güclü lider-güclü dövlət-güclü cəmiyyət sintezi kontekstində yeni konseptual və fəlsəfi səviyyədə araşdırılmasına xidmət edən mövzular elmi-tədqiqat institutlarının fəaliyyətində ayrıca yer tutmalıdır;
c) Azərbaycanda dövlətçilik və liderlik ənənəsinin qədimdən gələn kəsilməz proses olması kontekstində elmi (bura fəlsəfi, sırf elmi və ədəbi təfəkkür daxildir) təfəkkürün tarixi təkamülünün konseptual özəllikləri, onun tarixi dövrləşdirilməsinin yeni əsaslara söykənərək yenidən müəyyənləşməsi istiqamətlərində araşdırmalar davamlı olaraq həyata keçirilməlidir. Bununla bağlı konkret mövzular sistemi elmi-tədqiqat institutlarında müəyyən edildikdən sonra AMEA rəhbərliyi tərəfindən dəqiqləşdirilməlidir (çünki bu, strateji xarakterli dövləti məsələdir). Problemin nəzəri-konseptual və metodoloji bazasını isə akademik İsa Həbibbəylinin bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyası üçün müəyyən etdiyi prinsiplərin başqa sahələrə yaradıcı tətbiqi əsasında müəyyənləşdirmək mümkündür. Çünki həmin dövrləşdirmə konsepsiyası, birincisi, geniş araşdırma, ikincisi, ciddi elmi yanaşma, üçüncüsü, Azərbaycan bədii təfəkkürünün özünəməxsusluğuna xüsusi diqqət yetirilməklə

azərbaycançılıq kontekstində formalaşdırılmışdır. Bu təcrübədən yararlanmaq zəruridir. Onun əsasında bütövlükdə Azərbaycan fəlsəfi, elmi, bədii-ədəbi təfəkkürünün azərbaycançılıq və dövlətçilik aspektində ümumi obrazını yaratmaq imkanı meydana gələcəkdir.

d) Azərbaycanın strateji inkişaf konsepsiyasına və AMEA-da həyata keçirilən yeniləşmə kursunun ruhuna uyğun olaraq Türk dünyasının fəlsəfi, tarixi, sosioloji, kulturoloji, elmi, bədii-ədəbi istiqamətlərdə araşdırılması üçün elmi-tədqiqat institutlarında yeni mövzular müəyyən edilməli, onlar məzmun və məqsədcə bir-birini tamamlamalı və həyata keçirilməlidir.

e) Azərbaycanın strateji inkişaf konsepsiyasına və AMEA-da həyata keçirilən yeniləşmə kursunun ruhuna uyğun olaraq elmi araşdırma mövzuları dünyanın elmi cəhətdən aparıcı mərkəzlərində prioritet sayılan istiqamətlər üzrə yeniləşməlidir.

Nəhayət, son olaraq onu vurğulayaq ki, AMEA-nın yeniləşmə kursunda əldə etdiyi nəticələrlə özünün 80 illik yubileyini qürur, nikbinlik, daha yüksək enerji və məqsədlərə nail olmaq qətiyyəti ilə qeyd edəcəyinə şübhə yoxdur!

# MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ 5

**I FƏSİL. Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf kursu və elm**

1.1. Prezident İlham Əliyevin Azərbaycanın strateji inkişaf konsepsiyasının əsas prinsipləri.......................................... 17

1.2. Dövlət başçısının Azərbaycan üçün müəyyən etdiyi yeni tarixi mərhələnin fəlsəfi-elmi anlamı: strateji inkişaf konsepsiyası işığında ............................................ 21

1.3. Yeni tarixi mərhələdə strateji inkişaf konsepsiyasının həyata keçirilməsində AMEA-nın yeri və rolu: fəlsəfi-elmi təhlil............................................................. 24

1.4. "Yaşıl dünya naminə həmrəylik ili" və COP29: AMEA-nın fəaliyyəti ....................................................... 30

**II FƏSİL. AMEA-nın yeniləşməsinin əsas istiqamətləri**

2.1. AMEA rəhbərliyinin yeniləşmə kursunun başlıca özəllikləri: müstəqil dövlətçiliyə xidmət nümunəsi kimi ........................................................................... 41

2.2. Strateji inkişaf konsepsiyası fonunda AMEA-nın struktur-funksional yeniləşməsinin xüsusiyyətləri ............ 53

2.3. Elmi fəaliyyətin təşkilinin yeni məqamları: interdisiplinarlıq, yaradıcılıqda müstəqillik və alim məsuliyyəti kontekstində ................................................. 74

2.4. Akademik elmdə yeni dövrləşdirilmə konsepsiyası və ədəbi-tarixi şəxsiyyətlərə yenidən qayıdış........................ 93

2.5. Akademiyanın yeni loqotipi yeniləşdirmə konsepsiyasının rəmzi kimi ............................................. 108

**III FƏSİL. "Elektron Akademiya" hərəkatının mahiyyəti və hədəfləri**

3.1. "Elektron Akademiya" hərəkatının məqsəd və vəzifələri ............................................................... 114

3.2. Süni intellekt, rəqəmsal inkişaf və elm ............................ 122
3.3. Elektron kitabxana uğrunda ............................................ 130
3.4. Elmi-tədqiqat institutlarında elektron xidmətlərin
təşkili ................................................................................ 139

**IV FƏSİL. Yeniləşən AMEA və beynəlxalq elmi əlaqələrin qurulmasında yeni mərhələ**
4.1. İkitərəfli əməkdaşlıqdan beynəlxalq elmi təşkilatlarla
əlaqələrə doğru .................................................................. 149
4.2. Türk dövlətləri ilə elmi əlaqələrin inkişafının
əhəmiyyəti ......................................................................... 165
4.3. Məşhur elm xadimləri ilə görüşlərin təşkili: təcrübə
mübadiləsi aspektində ...................................................... 182
4.4. AMEA-nın elmi jurnallarının yüksək indeksli
elmi nəşrlər sırasına yüksəldilməsi xətti .......................... 196

**V FƏSİL. AMEA-nın Strateji İnkişaf Konsepsiyası və “Yol Xəritəsi”**
5.1. AMEA-nın 2025-2030-cu illər strateji inkişafının
metodologiyası, başlıca prinsipləri və əsas hədəfləri....... 208
5.2. AMEA-nın “Yol Xəritəsi”nin mahiyyəti və
metodologiyası. Gələcəyə baxış ...................................... 215

**NƏTİCƏ** ............................................................................ 219

ELM
NƏŞRİYYATI

Naşir: *fil.ü.f.d. Səbuhi Qəhrəmanov*
Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^{1}/_{16}$
Həcmi 14,25 ç.v.
Tirajı 300

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç., 28